**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# CORC QORDON BAYRONUN POEZİYASININ AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏLƏRİNİN LİNQVİSTİK XÜSUSİYYƏTLƏRİ

| | |
|---|---|
| İxtisas: | 5706.01-Azərbaycan dili |
| Elm sahəsi: | Filologiya |

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş

**D İ S S E R T A S İ Y A**

**İddiaçı:** **Minayə Əflatun qızı Məmmədova**

**Elmi rəhbər:** **Zülfiyyə Hüseyn qızı İsmayıl**
filologiya üzrə fəlsəfə doktoru, dosent

**Naxçıvan – 2022**

# MÜNDƏRİCAT

**GİRİŞ** ..........................................................................................4
**I FƏSİL. BƏDİİ TƏRCÜMƏ NƏZƏRİYYƏSİNİN AKTUAL PROBLEMLƏRİ** ..........................................................................................12
**II FƏSİL. C.Q.BAYRONUN "ŞƏRQ POEMALARI"NIN ORİJİNALDAN AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏSİNDƏ DİL XÜSUSİYYƏTLƏRİ** ..........................................................................................44
2.1. C.Q.Bayron əsərlərinin Azərbaycan dilinə tərcüməsinin ümumi nəzəri aspektləri..........................................................................................44
2.2. "Şərq poemaları"nın tərcüməsində fərdi üslubun təzahürü..........................................................................................50
2.2.1.Vulqar sözlər..........................................................................................55
2.2.2. Varvarizimlər..........................................................................................57
2.2.3. Poetik sözlər..........................................................................................59
2.2.4. Sözlərin məna qrupları (omonim, sinonim, antonim, tabu sözlər, paronim sözlər)..........................................................................................63
2.2.5. Onomastik leksika (antroponimlər, toponimlər, hidronimlər, kosmonimlər, zoonimlər)..........................................................................................68
2.2.6. Frazeoloji vahidlər, frazeoloji söz birləşmələri, frazeoloji sabit ifadə və ibarələr)..........................................................................................74
2.2.7. Peşə-sənət sözləri..........................................................................................80
2.2.8. Ekzotik sözlər..........................................................................................84
**III FƏSİL. C.Q.BAYRONUN "ŞƏRQ POEMALARI"NIN AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏSİNDƏ FƏRDİ ÜSLUBUN XÜSUSİYYƏTLƏRİ** ..........................................................................................88
3.1. Bədii tərcümədə məcazlar sistemi (metafora, metonimiya, sinekdoxa, epitet)..........................................................................................88
3.2. C.Q.Bayronun Şərq poemalarının rus dilindən Azərbaycan dilinə tərcüməsinin dil xüsusiyyətləri..........................................................................................99

3.3. C.Q.Bayronun pyeslərinin  Azərbaycan dilinə tərcüməsinin
dil xüsusiyyətləri.........................................................................................................109
3.4. C.Q.Bayronun poeziyasının Azərbaycan dilinə tərcüməsinin dil
xüsusiyyətləri...............................................................................................................119
**NƏTİCƏ** ………….........................................................………...........….........136
**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT** ………….......................................……....142

# GİRİŞ

**Mövzunun aktuallığı:** Dünya ədəbiyyatının korifeylərindən olan Corc Qordon Bayronun (1788-1824) yaradıcılığının problem zənginliyində mühüm istiqamətlərdən birini əsərlərinin Azərbaycan dilinə tərcüməsinin linqvistik xüsusiyyətləri təşkil edir. "Sevimli şair" ləqəbi ilə adını tarixə yazan ədibin yaradıcılığının problematikası paradiqmatik səviyyəsi, poetik fiqurların özünəməxsusluq mənzərəsi, sintaqmatik düzümlər, mətnin struktur informasiyasını daşıyan işarələr və s. baxımından üfiqi və şaquli yanaşmaları zəruriləşdirir. Orijinal üsluba və dünyagörüşə malik olan sənətkarın zəngin yaradıcılığı müxtəlifliklərlə; üsyankar ruhun, şəxsiyyət azadlığının, məzlum xalqlara rəğbətin örnəyi olmaqla, həm də fərdiyyətçiliyin, ümidsizliyin bir xətt olaraq özünü göstərməsi özəllikləri ilə faktlaşır. Ona görə də C.Q.Bayron yaradıcılığı konkret mədəniyyət tipinin məkan olaraq ortaya qoyduğu quruluş modelini bir metadil kimi diqqət önünə gətirir və bunlar isə bütünlükdə özünəməxsusluq səviyyəsində sənətkar üslubi ilə müəyyənləşir.

C.Q.Bayronun yaradıcılığı konkret zamanın və məkanın mədəniyyət tipi, mətn xronotopu (dil, üslub və düşüncə özünəməxsusluğu) olaraq faktlaşır. Ayrı-ayrı əsərlərinin ortaya qoyduğu səviyyə (paradiqmatik səviyyə, sintaktik səviyyə, janr səviyyəsi) bütün parametrləri ilə bayronizmə gedən yolun müəyyənlək formulasını müəyyənləşdirir. Ona görə də ingilis ədəbiyyatının görkəmli nümayəndələrindən olan ədibin düşüncəsinin dil fakturasının linqvistik imkanlılıq anlamında (orijinalda və tərcümədə) bir problem olaraq araşdırılması mühüm aktuallıq qazanır. Burada poetik sistemin bir bütöv olaraq ortaya qoyan dil və düşüncə modelləri, mətnin struktur informasiyasını daşıyan işarələrin axarı və yaradıcı üslubu faktlaşır. «Çayld Haroldun səyahətləri», «Şərq poemaları», «Qabil», «Don Juan», «Manfred» kimi dünya şöhrətli əsərləri onun Şərqə olan həssas münasibətinin ifadəsidir. Ədibin Şərq dillərinə, Şərq mədəniyyətinə marağı, folklor və etnoqrafiyasını, tarixini öyrənmək sahəsində atdığı addımlar diqqət önünə gəlir. «Gavur» (may, 1813) «Abidos gəlini» (dekabr, 1813), «Korsar» (1814-cü ilin əvvəlləri), «Lara» (avqust, 1814), «Korinfin mühasirəsi»,

«Parizina» (1815-ci ilin sonu, 1816-cı ilin əvvəlləri) və s. dil, üslub özünəməxsusluğunda sistemli yanaşmalara şərait yaradır. Digər istiqamət Şərq poeziyası, mədəniyyəti timsalında olanlardır ki, şairə təsiri və Şərqi özünəməxsus təqdimi məsələsidir. C.Q.Bayron bu əsərləri ilə bütünlükdə Avropa mühitində yeni lirik-romantik tipli poema janrının yaradıcısı olaraq diqqət önünə gəlir. Ədibin yaradıcı istedadı poetik fiqurlardan yüksək sənətkarlıqla istifadəsi, bayronizm təsəvvürünü Avropa və Şərq arenasında formalaşdırması, türk, fars, ərəb dillərindən əsərlərində istifadəsi və istifadə imkanları, türk, yunan, alban xalqlarının folkorundan, adət-ənənəsindən yararlanması, Şərq dillərindən götürdüyü ifadələri (daha çox türk) ilk dəfə ingilis mühitinə gətirməsi və s. şairin əsərlərinin Azərbaycan dilinə tərcüməsinin linqvistik problemlərinin araşdırılmasını aktuallaşdırır.

Bəşər sivilizasiyası üçün ana qucağı olan Şərq həm də möhtəşəm sənət abidələrinin yaranması üçün əsas olmuşdur. Dünya ədəbiyyatının görkəmli nümayəndələri arxetiplərin və invariantların hərəkətliliyində özlərinnin əbədiyaşar ədəbiyyat nümunələrini yaratmışlar. Hötenin «Şərq divanı», V.Hüqonun «Orientaliya»sı, A.N.Radişşev Hafiz Şirazinin divanından bəhs etməsi, Yakov və Vilhelm Qrim qardaşlarının nağılları və s. bunun klassik nümunəsidir. C.Q.Bayron da zəngin Şərq mədəniyyət xəzinəsindən yararlanmaqla bütünlükdə Avropa mühiti üçün örnəyə çevrilmişdir. Şərqi öyrənməyə dair çap olunnan kitablar, yazılan əsərlər mahiyyətin ciddiliyini daha da aydınlıqla göstərir.

C.Q.Bayronun Şərqə səfəri və Şərq xalqlarının mədəniyyətini öyrənməyə xüsusi maraq göstərməsi, hələ uşaqlıqdan bu istiqamətdə kitablar oxuması onun dünyagörüşünə, yaradıcılığına, şəxsiyyət kimi formalaşmasına təsirsiz ötüşməmişdi. Ədib sonrakı dövr ayrı-ayrı məqamlarda bunlara xüsusi həssaslıq göstərərək vurğulayırdı ki, "Türkiyə tarixi» mənə hələ uşaq ikən ləzzət verən ilk kitablardan biri olmuşdur. Əminəm ki, sonradan mənim Levantı səyahət etmək arzuma bu kitabın müəyyən təsiri olmuş, ola bilsin ki, şeirlərimdə hiss olunan şərq ruhuna da səbəb budur". Ayrı-ayrı əsərlərində əksini tapan türk həyat tərzi, adət-ənənələri məsələnin bir tərəfini təşkil edirsə, onun ikinci tərəfində xalis türk sözləri və türk dilində vətəndaşlıq qazanmış ərəb, fars sözlərinin işləkliyidir. Ən maraqlı məqamlardan birisi türk

sözlərinin mətn daxilində ehtiva etdiyi məzmun çalarlarıdır. Bütün bunlar görkəmli ədibin yaradıcılığına əlavə ovqat qatmış, sənətkarın ədəbi irsinin Azərbaycan dilinə tərcüməsinin linqvistik xüsusiyyətləri timsalında araşdırılmasını problem olaraq zərurətə çevirmişdir.

**Problemin öyrənilmə səciyyəsi**. C.Q.Bayronun yaradıcılığı zaman-zaman dünya dillərinə tərcümə olunmuş və bu gün də olmaqdadır. Azərbaycanda onun əsərlərinin tərcüməsi təxminən iyirminci yüzilliyin ilk onilliklərindən başlamışdır. Ümumiyyətlə, XIX əsrin əvvəllərindən başlayan Avropa mədəniyyətinə maraq həmişə artan istiqamətdə getmişdir. Azərbaycanın qabaqcıl dünyagörüşlü ziyalıları (A.Bakıxanov, İ.Qutqaşınlı, M.Şahtaxtlı, M.F.Axundov, S.Vəlibəyov, F.Köçərli, A.Səhhət, S.M.Qənizadə, M.Mahmudbəyov, R.Əfəndiyev və s.) bu sahədə gərəkli işlərə qərar vermişlər. “Əkinçi”, “Zənbur”, “Kəlniyyət”, “Babayi-Əmir”, “Dəbistan”, “Rəhbər”, “Məktəb” və s. mətbu orqanları da öz fəaliyyətlərində Avropa və rus mədəni mühitində gedən proseslərə həssaslıq göstərmişdir. C.Q.Bayronun əsərlərinin tərcüməsinə olan maraq da məhz bu sırada olub həmişə dinamik mənzərəsi ilə diqqət önünə gəlmişdir. İstedadlı şairin əsərləri orijinaldan (ingilis dilindən) rus və Azərbaycan ədibləri tərəfindən dilimizə tərcümə olunmuşdur. Əsərlərinin tərcüməsi ilə bağlı ədəbiyyatşünaslıq kontekstində müəyyən elmi-nəzəri mülahizələr yürüdülsə də, Azərbaycan dilində tərcümələrinin linvistik xüsusiyyətləri sistemli araşdırma faktına çevrilməmişdir. “Gavur”, “Abidos Gəlini”, “Korinfin mühasirəsi”, “Şilyon məhbusu”, “Mazepa”, “Qabil” və s. tərcümələrinin tam şəkildə tədqiqi tərcümə ilə bağlı tədqiqatlar siyahısına ilk dəfədir təqdim olunur.

C.Q.Bayron ədəbi irsinin Azərbaycan dilinə tərcümə işi 1930-cu illərdən başlamışlar. Buraya R.Rza, M.Təhmasib, M.Rzaquluzadə, Ə.Rza, B.Vahabzadə, A.Aslanov, N.Gəncəli və s. kimi sənətkarların adları daxildir. Bu tərcümələrin bəziləri orijinaldan, bəziləri isə rus dilindən Azərbaycan dilinə tərcümə olunmuşdur. Görkəmli ədibin əsərlərinin Azərbaycan dilinə tərcüməsinin dil baxımından üslubi imkanları monoqrafik araşdırma faktına çevrilməmişdir. Son dövrün ədəbi-mədəni, ictimai-siyasi prosesləri dünya düzənində mədəniyyətlərin inteqrasiyasını, qloballaşmanın perspektivlərini, millilik və bəşərilik kontekstində dəyərlərin uzlaşma məqamlarını bir

zərurət olaraq qarşıya qoyur. C.Q. Bayron yaradıcılığına bu kontekstdən yanaşdıqda tərcüməşünaslıq və onun funksional səciyyəsi baxımından ciddi bir paradiqmatik mənzərə ilə qarşı-qarşıya dayanırıq. Bütün bunlar problem səviyyəsində şairin ədəbi irsinin Azərbaycan dilinə tərcüməsinin öyrənilməsi səviyyəsini daha geniş müstəvidə diqqət önünə gətirir.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın obyekti dünya ədəbiyyatının görkəmli nümayəndələrindən olan C.Q.Bayronun poeziyasının müxtəlif zaman kəsiklərində Azərbaycan dilinə tərcümə nümunələridir. Araşdırmanın predmetini ayrı-ayrı tərcümə örnəkləri timsalında dil və üslubi xüsusiyyətlərin özünəməxsusluq məqamlarının aydınlaşdırılması, orijinal və tərcümə səviyyəsində müqayisəli təhlilini vermək təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Dissertasiya işinin əsas məqsədi klassik ingilis poeziyasının görkəmli nümayəndəsi olan Corc Qordon Bayronun ədəbi irsinin Azərbaycan dilinə olunan tərcümələrində, eləcə də onların variantlarındakı linqvistik xüsusiyyətləri, bədii ifadə, bədii təsvir vasitələrini, dil və üslub imkanlarını, bədiilik baxımından fərdi üslubları aşkara çıxarmaqdır. Bunun üçün aşağıdakı məsələlərin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- Bədii tərcümə nəzəriyyəsi kontekstində C.Q.Bayron poeziyasının Azərbaycan dilinə tərcüməsində dil baxımından fərdi üslubun özünəməxsusluq məqamlarını aydınlaşdırmaq;

- Qərb ədəbiyyatında Şərq mühitinin dərki və təqdiminin paradiqmatik səviyyəsini dil fakturası əsasında açıqlamaq;

- C.Q.Bayron poeziyasının fonopoetik, morfopoetik sisteminin geneoloji məzmununu müəyyənləşdirmək;

-"Şərq poemaları"nın ("Gavur", "Abidos Gəlini", "Korinfin mühasirəsi", "Mazepa") orijinaldan Azərbaycan dilinə tərcüməsində dil və üslub xüsusiyyətlərinin hansı səviyyədə qorunuşunu aşkarlamaq;

- Ayrı-ayrı poetik örnəklərdə invariantların, arxaik yaddaşın özünü göstərməsinin üslubi məqamlarını orijinal və tərcümə əsasında aydınlaşdırmaq;

- Orijinalda və tərcümə örnəklərdə sintaktik səviyyənin sözlü mətn olaraq ortaya qoyduğu məzmunu açıqlamaq;

- "Şərq poemaları"nda ("Gavur", "Abidos Gəlini", "Korinfin mühasirəsi", "Mazepa") müəllif üslubunun tərcümədə hansı səviyyədə qorunuşunu aşkarlamaq;

- fərdi üslub timsalında müəllif və tərcüməçi üslubunun tipoloji təhlilini vermək;

- müxtəlif tərcümə örnəklərində sintaktik fiqurların hərəkətliliyini mətn//mətn münasibətləri timsalında müəyyənləşdirmək;

- tərcümələrdəki söz qruplarının (ümumişlək sözlər, onomastik leksika, peşə-sənət sözləri, ekzotik sözlər, varvarizmlər, arqo sözlər, jarqon sözlər və s.) mətn daxilində məqamını və yerini aydınladşrmaq;

- mətn daxilində frazemlərin (hazır poetik fiqurların) işləklik məzmununu açıqlamaq;

-C.Q.Bayronun əsərlərinin tərcüməsində fərdi üslubların özünəməxsusluğunu tipoloji müstəvidə aşkarlamaq;

- görkəmli ədibin əsərlərinin rus dilindən Azərbaycan dilinə tərcüməsinin orijinaldan tərcüməsi ilə müqayisəsini aparmaq;

-C.Q.Bayronun əsərlərinin Azərbaycan dilinə tərcüməsinin bir bütöv olaraq üslubi məqamları haqqında dolğun təsəvvür formalaşdırmaq və s.

**Tədqiqatın metodoloji əsası.** Araşdırma müasir tərcüməşünaslığın əldə etdiyi zəngin təcrübə və mövcud elmi-nəzəri prinsiplər əsasında yazılmışdır. Bununla yanaşı ayrı-ayrı problemlərin təhlil və aydınlığında tarixi-müqayisəli, nəzəri-tipoloji, struktur-semiotik metodun ortaya qoyduğu konsepsiyalardan da yararlanılmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar:** "Corc Qordon Bayronun poeziyasının Azərbaycan dilinə tərcümələrinin linqvistik xüsusiyyətləri" mövzusu bu günə qədər problem olaraq araşdırılmadığına görə mahiyyətin aydınlaşması müstəvisində aşağıdakı müddəalar müdafiəyə çıxarılır:

a) C.Q.Bayron yaradıcılığının Azərbaycan dilinə tərcüməsinin rəngarəngliklə nəzərə çarpacaq özünəməxsusluq məqamları vardır;

b) orijinaldan tərcümələr fonopoetik, morfopoetik mükəmməlliyi əhatələmək baxımından ciddi təsəvvür formalaşdırır;

c) tərcümələrdə fərdi üslubun rəngarəng spektirləri bir bütöv olaraq mahiyyətin təqdiminə köklənir;

ç) görkəmli ədibin əsərlərində (məsələn, “Gavur”, “Abidos Gəlini”, “Korinfin mühasirəsi”, “Mazepa”) işləklik qazanmış türk, fars və ərəb sözlərinin üslubi məqamları sənətkarın Şərq mədəniyyətinə marağının və həssaslığının örnəyi olaraq səciyyələnir və tərcümələrdə davamlı olaraq qorunur;

d) paradiqmatik səviyyənin ehtiva olunması baxımından mövcud tərcümə nümunələri orijinaldakı məzmun qatlarına bağlanır;

e) sintaktik fiqurların zənginliyi orijinalda və tərcümədə mahiyyətin ortaya qoyulmasına köklənir;

ə) orijinaldan və digər dildən (məsələn, rus dilindən) Azərbaycan dilinə tərcümənin tipoloji təhlilində özünü göstərən üslubi məqamlar, gerçəkliyi ifadənin fərqlilik və özünəməxsusluq örnəkləri olaraq faktlaşır.

**İşin elmi yeniliyi:** İngilis ədəbiyyatının görkəmli simalarından olan C.Q.Bayron yaradıcılığının Azərbaycan dilinə tərcüməsinin üslubi xüsusiyyətləri kifayət qədər ciddi elmi yeniliklərlə səciyyələnir.

-ədibin yaradıcılığının Azərbaycan dilinə tərcüməsinin tarixi mənzərəsi və özünəməxsusluq spektirləri aşkarlanmışdır;

-fərdi üslubun müəyyənliyində sənətkar və tərcüməçi imkanlarının ortaqlıq məqamları ortaya çıxarılmışdır;

- mətn daxilində sintaktik fiqurların işləklik imkanları, sintaqmatik düzümün ümumi diaxroniyası müəyyənləşmişdir;

-orijinaldakı paradiqmatik səviyyənin tərcümədə özünü hansı sərhədlər daxilində reallaşdırması açıqlanmışdır;

-ədibin əsərlərində türk, fars və ərəb dilində olan sözlərdən istifadəsinin məzmun qatları orijinal və tərcümə müstəvisində dəqiqləşdirilmişdir;

- tərcümələrdəki söz qruplarının (ümumişlək sözlər, peşə-sənət sözləri, jarqon sözlər və s.) mətn daxilində məzmun yaratma imkanları aydınlaşmışdır;

- C.Q.Bayron poeziyasının fonopoetik, morfopoetik sisteminin tipoloji yanaşmada tərcümə kontekstində stixial xarakteri aşkarlanmışdır;

-“Şərq poemaları”nın (“Gavur”, “Abidos Gəlini”, “Korinfin mühasirəsi”, “Mazepa”) orijinaldan Azərbaycan dilinə tərcüməsində dil və üslub xüsusiyyətlərinin hansı səviyyədə qorunuşunu müəyyənləşmişdir;

- Ayrı-ayrı poetik örnəklərdə invariantların, arxaik yaddaşın özünü göstərməsinin üslubi məqamlarını orijinal və tərcümə əsasında açıqlanşmışdır;

- görkəmli ədibin əsərlərinin rus dilindən tərcüməsinin orijinaldan tərcüməsi ilə tipoloji müqayisəsi aparılmış və tərcüməşünaslıq baxımından özünəməxsusluq spektrləri aşkarlanmışdır;

-C.Q.Bayronun əsərlərinin Azərbaycan dilinə tərcüməsinin üslubi məqamları haqqında dolğun təsəvvür formalaşdırılmışdır.

**İşin nəzəri və praktik əhəmiyyəti:** Tədqiqat tərcüməşünaslıq müstəvisində yazılacaq əsərlər üçün nəzəri qaynaq funksiyası yerinə yetirmək baxımından mühüm əhəmiyyət daşıyır. Dissertasiyadakı nəzəri-metodoloji yanaşma təcrübəsindən yararlanmaqla dünya ədəbiyyatının digər korifeylərinin əsərlərinin Azərbaycan dilinə tərcüməsinin ümumi sistemini aydınlaşdırmaq mümkündür. Araşdırmanın praktik əhəmiyyəti sahə mütəxəssislərinin geniş şəkildə bəhrələnmə imkanları ilə faktlaşır. Tədqiqat işinin materiallarından ali məktəblərin filologiya fakültələrində “Azərbaycan dili”, “Tərcümə sənəti”, “Dünya ədəbiyyatı”, “Azərbaycan ədəbiyyatı” fənlərinin tədrisində istifadə oluna bilər. Dissertasiya işi eyni zamanda İngiltərə, Azərbaycan, həmçinin Rusiya mədəni əlaqələrinin öyrənilməsi üçün də mühüm qaynaq funksiyasını yerinə yetirə bilər.

**Dissertasiyanın aprobasiyası və tətbiqi:** Araşdırmanın məzmunu ilə bağlı əldə edilmiş nəticələr, mühüm qənaət və mülahizələr Azərbaycan Respublikası Prezidenti yanında Ali Atestasiya Komissiyasının tələblərinə müvafiq olaraq müxtəlif nüfuzlu elmi məcmuələrdə çap edilmiş məqalə və tezislərdə əksini tapmış, bir sıra beynəlxalq və yerli elmi konfranslarda məruzələr olunmuşdur.

Tədqiqatın nəticələrindən ali təhsil müəssisələrinin müvafiq fakültələrində və tərcümə problemləri ilə bağlı araşdırmalarda mənbə kimi faydalanmaq olar.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Dissertasiya işi Naxşıvan Dövlət Universitetinin Azərbaycan dili kafedrasında yerinə yetirilmişdir.

Dissertasiyanın mövzusu Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının 3 mart 2015-ci il (protokol № 6) və Respublika Əlaqələndirmə Şurasının 14 may 2015-ci il tarixli (protokol № 3) protokollarının qərarı ilə təsdiq olunmuşdur.

**Dissertasiyanın strukturu və ümumi həcmi:** Dissertasiya işi Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən müəyyənləşdirilmiş tələblərə uyğun qaydada yazılmışdır.

Tədqiqat işi "Giriş" (13673), üç fəsil (I fəsil (64916), II fəsil 2 paraqraf (86907), III fəsil 4 paraqraf (81564) "Nəticə" (10778) və İstifadə olunmuş ədəbiyyat siyahısından ibarət olmaqla ümumi həcmi (257848) işarədən ibarətdir.

# I FƏSİL
# BƏDİİ TƏRCÜMƏ NƏZƏRİYYƏSİNİN AKTUAL PROBLEMLƏRİ

İngilis ədəbiyyatının qüdrətli simalarından olan C.Q.Bayron yaradıcılığının Azərbaycan dilinə tərcüməsinin linqvistik xüsusiyyətlərinin araşdırılmasında mühüm istiqamətlərdən biri bədii tərcümə nəzəriyyəsi kontekstində mahiyyətin aydınlaşmasıdır. Ümumiyyətlə, tərcümə nəzəriyyəsində tərcüməşünaslığın ortaya qoyduğu təsəvvürlər ekivalentliliyi, konvensional normaları, janr-üslub məsələlərini, praqmatik səviyyəni və s. kimi normativ tələbləri kateqorial səviyyədə diqqət önünə gətirir. Tərcümə baxımından əldə olan zənginlik təcrübəsi dünya səviyyəsində mədəni bağlantıları, müxtəlif tipli nailiyyətlərin kitablşmasını tarixi-mədəni axarda tərcümə vasitəsi ilə bir ənənə olaraq gələcəyə daşımağı zəruriləşdirmişdir. Azərbaycan ədəbi-mədəni mühiti də bu kontekstdə möhtəşəm bir təcrübə, əvəzsiz örnəklərin tipik nümunələri ilə faktlaşır.

Mətn tipləri və onun sintaqmatik düzümünün tərcümə prosesində faktural səviyyədə çatdırılması tipoloji yanaşmalarda ekivalentlilik və adekvatlıq baxımından funksional məzmunu ilə fərqlilikləri qaçılmaz edir. Burada eyni zamanda variantlılıq timsalında əlavə bir problemin də təbii axarda ortaya çıxması halı vardır. Orijinal mətnin mətn//mətn münasibətləri baxımından hansı parametrlərdə əhatələnməsi tərcümə nəzəriyyəsində müxtəlif səpkili yanaşmalara yol açır. Çünki sintaqmatik düzüm (eləcə də paradiqmatik düzüm) bədii axarda elə rəngarəng və orijinal faktura ilə reallaşır ki, onun çatdırılması özülüyündə tərcüməçidən xüsusi yaradıcı istedad tələb edir. Tərcümənin keyfiyyət kateqoriyası özünü bütün stixiyası ilə orjinalla tərcümənin ortaqlığında göstərir. Epistemik (tərcüməçinin yaddaşında olan biliklər) və evristik (informasiya əldə etmək qabiliyyəti) prizmadan ümumi şəkildə faydalanma bədii mətnin mövcud aspektləri ilə çatdırılma amalına bağlanır.

Azərbaycan timsalında elmi və ədəbi-bədii əsərlərin tərcümə ənənəsinin orta əsrlərin dərinliklərinə gedib çıxacaq zəngin təcrübəsi vardır. Xalqların mədəni bağlantıları, ictimai, siyasi anlaşmalarla yanaşı, həm də tarixi-mədəni axarda əldə

olunan təcrübənin mənimsənilməsini bir zərurət olaraq qaçılmaz etmişdir. *"Dünya ədəbiyyatının qarşılıqlı zənginləşmə istiqamətində inkişafı müəyyən dövr ədrzində tərcümə vasitəsilə formalaşmış, bəşər mədəniyyətinin çoxsaylı xalqlar arasında geniş yayılmasına səbəb olmuşdur. Beləliklə, dünya xalqları arasında mədəni əlaqələrin və sənət adamlarının arasında ədəbi təmasın bünövrəsi qoyulmuşdur"* [45, s.3]. Min illər boyu müxtəlif ölkələrdə (Mesapatomiyada, Babildə, Yunanıstanda, İranda, Romada və s.) yaranmış mif və folklor örnəklərinin, eləcə də klassik ədəbiyyatdan gələn rəngarəng motivlərin yaddaş hadisəsi olaraq xalqlar arasında dolaşması mədəni bağlantıların genelogiyasında boy göstərən ortaqlıq və özgürlük atributlarını diqqət önünə gətirir. Mənəvi və tarixi yaddaşın xronotopları (zaman və məkan bağlantıları) təbii bir prosesi, xalqların mədəni anlaşma səviyyəsində dil faktlarını ortaya qoyur. Bütün bunlar isə qarşılıqlı mədəni anlaşma (öyrənmə) müstəvisində tərcüməşünaslığın təhlilə gətirdiyi tarixi-mədəni axarda prosesin gedişini faktlaşdırır.

Tarixi-mədəni proses tərcümənin özündə də genişlənmələri, yeni-yeni üsul və qaydaların ortaya çıxmasını zəruriləşdirmişdir. Şifahi və yazılı tərcümənin çağdaş mərhələsində olanlar və tərcüməşünaslığın konseptual yanaşmaları bunun bariz örnəyidir. İbtidai təsəvvürdən mifə, mifdən eposa, oradan da dastan ənənəsinə bağlanan söyləmə və təhkiyə axarı özlüyündə üslubların rəngarəngliyini, mədəni bağlantılarda mənimsəmələrin spesifiklik məqamlarını özündə ehtiva etməklə, həm də tərcümədə (öyrənmədə) miqyas genişmələrini zəruriləşdirir. Tərcüməşünaslığın diqqət yetirdiyi mühüm məsələlərdən birisi uyğunluq tipləridir və burada ekivalent tərcümə timsalında variant və mətn uyğunluğudur. Bədii tərcümə üzərində aparılan müşahidələr adekvat tipini (orijinala ən yaxın olanı) də diqqət önünə gətirir. Bütün bunlar tərcümənin mətn rəngarəngliyində zəngin bir tərcümə bazasının yaranmasına əsas olur. Məlum olduğu kimi, *"bədii tərcümənin tənqidi ədəbiyyatşünaslığın işidir, lakin orijinalla tərcümənin müqayisəli linqvistik təhlili olmadan bu işi uğurla axırda çatdırmaq olmaz, ona görə də bədii tərcümə tənqidinin əsasında zövq, yazıçının istedadı deyil, ikidilliliyin yüksək nümunəsi ədəbi fəaliyyətin bir forması olan ciddi tərcümə nəzəriyyəsi durmalıdır. Linqvistik əsaslardan məhrum olan əliyalın tənqidçi istedadı tərcümənin məziyyətləri barədə yalnız ailədə və ya dost-tanış arasında*

*mübahisə aparmaq üçün yarıya bilər"* [122, s.5]. Bədii tərcümənin nəzəri-estetik problemləri ədəbiyyatşünaslıqda müxtəlif səviyyələrdə təhlil faktına çevrilmiş və bir-birinə yaxın, həm də fərqli mülahizələrə yol açmışdır. Ancaq orijinalla tərcümədə tərcümə materialının linqvistik xüsusiyyətlərinin əsas götürülməsi tərcümə fəaliyyətinin təməl hadisəsi olaraq özünü göstərir. Məsələn, böyük xalq şairi S.Vurğun rus ədəbiyyatının klassiklərindən olan A.S.Puşkinin "Yevgeni Onegin" poemasını Azərbaycan dilinə tərcümə edərkən *"Rusiya şeirinin şah əsərini, çevirdim Vaqifin şirin dilinə"* [94, s.105] söyləyirdi. Məsələnin mahiyyəti burada bir neçə istiqamətdə faktlaşmaqla həm də tərcümə nəzəriyyəsi və onun problemləri ilə bağlı təhlilləri əsas edir.

a) müəllif timsalında (A.S.Puşkinin əlçatmaz istedadı səviyyəsində) özünü göstərən məqamlar;

b) tərcüməçi şəxsində (S.Vurğunun qeyri-adi qaynarlığında, coşub-daşan fitrətində olanlar) olanların imkanlılıq səciyyəsi;

c) orijinalın və tərcümənin ortaya qoyduğu təsəvvür.

Bütün bunlar tərcüməçilər və tərcüməşünaslıq kontekstində son dərəcədə geniş müzakirələrə səbəb olmuşdur. Mövcud fərqli fikirlər son olaraq bədii tərcümə məsələsində tərcüməçi istedadını diqqət önünə gətirməklə, həm də tərcümənin uyğunluq tiplərini də nəzərdən keçirməyi zəruriləşdirir. Bədii tərcümə məsələsində zövq, yaradıcı istedadı bir tərəfdir, ancaq tərcümə nəzəriyyəsi kontekstində mahiyyəti diqqət önünə gətirdikdə ikidillilik və ondan tərcümə prosesində hansı səviyyədə yararlana bilmək başlıca olan kimi diqqət önünə gəlir. Tərcümənin ekivalentlilik kateqoruyası məsələnin (tərcümənin) uyğunluq tiplərində (variantlıq və orijinal) prosesin uğurluluğunu ortaya qoyur.

Zəngin təcrübəyə söykənən tərcüməşünaslıq onun problemləri ətrafında da ciddi və maraqlı təhlillərdə görünür. Məlum olduğu kimi, təkcə Azərbaycan dili və ədəbiyyatında deyil, çox zəngin dil və ədəbiyyata malik olan ən qədim xalqların ədəbi inkişafında öz milli ədəbiyyatı ilə bərabər, tərcümə ədəbiyyatı da mühüm rol oynamışdır. Dünya ədəbiyyatının şedevrləri məhz tərcümə vasitəsi ilə dünyanı dolaşmış və bəşər sivilizasiyasının möhtəşəm örnəyi olaraq bədii dsüşüncəni fəth

etmişdir. Ona görə də bütün xalqların elmi və bədii sferasında tərcümə bir istiqamətdir. Xalqların bədii zövqünün, ədəbi-mədəni inkişafının yüksəlməsinə təsir edən əsas xətlərdir. Ümumiyyətlə, *"tarixi təcrübə aydın göstərir ki, həm mədəniyyətin inkişafı, həm də bütünlükdə milli münasibətlərin daha da yaxşılaşması, genişlənməsi və təkmilləşməsi xüsusi emosional təsir gücünə malik ən səmərəli vasitələrdən biri bədii ədəbiyyatdır, onların qarşılıqlı əlaqələri və həmin əlaqələrin ən çox yaşayan, təsir göstərən sahəsi bədii tərcümədir"* [82, s.256]. Tərcümənin bir yaradıcılıq, düşüncə sahəsi olaraq keçib gəldiyi yol özü ilə birgə onunla addımlayacaq nəzəri fikri, müxtəlif səpkili təhlilləri də zərurət olaraq qarşıya qoymuşdur.

Ayrıca bir yaradıcılıq sahəsi olaraq tərcümənin tarixi özlüyündə ilkin dildən başqa dillərin tədrici prosesdə parçalanıb formalaşması zamanına qədər qədim bir tarixlə faktlaşır. İlkin proses ləngərli və həm də ağır-ağır tarixin dolaylarınca hərəkət etdikcə zənginləşmə və əlavələrlə ciddi təcrübə qazanmışdır. Günümüzə qədər gəlib çıxan tərcümə ənənəsi və onun haqqında olan elm (tərcüməşünaslıq) bütün parametrlərdə üfiqi və şaquli genişlənmələrlə yeni keyfiyyət qazanmaları halı ilə xarakterik görünür. Bilinqvlərin (iki dil bilən şəxslər) mövcudluğu və fəaliyyəti özlüyündə təbii hal kimi tarixi-mədəni axarın dinamikasına dayanır. Məlum olduğu kimi, *"bilinqvizm sosial situasiyadan və kommunikativ aktın digər parametrlərindən asılı olaraq fərqli kommunikativ sahələrdə müxtəlif dillərdən istifadə edən dil kollektivi çevrəsində iki dilin yanaşı mövcudluğudur. Hər iki dil vahid kollektivə xidmət etməklə vahid sosial-kimmunikativ sistem yaradır və bir-birini tamamlayan funksionallığı daşıyırlar"* [139, s.111]. Tarixi gələnəyin təbii axarı özü ilə birgə bilinqvizm müstəvisində prosesin digər tərəfində tərcümə sənətinin formalaşmasını da zəruriləşdirmişdir.

Bədii tərcümənin əldə etdiyi zənginlik təcrübəsi özü ilə birgə keyfiyyət, texnika və üsul məsələsini də diqqət önünə gətirmişdir. Ədib, şair və tərcüməçilərdən başqa saysız-hesabsız psixoloq, tənqidçi və dilçilərin nəzər-diqqətini cəlb edən tərcümə bu sahədə müxtəlif konseptual səviyyəli nəzəri fikir və mülahizələrin yaranması üçün də əsas olmuşdur. XIV əsrdən antik yunan ədəbiyyatı örnəklərinin müxtəlif dillərə tərcüməsi prosesi və bədii tərcümə sahəsində təcrübə zənginləşməsi, bu müstəvidə nəzəri səpkili fikir və mülahizələr dünya tərcümə ənənəsinin spesifik özəlliklərinin

formalaşması üçün əsas olmuşdur. Şərq ədəbiyyatında olanları da bura əlavə etdikdə bir tərəf olaraq mahiyyət daha da genişlənir. XVII-XVIII əsrlərdə ingilis, fransız, alman və s. dillərə tərcümə nümunələri müxtəlif məktəb və nəzəriyyələrin yaranması üçün əsas olmuşdur. Mifoloji məktəbin, iqtibas nəzəriyyəsinin, antropoloji nəzəriyyənin, tarixi məktəbin fəaliyyəti və meydana gəlməsi özlüyündə zənginləşmə kontekstində gedən proses idi. Sibirdən Bavariyaya qədər uzanıb gedən mədəniyyət bağlantıları tərcümə və tərcümə nəzəriyyəsinə aid bütöv bir təfsilatın formalaşmasına əşrait yaratmışdır. Məşhur dilçi alim V.Humboltun tərcümə təcrübəsindən çıxış edərək "xalqın dili olun ruhu, ruhu onun dilidir" deyərək maraqlı mülahizələrdə görünür.

Ümumiyyətlə, yaradıcılıq zamanından, məkanından asılı olmayaraq bütün aspektlərdə çətin və mürəkkəb prosesdir. Yazıçı, şair, bəstəkar, heylkəltaraş, rəssam və s. hamısı bütün təsəvvürlərini hiss və duyğuların müxtəlifliyində rəngarəng forma və çalarlarla reallaşdırır. Tərcümə də belədir, yazıçı və tərcüməçi timsalında baş verənlər bunların həm də tipoloji dərkini diqqət önünə gətirir. Birincidə olan seçim (mövzu) və ifadə sərbəstliyi ilə ikincinin (tərcüməçinin) funksiyası başqa-başqa məsələlərdir. Tərcüməçi bütün olanları, nə varsa hamısını müəyyən sərhədlər daxilində, adın (tərcüməçi adının) ehtiva etdiyi sərhədlərdən kənara çıxmamaq şərti ilə reallaşdırır. Alman dilçisi Alfred Kurella "Tərcümənin nəzəriyyəsi və praktikası" məqaləsində yazıçı//tərcüməçi timsalında müqayisələr aparır və vurğulayır ki, *"tərcüməçinin işi yazıçıdan az, eyni zamanda çoxdur. Azdır ona görə ki, - və mənə belə gəlir ki, bu bizim qəbul etməli olduğumuz əsas tezislərdən biridir – tərcüməçi qulluqçudur və o özünü orijinal müəllifinin qulluqçusu hesab etməlidir. O özünün azad ideyalarından məhrumdur və digərinin fikrinə tabedir. Bu tərcüməçini müəlliflə münasibətdə aşağı pilləyə qoyur". Tərcüməçi və yazıçı timsalında yaradıcı prosesin təhlili fərqüliliklərlə yanaşı həm də bunların yaradıcılıq timsalında funksiya məsuliyyətini də ortaya qoyur. Çünki bədii əsəri yaratma kimi, tərcümə də özünəməxsusluqla reallaşan bir yaradıcılıq prosesidir. Dil baxımından "orijinal əsər müəllifi bir dilin, tərcüməçi isə iki dilin müəllifi olmalıdır"* [112, s.83]. Burada yazıçı dili və tərcüməçi dili, eyni zamanda dilin linvistik xüsusiyyətləri timsalında iki dilin müəllifi olmanın prinsiplərini hansı səviyyədə həyata keçirməsi və keçirə bilməsi əsas olaraq görünür. Əlbəttə tərcüməçi

üçün doğma dilin qanun və qaydaları müqəddəs və toxunulmazlıqla və təbii bir axarda qorunur. İntertekstuallıq (mətnlərarasılıq) səviyyəsində bütün tərcümə nümunələrinin sintaqmatik düzümün özünəməxsusluq modullarını da diqqət önünə gətirir. Mətn xronotopları tərcümənin diferensiallıq məqamlarını aydınlaşdırmaq və hipertekstuallığı bir tərəf olaraq ortaya qoymaq üçün əsaslı imkanlar yaradır. Burada tərcüməçinin ana dilinə bağlılıq imkanları da vardır. Daha doğrusu, dilin frazemlər örtüyü, fonopoetik, morfopoetik mənzərəsi mətn//mətn, mətn//mühit, mətn//subyekt səviyyəsində mahiyyətə və onu ehtivaya bağlanır.

Tərcümədə doğma dilin dominantlığı və danışıq dilindən gələn elementlərin mahiyyətin təsir ekspressivliyində funksional çəkisi mütərcim imkanlarına bağlanır. Sənətin ümumi nəzəri tipologiyası, tarixin mövcud zaman sərhədləri daxilində ortaya qoyduğu təsəvvür və bütünlüklə mətn informasiyasının linqvistik panoraması paradiqmatik düzümün çevrələdiyi mahiyyətə bağlanır. Çünki *“sözün ifadəliliyi yalnız onun ifadə etdiyi mənadan yox, yəni yalnız onun leksik mənasından yox, həm də onun stilistik siqlətindən, eləcə də sözün akustik çalarından tutmuş assosiativ-emosional çalarına qədər başqa sözlərlə müxtəlif əlaqələrindən də asılıdır”* [137, s.61]. Bütün bunlar tərcümədə və orijinal səviyyəsində sintaqmatik səviyyəyin gerçəkləşməsində, mətn tipi olaraq prosesin hansı səviyyədə təzahüründə reallaşır.

Bütün kontekstlərdə bədii tərcümə sənəti tərcümə tarixinin və ənənələrinin obyekti kimi çox geniş, kütləvi, ümumbəşər məzmunu və əhəmiyyəti ilə mədəni-tarixi hadisə olaraq faktlaşır. Ümumiyyətlə, bədii tərcümə tərcümənin xüsusi funksional məzmun kəsb edən qolu olsa da, normativ tələblərin ehtiva olunması baxımından da eyni mənzərəni sərgiləyir. Bütün bunlar bir mədəniyyət kodu olaraq ümumi tərcümə təsəvvürünü işarələyir. Rəngarəng tərcümə tərzləri (şifahi və yazılı tərcümə, maşın tərcüməsi), eləcə də tərcümə növü (elmi-texniki, publisistik, bədii tərcümə) öz məzmunu ilə tarixi yaddaşa və onun əldə etdiyi zaman kəsiklərindəki təcrübəyə bağlanır. Dil nəzəriyyəsi müstəvisində tərcüməşünaslıq elminin kompleks problemini ilk dəfə araşdırıb əsaslandıran (doktorluq dissertasiyası, 1974) Bayram Tahirbəyov konseptuasl yanaşmaları ilə diqqət önünə gəlir. A.Ələkbərovanın “Poetik tərcümənin dil və üslub problemi / A.S.Puşkinin “Yevgeni Onegin” mənzum romanının

Azərbaycan dilinə tərcüməsi əsasında" dissertasiya işi də bu sırada zəngin faktura ilə səciyyələnir. Tərcümə nəzəriyyəsində tərcümə termini tərcümə-proses və tərcümə-nəticə /mətn/ olaraq anlaşılır. Mətn//mətn münasibətlərində orijinal və tərcümə mətnlərarasılıq anlamında müqayisəli yanaşmalara şərait yaradır. Paratekstuallıq və hipertekstuallıq geniş spektirli yanaşmalarda mətn//subyekt münasibətlərinin ehtiva olunması mənzərəsini aşkarlamaq üçün də əsaslı material verir. Tərcümə məsələsinin rəngarənglik prosesində yazıçının, alimin, eləcə də tərcüməçinin yaradıcı laboratoriyası və orada prosesin hansı şəraitlə əhatələnməsi də var.

Bədii mətnin orijinal və tərcümə nümunəsi timsalında nəzəri kontekstdə təhlili tədqiqatçını problemin qoyuluşu baxımında aydınlaşdırmağa kökləyir. İki hazır mətn iki dilin imkanlılıq qatlarını ortaya qoyduğu kimi, həm də yaradıcı istedadında onun rellığını və səviyyəsini aşkarlayır. Orijinaldakı mətnin dominantlıq kontinumu dəyişilməzliklə diqqət önünə gəlirsə, tərcümədə fövqəlzamanlıq və fövqəlməkanlıq baxımından müxtəliflikləri faktlaşdırır. Daha doğrusu, müxtəlif dillərdə müxtəlif tərcümə mətnlərini diqqət önünə gətirir. Bir dildə bir neçə tərcümə nümunəsi də bura daxildir və zərurətin örnəyi olaraq zaman və məkan daxilində reallşır. Ədəbi-nəzəri fikrin geniş spektrli təhlillərində müəyyən zaman kəsiklərində bir əsərin bir neçə dəfə fərqli prinsiplərlə tərcümə örnəkləri də özünə yer almaqdadır. Onu da əlavə edək ki, *"bədii nitqin zahiri formasının özü obraz yaratmağa başlayır"* [120, s.24]. Onun uğurluluğu, alınıb-alınmaması yaradıcı və tərcüməsi istedadında (imkanlarında) paylaşır. Tərcümə mətnlərinin dəyişilməz orijinal müqabilində rəngarəngliyi bir başqa məsələdir və tərcümə prosesində bu prosesi şərtləndirən amillərlə uğurluluq qazanır. A.D.Şveyser "Tərcümə nəzəriyyəsi: statusu, problemləri, aspektləri" monoqrafiyasında məsələnin ümumi mənzərəsini problematik səviyyədə təhlilə gətirir. Ümumiyyətlə, *"tərcümə tərcüməçi vasitəçiliyi ilə mümkün olan dillərarası və mədəniyyətlərarası nitq ünsiyyətinin bir istiqamətli, ikifazalı prosesidir ki, bu proses orijinalın kommunikativ effektini birinci mətni əvəz edən ikinci bir mətndə canlandırmağa yönəldir"* [42, 34]. Nitq fəaliyyətinin spesifik sahəsi olan tərcümə dillərarası və mədəniyyətlərarası bağlantılar və onun dinamik mənzərəsi üçün başlıca

faktorlardandır. Ünsiyyətin ayrıca bir sahəsi kimi ikifazalı olması ilə xarakterik olub dilin leksik imkanlarını bütün aspektləri ilə özündə ehtivaya köklənir. Orijinalı əvəz edən ikinci mətn funksiyasında çıxış etməklə, hətta bir örnəyin fərqli-fərqli tərcümə nümunələrində bir neçə variantlılığını şərtləndirir. Tərcümə nəzəriyyəsinin bütün bunlar üzərində apardığı müşahidə və təhlillər onu həm də ayrıca yaradıcılıq sahəsi olaraq da diqqət önünə gətirir.

Bəşər sivilizasiyasında birliyi, bağlantıları, mədəni əlaqələrin xronologiya və xronotoplarını özündə sərgiləyən tərcümə dil əlaqələrinin, ədəbi və mədəni əlaqələrin, linqvistik tipologiyanın, ikidilli leksikoqrafiyanın, bilinqvizm təliminin əsaslarında durur. Bunlar hamısı tərcüməşünaslığın problemləri sırasında sistemli təhlillərə yol açan istiqamətlərdir və özlüyündə dil və təsəvvür (düşüncə) ortaqlığını şərtləndirməklə möhtəşəm elmi-nəzəri baza ilə faktlaşır. Tomas Mann alman tərcüməçiliyi baxımından olanlara diqqət yetirərək vurğulayırdı ki, *"almanlar həmişə ən səyli, ciddi-cəhd göstərən tərcüməçilər olmuşlar; vaxt var idi ki, bunun sayəsində onlar öz mədəniyyətini xeyli artırmışdılar"* [127, s.532]. Mədəniyyətlərarası bağlantıların boyartımında kəmiyyət və keyfiyyət müstəvisində tərcümələrin funksional çəkisi vardır. Bu bütünlükdə xalqların bəşər sivilizasiyasında ortaqlığını əks etdirən möhtəşəm mənzərədir. Tərcüməşünaslıq tərcümənin tarixi haqqında təhlil edərkən folklor örnəklərinin və bədii ədəbiyyatın ilkin tərcümə faktlarına istinad edir. Burada ədəbi dildən fərqlilik məsələləri, bədii dilin özünəməxsusluqlarının bir keyfiyyət məsələsi kimi qorunuşu prinsip olaraq gözlənilir. Çünki bədii sözün estetik funksiyası onun həm də məzmun yaratma imkanlarını faktlaşdırır, tədqiqi isə dilçilik, ədəbiyyat nəzəriyyəsi, üslubiyyat, estetika və s. elmlərin konseptual yanaşmaları ilə reallaşır. Müqayisəli dilçilik, mətn dilçiliyi, ümumiyyətlə dilçiliyin müxtəlif linqvistik sahələri (makrolinqvistika, dil əlaqələri, bilinqvizm) özlüyündə axıra qədər bədii tərcümənin mahiyyətini əhatələməklə yanaşı, həm də onun estetik üslubi problemlərinin də nəzərə alınmasını zəruriləşdirir.

Bədii tərcümə bütün parametrlərdə bədii-estetik mədəniyyət hadisəsidir. Onun üslubi problemlər mənzərəsi isə sinxron və diaxron yanaşmalarda rəngarəng mətn qatlarının ortaya çıxması üçün əlavə imkanlar yaradır. Mətn fenomenliyi, sözün məna

yaddaşı, janr məzmunu tərcümənin həm də ümumi nəzəri tipologiyasını bir bütöv olaraq ortaya qoyur. Onu da əlavə edək ki, *"orijinala yaxınlıq hərfi tərcümə demək deyildir, əksinə, üslub yaradıcılığıdır. Hər dilin özünəməxsus vasitəsi, xüsusiyyəti və xassəsi vardır. O dərəcədə ki, ifadə və cümlələri olduğu kimi verə biləsən. Bəzən isə tərcümə zamanı bunları tamam dəyişmək lazım gəlir. Çünki bir sıra ifadə və cümlələr həmişə uyğun gəlmir. Ona görə də çalışmaq lazımdır ki, tərcümə edilən sözün daxili varlığı ilə orijinaldakı sözün daxili varlığı arasında uyğunluq yaransın"* [31, s.154]. Bədii tərcümə özlüyündə həm də üslub yaradıcılığıdır. Dil özünəməxsusluğunda reallaşan tərcümə örnəkləri orijinalın ehtiva etdiyi imkanları qorumağa köklənir. Çünki orijinaldakı sözün daxili varlığı ilə tərcümədəki sözün daxili ifadəlilik imkanları həm də tərcüməçi səriştəsinə bağlanır. Nitq üslublarının rəngarənglik kontiniuumu orijinal və tərcümə səviyyəsində mahiyyətin müxtəlif səviyyələrdə təhlilini zəruriləşdirir. Məsələn, qədim yunan ədəbiyyatından tərcümə materiallaırndan çıxış edən V.Q.Belinski vurğulayır ki, *"Puşkinə qədər yunan şairlərindən xeyli tərcümələr olunmuş, onlara xeyli də bənzətmələr yazılmışdı; Kostrovun "İliada"nı tərcümə etmək təşəbbüsü, Merzlyakovun bir çox tərcümələri və bənzətmələri bir yana qalsın, təkcə Lvov şair Anakreondan nə qədər tərcümə etmişdir; lakin bütün bunlara baxmayaraq, yalnız Qnediçin "İliada"dan tərcümə etdiyi parçalar istisna olmaqla rus dilində nə bir şeir, nə də bir misra yox idi ki, qədim poeziyaya heç olmasa bir işarə kimi qəbul etmək mümkün olaydı"* [31, s.154]. Bütün bunlar tərcümənin ədəbi-mədəni axarda funksional rolunu, mahiyyət müstəvisində sintaqmatik düzümün ümumi panoramasını aydınlaşdırır.

Bədii tərcümənin estetik-üslubi problemlər kompleksi müqyisəli dilçilik və mətn dilçiyi səviyyəsində yanaşmaları, dil əlaqələrində prosesin hansı sərhədlər daxilində özünü göstərməsini, bilinqvizmin sərgilədiyi məqamı diqqət önünə gətirir. Çünki dil vasitəsi ilə ünsiyyət şifahi və yazılı olmaqla reallaşır. Yazılı tərcümə müxtəlif xalqların mədəni nailiyyətləri haqqında dolğun təsəvvür formalaşdırmaq üçün funksional çəkiyə malikdir. İnsanlar fikir və düşüncələrini müxtəlif dil vasitələri ilə reallaşdırır. Tərcümə kommunikasiya funksiyasını yerinə yetirmə anlamında diqqətçəkici imkanları ilə geniş səciyyəvilik qazanır.

Ədəbi-nəzəri fikrin görkəmli nümayəndələri gözəl tərcüməni həm də əsər üzərinə tutulan təmiz aynaya bənzədir. Tərcümənin uğurluluğu, dilin üslubi imkanlarına, tərcüməçinin sintaktik fiqurlardan istifadə edə bilmək bacarığına bağlanır. Bədii mətndə avazlanmanın səsləndiyi dalğalar orijinal və tərcümə işində uğurluluq əmsalıdır. Bir məsələni diqqət önünə gətirək ki, tərcümə özlüyündə bədii nümunənin təqlidni xatırladır. Məsələn, "qədim ellinlilərin ilham pərisi ilə qohum olan Puşkinin şeirlərini bəzən yunancadan edilmiş ən nümunəvi tərcümə kimi təhlil edirlər. Məlum olduğu kimi, tərcümə vasitəsilə mütərcim müəllifin fikir və düşüncələrini çatdırır. Bu onun (tərcüməçinin) imkanlarını, sənət və yaradıcılıq bacarığını ortaya qoyur. Bədii mətnin düzgün və aydın çatdırılmasını prosesin uğurlu həyata keçirilməsidir. Burada müəllifin yaradıcılıq üslubu, yazı tərzi, dil dialektlərinə bələd olmadan əlavə, etnosun adət-ənənələri, etnomədəni coğrafiyası, ictimai-siyasi şəraiti də nəzərə alınmalıdır. İki dilə bələdlik səviyyəsi bədii tərcümə işinin uğurluluğuna həm də zəmanət olur. Əks halda uğursuzluq, prosesin özünün gedişinin problemləri ortaya çıxır.

Ana dilinin bütün imkanlarını, emosional çəkisini, fonopoetik və morfopoetik mənzərəsini, sintaktik fiüurların üslubi məqamlarını yüksək şəkildə ruhi fakta çevirə bilənlər bədii mətnin tərcüməsi işində ona əlavə ovqat qata bilir. Ana dilinin zənginliyinə dərindən bələdlik bu prosesdə mühüm və başlıca olandır. Sənətkarın fikir və mülahizələrinin çatdırılması tərcümənin ana axarında dayanır. Xalq danışıq dilinin əsrarəngiz çalarları prosesin uğurluluğunda müstəsna funksiya ilə şərtlənir. Leksik transformasiya çeşidləri (leksik-semantik əvəzləmələr, kalka yaratma və s.), leksik-qramatik (eksolikasiya, əvəzləmələr, antonimik tərcümə və s.), eləcə də qramatik transformasiya çeşidləri (hərfi tərcümə, qrammatik əvəzləmələr və s.) tərcüməçinin imkanları daxilində hərəkətlilik üçün əsas olur. Şeir tərcüməsindən bəhs edən ədiblər, məsələn, Cekson Metyuz "şeiri bütünlükdə tərcümə etmək yeni şeir yazmaqdır" qənaətinə gəlir. Nəzm və nəsr nümunələrinin tərcüməsi problemlərində özünü göstərən iş prosesi fərqliliklə, məsələn, məzmuna sadiq qalma, formaya təxmini yaxınlıq işinin olması ilə faktlaşır. Burada son olaraq poeziya anlamında fərqli bir variantın ortaya çıxması qənaəti də diqqət önünə gəlir. Ona görə də bir şeirin bütövlükdə tərcüməsi tamam yeni bir şeir yazmaq qənaətini ortaya qoyur. Şeir tərcüməsindən danışan

Ricmon Lattimer də yunan poetik örnəklərinin ingilis dilinə tərcüməsini ingilis dilində yeni şeir yazmaq kimi xarakterizə edir. Nəsr tərcüməsində isə proses tamam başqa səpkilidir. Çünki şeirdəki forma və məzmun axarı tərcüməçidə ana axara əlavə çaların qatılmasını bir zərurət olaraq diktə edir. Nəsrlə tərcümə olunmuş şeir isə adekvatlıq funksiyasını axıra qədər yerinə yetirə bilmir. Bütün bunlar tərcüməşünaslıqda bir problem olaraq geniş təhlillərə, paradiqmatik səviyyənin rəngarəng parametrlərinin ortaya çıxmasına əsas olur.

Bütün kontkstlərdə  poetik obrazın maddi əsası dil materialıdır. Çünki bədii sferada dil obraz yaratmanın başlıca, həm də məstəsna vasitəsidir. *"Fonetik vasitələrdən tutmuş ən böyük mətnlərə qədər bütün linqvistik vasitələr obrazın yaranmasında  iştirak edir. Obraz da öz növbəsində nitqin ekspressiv vasitələrini hərəkətə gətirir, obrazın bu və ya digər əlamət və tərəflərini lazımı dərəcədə canlandırmaq zərurətini qarşıya qoyur, söz sənətkarının poetik düşüncələrini müəyyən məcraya  yönəldir. Deməli sözün obraza, yaxud da obrazın sözə keçməsi qarşılıqlı vəhdətdə mövcuddur. Ən dərin, ən mükəmməl obrazın cövhəri və açarı şeirin dilidir"* [134, s.55]. Bədii mətndə poetik dil zərurət və yaradıcı imkanlarını rellaşdıran başlıca vasitədir. Tərcüməçi öz imkanları daxilində bundan yararlanmaqla orijinalla tərcümə arasında bərabərlik qoya bilmək bacarığını ortaya qoya bilirsə artıq bu səriştə və xalqın dil zənginliyinə ruhən bağlıdır.

Tərcümədə özünü göstərən əsas məram yazıçının fikir və ideyalarının çatdırılmasıdır. Tərcüməşünaslıq da bu məsələdə həssaslıq göstərib bu çatdırılmanın mexanizmlərini aydınlaşdırmaq yolunu tutur. Çünki tərcüməyə edilən hər yersiz əlavə onun uğurluluğuna mane olur.  Burada tərcüməçi məsuliyyəti və tərcümə işinin sirlərinə, nəzəri mənzərəsinə, tarixi təcrübəyə bələdlik lazımdır. Məsələn: tərcümələr sırasında vaxtilə görkəmli dilçi və ədəbiyyatşünas alim İsmixan Rəhimovun romantik şair Corc Qordon Bayronun yaradıcılığından etdiyi sətri tərcümələr, şairlərimizdən Novruz Gəncəlinin tərcüməsində "Gavur", Bəxtiyar Vahabzadənin tərcüməsində "Abidos gəlini", Aslan Aslanovun tərcüməsində "Korinfin mühasirəsi" poemalarının tərcüməsi ədəbi tənqidin yüksək dəyərləndirdiyi mükəmməl tərcümə nümunələri kimi xatırlanır. Fikrimizcə, C.Q.Bayronun ayrı-ayrı, pərakəndə fraqmentlərdən ibarət olan

poemalarının hər biri Azərbaycan türkcəsində çox dəyərli, ədəbi-estetik zövqü aşılayan tərcümə nümunələri olaraq uzun ömürlü əsərlər kimi qiymətləndirilir. Ümumiyyətlə, istedadlı şair və yazıçılarımızın xarici dillərə yiyələnməsi və bu dillərə bələdliyi mükəmməl tərcümə örnəklərinin ortaya çıxması üçün mühüm əhəmiyyət kəsb edə bilər. Çünki şair və yazıçıların xarici dil bilgisi, onların tərcümə prosesində bədii imkanlarından digər baxımdan yararlanmağa şərait yaradır. Belə bir mühitin formalaşması tərcümə məktəbinin formalaşması və rəngarəng çalarlarının yaranması üçün əsas olmasıdır. Prosesin belə bir müstəvidə gedişi xarici şair və yazıçıların əsərlərindən (orijinaldan) yüksəkdə duracaq tərcümə əsərlərinin yaranmasına gətirib çıxarır. Məlum olduğu kimi, bədii tərcümə ədəbi əlaqələrin qurulmasında müstəsna rola malikdir, inkişaf və zənginləşmə üçün mühümdür. Ədəbi əlaqələr xalqlar, dövlətlər arasında qurulan körpüdür, bədii tərcümə isə bu körpüdə heç nə ilə müqayisə olunmayacaq sütundur. *"Yaradıcılıq əlaqələrinin qarşısında həmişə bir məsələ durur: - digər mədəni dəyərlərlə mübadilə etmək. Bu prosesdə birinci yeri – bədii tərcümə tutur"* [126, s.28]. Bütün parametrləri ilə tərcümə, xüsusilə də bədii tərcümə dünyanın bir-birindən uzaq iqlim guşələrində yaşayan, müxtəlif dillərdə danışan, fərqli psixoloji təbiətə malik xalqlar arasında qarşılıqlı əlaqə və mötəbər dostluq körpüsüdür. Hələ qədim zamanlardan bilikli, ziyalı şəxslər başqa dillərdən elmi, ədəbi əsərlərin tərcüməsinə fikir vermişlər. Ədəbiyyatın heç bir sahəsi tərcümə nəzəriyyəsi qədər bir-birinə zidd fikir və mülahizələr doğurmamışdır. Çünki tərcümə elə bir əhatəli və həm də müxtəlifliklə görünən yaradıcılıq sahəsidir ki, onun məzmununda bütün sferaları, mühit və düşüncə məkanlarını içinə ala bilmək gücü var. Tərcümə kimi digər elmlərlə bağlantısı olan elm sahəsi yoxdur.

Mövcud tərcümə örnəkləri üzərində aparılan müşahidələr, eləcə də C.Q.Bayronun yaradıcılığından olunan tərcümə nümunələri bədii tərcümənin dil və üslubi çalarlarının spesifikasını diqqət önünə gətirir. Ümumiyyətlə, bədii nümunədə əsərin uğurluluğu məna ilə formanın ortaqlığında olanlarla şərtlənir. Onların üslubi vəhdəti istər orijinalda, istərsə də tərcümədə yaradıcı imkanlarını ortaya qoyur. Tərcüməçidən prosesdə bu üslubu, yaradıcı dəsti-xəttini, ifadə tərzini çatdırmaq üçün böyük zəhmət və bacarıq tələb olunur. Ümumiyyətlə, hər hansı bədii əsərə müraciət etsək görərik ki,

orada işləklik qazanmış sintaktik fiqurlar sənətkar qayəsini əks etdirməyə köklənmişdir. Məsələn, V.Şeksprin "Hamlet", "Otello", C.Q.Bayronun "Şərq poemaları", T. Drayzerin "Kerri bacı", C.Londonun "Həyat eşqi", V.Hüqonun "Hərb və sülh" və s. şedevrlərə nəzər saldıqda bunun şahidi oluruq. Nəzm və nəsrlə yazılmış əsərlərdə sintaktik fiqurların sıralanması (epitet, təşbeh, cinas, metanimiya, metafora, sinekdoxa, bədii sual, epifora, anafora, aforizmlər və s.) tərcüməçi imkanları daxilində mətndə yerini və məqamını tapmaq baxımından uğurluluq qazanır. Bədii mətnin tərcüməsi işində hansısa səhv birbaşa yaradıcı qayəsinin çatdırılmasına təsir edir və mətnin ekspressivliyinə xələl gətirir.

Dünya ədəbiyyatı örnəklərinin maraqlı və geniş auditoriyada oxunaqlıq qazanması sırf tərcümə işi ilə bağlıdır. Tərcümə xalqlar, mühitlər, düşüncələr və axtarşıların uzlaşması üçün körpüdür. Bəşəri sivilizasiyanın axarının ümumi mənzərəsi, nələrlə səciyyələnməsi, tarixi-mədəni dinamikasının spesifikası tərcümə ilə reallaşmış və reallaşaraq da davam edir. Onun bir mədəniyyət tipi olaraq boyartımı və əldə etdiyi təcrübə özü ilə birgə müxtəlif fikir və mülahizələrin ortaya çıxmasını da qaçılmaz etmişdir. Mif örnəkləri, etnosların inam və etiqadları, mərasim ənənəsi, epos yaddaşı, zəngin folklor örtüyü bu bağlantıların tarixi və ehtiva etdiyi yaxınlıq, təsir elementləri tərcümənin təbii proses və zəruri həyati ehtiyac faktı kimi ortaya çıxdığını diqqət önünə gətirir. Tərcümə nəzəriyyəsi də bu prosesin bir hissəsi olaraq tarixin dolaylarını ağır-ağır addımlamaqla fikir və mülahizələrdən nəzəri konsepsiyaya qədər bir boy artımında olmuşdur. Bir xalqın istənilən sahədəki təcrübəsi başqa xalqların mənəvi, estetik cəhətdən zənginləşməsi üçün yardımçı funksiyası yerinə yetirir.

Tərcümə nəzəriyyəsinin görkəmli nümayəndələri, tərcüməçilər sintaktik fiqurları (məcazları) tərcümənin ən çətin cəhətlərindən biri hesab etmişlər. Hazır poetik qəlib kimi səciyyələnən bu örnəklər dilin ecazkar mənzərəsini, spesifik çalarlarını tamam fərqli boyalarla əks etdirdiyi üçün onun həmin füsunkarlıqda tərcüməyə gətirilməsi özü bir problem olmuşdur. Orijinalda olanın adekvatının tərcümə nümunəsi olaraq axıra qədər reallaşdırılması mümkün olmadığı şəraitdə tərcüməçi onu əvəzləyə biləcək ifadəni yerinə qoymaqla yoluna davam edir. Tərcümə yaradıcılığı onun vasitəsilə yaranan mübadilədə zənginləşən mədəni dəyərlər toplusu funksiyasını yerinə yetirir.

Yeniləşən dünyagörüş tərcümə yaradıcılığının inkişafına öz təsirini göstərməklə, həm də prosesə istiqamət verir. Bütün bunlar qarşılıqlı bağlantılar, mədəni dəyərlərin mənimsənilməsi üçün əsas olur. Tərcümə olunan bədii mətn mənsub olduğu xalqın mədəni dəyərləri ilə yanaşı, digər xalqların milli dil xüsusiyyətlərini də əhatələyə bilmək gücündə görünür.

"Tərcümə incəsənətdir" – deyən L.Qinzburq həm də əlavə edir ki, *"tərcümə birdən yetişmir. Ola bilər ki, illərlə mətn və tərcüməçinin qəlbi arasında heç bir kontakt yaranmasın."* [113, s.68]. Çünki tərcümənin özü yaradıcılıq hadisəsi olaraq tamam fərqli parametrlərdə fərqli prinsiplərlə davranışı diqqət önünə gətirir. Yazıçının hadisə və faktlara yanaşması ilə, tərcüməçinin yanaşması və işi arasında fərqlilik onların yerinə yetirdiyi funksiyanı da diqqət önünə gətirir. Tərcüməçinin sənətkar ruhunu dərki və onu içinə hopdura bilməsi bədii mətni özününküləşdirməsi üçün əsas olur. Sanki bədii mətnin ruhu, məzmunu tərcümə edənin düşüncəsinin bir parçasına çevrilir. Yazıçının özününküləşdirdiyi mövzu digər müstəvidə tərcüməçi üçün özəlləşir.

"Tərcümə və yaradıcılıq əkiz proseslərdir" deyən meksikalı alim Oktavio Pas da hər iki işə eyni yaradıcı ruhun lazım olduğunu təsdiqləyirdi. O.Pas tərcümə barədə danışarkən diqqəti prosesin mahiyyətinə yönəltməklə, onun çox sadə, lakin bitkin izahını verir: *"Danışmağı öyrənmək - tərcümə etməyi öyrənmək deməkdir. Uşaq anasından bu və ya digər sözün mənasını soruşursa, bu yolla körpə ona məlum olmayan termini anladığı dildə ona izah etməyi xahiş edir. Xalqların tarixi sanki uşaq təcrübəsinin təkrarıdır. Ətraf aləmdən təcrid olunmuş hər hansı tayfa gec, ya tez yad xalqın dili ilə rastlaşmalı olur"* [131, s.15]. Xalqların tarixi həm də bağlantıların, mədəniyyətlər arası əlaqələrin tarixidir. Bəşər sivilizasiyası tarixin bütün dönəmlərində öz inkişafını, əldə etdiyi uğur və yeniləşmələri qarşılıqlı təmas və faydalanmalarda reallaşdırıblar. Bunun başlanğıc nöqtəsi isə dil təmasları olmuşdur. Yad xalqın dili ilə rastlaşma və onu öyrənmə, həm də həmin xalqın mədəniyyəti ilə bağlantıları qurmaqdır. "Danışmağı öyrənmək", "tərcümə etməyi öyrənmək" tipoloji müstəvidə müxtəlif səviyyələrdə bir-birinə bağlanır. Uşağın dil öyrənmə və həyatı mənimsəmə (dərk) baxımından keçdiyi proseslə tərcüməni öyrənmənin mahiyyət qatlarındakı bağlantılar daha geniş anlamda həyatı dərkə yüklənir. M.Arif də bədii tərcümə nədir

sualına cavab verərkən onu ən əvvəl bədii yaradıcılıq adlandıraraq, obrazlı təfəkkürün mənbəyi hesab edir. O yazır: *"Deməli, tərcüməçi də bədii əsəri obrazlar vasitəsilə ifadə olunan ideya kimi verməlidir. Bədii tərcümənin çətinliyi də elə ondadır ki, vəhdətdə verməli, obrazlı təfəkkürünü yenidən canlandırmalı olur. Bu isə tərcüməçidən xüsusi bir bacarıq tələb edir"* [10, s.122]. Doğrudan da, yazıçı işi ilə tərcüməçi işi bütün parametrlərdə yaradıcılıq məsələsidir. Onların hər birinin öz funksiyası, görəcəyi məsul iş və qarşısına qoyduğu məqsəd vardır. Yazıçı çatdırmağa çalışdığı problemi, mövzu və ideyanı hadisədən-hadisəyə sistemli keçidlərlə reallaşdırır. Tərcüməçinin məsuliyyəti və işi isə həmin əsərin qayəsini, yazıçının demək istədiklərini dil və üslub, sənətkarlıq elementlərini qoruyub tərcüməçi vəzifəsini yerinə yetirməkdir. Burada mövzuya və yazıçı üslubuna sədaqət tərcüməçi məsuliyyətini diqqət önünə gətirir və yaradıcılığın digər bir tipini faktlaşdırır.

Elmi-nəzəri fikri məşğul edən məsələlər sırasında tərcümə nəzəriyyəsinin ortaya qoyduğu konseptlər mühümdür və mahiyyəti aydınlaşdırmağa hesablanmışdır. İstər elmi, istərsə bədii tərcümənin müvəffəqiyyətli, təsirli, uğurlu alınması üçün tərcüməçi səriştəsi, tərcüməçilik istedadı müstəsna funksiya ilə diqqət önünə gəlir. Burada mövzunun və ruhun doğmalığı da bir tərəf olaraq özünü göstərir. Elmi əsərlərin tərcümə prinsipləri barədə söylənən fikir və mülahizələr elmi əsərlərin özündən doğan fikir və münasibət aydınlığına, konkretliyə bağlanır. Ədəbi-bədii əsərlərdə isə bu bir qədər fərqliliklə, bədii ricət, dil və üslub məsələlərinin hərəkətliliyi, bədii pafos, yüksək erudusiya qabiliyyətinin boy göstərməsinə bağlanır. Məna dəqiqliyi, tərcümə olunan əsərdəki fikirlərin, anlayışların dürüst və aydın ifadəsi vacib şərtlərdəndir. Elmi və bədi mətnin tərcüməsində dil gözəlliyi, ifadə səlisliyi əsas olan tərəf kimi diqqət önündə saxlanır. Tərcümənin özünün çətinliyi, iş prosesinin ortaya qoyduğu reallıq tərcüməçini axtarışlara kökləyir.

Tərcümə böyük diqqət, səy, zəhmət tələb edən mürəkkəb prosesdir. Burada tərcümənin özünün ortaya qoyduğu tələblər var ki, ona əməl olunmalıdır. Yaradıcılıq işi və nəzəriyyəsi ortaqlığında uğurluluq təmin olunur. Tərcümə nəzəriyyəçiləri müəyyən dövrdə tərcümə olunmuş əsərləri dilçilik və ədəbiyyatşünaslıq nöqteyi-nəzərindən təhlil edərək ümumi mənzərəni diqqət önünə gətirir. Əldə etdiyi nəticələr

əsasında dövrün dil normalarına uyğun  mülahizələr yürütməklə özlərinin əlavələrini edirlər. Müxtəlif zaman kəsiklərində tərcümə olunmuş mətn nümunələri (bir mətnin ayrı-ayrı zamnlarda tərcüməsi) tipoloji yanaşmalarda dilçilik və ədəbiyyatşünaslıq müstəvisində nəzəri mülahizələrin dolğunluğu üçün əsas olur. Dünya ədəbiyyatının görkəmli nümayəndələrindən olan V.Höte "tərcüməçinin nöqsanları haqqında bütün söz-söhbətlərə baxmayaraq tərcüməçinin əməyi (zəhməti) kainatı bir yerə bağlayan (toplayan) ən vacib və ən layiqli işlərdən biri olub və qalmaqdadır" deyirdi. Təbii ki, müxtəlifliklər, fikir ayrılıqları tərcümə örnəklərində çatışmamazlıqlara da yol açır. Bütün bunlara baxmayaraq, tərcüməçi işi gərəkli və savab iş kimi bəşəri düşüncəndə özünü göstərən uğurların nümunəsi olaraq böyük önəm qazanır.

Tərcümə nəzəriyyəsi orijinalla tərcümə arasında münasibət qanunauyğunluqlarına xüsusi həssaslıqla yanaşmaqdan əlavə, elmi dəlilləri ümumiləşdirmək məsələsini də bir tərəf kimi əsas götürür. Bütün bunlar tərcümə praktikasına və onun ortaya qoyduğu zənginlik təcrübəsinə bağlanır. Bədii tərcümə nəzəriyyəsi mürəkkəbliklərlə, fikir müxtəlifliklərinin rəngarənglikləri ilə diqqət önünə gəlir. Orijinaldan tərcümə məsələsi bunu öz mahiyyətində qaçılmaz edir. Tərcüməçi mətnin emosional xüsusiyyətlərini, mətnin üslubi rəngarəngliyini, fikrin adekvat şəkildə çatdırılmasının məqamlarını əvvəldən axıra qədər nəzərə almaqla işə köklənir. Burada tərcüməçinin mətnə sədaqəti, yazıçı ruhunu mətn boyu qoruya bilmək bacarığı mühüm şərtdir. Müəllifin təsəvvürləri, epizod və hadisə səviyyəsində tərcümənin polifonik xarakterindən gələnlər biri digərini tamamlamalıdır. Tərcüməçi//müəllif//oxucu timsalımda olanlat bütünlükdə tərcümənin uşurluluq dərəcəsini ortaya qoyur. Müəllifin yaradıcılıq potensiyası, düşüncəsini reallaşdırmasının imkanları tərcümə prosesində qorunmalı, gözlənilməli məsələlərdir. Tərcümə özününküləşdirilməsi elmi-nəzəri fikirdə əlavə qənaətlərin, mübahisələrin ortaya çıxmasına şərait yaradır. N.V.Qoqol mükəmməl tərcümə məsələsindən söhbət açaraq *"burada mütərcim elə hərəkət etmişdir ki, onu görmək olmur. O, elə şəffaf bir şüşəyə çevrilmişdir ki, sanki şüşə yoxdur"* [132, s.64] qənaətinə gəlir. Bu isə özlüyündə tərcüməçi istedadına bağlanır. C.Q.Bayronun əsərlərinin Azərbaycan dilinə

tərcüməsinin örnəkləri də bu baxımdan xüsusi özünəməxsusluq faktorları ilə xarakterizə olunur.

Ümumiyyətlə, təhlillərdə tərcüməçinin rolu və onun gördüyü işin mahiyyəti müxtəlif aspektləri ilə diqqət önünə gəlir:

a) tərcümə nəzəriyyəsində tərcümə işinin mahiyyəti orijinalla tərcümə arasında leksik uyğunluğun və adekvatlığın müəyyənləşməsi, tərcümənin orijinalın bədii-estetik funksiyasını, ideya-məzmun xüsusiyyətlərini hansı səviyyədə qoruyub saxlamasını müəyyənləşdirməyə bağlamır. Tərcümə praktikası baxımından təhlillər ayrı-ayrı əsərlər və bütünlükdə müəyyən zaman kəsiyində görülmüş işlər əsasında ümumiləşdirilir. Prosesin kömək məqsədi ilə elmi-nəzəri konsepti hazırlanır;

b) tərcüməçilikdə orijinalla tərcümə nümunəsi arasında tipoloji təhlillərin müxtəlif parametrlər üzərində aparılması işin bədii-estetik funksiyasını, yazıçı idealının dərki və onun çatdırılması məsələsini faktlaşdırır. Aparılan təhlillər bunu mahiyyət məsələsi olaraq diqqət önündə saxlayır;

c) görülən işlərin praktik məzmunu tərcümə prinsiplərini formalaşdırmağa, problemləri ətrafında dolğun qənaətlərə gəlməyə əsas olur;

ç) tərcüməçiliklə bağlı aparılan tədqiqatlar bu müstəvidə elmi bazanın yaranması, əsaslı mənbə funksiyası yerinə yetirmək baxımından həm tərcümə işinə, həm də tərcüməşünaslığa yardımçı olur.

Dünya ədəbiyyatının əbədiyaşar örnəklərinin ayrı-ayrı xalqların dilinə tərcüməsi ilə həmin xalqlar səviyyəsində özününküləşməsi mədəni əlaqələrin tarixi-dinamik mənzərəsini diqqət önünə gətirir. Hər bir tərcümə mətni onun məzmununa bağlanan hadisələrin cərəyan etdiyi mühit, həmin abudəni yaradan sənətkarın məxsus olduğu etnosun həyat tərzi, adət-ənənəsi, məişəti, tarixi haqqında bilgi verə bilmək gücü ilə də səciyyələnir. Bütün bunların tərcümədə nəzərə alınması tərcüməçi məsuliyyətini və səriştəsini, milli koloriti saxlamaq və çatdırmaq imkanlarını diqqət önünə gətirir. Bədii əsərlər hər şeydən əvvəl etnomədəni mövcudluğun hadisəsi olaraq sənətkar və mühit çərçivəsində olanların portretləşməsi, yazı nümunəsinə çevrilməsidir. Tərcümə nümunəsi olaraq digər xalqların ədəbiyyat faktına çevrilməsi isə bəşər mədəniyyətinə artan marağı özünə işarələyir.

Tərcümə nəzəriyyəsinin aktual problemlərdən biri tərcümənin adekvatlılığı məsələsidir. Xalqın məişət və yaşayışında olan məsələlərin oxucuya hansı şəkildə və necə çatdırılması da ciddi problemlərdən sayılır. Tərcüməşünaslığın əsas normaları (ekvivalent, janr-üslub, praqmatika, konvensional) özü ilə birgə normativ kateqoriyaları (ekvivalentlik, adekvatlıq, variantlılıq, orijinal mətnin tərcümə üsulu və s.) bütün aspektləri ilə tərcümə prosesinin məzmununu sərgiləmək məramı ilə səciyyələnir. Orijinalın və tərcümənin məna yaxınlığı, janr-üslub ekivalentliliyi, ədəbi dəyəri işin uğurluluğunu faktlaşdırır. Tərcümə bu tip müqayisə və parametrlərdə tərcüməşünaslıqda qiymətini alır. Bütün bunlar tərcümə prosesində ən çox istifadə olunan müqayisəli metodla müəyyənlik qazanır. Orijinalla tərcümə arasında münasibət izahat və ümumiləşdirmələrlə aydınlaşır. Burada orijinal və tərcümə ilə yanaşı, müxtəlif lüğət və tərcümə nəzəriyyəsinə dair ədəbiyyatlar da funksional çəkisi ilə diqqət önünə gəlir.

Dilçilikdə bir sıra tədqiqat metodu vardır. Düzgün mülahizələr yürütmək, bədii-linqvistik baxımdan yaxınlıq və fərqini müəyyənləşdirmək üçün ən münasib üsul tarixi-müqayisəli metodun prinsiplərindən yararlanmaqdır. Görkəmli filoloqlar, ədəbiyyatşünaslar, tərcüməçilər bu sahədə zəngin təcrübəyə yiyələnmişlər. Müxtəlif zaman kəsiklərində yaranmış bədii nümunələrin hadisə və əhvalatları təqdim üsulları, müəllif qayəsinin nələrə köklənməsi məsələləri metodoloji baxımdan nəzəri konseptləri diqqət önünə gətirir. Tərcümə nəzəriyyəsində, eləcə də tərcümə işində də mahiyyət belədir. Başqa dillərdən Azərbaycan dilinə tərcümə olunan ədəbi əsərlərin sayı xeyli artdığı kimi, Azərbaycan yazıçı və alimlərinin əsərlərinin başqa dillərə tərcüməsi də ciddi zənginləşmələrlə səciyyələnir. Azərbaycanda ingiliscədən ilk bədii tərcümələr XIX əsrin sonu XX əsrin əvvəllərinə təsadüf edir. Təxminən yüz illik zaman miqyasında görülən böyük işlər keyfiyyət və kəmiyyət faktları ilə nikbin təsəvvür formalaşdırmışdır. Onu da əlavə edək ki, bu tərcümələr daha çox ikinci dil vasitəsilə (rus dili) reallaşmışdır. Sovetlər dönəmində uzun müddət dünya ədəbiyyatının, xüsusən Avropa klassiklərininin əsərləri rus dilindən tərcümə ilə Azərbaycan oxucusuna çatdırılmışdır. Respublikamızın müstəqilliyi mədəni bağlantıların bütün sahələrində olduğu kimi, tərcümə baxımından da gərəkli addımlar atmağa şərait yaratdı. Avropa

və bütünlükdə dünya ədəbiyyatının ən yaxşı örnəklərinin orijinaldan tərcüməsi prosesi başlamışdır. Bu istiqamətdə həm də ciddi elmi baza yaranmışdır. Müxtəlif dillərə tərcümənin özünəməxsus ənənəsi formalaşmışdır ki, bu da qarşılıqlı əlaqələri diqqət önünə gətirir.

Əvvəlki dönəmlərdəki təbdil (və ya sərbəst tərcümə) artıq öz yerini kamil tərcüməyə vermişdir. Düzdür, bəzi hallarda tərcümədə sərbəstlik ünsürlərinə təsadüf edilir. Bunlar daha çox tərcümə olunan ədəbiyyatın mahiyyətindən və tərcüməçinin şəxsi keyfiyyətindən irəli gəlir. Dürüst tərcümə ana dilimizin qanun-qaydalarına ciddi əməl etmə ilə şərtlənir. Tərcümə mədəni proses olaraq ifratçılıqdan uzaq konkret şəraitə bağlanır. Əks təqdirdə sərbəst, ya da hərfi tərcüməyə meyillənmə özünü göstərir. Tərcümə prosesində bəzən obrazlı ifadələrin çatdırılmasının (qarşılığının tapılmasının) çətinliyi yaranır. Adekvatın tapılması isə bir istiqamətdə tərcüməçi səriştəsinə, dil imkanlarından yüksək ustalıqla istifadə edə bilmək bacarığına bağlanır. Bütün bunlar bədii tərcümədəki (eləcə də tərcümə nəzəiyyəsindəki) çeşidliliyi, mürəkkəbliyi diqqət önünə gətirir.

Orijinalın dilini bilmə, bədii təfəkkürə, yüksək təfəkkür intelleksiyasına malik olma tərcümə prosesinin özünə bir əlvanlıq qatır. Dilin frazemlər örtüyü özlüyündə yaradıcı yanaşmanı qaçılmaz edir. Müstəqil tərcümənin mümkün olmadığı vəziyyətdə məcazlar sisteminin digər dil variantında onu əvəzləyə biləcək söz tutumlarından istifadə ortaya çıxır. Tərcümədən tərcümədə orijinal alternativ variant olaraq diqqət önünə gəlir. Bədii əsərin tərcüməsi prosesində bir sıra incə, zərif, sirli hallara rast gəlinir. Elə obrazlı ifadələr, təşbehlər və idiomalar qarşıya çıxır ki, onların müstəqil tərcüməsi mümkün deyil. Belə hallarda həmin ifadə və idiomaların başqa dillərdə necə verildiyini də nəzərə alaraq, müqayisələr aparılmalıdır. *"Başqa dildə sətri tərcümədən istifadə edəndə idiomlar, mürəkkəb psixoloji ifadələr kimi hallara rast gəldikdə mütləq orijinala müraciət etmək lazımdır"* [91, s.9]. Antik fəlsəfi fikrin görkəmli nümayəndələrinin (Sokrat, Platon, Aristotel və s.) əsərləri kəlmə-kəlmə tərcümə olunmuşdu. Sonrakı çağlarda tərcümənin dürüst olmasından çox, orijinaldakı qədər qüvvətli və gözəl olmasına fikir verimişdir. Bütün bunlar tərcümə nəzəriyyəsində müxtəlif səpkili müzakirələrə yol açmışdır. Məsələnin mahiyyətində iki istiqamət

tərcümədə dürüst olma və orijinaldakı qədər təsiredici funksiyası diqqət önünə gəlir. Tərcümədəki bədii-estetik funksiyanın nəzərə alınması bir istiqamətdə tərcüməçinin etnokulturoloji mühitə köklənən təfəkkür intelleksiyasına bağlanır.

Dünyanın qədim və zəngin ədəbiyyatlarından olan Azərbaycan ədəbiyyatının tarixində ərəbdilli Azərbaycan ədəbiyyatı, farsdilli Azərbaycan ədəbiyyatı mərhələləri vardır. Cığatay, rus, fransız və s. dillərdə yaranan nümunələri də buraya əlavə etdikdə mahiyyət daha da böyüyür. Özgə dildə yazmaq məcburiyyəti ilə üzləşən yazarların əsərlərinin Azərbaycan dilinə tərcüməsi özü bir problemdir. Trəcüməşünaslıqda bu baxımdan gərəkli addımlar atılmışdır. A.Səhhətin bu sahədəki fəaliyyəti sonrakı dönəmlərin tərcümə işi üçün həmişə örnək olmuşdur. Görkəmli ədibin tərcümələrində göstərdiyi bacarıq orijinal qədər qüvvətli və təsirli olma təsəvvürünü diqqət önünə gətirir.

Azərbaycanda praktik tərcümə qədim və zəngin ənənələrə malikdir. Klassik qərb dillərindən (yunan, roma, latın), ingilisdilli ədəbiyyatdan kifayət qədər tərcümə örnəkləri vardır. Zəngin praktik ənənəyə malik Azərbaycan tərcüməşünaslığı ilə bağlı nəzəri araşdırmalara son dövrlərdə maraq daha da artmaqdadır. İ.Rəhimovun, Ə.Rzanın, A.Aslanovun, Z.Ağayevin, Ş.Xəlillin, Ü.Bədəlbəylinin və başqalarının elmi araşdırmaları buna nümunədir. Azərbaycan – ingilis ədəbi əlaqələrinin köməyilə dilimizə tərcümə olunan ingilis ədiblərinin əsərlərinin tərcümə xüsusiyyətləri sahəsində aparılan nəzəri təhlillər mühüm önəm daşıyır. Məsələn, Sevinc Həmzəyeva tərcümənin spesifiklik məqamlarına diqqət yetirməklə ədəbi əlaqələrin inkişafındakı roluna xüsusi həssaslıq göstərir.

Klassik Azərbaycan ədəbi-mədəni mühitindəki (orta əsrlər) tərcümə örnəklərini hərfi tərcümə, əslinə uyğun tərcümə, sərbəst-yaradıcı tərcümə adı ilə üç qrupa ayırmaq və bu kontekstdə təhlillər aparmaq gərəyi yaranır. Əslinə uyğun tərcümə daha çox nəsr nümunələrinin tərcüməsi ilə əlaqələnir. Müasir tərcümə nəzəriyyəsində “adekvat tərcümə” adlanan bu prinsipə əməl edən tərcüməçilər orijinalın məzmununa sadiq qalmağa çalışmış, onu mümkün qədər dəqiq çevirməyə cəhd göstərmişdilər. Azərbaycan ədəbiyyatının XVI əsrə aid tərcümə nümunələrində və sonrakı zaman kəsiklərində bu tip tərcümə örnəkləri kifayət qədərdir. Sərbəst-yaradıcı tərcümənin də

orta yüzilliklərdə geniş yayılması ənənəsi özünü göstərir. Poetik əsərlərin, tarixə aid kitabların tərcüməsi sahəsində gərəkli işlər görülmüşdür. *"Ərəb xilafətinin ən qüdrətli dövründə tərcümə sənəti daha geniş yayılmağa başlayır. Bu dövrün tərcümə sənətində iki başlıca prinsip gözlənilmişdir: 1) hərfi tərcümə prinsipi, 2) sərbəst tərcümə prinsipi"* [81, s.32]. Tərcümənin bir mədəniyyət hadisəsi olaraq dinamikası özü ilə birgə onun prinsiplərində nəzərə çarpan özünəməxsusluqların ortaya çıxmasını da qaçılmaz etmişdir. Azərbaycanda hərfi tərcümə "Quranın" tərcüməsilə başlanmışdır.

İngilisdilli ədəbiyyatdan Azərbaycan dilinə tərcümələrin zəngin təcrübə bazası formalaşmışdır. Əlimizdə olan çoxsaylı əsərlərin tərcüməsi bunun nümunəsidir. Tarixi, nəzəri, praktik, metodik aspektləri ilə ciddi mahiyyət daşıyan mövcud tərcümə nümunələri linqvistik adekvatlığın müəyyənləşməsini bir zərurət olaraq qarşıya qoyur. Prosesin ümumi dinamik mənzərəsi tərcümənin poetexnoloji aspektlərində boy göstərən mənəzərəni aydınlaşdırmaq üçün də əsaslı fakta çevrilir. Azərbaycan və dünya tərcüməşünaslığı kontekstində tərcümə nəzəriyyəsi və tərcümə prinsipləri ilə bağlı elmi-nəzəri bazanın mükəmməlləşməsini faktlaşdırır. Zəngin bədii-estetik ənənələrə malik olan ingilis ədəbiyyatından Azərbaycan dilinə edilən tərcümələrdəki linqvistik adekvatlığı müəyyənləşdirmək, nəsr əsərlərinin və poeziya nümunələrinin Azərbaycan dilində oxucuda necə təsəvvür yaratmasının müqayisəli şəkildə təhlil olunması zərurət olaraq tərcüməşünaslığın qarşısında dayanır. C.Q.Bayron və digər müəlliflərin əsərlərinin ingilisdilli ədəbiyyatdan Azərbaycan dilinə edilən tərcümələrin linqvistik adekvatlıq xüsusiyyətlərini araşdırmaq müasir elmi-nəzəri fikrin qarşısında duran aktual problemlərdəndir. Orijinal mətnlə tərcümə mətnlərinin müqayisəli tipoloji təhlili tərcümənin nəzəri konseptində dil və üslub məsələlərinin funksional rolunu aydınlaşdırmaq üçün mühüm önəm daşıyır.

Ümumiyyətlə, bütün dillərdə olduğu kimi, ingilis dilindən Azərbaycan dilinə tərcümədə də dilin üslubi imkanları, fonopoetik, morfopoetik sistemi, sintaktik səviyyənin mətni ehtiva və əks etdirmə imkanları axıra qədər diqqət önündə saxlanır. Leksik, morfoloji, sintaktik, üslubi xüsusiyyətlərin bir prinsip olaraq qorunuşu mətnin tərcümə uğurluluğunu xarakterizə edir. Tərcümə zamanı orijinalın (ingilis dilində mətnin) bəzi leksik və qrammatik elementləri adekvatlıq timsalında müxtəlif

variantlara müraciəti də qaçılmaz edir. Bədii əsərlərdə sözün, söz birləşməsinin, cümlənin mənası bəzən onların hərfi mənasında gizləndiyindən müəllifin obrazyaratmanın mətn səviyyəsində müxtəlif üsul və vasitələrindən istifadəsi bir zərurət olaraq görünür. Təhkiyə manerası, onun xüsusi intonasiyasını təşkil edən vasitə və elementlər bədii mətnin formulasını çeşidli ifadə və deyim özünəməxsusluqları ilə bəzəyir. Sözün məna yaddaşı, nitq etiketləri, kanonik sistemin mükəmməlliyi mətn fenomenliyini təşkil edən bütövü işarələyir. Çünki bədii söz sənətində hər bir element mənayaratmanın ümumi məramına köklənir və işarələnmiş mədəniyyət kodu olaraq zaman və məkan xronotoplarına, müəllif dünyagörüşünü, həyat təcrübəsini, gerçəkliyi əks etdirməyə köklənir.

Tərcümə prosesində bütün əvəzləmələr, demək olar, orijinal mətnə uyğun olaraq təhlil edilir. Orijinal dilində olan söz, söz formasının tərcümə dilində digər söz forması ilə əvəzlənməsi (nitq hissələrinin, cümlə üzvlərinin, bəzi hallarda söz qruplarının) tərcümə dilində başqa sintaktik funksiyaların özünəməxsusluq çalarlarının ortaya çıxması üçün əsas olur. Bu isə digər müstəvidə dillərin qrammatik strukturunda olan fərqlərə bağlanır. C.Q.Bayron yaradıcılığının Azərbaycan dilinə tərcüməsinin üslubi xüsusiyyətləri ədəbiyyat və mədəniyyət rəngarəngliyində Şərq və Qərb timsalında bədii düşüncənin özünəməxsusluq modellərini diqqət önünə gətirir. Geniş anlamda mədəniyyətlərarası bağlantıları, sintaqmatik düzümün diaxroniyasını, tarixi inkişafın mədəniyyət tiplərində özünü göstərən yenilənmələri, dil fakturasında reallaşan təfəkkür intelleksiyasını əhatələyir. İlk tərcümə nümunələrində dünyəvi mətnlərdə sərbəstliyin, dini mətnlərdə sözbəsöz tərcümə prinsipinin bir qanunauyğunluq olaraq qorunuşu var. Hüquqi, siyasi, diplomatiya və ticarət sahəsində yazılı mətnlərin qədim yunan mədəniyyətindən ərəb və farscaya necə çevrilməsi bunun bariz nümunəsidir.

XII-XIII əsrlərdən başlayaraq yunancadan Avropa dillərinə, latıncaya və başqa Qərb dillərinə tərcümələr edilmişdir. Azərbaycanda XVI əsrdən başlayaraq tərcümə örnəklərindən müxtəlif səviyyələrdə bəhrələnmişlər. Məsələn, orta əsrlərdə Rojer Bekon (“Opus Majus”), Dante (“Pir”), M.Servantes (“Don Kixot”) və s. ədiblər tərcümənin mühümlüyünə diqqət yetirmişlər. Alman yazıçısı Vilamovits Möllendorf “Tərcümə nədir?” məqaləsində doğru bədii tərcümənin mümkünlüyünü müdafiə etmiş

və bunu C.Q.Bayron, V.Höte, Şiller və H.Heynedən edilən tərcümələrə əsasən söyləmişdir.

Tərcümə etmənin problemi ətrafında sistemli təhlillər son dövrlərdə daha geniş faktura ilə özünü göstərir. Dünya və Avropa tərcüməşünaslığında özünü göstərən tendensiyaların dinamikası bunun örnəyidir. XX əsrin sonlarında Azərbaycanda tərcümə məsələlərinə, o cümlədən ingilisdilli ədəbiyyatdan və Avropa dillərindən (ingilis, alman, fransız, italyan və s.) tərcüməyə diqqət nəzərə çarpacaq dərəcədə artmışdır. Bu artım özlüyündə tərcümənin funksiyalarında mahiyyət məsələsində əlavələrə yol açmışdır. Mədəniyyət, sənət və ədəbiyyatda baş verənlərə həssaslıq dünya səviyyəsində olanları izləməyi qaçılmaz etmişdir. Sənətkar üslubunun qorunuşu, tərcümənin prinsiplərinin yüksək səviyyədə gözlənməsi, daha səmərəli üsullardan istifadə müvvəffəqiyyətli alınma üçün əsas olur. Mütərcim forma, məzmun, mətnin strukturu, mətnin ritmi, nitq janrları və s. kimi məsələlərə diqqət yetirməklə məqsədini reallaşdırır. Məsələn, ingilisdilli ədəbiyyatı öyrənmək baxımından "bu tərcüməni ("Kitabi-müqəddəs") yaxşı bilmək tələb olunur. Bu kitab anqlo-sakson dövründən başlayaraq bütün mərhələlərdə yenidən ingiliscəyə tərcümə edilmişdir" [96, s.12]. Çünki "Kitabi-müqəddəs"in tərcümələri İngiltərədə tərcümənin nəzəri və praktik prinsiplərinin işlənməsinə güclü təkan vermişdir. Belə zəngin nəzəri və praktik ənənələri olan ingilis tərcüməşünaslığının təcrübəsindən Azərbaycan mütərcimləri də lazımı qədər bəhrələnmişlər.

Tərcümə bütün parametrlərdə ruhi-idraki, bədii-estetik düşüncə hadisəsidir. Mətnin müəyyənləşdirdiyi formal strukturdan, ayrı-ayrı hadisə və əhvalat keçidlərinə, gerçəkliyi əks etdirmədən janr səviyyəsinə qədər nə varsa hamısı müəllif qayəsinə dayanır. Tərcümə isə mövcud mətn sərhədləri daxilində prosesin gedişi və onun reallığı hadisəsidir. Mətnin məqsədi ilə tərcüməçi məramı arasındakı bağlantılar, hadisə və əhvalatların dil komponentləri müstəvisində simmetrial düzümü, orijinal mətnin struktur səviyyəsinin sintaktik fiqurların hərəkətliliyində yaratdığı özünəməxsusluq tərcümə və orijinal müqayisələrini təhlilə gətirməyi zəruriləşdirir.

Ədəbi və elmi düşüncə tariximizin təxminən yüz illik mərhələsində ingilis ədəbiyyatının, xüsusilə onun korifeylərindən V.Şekspirin, C.Svift, C.Q.Bayron,

U.Bleyk, Ç.Dikkensin və onlarla başqalarının bədii sənətə gətirdiyi bəşəri ideyalar bədii tərcümə və elmi-nəzəri təhlillər üçün problem mövzuya çevrilmişdir. Mənbənin, orijinalın nə dərəcədə tərcümədə ehtiva olunması tərcüməçi bacarığına bağlanır. Ona görə də tərcümə ayrıca yaradıcılıq sahəsi kimi ciddi mürəkkəbliklərlə, müəyyənləşmiş tərcümə prinsip və modellərinin özünəməxsusluqları ilə səciyyələnir. Tərcümə dilinin izahlı lüğəti, məlumat kitabçaları və tərcümə etdiyi əsərlə əlaqədar olaraq digər mənbələr və s. prosesin ləngərliliyini faktlaşdırır. Ana dilinin ruhunu, rişəsini bütün incəliklərinə qədər varlığında daşımadan orijinalı çatdırmaq üçün heç bir vasitə və imkan işə kömək edə bilməz. Dilin frazemlər örtüyü, məcaz zənginliyi, çeşidli söz qrupları tərcümədə bədii mətnin ümumi axarını müəyyənləşdirir. *"İzahlı dilçilik terminləri"nin müəllifləri tərcümənin nə olduğu haqqında ciddi mülahizərə yürüdərək, dildaxili tərcümə (bir dilə məxsus sözün həmin dilə məxsus sözlərlə tərcüməsi), izahlı tərcümə (dilin sözlərinin söz işarələrilə çevirməsi), interlinqvistik tərcümə (bir dildə ifadə edilmiş məzmunu başqa dil vasitəsilə ifadə), maşın tərcüməsi (elektron maşınların verilən proqram əsasında mətni avtomatik tərcümə etməsi), bədii tərcümə (əcnəbi dilə məxsus mətnin incəliklərini mühafizə edən tərcümə)* [1, s.4] ətrafında qənaətlərini ümumiləşdirmişlər.

XX əsrin 50-ci illərindən etibarən ingilis dilindən Azərbaycan dilinə tərcümənin dinamik mənzərəsi bütün təfsilatları ilə özünü göstərməyə başlayır. Ənvər Rza, Qılıncxan Bayramlı, Sabir Mustafa, Zeydulla Ağayev, İsmət Rüstəmov, Şahin Xəlilli, Əhəd Muradxanlı və başqalarının işləri buna nümunədir. Azərbaycan oxucusu V.Şekspir, C.Q.Bayron, A.Kristi, R.Berns, C.Oldric, R.Kiplinq və s. kimi sənətkarların əsərlərini orijinaldan tərcümə əsasında öyrənirlər.

Azərbaycan-ingilis ədəbi əlaqələrinin öyrənilməsi ilə bağlı müxtəlif səpkili işlər görülmüş, məqalə və monoqrafiya səviyyəsində nəzəri-tipoloji araşdırmalara üstünlük vermişlər. Məsələn, İ.Rəhimov "Bayronun Şərq poemalarında Şərq sözləri", Ə.Rzayev "İngilis poeziyasında Şərq sözləri", Ş.Xəlilli "Ceyms Oldric yaradıcılığında Azərbaycan mövzusu", "Ədəbi əlaqələr işığında", "Klassik poeziya və ədəbi əlaqələr", "Azərbaycan- İngilis ədəbi əlaqələri folklor materialları əsasında", Tünzalə Yaqubova "Qərbi Avropa və Şərq romantizminin müqayisəli tipologiyası: Bayron və Cavid",

Ellada Gərayzadə "Azərbaycanda Bayronşünaslığın yaranması və inkişafı" və s. kimi kitab, namizədlik işi və monoqrafiyaların yazılması ədəbi bağlantıların dinamik mənzərəsini səciyyələndirir. Leyli Əliyevanın Azərbaycan klassiklərinin ingilis dilinə tərcüməsi ilə bağlı araşdırmaları da bura daxildir. Azərbaycan-ingilis ədəbi əlaqələrinəin spektrlərini, zənginlik mənzərəsini aydınlaşdırmaq baxımından sistemli təhlillərə daha çox ehtiyac duyulur. Burada ayrı-ayrı sənətkarların yaradıcılığı timsalında olanlardan əsərlərin tərcüməsi məsələsinə qədər bir çeşidlilik özünü göstərir.

Tərcümə mədəniyyət hadisəsi olaraq müqayisələrə, tipoloji yanaşmalara əsaslı şərait yaradır. Məsələn, Azərbaycan ədəbiyyatının bir çox sənətkarlarının yaradıcılığında V.Şekspir, C.Bayron dəsti-xətti və s. mövzularda aparılan təhlillər bunun örnəyidir. Eləcə də Azərbaycan ədəbiyyatından gələn təsirlər anlamında N.Gəncəvi yaradıcılığı ilə bağlı aparılan tipoloji təhlillər bunun tipik nümunəsidir. Dünya şöhrətli şair S.Vurğun "V.Şekspiri öyrənmədən yaxşı dramaturq olmaq qeyri-mümkündür" deyirdi. "Səməd Vurğunun Vilyam Şekspirdən bir ənənə olaraq, öz ideyalarını ifadə etmək üçün tarixi faktların əsiri olub-qalmamağı, bədii yaradıcılıqla həqiqətin doğru ifadəsini vermək üçün hadisələrdən yaradıcı şəkildə istifadə etməyi, ümumiləşdirmə yolu ilə hadisələri bir-birinə sənətkarlıqla əlaqələndirməyi öyrənməyi məsləhət görmüşdür" [93]. H.Cavidin, C.Cabbarlının əsərlərində də V.Şekspirdən gələn təsirlər müxtəlif səviyyələrdə özünü göstərir. Bütün bunların janr, dil və üslub xüsusiyyətləri səviyyəsində, eləcə də mövzu problematikası müstəvisində araşdırılması ədəbi bağlantılarda daha geniş aspektlərin ortaya çıxmasını aktuallaşdırır.

C.Q.Bayron və S.Vurğun, C.Q.Bayron və H.Cavid, C.Q. Bayron və C.Cabbarlı baxımından yanaşmalar mövzu, hadisə, əhvalat, süjet, üslub və s. müstəvisində sistemli təhlillərə şərait yaradır. C.Q.Bayron və H.Cavid yaxınlığı *"Qabil" və "Şeyx Sənan" poeması timsalında ideya və ruh bağlantılarını diqqət önünə gətirir. "Qabil" şifahi və yazılı düşüncədə çox əski çağların təsəvvürünə bağlanan demonizmin təqdiminə köklənmişdir. Con Miltonun (XVII) "İtirilmiş cənnət" poemasında iblis və insan qarşıdurmasında mahiyyətə diqqəti yönəldir. "Bayron Qabil və Lütsiferin*

*mükaliməsini diqqət önünə çəkir"* [68, 65] və mifoloji yaddaşdan gələnlər timsalında ona ictimai məzmun verir.

Məlum olduğu kimi, ilk Moskva tərcümə müşavirəsi (1933) "Интернациональная литература" nəşriyyatının yaradılması üçün əsas oldu. Dünya ədəbiyyatının, eləcə də Azərbaycan ədəbiyyatının xarici dillərə və Azərbaycan dilinə tərcümə olunması işi xeyli sürətləndi. *"Şərq ədiblərinin Avropa dillərinə tərcümələrindən sonra Qərb ədəbiyyatına Şərq ədəbiyyatının böyük müsbət təsiri oldu. Eyni zamanda tərcümə vasitəsilə müxtəlif dilli xalqların bir-birini daha yaxından tanıması bir-birinin ədəbiyyatının, incəsənətinin inkişafına müsbət təsir göstərdi"* [84, s.4]. Azərbaycanda Avropa dillərindən tərcümə işi əsasən XX əsrin əvvəllərindən başlayır. Bu dövrdə Avropa dillərindən edilən tərcümələrin əksəriyyəti orijinaldan olunmuş tərcümələrdir. Son zamanlar ingilis, alman, fransız və ispan dillərindən tərcümələr daha çox özünə yer alır.

Sənətkarın yaradıcılığının təzahür forması sözdür. M.Füzuli *"sözün əndazəsi o qədər böyükdür ki, müəllimlər sözün məhsulu bildilər duanı, Quranı, vəhyi"* [48, s.183] söyləyirdi. Çünki bütün zamanlarda və bütün məkanlarda hisslər, fikirlər, dünyagörüşlər, nə varsa hamısı söz vasitəsilə reallaşmışdır. Sənətkarın əsərlərindəki özünəməxsusluq onu digərlərindən fərqləndirir. Bu fərqlər özünü sənətkarın söz seçiminə, onun zənginlik imkanlarından hansı səviyyədə yararlanmasına bağlanır. Tərcümədə də belədir, tərcüməçi ilə ədib arasında yaradıcılıq əlaqəsi söz vasidəsi ilə reallaşır. Ədəbi əsərin mənası, sənətkarın hissləri tərcüməki dərkindən və çatdırılmasından keçir. "Tərcümə zor işdir, hər kəs bacarmaz"-dedikdə biz məhz elə bir fəaliyyətdən-prosesdən bəhs edirik ki, bu proses nəticəsində tərcümə mətni yaranır. Tərcümə nəzəriyyəsi də məhz bu prosesdən, yəni bir dildə yazılmış əsərin başqa bir dilə çevrilmə prosesindən bəhs edir" [84, s.8]. Ümumiyyətlə, bir dil vahidlərinin tərcümədə başqa bir dil vahidləri ilə əvəz olunma prosesində psixi və əqli prosesin özündən gələn məqamlar az deyildir. Tərcümə bütünlükdə bunların toplumunda reallaşır.

Tərcümə nəzəriyyəsində dil vahidlərinin fəaliyyət prosesi ayrıca bir istiqamətdir. Dil vahidinin birindən digərinə çevrilməsi özlüyündə mətnin ehtiva etdiyi məzmuna

bağlanmaqla həm də bədiiliyi, səs dalğalanmalarını, bədii pafosu özündə faktlaşdırır. Tərcümə başqa dildə yeni mətn yaranması hadisəsidir. Mütərcimin işi burada mətnin qayəsini, poetik formullar sistemini, yüksək mətn koloritini bir bütöv olaraq təqdim edə bilməkdir. Əlbəttə burada dil vahidləri arasındakı fərqlər və bu fərqliliklərin necə həlli, prosesdə necə yerləşdirilməsidir məsələsi əsas olur. Məxəz və tərcümə dili arasında bərabərlik tərcümənin və tərcüməçinin sənət taleyidir. Orijinaldan və tərcümədən tərcümədə bütün məsələlər mətn məzmununun və onun poetik sisteminin çatdırılması məsələsinin uğurluluğuna bağlanır. Tərcüməçilik məharətində bunlar reallaşır.

Orijinal və tərcümə mətni dil vahidləri formasının fəqliliklərini diqqət önünə gətirir. Mətnin məzmunu, məna qatı hər iki dilin ortaqlığında uğurlu ifadə imkanlarının tapılması ilə reallaşır. İntertekstuallıq və hipertekstuallıq səviyyəsində baş verən prosesin ümumi axarı paradiqmatik düzümün mətn intelleksiyasını faktlaşdırır. İnvariant (mətn çevrilməsindəki oxşarlıqlar) metatekstuallıq baxımından müqayisələrin aparılmasını və bədii qayənin poetik fiqurlar səviyyəsində prosesin gedişini izləməyə imkan yaradır.

Dilçilikdə yazılı və şifahi nitq olduğu kimi, tərcümə nəzəriyyəsində də tərcümə yazılı və şifahi tərcümə adı ilə qruplaşdırılır. Yazılı tərcümə də elmi-bədii tərcümənin geniş yayılmış növüdür. Şifahi tərcümə fasiləli və ardıcıl (sinxron tərcümə) və ikitərəfli tərcümə tipində ümumiləşdirilir. Sətri tərcümə orijinalın dilini bilməyən tərcüməçi üçün yeganə mənbədir. Orijinalda əksini tapan etnik yaddaş, etnokulturoloji sistremin dərki və onun tərcümədə çatdırılması üsulu, tarixi, məişət, adət və ənənə, müəllif üslubu, müəllif dünyagörüşü, etik-estetik prinsiplər, fərdi yaradıcılıq xüsusiyyətləri və s. tərcüməçi timsalında mənimsənilməklə uğurlu reallaşa bilər. Tərcüməçilik özlüyündə bütün paradiqmatik mənzərəsi ilə bir başqa prosesdi və həm də məsuliyyətə bağlanan, trəcüməçi taleyini müəyyənləşdirən yaradıcılıq sahəsidir. Yaradıcı dünyagörüşündən yanr səviyyəsinə, sintaqmatik düzümün hansı struktura hesablanmasına qədər bir əhatəliliklə müəyyənləşir. Rus şairlərinin tərcümələrindən danışan N.Çernışevski (1857) xüsusi olaraq qeyd edirdi ki, *“Avropanın hər bir yeni xalqının tərcümə ədəbiyyatı öz xalqının şüuru inkişafında və ya maarifin və bədii*

*zövqün inkişafında çox mühüm rol oynamışdır. Buna görə də tərcümə ədəbiyyatına yalnız indikindən artıq əhəmiyyət veriləcəyi halda tarixi-ədəbi əsərlər də indiki məhdudiyyət kimi bir qüsurdan qurtarmış olacaqdır"* [72]. Bədii tərcümə işi mədəniyyətlər və xalqlararası bağlantıların ən uğurlu formasıdır. Folklorundan mifinə, eposundan romanına, inam və etiqadlarından tarixinə qədər hamısını əks etdirmək gücündə olan bədii düşüncə tarixin yol yoldaşı olmaqla bütünlükdə ictimai-siyasi, tarixi-mədəni prosesi gələcəyə daşımaq amalına köklənir. Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri M.Mahmudbəyov, E.Sultanov, T.Bayraməlibəyov, A.Səhhət, M.Ə.Sabir, C.Məmədquluzadə və başqaları bədii tərcümə işinə ümumxalq işi kimi baxmışlar. Tərcümə ayrıca bir yaradıcılıq sahəsidir və bədii tərcümə quru, sxolastik, çətin, anlaşılmazlıqdan uzaq poetik, füsunkar cilvələnmələrlə təqdimə köklənir. Məsələn, H.Vəzirovun Şekspirin "Otello" faciəsini azərbaycancaya tərcüməsi ətrafındakı mübahisələr Azərbaycanda tərcümə ənənəsinə olan yanaşmaları sərgiləyir. A.Səhhət tərcümələrinin uğurluluğu müəllif ruhunu, onun yaradıcı istedadını, əsərin poetik sisteminin mətn tipini müəyyənləşdirə bilmək vu bu prinsiolərə köklənmək bacarığından qaynaqlanır. İ.A.Krılovun təmsilləri A.Səhhətin uğurlu tərcümələrində ikinci əbədiyaşarlıq ömrünə qovuşmuşdur. "Sazandalar", "Fil və alabaş", "Zəhmətkeş ayı", "Qara quş və arı" və s. bunun nümunəsidir. A.S.Puşkindən etdiyi "Qafqaz" şeiri, M.Y.Lermontovdan etdiyi "Mtsıri" poeması, M.Qorkinin "Həyatın dibində" pyesindən etdiyi "Məhbusun mahnısı" tərcümələri klassik tərcümə ənənəsinə bağlanır.

Azərbaycan tərcümə ənənəsinin boyartımında S.Vurğunun, M.İbrahimovun, M.Rahimin, H.Mehdinin, R.Rzanın, Ə.Məmmədxanlının, O.Sarıvəllinin, N.Rəfibəylinin, S.Rəhmanın, Ə.Sadığın gərəkli töhfələri olmuşdur. Tərcümədə zəngin kəmiyyət və keyfiyyət göstəriciləri M.Rzaquluzadə, C.Məcnunbəyov, B.Musayev, Ə.Şərif, H.Şərifov, C.Məmmədov, C.Cahanbaxş, M.Seyidzadə, Ə.Ziyatay və başqaları timsalında tərcümə məktəbi səviyyəsində mükəmməllik qazanmışdır. Dünya ədəbiyyatının şedevrləri bu və bu kimi şəxsiyyətlərin tərcüməsi ilə Azərbaycan ədəbi-mədəni mühitinə çatdırılmışdır. Müəllif//tərcüməçi, orijinal və tərcümə arasında olanlar bütünlükdə tərcüməçi istedadına, yaradıcı ruhunun dərkinə və onu təqdim bacarığına bağlanır.

Tərcüməşünaslar tərcümədə iki cür tərcümə üsulu üzərində dayanırlar və vurğulayırlar ki, bir kontekstdə bədii mətn müəllifi tərcümə ilə tərcümə dilinin vətəndaşına çevrilirsə, digər kontekstdə ikinci tərəfin orijinal müəllifinin həyat şəraitinə, dünyagörüşünə, düşüncəsinə uyğunlaşması dayanır. Bütün bunlar isə tərcüməçi ilə reallaşdırılır. Tərcümənin sənət örnəyi kimi qəbul olunması isə bunların ortaqlığında işlərin qurulması ilə müyyən oluna bilər. Bədii tərcümə şəkil və mündəricə, obrazlı təfəkkür, formanın məzmunyaratma funksiyası, nitq janrlarının dinamik mənzərəsi, fonopoetik, morfopoetik sistemin hərəkətliliyi, sintaktik fiqurların kanonik bütövlükdə rolu ilə səciyyələnir. Səs və söz dalğalarının yaratdığı harmoniya bütün parametrlərdə yaradıcı dilinin zənfginliyi və üslub özünəməxsusluğunda mövzunu çatdırma imkanlarına bağlanır. Bədiilik, ahəngdarlıq, orijinalın ritmi mahiyyətin çatdırılmasında tərcüməçinin manevrlərini, onun bunlar səviyyəsində hərəkətliliyini əsas edir.

Dil zamanından, məkanından asılı olmayaraq təbii proseslə səciyyələnir və sözlərin gəlişi (neologizmlər), gedişi (arxaikləşməsi) anlamında rəngarəngliyə yüklənir. Məsələn, vaxtilə ədəbi dilimizdə işlənməyən bir çox sözlər və ifadələr vardır ki, onlar tərcümə vasitəsilə dilimizə daxil olub vətəndaşlıq hüququ qazanmışlar. Dillər arasındakı qarşılıqlı əlaqələrin genişlənməsi və inkişafı bir istiqamətdə tərcümə ilə reallaşır. Ümumiyyət, tərcümə dillər və xalqlar arasında təmasın müstəsna nümunəsidir. Xalqların müxtəlif dönəmlərdəki bədii düşüncəsinin, mədəni intelleksiyasının, etnokulturoloji sisteminin nələrlə səciyyələnməsi tərcümələrdə müəyyənləşir. Görkəmli rus tənqidçisi N.Q.Çernışevski *"tərcümə ədəbiyyatı xalq fikrinin oyanmasına, ən qabaqcıl, mütərəqqi ideyaların yayılmasına xidmət etməlidir"* [91, 48] deyirdi. Doğrudan da, tərcümə xalqlar, düşüncələr, mədəniyyətlər arası bağlantılar üçün müstəsna funksiya imkanlılığı ilə şərtlənir.

Azərbaycan ədəbiyyatında bədii tərcümənin zəngin elmi-nəzəri bazası formalaşmışdır. Tərcümənin normativ və prinsiplərinə köklənən yüksək tərcüməçi nəsli yetişmişdir. Dünya ədəbiyyatının möhtəşəm abidələri onların bədii təfəkkür intelleksiyası ilə geniş auditoriyaya çatdırılmışdır. C.Q.Bayron, V.Şekspir, P.Şelli, V.Hüqo, T.Drayzer, C.Steynbek, D.Defo, Ç.Dikkens, M.Tven və s. kimi ədiblərin

əsərlərinin tərcüməsi buna nümunədir. Ədəbi janrların xüsusiyyətlərinə uyğun olaraq şeiri-şeirlə, nəsri-nəsrlə tərcümə etmək bədii tərcümə işimizdə ənənə halını almışdır. Azərbaycan dilinin zənginliyinin və ədəbiyyatımızda poetik formaların çeşidliliyinin də bu işdə mühüm rolu vardır. Bədii düşüncə özlüyündə bədii zövqü bir zərurət olaraq diqqət önünə gətirir. Başqa dildə yazılmış mətnin məğzi, surət və personajların psixoloji situasiyaları tərcüməçinin bədii zövqü və onun çatdırma üsulları ilə reallaşır. İş prosesindəki maneralar, obrazların mahiyyətinə varmaq və onun düşüncəsi ilə davrana bilmək bacarığı tərcüməçinin zövq və imkanlarını müəyyənləşdirir.

Bədii tərcümənin praktika və nəzəriyyəsində əldə olunmuş zənginlik təcrübəsi normativlərin bir prinsip olaraq qorunuşunu və ondan yararlanmanı bütün səviyyələrdə zəruriləşdirir. Tərcümə tarixi özü ilə bağlı zənginliyə, daha doğrusu, praktika zənginliyində əldə olunan təcrübəyə bağlanır. Nəzəri aspektləri isə tədrici olaraq fikir və mülahizələrdən tərcüməşünaslıq elminin yaranmasına qədər möhtəşəm yolla xarakterizə olunur. İnsan cəmiyyətinin uğurları sırasında müstəsna imkanlılıqla səciyyələnən tərcümə bəşəri xarakterli olub dünya sivilizasiyasına verdiyi möhtəşəm töhfələrlə faktlaşır. Tərcümə bağlantıları, əlaqələri, tərəqqini özündə işarələyir. Zaman, məkan və hərəkət çərçivəsində situasiyaların ümumi axarı mövcud mühit səviyyəsində olanların tərcümə mətninə gətirilməsini zəruriləşdirir. Tərcüməçi bunları əsərin qayə və ruhunda bir proses olaraq reallaşdırır. Məsələn, *"romantiklərə görə poetik tərcümənin qiyməti orijinala deyil, məhz ideala yaxın olmaqla təyin edilir"* [128, s.70] və *"ideal altında romantiklər yüksək, mütləq reallığı başa düşürdülər"* [129, s.37]. Onu da əlavə edək ki, tərcümə məsələsi bədii predmetin yalnız realist, yaxud romantik metoda aid olmasından asılı deyil, burada əsərin janr tələbləri də bir tərəf kimi funksional səciyyə daşıyır.

"Xalqların dostluğu ədəbiyyatların dostluğudur" adı altında Bakıda keçirilən konfrans (1980) bir istiqamətdə tərcümə problemlərinin diqqət önünə gətirilməsi ilə səciyyələnir. Dövrün ictimai-siyasi xadimlərinin əsərləri, bədii ədəbiyyat, dərs kitabları və digər elmi-texniki kitablar timsalında görülən gərəkli işlər mədəni bağlantıların çeşidliliyini sərgiləyir. *"Bütün başqa xalqlarda olduğu kimi, bizdə də tərcümə ədəbiyyatı özünün bütün tarixi ərzində müxtəlif dövrlər keçmiş və nəhayət bu*

*günkü inkişaf yoluna düşmüşdür"* [73, s.23]. Dünya ədəbiyyatının M.Servantes, V.Şekspir, Şiller, Höte, C.Q.Bayron, V.Hüqo, Stendal, G.Mopassan, Flober, İbsen, E.Zolya, H.Heyne və s. kimi görkəmli sənətkarlarının əsərləri Azərbaycan dilinə tərcümə vasitəsi ilə çatdırılmışdır. Demosfen vurğulayırdı ki, *"yaxşı tərcümə həyatın ən qiymətli xəzinəsidir. Çünki o sənə zənginlik bəxş edir. Pis tərcümə ən çirkin adamdan da betərdir"* [65, 3]. Funksional roluna görə tərcümə ədəbiyyatşünaslığın, psixologiyanın, etnoqrafiyanın, dilçiliyin tədqiqt predmetində özünü göstərən ortaqlığa bağlanır və onu ehtivaya köklənir. Bütün bunlar tərcüməşünaslığın ədəbiyyatşünaslıq, psixologiya, etnoqrafiya, dilçilik, tarix və digər elm sahələri ilə tipoloji müstəvidə təhlilə gətirilməsini də zəruriləşdirir.

Azərbaycan tərcümə sənətinin keçib gəldiyi yolda bədii tərcümə ictimai-tarixi şəraitə, ədəbi ənənəyə bağlanan zəngin kəmiyyət, keyfiyyət göstəriciləşri ilə diqqət önünə gəlir. Orta əsrin dərinliklərindən başlanğıcını götürən tərcüməçilik sənət, peşə ənənəsində daim zənginləşmələrlə, rəngarəng örnəklərin tərcüməsi ilə həmişə nikbin təsəvvür formalaşdırmışdır. Bütün tərcümələr xalqların dilinə, mədəniyyətinə həssaslığın nümunəsi kimi nəzər-diqqəti cəlb edir. Bədii və informativ tərcümənin bütün normativləri kateqoriya səıviyyəsində ekvivalentlik, adekvatlıq, variantlılıq müstəvisində tərcümə mətninin invariant kodunu səciyyələndirir. Orijinal mətnin tərcümə üsulu bir kateqoriya olaraq orijinalla davranışa bağlanır. Çünki "tərcümə təkcə şairin, yazıçının nə yazması haqqında yox, eyni zamanda necə yazması barədə də geniş təsəvvür verməlidir" prinsipinireallaşdırır. Nitq fəaliyyətinin bir növü olan tərcüməşünaslıq bu baxımdan dilçiliyin ən aktual və həm də maraqlı sahələrindəndir. Tərcüməşünaslıq tərcümə fəaliyyətinin və tərcümə prosesinin ümumi qanunauyğunluqlarını aydınlaşdırmaq baxımından mükəmməl nəzəri konsepsiya ilə diqqət önünə gəlir. Tərcümə prosesinə daxil olan materialların rəngarəngliyi həm də tərcümənin bir proses olaraq çoxcəhətliliyini zəruriləşdirir.

Ədəbiyyatşünaslığın və dilçiliyin çağdaş mərhələsinin problematiklik mənzərəsində tərcümənin sərgilədiyi məzmun üfiqi və şaquli yanaşmalarda daha ciddi faktura ilə diqqət önünə gəlir. Xalqlar və mədəniyyətlərarası bağlantıların müstəsna gerçəklik kodu olan tərcümə mədəniyyət, tarix, dil, adət-ənənə, yaddaş anlamında

olanları gələcəyə daşımaq kimi müqəddəs missiyaya köklənmişdir. Bütün bunlar fövqəlzamanlıq və fövqəlməkanlıq səviyyəsində tərcümənin artan funksional rolunu diqqət önünə gətirməklə onun həm də elmi-nəzəri konseptini müəyyənləşdirir. İngilis ədəbiyyatının görkəmli nümayəndəsi C.Q.Bayron yaradıcılığının Azərbaycan dilinə tərcüməsinin dil və üslubi xüsusiyyətlərinin problematikası bu kontekstdə sistemli yanaşmalarda mahiyyətin açılmasını bir zərurət olaraq ortaya qoyur.

# II FƏSİL
# C.Q.BAYRONUN "ŞƏRQ POEMALARI"NIN ORİJİNALDAN AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏSİNDƏ DİL XÜSUSİYYƏTLƏRİ

## 2.1. C.Q.Bayron əsərlərinin Azərbaycan dilinə tərcüməsinin ümumi nəzəri aspektləri

C.Q. Bayronun yaradıcılığının Azərbaycan dilinə tərcüməsində ən mühüm problematik məsələlərdən birisi "Şərq poemaları"nın tərcümə müstəvisində dil və üslub xüsusiyyətlərinin aydınlaşmasıdır. Ümumiyyətlə, XVIII əsrdən başlayaraq Şərqə artan maraq əxlaq, mənəviyyat, milli-mədəvi dəyərlər, Şərq mədəniyyəti anlamında nə vardısa hamısını öyrənib mənimsəməyə köklənmişdi. Oksford universitetinin professoru Otte Şult "Şərq bəxşişlər verən, Qərb isə bəəxşişlər alan olmuş və bu bəxşişlərdən Qərb bol-bol yararlanmışdı" söyləyirdi. Mifoloji məktəb, iqtibas nəzəriyyəsi, Fin məktəbi, antropoloji nəzəriyyə, tarixi məktəb və s. kimi məktəb və nəzəriyyələrin Şərqə marağı zəngin mədəniyyət faktlarının öyrənilməsinə həsr olunmuşdu. Qrim qardaşlarının gördükləri böyük işlər bunun bariz örnəyidir. Şərqin möhtəşəm mədəniyyət illustrasiyaları, zəngin ədəbiyyat şedevrləri, mif və folklor nümunələri, etnoqrafik və tarixi yaddaşı və s. hamısı Qərb üçün bir ecazkarlıq nümunəsi hesab edilirdi. C.Q.Bayronun "Şərq poemaları" da bu ecazkarlığa vurğunluğun nəticəsi olaraq yaranmışdı. Türkiyəyə, Yunanıstana, İtaliyaya və s. səfərləri və əsərlərində türk sözlərinə verdiyi önəm, Şərq xaqlarında mövcud olan qəlibləşmiş mövzulara müraciəti, mif, əfsanə və rəvayət örnəklərindən yararlanması bunun bariz nümunəsidir. "Şərq poemaları" C.Q.Bayronun Şərqə heyrətindən doğmuşdur.

Mlum olduğu kimi, erkən orta əsrlərdən başlayaraq Azərbaycan xalqının zəngin mədəni irsi Avropa şərqşünaslarının diqqətini cəlb etmiş, ayrı-ayrı nümunələri tədqiqat və tərcümələr vasitəsilə Avropa oxucularına çatdırılmışdır. X.Təbrizi, Q.Təbrizi, M.Gəncəvi, N.Gəncəvi, X.Şirvani, F.Şirvani, M.Beyləqani, M.Şəbustəri, Q.Bürhanəddin, F.Nəimi, İ.Nəsimi, Ş.İ.Xətai, M.Füzuli, S.Təbrizi və s. kimi sənətkarların əsərlərinə olan maraq bunun bariz nümunəsidir. Müxtəlif zaman

kəsiklərində Azərbaycan ədəbiyyatının əvəzsiz örnəkləri Avropa dillərinə tərcümə olunmaqla həmin əraziləri dolanmışdır. İngilis ədəbiyyatının ayrı-ayrı əsrlərə səpələnmiş dünya şöhrətli nümayəndələri Cefri Çoser, Uilyam Şekspir, Daniel Defo, Conatan Svift, Corc Qordon Bayron, Valter Skott, Çarlz Dikkens, Con Qolsuorsi, Bernard Şou, Somerset Moyem, Ceyms Oldric, Con Faulz, Harold Pinter və s. kimi onlarca şair, nasir və dramaturqu tərcümə vasitəsi dünya oxucusunun qəlbini fəth edib əbədiyaşarlıq qazanmışdır. C.Q.Bayron da zəngin yaradıcılığı, fitri istedadı ilə bu sıradadır.

Corc Qordon Bayron 1788-ci il yanvar ayının 22-də yoxsullaşmış lord ailəsində anadan olmuşdur. Tərbiyəsi ilə anası məşğul olur. Ona 1798-ci ildə lordluq verilir. İlk təhsilini zadəgan balalarına məxsus Harrou məktəbində alır. Oranı bitirdikdən sonra 1805-ci ildə Kembric universitetinə daxil olur və 1808-ci ildə universitet təhsilini başa vurur. 1809-cu ildə səyahətə çıxır. İspaniyada, Malta adasında, Yunanıstanda və Türkiyədə olur. 1824-cü il aprelin 14-də Yunanıstanda vəfat edir. Şərq səfəri görkəmli ədibin düşüncəsində əvəzsiz iz qoymuş və "Şərq poemaları" kimi möhtəşəm abidələrin yaranması ilə nəticələnmişdir.

Şərq ölkələrinə səyahət Şərq dillərini öyrənməyə marağı artırmışdır. Malta adasına gələn ədibin bir rahibdən ərəb dilini öyrənməyə başlaması bunun nümunəsidir. Səyahətdə olduğu regionların məişəti, coğrafiyası, folkloru, adət-ənənəsi, inam və etiqadları, mifik və tarixi yaddaşı şairin dünyagörüşündə olmazın izlər buraxmışdır. Əsərlərində özünə yer alan epizodlar, dil faktları, süjet və motivlər, təsirlər və s. bunun bariz nümunəsi olaraq sistemli yanaşmalara əsas olur. "Gavur" (may,1813), "Abidos gəlini" (dekabr,1813), "Korsar" (1814-cü ilin əvvəlləri), "Lara" (avqust,1814), "Korinfin mühasirəsi", "Parizina" (1815-ci ilin sonu, 1816-cı ilin əvvəlləri) Şərqə sonsuz sevginin nəticəsi kimi ortaya çıxmaqla dünya ədəbiyyatının əvəzsiz örnəkləri kimi ürəkləri fəth etmişdir.

"Dünyəvi kədər" şairi kimi tanınan C.Q.Bayronun yaradıcılığının Azərbaycan dilinə tərcüməsinin başlanğıcı keçən əsrin 30-cu illərindən qoyulmuşdur. 50-ci illərdən isə bu proses həmişə artan istiqamətdə getmiş, M.Təhmasib, İ.Rəhimov,

M.Rzaquluzadə, Ə.Rza, B.Vahabzadə, A.Aslanov, R.Rza, N.Gəncəli və başqaları tərəfindən geniş oxucu kütləsinə çatdırılmışdır.

C.Q.Bayron əsərləri əsasən orijinaldan və rus dilindən Azərbaycan dilinə tərcümə edilmişdir. Ədibin yaradıcılığının tədqiq və təbliğində İ.Rəhimovun xüsusi rolu olmuşdur. O, "Şərq poemaları" silsiləsinə daxil olan üç poemanın sətri tərcüməsini etmişdir. Onu da əlavə edək ki, Azərbaycan dilinin lüğət tərkibi tərcümə ədəbiyyatı hesabına xeyli zənginləşmişdir. İyirminci yüzillik boyu olunan tərcümələr kəmiyyət və keyfiyyət müstəvisində kifayət qədər ciddi göstəricilərlə səciyyələnir. C.Q.Bayron yaradıcılığından tərcümələr də bu sıradadır. Tərcümə dili hesabına bunlar eyni zamanda dilin lüğət tərkibinin zənginləşməsinə şərait yaradır. Bədii üslubun ümumi axarında bunlar həm də hər bir yazıçı və bədii mətn səviyyəsində üslub müxtəlifliklərini diqqət önünə gətirir. Çünki hər bir sənətkar, bədii nümunə özlüyündə üslubdur. Bədii üslub isə *"milli bədii təfəkkürün ifadəsi olub, obrazlı, emosional nitq formasıdır"*. V.V. Vinoqradov xüsusi olaraq vurğulayır ki, *"ümumiyyətlə söhbət fərdi söz yaradıcılığından gedəndə üslub məsələsi fövqəladə dərəcədə kəskin şəkildə meydana çıxır. Adətən, belə deyirlər ki, üslub elə insanın özüdür, o, təkrarolunmaz fərdiyyətdir"* [109, s.7]. "Şərq poemaları" bütün aspektləri, poetik fiqurların sıralanması, mətn bütövlüyü ilə yüksək sənət abidəsi səviyyəsində tipoloji yanaşmaları diqqət önünə gətirir və müxtəlif yanaşmalarda mahiyyətin açılmasının təminatçısı olur.

Bədii üslub və bütünlükdə üslubiyyat müasir dilçilikdə üfiqi və şaquli təhlilləri zəruri edən sahədir. İncəsənətdə, ədəbiyyatşünaslıqda, dilçilikdə və s. sahələrdə üslubun özünün nəzəri konsepti bir tərəf kimi diqqət önünə gəlir. Hərfi mənada tərz, üsul, səliqə və s. kimi məna çeşidlərində faktlaşan üslub bədii düşüncənin sənətkar və bədii mətn anlamında ortaya qoyduğu təsəvvürdür. Üslubiyyat bir elm sahəsi olaraq fonetik, leksik, frazeolji və qrammatik vahidlərin kontekstdə qazandığı üslubi funksiyaları öyrənir. *"Üslubiyyat dilçiliyin başqa şöbələrinə nisbətən sintaksislə daha çox təmaslaşır. Bu da dil sistemindəki yarusların yüksək mərhələsi olan cümlənin daxilindəki incəliklərlə bağlıdır. Fonetik, leksik, frazeoloji, morfoloji vahidlər məhz cümlədə - mətndə üslubi incəlik yaradır, üslubiyyatın obyektinə çevrilir. Üslubiyyatı "ali sintaksis" (Belinski) adlandıranlar, görünür, bu yaxınlığı nəzərdə tutmuşlar"* [43,

s.55]. Bütün bunlar C.Q.Bayron yaradıcılığının üslubi məqamlarını, tərcümə zamanı dil xüsusiyyətlərini müxtəlif spektrləri ilə özünəməxsusluqlar baxımından üzə çıxarmağı zəruriləşdirir. Ədibin "Şərq poemaları"nın orijinaldan Azərbaycan dilinə tərcüməsində nəzərə çarpan məqamlar onun düşüncə və mədəniyyət şifrələnməsi anlamında məqamlarının diqqət önünə gətirilməsini də faktlaşdırır.

Bədii mətndə dil xüsusiyyətləri müxtəlif formada təzahür edir. Şərq şeirinin ən gözəl xüsusiyyətlərini, ifadə tərzini ingilis poeziyasında ilk dəfə özünəməxsus bir şəkildə işlətmək baxımından diqqət önünə gələn C.Q.Bayron bütün mahiyyəti ilə mətn və mühit, mətn və subyekt baxımından tipoloji yanaşmaları gərəkli edir. Bədii söz, bədii düşüncə və bədii qanunauyğunluq timsalında bütövləşən paradiqmatik səviyyə mətn fenomenliyi üçün əsas olur, daha doğrusu, mətn fenomenliyinin təminatçısına çevrilir. Məlum olduğu kimi, *"fərdi üslub sənətkarın yaradıcılıq simasıdır, orijinallığın bəhrəsidir. Bu o deməkdir ki, deyim orijinallığı hər bir kəlməyə təravət və poetik nəfəs verir ki, bu da poeziyada yeni söz demək, təzə fikir söyləmək ehtirasından doğur, fikirlərin deyimində söz təravəti onun orijinallığı ilə şərtlənir. Şeir dilində üslubi özünəməxsusluq sənətkarı ifadə qeyri-müəyyənliyindən xilas edir"* [55, s.112-113]. C.Q.Bayronun istedadı, yüksək intelleksiyası məhz bu fikir sərhədləri daxilində uğur qazanması ilə şərtlənir. Bütün bunların müvaziliyində əsərlərində fərdiyyətin faktı olaraq boy göstərən bədii üslub onun poetik dilini yetişdirmişdir. C.Q.Bayronun poetik dili məhz bu ortaqlığın parametrləri daxilində poetik səviyyəyə qalxa bilmişdir.

"Poetik dil" bədii düşüncənin elə bir mükəmməllik kompanentidir ki, onunla bədii mətnin bütün parametrləri məzmun və forma müstəvisində bütövləşir. Fərdi anlamda şairin adı ilə bağlanmaqla dil normalarının poetiklik sxemlərini, bədii mətnin dil işarələrini əhatələyir. *"Bu halda konkret bir şairin "poetik dili" həmin şairin "poetik üslubu" anlamında qavranılır. Başqa sözlə, "dil-üslub" ekvivalentliyi formulu yaranmış olur ki, bu da öz ifadəsini konkret bir şairin poetik nitqində tapır"* [75, s.6]. C.Q.Bayron yaradıcılığı poetik dilin işləklik sxemləri, sintaktik fiqurların mətnə gətirdiyi ovqat anlamında yadadıcı imkanlarını sərgiləməklə, həm də ona olan marağın məzmun qatlarını müəyyənləşdirir. Bədii mətndə sözün və ifadənin məna yükü onun mənayaratma imkanlılığında təzahür edir. Türk, fars, ərəb sözlərindən mətnin ayrı-ayrı

epizodlarında istifadəsi sintaqmatik düzümün mətn daxilində orijinallıq tipini sərgiləyir. Məsələn, sultanə - xanım mənasında, saray – hərəmxana mənasında və s. Onu da əlavə edək ki, "Şərq poemaları"nda ilk dəfə işlədilən şərq sözlərinin əksəriyyəti türk sözləridir. Belə bir halın mövcudluğu mahiyyətə bağlı olub, sənətkarın türk həyat tərzinin, məişətinin və s. nə varsa hamısının dolğun təqdimini vermək istəyindən təzahür edir. Poemanın ayrı-ayrı epizodlarında işləklik qazanan sözlərin əsas hissəsi tür sözləri, bir qismi isə türk dilində vətəndaşlıq qazanmış fars və ərəb sözləridir.

Görkəmli ədibin ingilis dilinə gətirdiyi şərq sözləri tədqiqatlarda əsasən 2 qismə bölünür. Birinci, ilk dəfə C.Q.Bayron tərəfindən işlədilmiş sözlərdir. "Almeh" – rəqqasə qız, "gül", "tüfəng", "ətri-gül", "bismillah", "yatağan", "qalnaq", "qızlar", "dəli"- igid, "aman", "vəlvələ", "çuxadar", "rəiyyət", "qalionçu"- hərbi dənizçi, "çubuq" və s. Somrakı çağlarda bu ənənənin digər sənətkarların yaradıcılığında da özünə yer alması görünür. Ədəbi-mədəni prosesin bu axarı son olaraq bir sıra türk sözlərinin ingilis dilinin lüğət tərkibində özünə yer alması ilə nəticələnir.

Tarixi-mədəni axarın ikinci qolu C.Q.Bayrona qədər ingilis dilində işlənmiş Şərq dillərinə aid sözlərdir. Görkəmli ədib onlardan da yerinə və məqamına görə bədii təsiri gücləndirmək məqsədilə yararlanır. Araşdırmaların verdiyi informasiyaya görə, "Şərq poemaları"nda 75 Şərq xalqlarına aid söz işlədilmişdir. Onların 18-i rütbə və hərbi anlayışları, 11 etnos və yer adlarını, 20-si Şərq koloritini, 1-i quş adını, 22-i isə dini anlayışları ifadə edən sözlərdir.

Ev'n Azrael, from his deadly quiver
When flies that shaft, and fly it must [140, s.261].

Və yaxud da:

To plant the Crescent o'er the Cross
Or risk a life with little loss [140, s.311].

Bu misralarda "Azrael" (Əzrayıl) ölüm, "Crescent" (aypara) islam dininin, "Cross" (xaç) isə xristianlığın rəmzi, simvolik obrazıdır. Tərcümədə məxəz dildəki ifadələrin saxlanmasından əlavə əsərin ideyasının, ruhunun qorunuşu mühüm tərəf kimi diqqət önünə gəlir. Çünki bədii dəyərin tərcümədə ehtiva olunması mətnin taleyi məsələsidir. C.Q.Bayronun "Şərq poemaları"nın Azərbaycan dilinə tərcüməsi

prosesində dilimizin lüğət fondunun zənginliklərindən (ümumi işlək sözlər, onamastik vahidlər, sözlərin məna qrupları, frazeoloji vahidlər) geniş şəkildə istifadə olunmuşdur.

"Şərq poemaları" silsiləsinə daxil olan birinci poema "Abidos gəlini" dir. Onu görkəmli şairimiz B.Vahabzadə tərcümə etmişdir. Poemasının sətri tərcüməsi prosesində ədib əsərin orijinalı ilə yaxından tanış olmuş, tərcümədə fəsil və bölmələrin izahını verməklə Şərq sözlərinin işləklik məqamlarını təqdimə çalışmışdır. Tərcüməçi məhz bunların ümumi axarında poemanın ruhunu və ideyasını saxlaya bilmişdir. Məsələn, ayrı-ayrın parçaları məxəz dillə müqayisə etdikdə orijinal və tərcümə arasında ruh və düşüncə yaxınlığı aydınlıqla görünür. Bunlar bir istiqamətdə C.Q.Bayronun Şərq şeirinin ecazkarlıqlarına vurğunluğa bağlanırsa, digər istiqamətdə ədibin Şərqə həssaslığından qaynaqlanır. Məsələn:

In silence bow'd the virgin's head;
And if her eye was fill'd with tears
That stifled feeling dare not shed,
And changed her cheek from pale to red,
And red to pale, as through her ears
Those winged words like arrows sped,
What could such be but maiden fears?

Tərcümədə:

Züleyxanın başı köksünə endi,
Qara gözlərində yaş giləlndi.
Yanağını xəfif kölgələr aldı,
Bozardı, qızardı, gah da saraldı.
İtirdi özünü, sözlər ox kimi -
Dəydi qulağına, deşdi qəlbini.
Qorxumu, həsrətmi onun sirdaşı? [22, s.86].

Göründüyü kimi, mətnin orijinalda və tərcümədəki söz axarı onun informasiya yükü ilə bir ortaqlığı diqqət önünə gətirməklə, dil, ifadə zənginliklərində, söz qruplarının yaratdığı səs və məna dalğaları mətn fenomenliyinin təminatçısı funksiyasını yerinə yetirir. Bütün bunlar C.Q.Bayron yaradıcılığının Azərbaycan

dilinə tərcüməsinin ümumi aspektləri anlamında ciddi zənginliyi diqqət önünə gətirməklə tipoloji yanaşmalarda onun mahiyyət məsələsi olaraq açılmasını aktuallaşdırır.

### 2.2. "Şərq poemaları"nın tərcüməsində fərdi üslubun təzahürü

C.Q.Bayron "Şərq poemaları"nın Azərbaycan dilinə tərcüməsində nəzər-diqqəti cəlb edən problemlərdən biri fərdi üslubun təzahürü ilə bağlıdır. Çünki yaradıcılıqda (orijinalda və tərcümədə) fərdi üslub sənətkarın siması olub, onun istedadının, imkanlarının, dünyagörüşünün izharıdır. Bədii düşüncə yaradıcılığın ecazkar, yozumu və açımı axıra qədər mümkün olmayan elə bir sahəsidir ki, ordada hər bir ştrixin, ifadə və poetik fiqurun məzmun yaratmada funksional çəkisi vardır. Mətnin uğurluluğu onların ümumi məcmusunda reallaşır və onun bədii zövqünün imkan və sərhədlərini müəyyənləşdirir. Ümumiyyətlə, *"bədiilik elə ondan ibarətdir ki, bir cizgi, bir sözlə elə bir şeyi bizə canlı və hərtərəfli təqdim edir ki, bədiilik olmasa, həmin şeyi heç on cilddə də ifadə edib qurtara bilməzsən. Elə bu səbəbdəndir ki, bədiilikdən uzaq olan bütün əsərlərdə sözçülük həddindən çox olur. Sənətkarın isə əksinə sözçülüyə ehtiyacı yoxdur, izahına bəzən bir cild lazım olan fikri ifadə etmək üçün ona bir neçə cizgi və bir neçə söz kifayət edir"* [31, s.228]. Bunlar hamısı fərdi üslubun, yaradıcı imkanlarının sərhədləri daxilində baş verən məsələdir. Dünya ədəbiyyatının bütün görkəmli nümayəndələri öz fərdi üslubları və istedadları sayəsində əbədiyaşar sənət abidələri yaratmışlar. C.Q.Bayronun "Şərq poemaları" da məhz bunun nümunəsi olaraq orjinal və tərcümə müstəvisində tipoloji yanaşmaları zəruriləşdirir. "Gavur", "Abidos gəlini", "Korsar", "Lara", "Korinfin mühasirəsi", "Parizina" ətrafında aparılan təhlillər mövzu seçimindən, onun təqdiminin üsul və prinsiplərinə qədər bir zənginliyi əhatə edir. Burada sənətkarın yanaşmaları, hadisədən-hadisəyə, epizoddan-epizoda keçid texnologiyası, sintaqmatik düzümün yaratdığı məzmun, bütünlükdə mətn korpusu səviyyəsində nə varsa hamısı sənətkar fərdiyyətinin imkanlılıq göstəricisi kimi ortaya çıxır. Çünki *"həyat həqiqətinin obrazlı ifadəsini verən bədii ədəbiyyat ayrı-ayrı fərdlər – yazıçılar tərəfindən yaranan bədii sənətdir. Ta qədim zamanlardan bugünədək yazılan əsərləri nəzərdən keçirdikdə onlarda bir-birinə həm*

*yaxın, həm də fərqli cəhətlər olduğunu görürük. Bu fərqlər bədii əsərlərin ideyası, mövzusu, kompozisiyası, forması, dili və sair cəhətlərində özünü göstərir"* [64, s.100]. C.Q.Bayronun "Şərq poeması"nın tərcüməsində özünü göstərən fərdi üslubun təzahürü də tərcüməçi səviyyəsində yaranan bir örnək kimi maraqlı təsəvvürlərə bağlanır. Məsələn, "Abidos gəlini" poemasında bədii əsərin mövzusu, ideyası, kompozisiyası, forması, dili tərcümə kontekstində orijinalı ehtiva edə bilmək imkanları ilə səciyyələnir. Poema quruluşu tipik bir mənzərəni sərgiləyəcək iki nəğmədən ibarətdir. Həmin nəğmələr özləri də hissələrə bölünüb. Belə ki, birinci nəğmə 14 hissədən, ikinci nəğmə isə 28 hissədən ibarətdir. Mətn bütövlüyündə keçid formulları, başlanğıc və sonluqlar, inisial, medial səviyyəsində baş verənlər, söz qrupları misranın və epizodun ümumi tutumunda mənayaratma imkanları ilə şərtlənir. Arxaizm, peşə-sənət sözləri, toponim, etnonim və s. timsalında müxtəlifliklərlə səciyyələnən söz axarı sənətkarın sözdən istifadə bacarığını aşkarlayır. Məsələn, "bildim divanxana toplanır demək" – toponim, arxaizm [s.56], "mənim pasibanım onda kim olar?" – arxaizm [s.65], "xacə düz yollandı hərəmxanəyə" – peşə-sənət sözləri, toponim köhnəlmiş söz [s.55], "atasına müti bir övlad kimi" – köhnəlmiş söz [s.61], "bütün ömrün boyu cəhrə əyirsin" - ekzotik söz, köhnəlmiş söz [s.57], "xacəni çağırın, ona sözüm var" – peşə-sənət sözləri [s.54], "Siz də çıxıb gedin, getdi əyanlar" - peşə-sənət sözləri [s.54] və s. dilin zöngin söz ehtiyatlarında bəhrələnməklə tarixin müxtəlif dönəmlərinin düşüncəsini, həyat tərzini diqqət önünə gətirməklə bədii siqləti artırır. Orijinal və tərcümə arasındakı poetik mükəmməlliyin axıra qədər qorunuşu, heç şübhəsiz, mümkün də deyildir. Çünki fərdi üslub bütün parametrlərdə yaradıcı istedadına, onun həyatı dərk və təqdim üsullarının imkanlığına bağlanır. Tərcümə prosesində bunların axıra qədər qorunuşu bədii qanunauyğunluq və söz çeşidliliyi müstəvisində öz çətinliklərini ortaya qoyduğu kimi, həm də tərcüməçi dərkinin səviyyəsini və imkanlarını da diqqət önünə gətirir. Bütün bunların ümumi mənzərəsi bir daha aydınlıqla göstərir ki, *"fərdi üslub şairin yaradıcılıq dəsti-xəttini, istedad dərəcəsini aşkarlayan elə məhək daşıdır ki, poetik "mətn"in, yaradıcı şəxsiyyətin bütün atributları onda inikas edir. Bu məsələlərdə ən qüdrətli bədii təfəkkür sahibinin fikir və baxışları da, adətən, üst-üstə düşür"* [55, s.113]. "Şərq poemaları"na daxil olan "Abidos gəlini"ndən verdiyimiz örnəklər

tərcümədə fərdi üslubun təzahürü olaraq mükəmməl təsəvvürü, mövzu və yaradıcı şəxsiyyəti timsalında mahiyyəti dərk etmədən irəli gəlir. "Divanxana", "pasiban", "xacə", "hərəmxana", "cəhrə", "əyan" və s. sözlərin tərcümə mətninə gətirilməsi və orijinaldakı səviyyəsində qorunub saxlanması mətn//mətn timsalında ümumi ruhun qorunuşuna hesablanmış məsələlərdir. On doqquzuncu yüz ilin əvvəllərində yazılmış "Abidos gəlini" bir istiqamətdə C.Q.Bayron istedadının mühit və zaman səviyyəsində nələrlə səciyyələndiyini diqqət önünə gətirirsə, onun ikinci tərəfində mövzunu ifadə üsulları, çeşidli söz qruplarından yararlanma bacarığı dayanır. Çünki bədii mətndə zaman və məkan formulları, nitq etiketləri mövzunun özündən gələn söz ehtiyatlarından (məsələn, XVIII əsr yaddaşında oturuşmuş arxetiplərə, yaddaş nümunələrinə, mərasim folklorunun etiketlərinə, etnosun mənəviyyat və əxlaq dəyərlərinin ümumi prinsiplərinə, ictimai, siyasi, mədəni təbəqələr timsalında toplum təsəvvürlərinə bağlanmaqla) yararlanma ilə reallaşır. Orijinalda sənətkarın prinsip olaraq müəyyənləşdirdikləri tərcümədə də fərdi üslubun özündən gələnlər səviyyəsində reallaşır. Mətnin ekspressivliyində, yaradıcı fikrinin çatdırılmasında tərcüməçinin söz imkanlarından yararlana bilmək bacarığı mühümdür. "Xacə düz yollandı hərəmxanəyə" – peşə-sənət sözləri, toponim köhnəlmiş söz [23, s.55], "qulun vəzifəsi qulaq asmaqdır" – peşə-sənət sözləri, frazeoloji birləşmə [23, s.55], "şirin yuxudaydı nökərlər hələ" - peşə-sənət sözləri [23, s.55], "o zalım sərkərdənin gözəl qızı bir çiçək" – peşə-sənət sözləri [23, s.59], "odur, çuxadarı görürəm, ah mən" - peşə-sənət sözləri, poetik sözlər [23, s.70], "dayanmış başında Teymurilərin" – peşə-sənət sözləri, etnonim [23, s.60] və s. tərcümədə fərdi üslubun təzahürü olaraq ortaya çıxır. Fərdi dəsti-xəttin imkanlılığı dövrü, mühiti, yazıçı qayəsini aydınlaşdırmaq və ortaya qoymaq baxımından mükəmməl bir fakturaya bağlanır. Çünki orijinaldakı mətn informasiyası yaradıcının bacarıq və səriştəsini, istedadını bir bütöv olaraq ortaya qoymağa köklənirsə tərcümənin mətn tipi olaraq müəyyənləşdirdiyi təsəvvür yaradıcı və tərcüməçi səviyyəsində olanları diqqət önünə gətirir. Bütün bunların ortaqlığında gəlinən qənaət ondan ibarət olur ki, *"üslubun özü də istedad faktıdır, fikirdir; üslub fikrin relyefliyi, aydınlığıdır; üslubda insan bütünlükdə ifadə olunur; üslub şəxsiyyət kimi həmişə orijinaldır"* [130, s.39]. "Şərq poemaları" müəllif və tərcüməçi üslubunun

reallaşması timsalında istedadın formulasında dayanan sənətkar imkanlarını faktlaşdırır. Mövzu seçimi, hadisə və faktların dərki, onun reallaşdırılması üsulları, fikir çeşidləri, orijinal düşünə bilmək bacarığı və s. bütünlükdə bədii nümunənin alınıb-alınmaması məsələsini müəyyənləşdirir. Bunlar isə bütün mahiyyəti və ifadə prinsipləri, təqdim üsulları ilə sənətkarın (müəllif və tərcüməçinin) dil imkanlarına bağlanır.

C.Q.Bayronun yaradıcılığı müəllif timsalında hansı üslub özünəməxsusluğuna bağlanırsa, tərcümə baxımından da tərcüməçi səviyyəsində onu əhatələyəcək təsəvvürə bağlanır. Zəngin tərcümə ənənələrinə köklənən "Şərq poemaları" söz qruplarının rəngarəngliyindən uğurlu istifadə nəticəsində (ümumiişlək sözlər, arxaizmlər, toponimlər, etnonimlər, vulqar sözlər, sənət, peşə ilə bağlı terminlər və s.) bir mükəmməllik qazanmışdır.

N.Gəncəlinin, B.Vahabzadənin, A.Aslanovun, Ə.Rzanın M.H.Təhmasibin və b. tərcümələrində Azərbaycan ədəbi-mədəni mühitinə təqdim olunan C.O.Bayronun poema və pyesləri ədibin bədii-estetik təfəkkürünün, hadisə və faktlara yanaşmalarının ümumi axarını, məzmun qatlarını, yaradıcı imkanlarının nələrlə səciyyələndiyini aydınlaşdırmaq üçün əsasdı. Müəllif qeydlərində diqqət önünə gətirilən əlavələr sənətkarın Şərq mühitini (tarixini, mədəniyyətini, ədəbiyyatını, incəsənətini, məişətini, folklor və mərasim örnəklərini, törə və yasaqlarını və s.) nə qədər dərindən öyrəndiyini və ona xüsusi həssaslıqla yanaşdığını aydınlaşdırır. "*Qaraosman oğlu, yaxud Qara Osman oğlu – Türkiyədə ən böyük torpaq sahibidir, o, Maqneziyaya hakimlik edir. Onun torpaqlarından feodal torpağı kimi istifadə edənlərə teymurilər deyilir; istifadə etdikləri torpağın az-çoxluğundan asılı olaraq, onlar sipahi (süvari deməkdir) sifətilə xidmət edirlər. Müharibə zamanı müəyyən miqdarda süvari əsgər verirlər". (müəllifin qeydi)"* [23, s.60]. Göründüyü kimi, bu qeydlər C.Q.Bayronun "Şərq poemaları"nı yazarkən mövzunu incəliklərinə qədər öyrəndiyini, mahiyyəti bütün təfsilatı ilə çatdırmağı prinsip olaraq qarşıya qoyduğunu aydınlaşdırır.

Ədəbiyyatda "Bayron sevgisi", "Bayron kədəri", "bayronizm", "sevimli şair" və s. kimi dürlü adlarla silinməz izlər qoyan ədibin yaradıcılığında Şərq mövzusu onun istedadının zənginlik qatlarını ortaya qoymaq üçün geniş imkanlar açmışdır. Şarin

yaradıcı fərdi üslubunda boy göstərən elementlər tərcüməçinin fərdi üslubunun müəyyənliyi üçün də əsas olmuşdur. Qaraosmanoğlu haqqında verilən müəllif məlumatı oxucuya təfsilatı çatdırmaq məqsədi ilə işarələnmişdir. Buradan aydınlaşan onun (Qaraosman oğlunun) böyük torpaq sahəsinə malik olması, Maqneziyaya hakimlik etməsi, bu torpaqdan yararlananlara teymurilər deyilməsi, sipahi (süvari) deyimi və müharibə zamanı müəyyən miqdarda süvari əsgər verilməsi və s. kimi məsələləri öyrənirik. Bütün bu çeşidli bilgilər təkcə orijinal səviyyəsində deyil, həm də tərcümədə də fərdi üslubun təzahürü anlamında maraq doğuracaq məqamları sərgiləyir. Situasiya və situasiyalar arası əlaqələr üçün poetikliyi gücləndirəcək vasitəyə çevrilir. Tərcüməçi fərdiyyətində üslub olaraq müəyyənləşən məqamlardan biri tərcüməçi əlavələridir. Məsələn, *"Qeyd: "Koroğlu" eposunda Koroğlunun dəstəsindəki igidlər dəli adlandırılırdılar. C.Q.Bayron da "Abidos gəlini" poemasında Paşanın döyüşçülərini dəli adlandırmışdı. Bu Şərq ədəbiyyatından birbaşa olduğu kimi əsərə daxil edilmiş ifadədir"* [23, s.62].

"Gavur", "Abidos gəlini", "Korsar", "Lara", "Korinfin mühasirəsi", "Parizina" və s. əsərlər C.Q.Bayronun Şərqə marağının keçici olmadığını, əksinə ona vurğunluğun nəticəsi kimi ortaya çıxmışdır. Bu əsərlər Şərq və Avropa müstəvisində son dərəcədə möhtəşəm təsəvvürə bağlanır. Ədibin yaradıcılığındakı dil və üslub özəlliklərini aydınlaşdırmaq üçün əsas fakta çevrilir. Tərcümədə isə bu özəlliklərin qorunuşu və regionun coğrafi, tarixi, mədəni atlasına dair ifadə və informasiya özəlliklərinin saxlanması tərcüməçi fərdi üslubuna bağlanır. Müəllif sözü timsalında bir epizoda da diqqət yetirək: "Ölümü gülüşlə qarşılarıq biz" [23, s.61] misrasının mətn informasiyasında diqqətçəkici bir məqam özünə yer alır və deyilir ki, "*əgər paşa sultana müqavimət göstərmək üçün kifayət qədər qüdrətlidirsə, onun ölüm fərmanını gətirən elçini özü öldürür... Əksinə, əgər o zəifsə, yaxud iradəcə boşsa, baş əyir, sultanın möhtərəm imzası olduğu yerdən öpür və öz-özünü boğazdan asır (müəllifin qeydi)"* [23, s.61]. Bütün bunlar türk etnoqrafik yaddaşının və törə qanunlarının müəyyənləşmiş kodu olaraq əski çağlardan yaşam səviyyəsində qəlibləşmişdir. C.Q.Bayron da bunları mənimsəməklə əsərin müxtəlif məqamlarında mətnə gətirmiş və müəllif əlavəsi səviyyəsində qeyd kimi həm də şərhini aparmışdır. Bədii mətnin

paradiqmatik düzümü bunlar timsalında mükəmməllik qazanmış və dil, ifadə özünəməxsusluğunda əsərin uğurluluğu üçün mahiyyət məsələsinə çevrilmişdir. "Dəniz quldurlarının başçısıdır, ah, aman" – peşə-sənət sözləri, poetik sözlər [23, s.81, "müəzzinin əzanı xeyir-duadır həmən" – peşə-sənət sözləri [23, s.85], "islam tayfasında qayda beləydi" – ekzotik sözlər [23, s.55], "müsəlmanlar üçün ata önündə, əyləşmək betərdir min pay ölümdən" - ekzotik sözlər [23, s.55], "indi ox atmalı, nizə atmalı" - ekzotik sözlər [23, s.56] və s. söz və ifadələr bədii mətndə mənayaratma funksiyası daşımaqla fərdi üslubun sərgilədiyi dinamik mənzərəni diqqət önünə gətirir. C.Q.Bayronun "Şərq poemaları" tərcümə müstəvisində dil faktları ilə fərdi üslubun estetik məğzini, mətn fenomenliyində funksional rolunu, özündə nələri ehtiva etmə məqamlarını, qavrayışın estetik-üslubi fakturasını bir bütöv olaraq əks etdirmə gücü ilə möhtəşəmlik qazanır.

### 2.2.1.Vulqar sözlər

Dünya ədəbiyyatının görkəmli simalarından olan C.Q.Bayron ədəbi irsindən ayrı-ayrı örnəklərin Azərbaycan dilinə tərcüməsində özünü göstərən dil üslub xüsusiyyətlərinin zənginlik səviyyəsi fonopoetik, morfopoetik, sintaktik füqurların məzmunyaratmada hansı funksional rolu oynamasına bağlanır. Burada müxtəlif söz qrupları (ümumiişlək sözlər, arxaik sözlər, dialektizmlər, varvarizmlər, jarqon sözlər, arqo sözlər, ekzotik sözlər, frazeoloji vahidlər və s.) və onların mətn daxilində məzmunyaratma mənzərəsi bir problem olaraq aydınlaşma zərurətində görünür. Vulqar sözlər də bu sırada olub yaradıcının obrazyaratmada, onların mahiyyətini təqdimdə bir vasitə olaraq özünü göstərir. Azərbaycan dilçiliyində, eləcə də ədəbiyyatşünaslıqda vulqar sözlər və onun işləklik mənzərəsi ilə lazımı qədər bilgi verilmişdir. "Sadə xalq dilində işlədilən, lakin ədəbi dildə istifadəsi yolverilməz olan söz və ifadələr" rəngarəng bədii örnəklərdə üslub və dil özünəməxsusluqları səviyyəsində kifayət qədər faktura ilə müəyyənləşir. Ədəbiyyatşünaslıq terminlərində vurğulanır ki, *"vulqarizm – ümumi ədəbi dildə işlənməyən kobud, ədəbsiz sözlər, yaxud qəsdən təhrif olunmuş söz və ifadələr"*dir [38, 37]. Bədii ədəbiyyatda isə vulqar sözlərin işlənməsinin, eyni zamanda mətnə gətirdiyi çaların bir ayrı məqamı vardır. Yazıçı obraz və xarakteri

bütün qüsurları ilə təqdim etmək, əsərdə məişət koloriti ilə real mənzərəni ortaya qoymaq məqsədi ilə bu tip sözlərə müraciət edir. C.Q.Bayron da "Şərq poemaları"nda yeri gəldikcə həmin sözlərdən yararlanmaqla əsərin ümumi məzmun axarında təbiiliyi qoruyub saxlamağa çalışmışdır. Məsələn, "dövlətlidir, ancaq gədədir, gədə" – vulqar sözlər [23, s.67], "sən ey imansızın qarnından çıxan" – vulqar sözlər [23, s.56], "əqidəsiz kəllən qoy yerə girsin" – vulqar sözlər [23, s.57] və s. misra axarında bədii mətnin məna yükünü canlandırmaq üçün əsərə daxil edilmişdir. "*Sözün, yaxud bütövlükdə mətnin bədiiliyi, obrazlılığı dedikdə o da nəzərdə tutulur ki, həmin sözün, yaxud bütöv mətnin ifadə etdiyi məna bəzən üzdə olmur, dərhal anlaşılmır, sözün mətnin dərinliyində "gizlədilir". Bu aşağıdakı məqsədlərdən irəli gəlir:*

*1) sözü, yaxud mətni daha maraqlı, daha təsirli etmək;*

*2) mənanın, fikrin, müəyyən mövqeyin cəmiyyətdə doğuracağı təhlükədən qorumaq"* [51, s.34]. Ümumiyyətlə, yaradıcılıq kifayət qədər mürəkkəb proses olmaqla, həm də bədii-estetik düşüncənin elə obrazlı qanadıdır ki, orada olanlar bütünlükdə söz, ifadə, cümlə, epizod, əsər səviyyəsində mükəmməl təsəvvür formalaşdırmaq amalına köklənir. Bu məqsədlə sənətkar dilin bütün imkanlarından məramına və məqsədinə müvafiq şəkildə yararlanır. Sünilikdən uzaq nə varsa hamısını öz dili ilə danışdırmaqla əsərə rövnəqlik gətirir. Yuxarıdakı nümunələrdə də xarakterin keyfiyyət komponentləri münasibət sərgilənməsində "gədədir gədə" deməklə yerini və məqamını tapır. Səlimin Züleyxaya söylədikləri timsalında olan qiymətləndirmə dil komponenti olaraq əsərdəki ayrı-ayrı obrazlar haqqındakı təsəvvürü diqqət önünə gətirir. Bütün bunlar tərcümə prosesində müəllif qayəsini çatdırmaq və fərdi üslubun imkanlarını aydınlaşdırmaq üçün vasitəyə çevrilir. Məsələn, paşanın qəzəbini ifadə edən "qul oğlu, şeytan, sən ey imansızın qarnından çıxan" ifadələri mətnin misra və fikir axarında mahiyyəti ifadəyə köklənir. Mərdlik, qəhrəmanlıq anlamında valideyn gözləntilərini canlandıran ədib "atan kişi görmək istədi səni, sən gözündə qoydun hər diləyini" deməklə təfərrüatı ortaya qoyur. *"Öz üslubunu təyin etmək və ona daim sadiq yaşayıb yaratmaq şair üçün səadətdir. Başqalarının söz, düşüncə və duyğu pərdələri altında gizlənib qalmaq isə şair üçün fəlakətdir"* [69, s.34]. C.Q.Bayron yaradıcılığı üçün xarakterik olan və müstəsnalıq funksiyasını yerinə yetirən onun üslubunu təyin

etməsi və axıra qədər ona sədaqət göstərməsidir. Hadisələrə yanaşma eruduksiyası və onu canlandırma üsulları yaradıcı istedlarının hüdudları daxilində əlçatmazlıq yaratmışdır. Tərcümə nümunələrində də bu fərdi üslubun paradiqmatik mənzərəsi mətn axarında axıra qədər özünü nümayiş etdirə bilmək imkanları ilə səciyyələnir. Dildəki vulqar sözlərin işlənməsi məqamları hadisələrin axarında məzmunyaratma funksiyasına köklənməklə sənətkarın yaradıcı üslubunun çeşidliliyini səciyyələndirir. "Yox, yox! Belə olmaz, bu başsız oğlan" – vulqar söz [23, s.58], "günü-gündən məni qorxudur yaman, onun fərasətsiz qadın əlləri" – vulqar sözlər [23, s.58], "murdar Əzrayılın qanlı oxuna" – vulqar söz, antroponim [23, s.65] və s. misranın fikir yükündə işlənən vulqarizmlər bütün parametrləri ilə dil və üslub özünəməxsusluğunu diqqət önünə gətirir və digər söz qruplarında problemin tədqiqini zəruriləşdirir.

**2.2.2. Varvarizmlər**

Bədii dil bədii düşüncənin əsrarəngizliyinə dayanan və onu bütün incəlikləri ilə əks etdirməyə köklənən təcəssüm və təqdim üsuludur. Dünya ədəbiyyatının ən möhtəşəm abidələri bədii dil ecazkarlığının hüdudları daxilində ucu-bucağı olmayan əlçatmazlığı faktlaşdırır. Zəngin poetik ricətlər, fonemlər, morfemlər, sintaktik fiqurların yerinə və məqamına görə düzümü, ifadə palitrası, söz çeşidləri, sənət və peşə sözlərindən varvarizmlərə qədər hamısı sənətkar istedadının hüdudları daxilində bədiiliyin təminatçısı funksiyasına köklənir. C.Q.Bayron yaradıcılığının Azərbaycan dilinə tərcüməsində söz qruplarının hamısının bədii mətndə işləkliyinin özünəməxsusluq məqamları vardır. Varvarizmlər də bədii mətn daxilində yaradıcı imkanlarını şərtləndirən söz qrupu kimi diqqət önünə gəlir. Ümumiyyətlə, varvarizmlər Azərbaycan izahlı lüğətində və ədəbiyyatşünaslıq terminləri lüğətində bir dilin formalarına xas olmayan və həmin dilin təmizliyini pozan xarici söz və ifadə kimi şərh edilir. Ədəbiyyatşünaslıq terminlərində *"əsərin yazıldığı dilə yad olub, başqa bir dildən götürülən əcnəbi söz; xarici dilə məxsus danışıq tərzi və ifadə"* [38, s.37] kimi qeyd edilir. Varvarizmlərin bədii mətnə gətirilməsinin və işləkliyinin sənətkar qayəsinə dayanacaq spesifik məqamları vardır. Çünki bütün dil komponentləri mətnə bir çeşni olaraq düşünülmüş (və həm də təbii) şəkildə yerləşdirilir. Sənətkarın yaradıcı

istedadı sərhədləri daxilində yazıçı qayəsini müəyyənləşdirməyə (ifadəyə) yardımçı olur.

C.Q.Bayronun "Şərq poemaları"nda varvarizmlərin sənətkar istedadına hesablanması mətn daxilində mənəvi-psixoloji situasiyaların təqdiminə bağlanır. "Gavur", "Abidos gəlini", "Korsar", "Lara", "Korinfin mühasirəsi", "Parizina" və s. əsərlərdə özünü göstərən çeşidlilik, mətn qatlarında müxtəlif situasiya və məqamların çatdırılmasında ədib məqsədli və düşünülmüş şəkildə varvarizmlərə müraciət edir. Bütün bunlar bədii dilin sərgilədiyi hüdudlar daxilində baş verir. Çünki *"bədii dil ədəbi dilin bəzəkli qoludur, həm də belə demək mümkün olarsa, ərköyün qoludur; o, ədəbi dilin qaydaları, qrammatik qanunları çərçivəsinə sığışmır, əl-qol atır, başqa sözlə desək, bədii dilin xüsusiyyətləri "səhv" etməyə də yol verir"* [87, s.10]. Bədii dilin imkanlılıq formulası özündə həm də sərhədsizliyi və onun təbiətindən irəli gələn "səhv"ləri də bir təbii olan kimi diqqət önünə gətirir. Bütün hallarda bədii dil pafosa, obrazlı düşüncəyə və obrazlı ifadəyə köklənir və ona görə də onun təbiəti dinamikanı, canlı düşünməni, mahiyyətində sərbəst və yaradıcı davranışı sərgiləyir. Varvarizmlərin də bədii mətnə gətirilməsi və dil komponenti olaraq qayəni ifadəyə köklənməsi təbiidir. Məsələn, "o çuğul, Həsənə xəbər aparmış" – varvarizm [23, s.46], "ki, alçaq hisslər – ehtiras, şəhvət" – varvarizm, sinonimlər [23, s.47] və s. orijinal və tərcümə müstəvisində davamlı olaraq qorunmaqla sənətkar fərdiyyətinin faktına çevrilir. *"Nəzərə almaq lazımdır ki, çox vaxt ənənəvi poetik biçimlər çərçivəsində məhdudlaşıb qalmaq istər-istəməz üslubi yeknəsəkliyə gətirib çıxarır. Əsl mətləb isə dilin bütün qrammatik formalarına, onların estetik çevikliyinə düzgün istiqamət vermək və sabitləşmiş mövcud normaların özünü də hərəkətə gətirməkdən ibarətdir"* [55, s.91]. (C.Q. Bayron da obrazın mahiyyətini açmaq, ənənəvi biçimlərdə bir özünəməxsusluq örnəyi izini qoymaq məqsədi ilə varvarizmlərdən yeri gəldikcə yararlanır.

Nə var canımızda verək biruzə.

Onun mürtədliyi mənə əyandır [23, s.39] –

deməklə bədii mətnə əlavə çalar qatır. Yazıçı müxtəlif situasiyalarda bilərəkdən varvarizmlərə müraciət edir və başqa ölkələrin həyat tərzini, məişətini, adət-ənənəsini müxtəlif psixoloji məqamları verərkən əsərə əlavə çalar qatmaq üçün bunlardan

yararlanır. Xarakteri ifadə və təqdim baxımından da varvarizmlər yazıçı üçün bir vasitəyə çevrilir. "Onun mürtədliyi mənə əyandır" deməklə müəllif (tərcüməçi) obrazın mahiyyətini bir bütöv olaraq diqqət önünə gətirir. "Sanki ona Qorqon qara bir ilan, bəxş edib, qıvrılıb alnında yatmış" [23, s.41] deməklə sənətkar obrazın mahiyyətini mifoloji yaddaşdan gələn təsəvvürlərlə çatdırmağa üstünlük verir.

### 2.2.3. Poetik sözlər

C.Q.Bayronun "Şərq poemaları"nın Azərbaycan dilinə tərcüməsində mühüm bir hissəni poetik sözlərin mətndə işləklik məqamlarının qorunması, ehtiva etdiyi məzmunun saxlanması təşkil edir. Fərdi üslubun imkanlarının müəyyənliyində sənətkarın söz rəftarı, onunla davranış bacarığı bədii nümunənin ümumi axarında, ortaya qoyduğu məzmun mükəmməlliyində özünü biruzə verir. Funksional üslubların əhatələdiyi məzmun qatlarında fərdi üslub bütünlükdə mühit və ədəbi proses səviyyəsində yazıçı "mən"ini bir bütöv olaraq diqqət önünə gətirir. Estetik məlumatın zənginliyi müəllif fərdiliyində özünü göstərməklə yanaşı, həm də inikas mühitinin ortaya qoyduğu genişlikdə reallaşır. Onu da əlavə edək ki, inikas mühitinin genişliyi mətn daxilində kontekst dərinliyinin özünü hansı səviyyədə göstərməsinə bağlanır. Poetik sözlər mətn daxilində həm də estetik işarə funksiyası ilə əsərin bədii siqlətini təmin edən komponentə çevrilir. Semantik işarələnmədə məna tutumu işarəvi sistem olaraq işarə//gerçəklik, işarə//işarə, işarə//subyekt arasında açılır. Estetik informasiya işarə və gerçəklik kontekstdə olanların yaratdığı məna tutumu ilə bədii mətnin bütövlüyünü müəyyənləşdirir. *"Sırf semantik məlumatlardan fərqli olaraq, estetik məzmun fərdi, unikal, metaforik və çoxmənalıdır. Əslində bədii mənanı konkret ifadə formasından kənarda təsəvvür etmək mümkün deyil: bədii forma özü məna yaradan və ifadə edən məfhumdur"* [49, s.74]. Bədii söz, bədii forma, bütünlükdə əsər boyu özünü göstərən poetik fiqurlar bir bütöv olaraq məzmun yaratmanın komponenti olaraq sənətkar qayəsini və imkanlarını aşkarlayır. C.Q.Bayronun "Gavur", "Abidos gəlini", "Korsar", "Lara", "Korinfin mühasirəsi", "Parizina" və s. əsərlərinin tərcüməsindəki dil və üslub xüsusiyyətləri birbaşa poetik sözlərdən hansı səviyyədə istifadəyə bağlanır. Bu bir istiqamətdə tərcümə dilinin imkanlarına bağlanırsa, digər kontekstdə tərcüməçi

istedadına, səriştəsinə hesablanır. Bütün bunların ümumiliyində ortaya çıxan isə orijinala, daha doğrusu, sənətkar üslubunun və qayəsinin təqdiminə tərcüməçinin nə dərəcədə həssaslıq göstərə bilməsi təşkil edir. Məsələn, "vur-haray səsləri qalxır havaya" [23, s.13], "eh, nəyə gərəkdir bu söz, bu söhbət" [23, s.16], "ah çəkib ağladım, yandım səninçin" [23, s.17], "aha!.. bir anlığa cilovu çəkdi" [23, s.18], "burda şır-şır axan şəlalələrdən" [23, s.21], "ah! Varmı dünyada elə bir cavan" [23, s.28] əsərin ayrı-ayrı epizod və hadisə axarında poetik söz olaraq mənayaratmada xüsusi funksional çəkisi ilə diqqət önünə gəlir. *"Bədii mətləbin təsir sahəsinə uyğun olan sözlərdən tərtib olunmuş misralar poetik sözlər səviyyəsinə yüksəlməsini təmin edir, bədiiliyin möhkəm meyarları ilə qavranılır. Bu xüsusiyyət fikrin rəvan ifadəsinə, bədii mətləbin ən ümdə cəhətlərinə, ön plana çəkilməsinə şərait yaradır. Dil faktı öz bədii mühitini düzgün müəyyənləşdirdiyi yerdə ifadə olunan bədii mündəricənin obrazlı əks-sədası canlanır, bütövlükdə şeirin mətni sənət faktı kimi təzahür edir"* [55, s.97-98]. "Gavur"dan gətirdiyimiz ayrı-ayrı misra nümunələri bədii mətləbin təsir sahəsinə (ümumi ahənginə) uyğun işlənməklə poetik funksiyasında məzmunyaradıcı fakt kimi bədiiliyin kompanenti rolunu oynayır. Söz və misra tənasüblüyü bədii mətndə bədii sözün imkanları daxilində mühitinin təminatçısı rolunu oynayır. Bütün bunların nəticəsidir ki, eyni bənd, eyni misra və hadisə axarında məntiqi cəhətdən bir-biri ilə bağlanmayan sözlər, söz qrupları yazıçı qayəsində bədii söz vasitəsi ilə eyni hissi, ovqatı ortaya qoya bilir. Daha doğrusu, kəsb etdiyi məna qatı ilə eyni düşüncəni sərgiləyir. Bədii sözün emosiya qatı tərcüməçinin mətləbi çatdırma bacarığında reallaşır və bu prosesdə poetik sözün funksiyası bütün parametrləri ilə mahiyyəti çatdırmaya bağlanır.

Min bir zövq alardı uşaqkən Həsən;
Otların üstündə haray salardı...
Ah, birdən tutsaydı o kəpənəyi. [23, s.25]

Göründüyü kimi, Həsənin uşaqlıq illəri timsalında olunan təqdimat və baharın əsrarəngizliyində qayğısız keçirdiyi günlər, sevinc anları bədii axarda "ah, birdən tutsaydı o kəpənəyi" misrasının əhatələdiyi emosiyada bütöv bir mənzərəni canlandırır. Üslubi-etetik baxımdan poetik sözün misra daxilində yaraddığı emosiya bütün

parametrlərdə bədiilik komponentləri ilə struktur əlvanlığına, məna uyuşmasına, bir-biri ilə bağlanan misra, fikir axarına, bədii mətləbin üslubi-poetik ininkasına əsas olur.

Batan al günəşin son şəfəqləri
Qayalı dağların üstünə düşdü.
Şüalar bəzədi göy üfüqləri,
Qaynar bulaqlarla sanki öpüşdü.
Bu şəffaf, bu soyuq axar suların
Sirli səslərində nələr yüksəlir?
O yüksək dağlarda yaşayanların
Öndəki tatar da, ah, bu nə işdir. [23, s.31]

Bütöv bir təfsilatı əks etdirmə gücü ilə diqqət önünə gələn bu poetik mətn bədii sözün hüdudları daxilində müəllif və tərcüməçi timsalında səs simvolizmi və səs assosiasiyası (buraya səs təqlidi də daxildir) əsasında bədiiliyin təminatçısına çevrilir. Tərcüməçinin tərcüməçilik funksiyasında dil bütün ifadə çeşidləri ilə səslərin linqvopsixoloji əsrarəngizliyində həm də orijinal haqqında müsbət təsəvvür formalaşdırır. Mətn orijinallığı və tərcümə orijinallığı ilə səciyyələnən "Şərq poemaları" poetik sözəlrin uğurlu yerinə və məqamına görə bədii təsirir artırmaqla, həm də onun təminatcısına çevrilir. Ayrı-ayrı misraların çeşidlədiyi mənada poetik sözlərin yeri müstəsnalıqdı. Məsələn, *"heç kəs aman deyib, çağırmadı da"* [23, s.32], *"Par-par parıldayır – baxırsan hara"* [23, s.33], *"düşmən qılıncının yanında tir-tir"* [23, s.34], *"aha... o atlıdır dərəyə enən"* [23, s.35], *"eh, ata, o pələng ölmüşdür artıq"* [23, s.47], *"eh... qəlbindən qara qanlar axıdan"* [23, s.48] və s. misralar mətn daxilində poetik sözlərin imkanlılıq funksiyası ilə mənayaradıcı təsəvvürü formalaşdırır, bir növ ekspressifliyin, emosionallığın, bədii bütövlüyün təminatçısına çevrilir. Poetik sözlərin işləkliyi (orijinalda və tərcümədə) yaradıcının fikir və düşüncələrini bütün çalarları ilə, həm də məqsədyönlü şəkildə istifadə məramından irəli gəlir. Onu da əlavə edək ki, bədii düşüncədə *"məqsədyönlülük xalis linqvistik anlayışdır, ona görə ki, bu məqsədyönlülük öz mənasına görə müxtəlif səviyyəli, lakin öz ifadə və emosional gücünə görə müxtəlif olan dil vahidlərinin seçilməsi ilə şərtlənir"* [114, s.31-32]. Bu funksiyanı isə bədii mətndə bütün söz qrupları (ümumiişlək sözlər, omonim, sinonim,

antonimlər, epitetlər, frazeoloji birləşmələr, vulqar sözlər, varvarizmlər, arxaizmlər və s.) yerinə yetirir.

Bədii mətndə poetik söz yığcamlığın, mütəşəkkil və emosionallığın, poetik siqlətin təminatçısı funksiyasını faktlaşdırır. Hər səsin, sözün intonasiyanın, vurğunun, fasilənin öz məqam və yeri vardır. *"Vallah, ana olmaz heç mənim kimi"* [23, s.35], *"Həsənin papağı!.. Ey fələk!.. Aman!"* [23, s.36], *"dalmısan quşların şaqraq səsinə"* [23, s.56], *"qımışdı astaca söylədi belə"* [23, s.57], *"ah, Səlim! Bu kədər yaraşmır sənə"* [23, s.64], *"...ah, əziz Səlimim, əziz Səlimim"* [23, s.64] və s. misralarda poetik sözlərin işləklik məqamları emosionallığı, bədii təsir vasitəsini artıran və poetik mühitin təminatçısına çevrilən komponent kimi diqqətçəkici mahiyyət daşıyır. *"Ümumiyyətlə, dilçiliyin diqqətini belə mövqeyə cəlb etmək vacibdir ki, poetik nətqin tədqiqi heç də dar, lokal bir əhəmiyyət kəsb etmir. Poetik nitq onunla əlamətdardır ki, ondan xüsusən parlaq şəkildə absurd səviyyəyə qədər çatan (praktik nitq nöqteyi-nəzərindən) və nitqin bütün növlərinə xas olan xüsusiyyətlər özünü göstərir. O, (poetik nitq) dilçi-tədqiqatçı üçün elə bir laboratoriyadır ki, dilçi üçün linqvistik planda böyük imkanlar açır"* [121, s.190]. C.Q.Bayronun "Şərq poemaları"nın Azərbaycan dilinə tərcüməsinin dil və üslub xüsusiyyətlərinin imkanlılıq səviyyəsi orijinalın əhatə elədiyi məzmuna və onun poetiklik səciyyəsinə bağlanır. Zəngin məcazlar şəbəkəsi (metanimiya, epitet, metafora, təşbeh, sinekdoxa, anafora, epifora, bədii sual), frazeoloji vahidlər, digər rəngarəng söz qrupları, səs assosiasiyaları bir bütöv olaraq əsərin bədii axarında mənayaradıcı funksiyası ilə diqqət önünə gəlir. Misra və bənddaxili semantik tamlıq tərcüməçi intelleksiyasını, bədii zövqünü ehtivaya köklənən fakt olaraq poetik dilin tələb və qanunauyğunluqları miqyasında reallaşdırır. Bədii düşüncə mədəniyyəti bədii dil mədəniyyəti kimi sənətkarın özünəməxsusluqlarına bağlanır. B.Vahabzadənin, A.Aslanovun, N.Gəncəlinin, Ə.Rzanın, İ.Rəhimovun, M.H.Təhmasibin tərcümələrində poetik söz qruplarının çeşidlədiyi mənzərə Azərbaycan dilinin zənginliyində bədii mətnin bədii-estetik qatının təqdimi baxımından dolğun bir təsəvvürü ortaya qoyur.

Tutub sinəsini yəhərdən aşdı.
Əsir, düşmüş qolu, sanki can verir.

Göylərə yalvarmaq mənasız, əbəs  [23, s.34].

Və yaxud da bir başqa nümunəyə diqqət yetirək:

O neyçin gəlmədi? Harada qaldı?..

Uçub qaça bilmir; həqiqətdir bu!

Əfsus, ləkələnib cinayət ilə [23, s.41].

Ümumiyyətlə, zamanından, məkanından asılı olmayaraq poeziyanın, bütünlükdə bədii düşüncənin dili ümumxalq dili olmaqla onun meyar və prinsiplərini təbiiliklə əks etdirmək düşüncəsinə köklənir. C.Q.Bayronun "Şərq poemaları", eləcə də bu poemaların Azərbaycan dilinə tərcüməsi də dilin təbiiliyində və emosionallıq çalarlarında özünün yüksək sənət abidəsi olması təsəvvürünü ortaya qoymuşdur. Poetik sözlərin yüksək bədii siqləti, fikir yükü, kəsb etdiyi məna  çalarları dilin ifadə imkanları miqyasında bədii mətnin mükəmməlliyinə vasitə olur. Daha doğrusu, bədii mətnin taleyini müəyyənləşdirir. Poetik sözlərin sərgilədiyi dil notları bədii mətnin sinfonik məzmununa və onu ifadəyə köklənir. Bütün bunlar poetik sözlərin bədii mətnin daxilindəki səs simvolizmindən səs assosiasiyasına, misralararası bağlantıya, sözün mətn daxilində mənayaratma funksiyasına, mətn fenomenliyinə qədər bir zənginliyi əhatələdiyini aydınlaşdırır.

### 2.2.4. Sözlərin məna qrupları (omonim, sinonim, antonim, tabu sözlər, paronim sözlər)

Dünya poeziyasının korifeyləri sırasına adını yazmış C.Q.Bayronunu bədii irsinin Azərbaycan dilinə tərcüməsində təhlil olunmalı problemlərdən birisi sözlərin məna qruplarının (omonim, sinonim, antonim, tabu sözlər, paronim və s.) işləklik məqamlarının aydınlaşmasıdır. Keçən əsrin 50-ci illərindən orijinaldan tərcümə ilə Azərbaycan oxucularına çatdırılan ədibin yaradıcılığı rus dili vasitəsi ilə bir qədər əvvəlki onilliklərdən tərcümə olunmuşdur. Mərhum alim İ.Rəhimovun "C.Q.Bayronun əsərlərində türk mənşəlisözlər" tədqiqatı şairin Şərq marağını və  tərcümə müstəvisində prosesin gedişini aydınlaşdırmaq üçün əsaslı mənbədir. *"Məlum olduğu kimi, sovetlər dönəmində əcnəbi yazıçı və şairlərin əsərləri bir qayda olaraq rus dili vasitəsi ilə Azərbaycan dilinə tərcümə olunur, bu isə orijinala xas olan bir sıra bədii məziyyətlərin*

*itkisi hesabına başa gəlir, son nəticədə Azərbaycan oxucusu uduzurdu. Sətri tərcümə isə ingilis dilini bilən milli yaradıcı insanın birbaşa orijinalla təması deməkdir. "Gavur" (tərcümə edəni Novfuz Gəncəli), "Korinfin mühasirəsi" (Aslan Aslanov) və "Abidos gəlini" (Bəxtiyar Vahabzadə) məhz İsmixan müəllimlə tanınmış şairlərimizin müştərək əməyinin nəticəsi kimi uğurlu alınmışdır.*

*"Şilyan məhbusu" və "Mazera" poemalarının tərcümə taleyi isə daha uğurlu alınmışdır- hər iki əsəri birbaşa ingiliscədən tanınmış şair-mütərcim Ənvər Rza böyük ilhamla dilimizdə səsləndirmişdir"* [5, s.4]. Bu tərcümələrdə "bayronik qəhrəman", "bayronizm" məsələsinin çatdırılmasının ümumi mənzərəsi sözlərin məna qruplarından yüksək ustalıqla bəhrələnmə sayəsində reallaşmışdır. Məsələn, "Gavur"da varlı müsəlman Həsənin evindəki hərəmxana və orada baş verənlər, Leylanın hekayəti, "Abidos gəlini"ndə varlanmaq məqsədi ilə qardaş qatilinə çevrilən Cəfər paşanın amansızlığı, Züleyxanın faciəli həyatı və s. şairin dünyagörüşünü, həyat fəlsəfəsini, yaradıcı istedadının əlçatmazlığını əks etdirəcək mükəmməl abidələrdir. Onun tərcüməsi isə bu istedadın Azərbaycan ədəbi mühitinə çatdırılması məsələsidir.

Klassiklər vurğulayırlar ki, şeirdə sözün yeri dar, fikrin isə yeri geniş olmalıdır. Bu genişlik isə şairin sözə nizam vermək imkanlarına bağlanır. Janr səviyyəsindən sintaktik səviyyəyə qədər olan bütövlüyü əhatələyir. C.Q.Bayron yaradıcılığının Azərbaycan dilinə tərcüməsində də məhz bu prinsip əsas götürülmüş yazıçı üslubu ilə tərcüməçi üslubu biri-digərini tamalayan vasitəyə çevrilmişdir. Sözün məna qrupları omonim, sinonim, antonum, anafora, epifora, sintaktik fiqurlar səviyyəsində son dərəcədə möhtəşəm zənginliyi sərgiləyir. Məsələn, *"poetik mənanın omonim sözlərin imkanları üzərində mərkəzləşdirilməsi belə bir müddəanı qabarıqlaşdırır ki, omonimlər uğurlu işlənmə məqamlarında bədii əhvali-ruhiyyənin çox imkanlı ifadə vasitəsidir, mövzuya, mövzunun emosional-ekspressiv mahiyyətinə uyğun xarakterlidir.*

*Omonimlər şeirin səs əlvanlığına marağı gücləndirir. Səslə məna əlaqəsinin davamlı və güclü olduğu hallarda daha çox şeir dilinin bəzi ən mühüm, ən səciyyəvi cəhətlərini aşkara çıxarır"* [55, s.327]. Omonimlərin, eləcə də sinonim, antonim, tabu sözlərin, frazeloloji birləşmələrin və s. iştirak etdiyi misralarda güclü keyfiyyət

dəyişmələri, obrazlı düşünmə əlamətləri özünü göstərir ki, bu da bədii nümunənin uğurluluğu təsəvvürünə gətirib çıxarır. Bədii nümunədə rəvanlığın təmini sözlərin məna qruplarının yerinə və məqamına görə işlənmə uğurluluğuna bağlanır. "Şərq poemaları" bu kontekstdə kifayət qədər diqqətçəkici ifadə, dil zənginlikləri ilə faktlaşır. Məsələn, *"ulduzlar axşamlar sönüb-yananda"* - antonim [23, s.13], *"açılır, bağlanır səhifələri...* – antonim [23, s.20], *"onlardan əl çəkməz tutqunluq, kədər; qəmli görünərlər hər axşam-səhər"* – antonim [23, s.21], *"açıb-bağlamasa pəncərələri"* - antonim [23, s.22], *"çətin rast gələrsən başqa bir səsə, keçir varlı, yoxsul çox saymazyana"* - antonimlər [23, s.22], *"nə isə... bilinər kimliyi tez-gec"* – antonim [23, s.39], *"bəzən dostlarımla düşmənin üstə"* - antonim [23, s.44], *"qaranlıq gecədən səhərə qədər"* – antonim [23, s.152], *"yatağı, ələfi yaxşımı, pismi"* - antonim [23, s.152], *"ac oldu, tox oldu – onunçün birdi"* – antonim [23, s.152] və s. rəngarəngliklər şeirdə hər bir dil vahidin özünəməxsus yerinin və məqamının olduğunu aydınlaşdırır. Əsərdə yaratdığı ovqat isə poetik mətndə uğurluluğunu müəyyənləşdirir. Mətn fenomenliyi, sözün məna yaddaşı, janr məzmunu tərcümə prosesində modelləşmənin, sintaktik fiqurların düzümü və sənətkar istedadının bunlardan istifadə bacarığı ilə faktlaşır. Poetik dilin qanun və əhəmiyyətini xarakterizə edən və onun qadirliyini müəyyənləşdirən mühüm kateqoriyalar sırasında sözün önəmi müstəsnalıqdır. *"O, elə estetik kodlar sistemidir ki, təbii danışıq dilinin imkanlarından qidalanır, onun tükənməz enerjisi üzərində köklənir"* [135, s.298]. Omonimlərin, sinonimlərin və antonimlərin, anafora, epifora və s. söz qruplarının bədii mətndə yaratdığı əlvanlıq bütün parametrləri ilə estetik kod üzərində nizamlanmaqla mükəmməlliyin qaynağı funksiyasını yerinə yetirir. Yuxarıdakı nümunələrdə estetik məna vahidi olaraq antonimlər ("sönüb-yananda", "açılır, bağlanır", "axşam-səhər", "açıb-bağlamaq", "varlı, yoxsul", "tez-gec", "dostlarımla düşmənin") işlənmə məqamına görə elə ifadə çalarlarına yüklənirlər ki, estetik informasiya axarında modelləşmənin komponenti olaraq poetik mühitin yaranmasında vasitəyə çevrilir.

Bədii məlumatdakı çoxmənalılıq, şərtilik, məcazilik, rəmzilik, subyektivlik, tükənməzlik və unikallıq dil faktları ilə reallaşır. Poeziyanın ilkin materialı olan söz və söz qrupları bütün məqamlarda müstəsnalıqları ortaya qoymaq gücündədir.

Omonimlər, sinonimlər, antonimlər, bütün sintaktik fiqurlar, frazeoloji vahidlər öz daxili semantik imkanlarını bədii mühitdə ortaya qoyur. Adi halda ecazkar və cazibədar əsrarəngizliklərini gizlədir və mətn daxilində onun kəsb etdiyi məna qatları yerinə və məqamına görə daşıdığı məna ilə ortaya çıxır. Məsələn, "çıraqlar, qəndillər bərq vurur hər an" – sinonim [23, s.18], "qızılla, qaş-daşla yansa da par-par" – sinonim [23, s.30], "çoxdan itib-batıb o şan, o şöhrət" – sinonim [23, s.16], "hiyləsi, kələyi zərbi-məsəldir" – sinonim [23, s.17], "çıraqlar, qəndillər bərq vurur hər an" – sinonim [23, s.18], "sanki süvari yox, yeldi, küləkdi" – sinonim [23, s.18], *"məskəni, yuvası haradır onun?"* – sinonim [23, s.18], *"onun yollarına saçsın işıq, nur"* – sinonim [23, s.20], *"qumların üstündə silər külək, yel"* – sinonim [23, s.22], *"bütün ləpirləri, iz də tapılmaz"* – sinonim [23, s.22], *"kədər, qəm əbədi qanad gəribdir"* – sinonim [23, s.22], *"ötər yer üzündən neçə bahar-yaz"* - sinonim [23, s.24], *"bu sabah – bəlkə də işıqlı, parlaq"* - sinonim [23, s.173], *"kədərdən, qüssədən, təhqirdən uzaq"* - sinonim [23, s.173], *"azcaca titrədi, əsdi bədənim"* – sinonim [23, s.174], *"göz deyil, elə bil oddu, atəşdi"* – sinonim, metafora [23, s.175] və s. Göründüyü kimi, bu misralarda sinonimlik dilin ən mühüm poetik ifadə və obrazlılıq funksiyasını yerinə yetirir. *"Sinonimliyin ifadəlilik sisteminə, təsvir-tərənnüm imkanlarının genişliyinə estetik mahiyyətli olması şeir dilinin özünə geniş işləklik qazandırır. Bədii-üslubi sınaqlara məruz qalması və obrazyaratma əməliyyatına, yaddaqalan ifadə tərzinə yararlılıq onun daimi keyfiyyətidir. Şeir dilində ona görə onun geniş yeri vardır ki, yaradıcılıq prosesinin əsas məğzini təşkil edən "söz əzabı" da, söz axtarışında və təbii olaraq poetik kəşf fərəhi, yaradıcılıq zövqü və sinonim cərgələrdən istənilən, arzu edilən dil vahidinin uğurlu tapıntı zəminində baş verir"* [55, s.340]. Bütün bunlar isə tərcümə prosesində dilin ümumi qanunauyğunluqlarına və tərcümə dilinin ruhuna dərindən bələdliliklə reallaşır. C.Q.Bayronun "Şərq poemaları"nın orijinalda əhatələdiyi mənzərə və tərcümə timsalında həmin zənginliyi çatdırmağa köklənməklə baş vermişdir.

"Gavur", "Korinfin mühasirəsi", "Abidos gəlini", "Şilyan məhbusu" və "Mazera" poemalarının poetik sisteminin mükəmməlliyi müxətli səviyyələrdə dissertasiya mövzusu olaraq İ.Rəhimov ("C.Q.Bayronun əsərlərində türk mənşəli sözlər" (1959), Ə.Rza ("Bayronun "Şərq poemaları" Azərbaycan dilində" (1969), tərəfindən

işlənmişdir. Burada dünya korifeylərindən olan C.Q.Bayron yaradıcılığı mövzu problematikası kontekstində araşdırılmış və digər təhlilləri özlüyündə zərurət olaraq elmi-nəzəri fikrin qarşısına qoymuşdur. Dahi sənətkarın əsərlərinin Azərbaycan dilinə tərcüməsinin dil və üslub xüsusiyyətləri də bu zənginliyin örnəyi kimi diqqət önünə gəlir, ayrı ayrı söz qrupları, fonopoetik, morfopoetik, sintaktik səviyyənin sərgilədiyi faktura ilə mükəmməllik qazanır.

Semantik motivləşmə prinsipində omonim, sinonim, antonimlərin yaratdığı mənzərə, tabu sözəlrin, paronimlərin misra düzümündə funksional rolu bir bütöv olaraq dil imkanlarına bağlanır. Məsələn, *"sanki iblis burda çalmışdır zəfər"* – tabu söz [23, s.14], *"fəth edib göylərin sanki yurdunu, cəhənnəm əhlinə veribdir onu"* – tabu söz [23, s.14], *"o vəhşi görkəmli, o vəhşi iblis"* – tabu söz [23, s.19], *"vampir surətində peyda olarsan"* – tabu söz [23, s.38], *"sənin qurbanların can verməmişdən bilərlər demondur öz ataları"* – tabu söz [23, s.38], *"sənə nə ad verim mən, ey Kaluqar"* – tabu söz [23, s.39] və s. söz qrupları sənətkarın yaradıcılıq imkanlarına bağlanır. Ümumiyyətlə, *"sənətkar yurdun söz memarıdır. Sözlərin sarayında yaşayır hər sənətkar. Bir xalqın dilidir şeirin dili. Xalqın taleyidir sözün taleyi. Söz üstündə şam kimi yan... Əsl sənətkarın qəlbində bir-birinə söykənib misra yaradan sözlərin öz boy sırası olur, məqamları daha tutumlu, daha sanballı, daha əzəmətlidir"* [33, s.95]. Dorudan da, sənətkarın sözdən istifadə bacarığı onun söz memarı olması təsəvvürünə bağlanır. Yaradıcının taleyi sözdən istifadə bacarığına, söz rəftarına işıq tutur. Semantik motivləşmənin ortaya qoyduğu rəngarəng söz qrupları tərcümə və orijinal baxımından ortaqlığın qorunuşunu diqqət önünə gətirir. Söz seçmə fəhmi və mətn daxilində sözün məna yükünü bütün aspektləri ilə əksetdirmə imkanları sənətkarın istedadını diqqət önünə gətirir. Çünki bədii əsər bütün parametrlərdə yaradıcı istedadının hüdudları daxilində ortaya çıxır və onun alınıb-alınmaması isə bir başqa məsələdir, daha doğrusu, mövzunun ona doğmalığı və orijinal ifadə üsulunun tapılmasıdır.

"Şərq poemaları"nın orijinallığını səciyyələndirən xüsusiyyətlər sırasında sənətkarın mühiti öyrənmək və mühitlə onun təsəvvürləri, ruhani dünyası ilə bağlantıları məsələsidir ki, bu da diqqətçəkici məsələ kimi xüsusi mahiyyət daşıyır.

XVIII əsrin əvvəllərindən çoxalan istiqamətə gedən Avropanın Şərq marağı həm də bir-birindən orijinal abidələrin ortaya çıxması üçün əsas olmuşdur. C.Q.Bayronun "Şərq poemaları" bunun bariz örnəyi olaraq diqqət önünə gəlir və rəngarəng ifadə vasitələrinin, dil komponentlərinin mahiyyəti əks etdrimə gücündə reallaşır. Bədii söz və onun mətn daxilində yaratdığı təsəvvür genişlənmələrlə, məzmunyaratma imkanlarının rəngarəngliyi ilə səciyyələnir. Sinonimlərin, antonimlərin, paronimlərin, sintaktik fiqurların və s. söz qruplarının sənətkarın söz seçmə fəhminə görə məzmun yaratmada oynadığı funksional rol sənətkarın yaradıcılıq prizmasının məzmununu aşkarlayır. Məsələn, *"ehtiras qürurla qaynayıb, haman"* - paronim söz [23, s.13], *"bir an düşünmədən tutdumu haman"* – aronim söz [23, s.25], *"Qızın zərifliyi töküləcəkdir. İblis hakim olan o sonsuz, dərin"* – paronim söz [23, s.37], *"yavaşcadan qaldırıb o, tumbul əllərini"* – paronim [23, s.59], *"səf-səf orduları onların haman"* – paronim söz [23, s.111] və s. hamısı bədii qayənin faktı olaraq tərcümə prosesində mahiyyəti çatdırmağa hesablanır. Bütün bunlar C.Q.Bayronun "Şərq poemaları"ndakı zənginlik timsalında tərcümədən gələn özünəməxsusluqların, dil və ifadə örtüyünün qorunuşuna hesablandığını bir daha aydınlaşdırır.

### 2.2.5. Onomastik leksika (antroponimlər, toponimlər, hidronimlər, kosmonimlər, zoonimlər)

C.Q.Bayronun "Şərq poemaları"nın Azərbaycan dilinə tərcüməsinin dil və üslub xüsusiyyətlərinin zənginliyində onomastik vahidlərin müstəsna rolu vardır. Dil sənətkarın estetik idealını rəngarəng fakt və boyalarla ortaya qoymaq gücündə olan bədii təqdim hadisəsidir. Hər bir linqvistik komponent bədii dilin ifadə vasitəsi olaraq mətndə əlvanlığı ortaya qoyur və ümumiyyətlə, bu funksiyaya köklənir. Sənətkar hiss və duyğularını, düşüncələrini, həyata baxışını ayrı-ayrı epizodlar, hadisə və əhvalat təqdimatları ilə reallaşdırır. Mahiyyətin çatdırılma vasitəsi isə sözdür və onun ehtiva etdiyi imkanlılıq səviyyəsindən gərəyincə yararlana bilməkdir. Onomastik vahidlərin üslubi imkanları bədii mətnə əlavə çalarlılıq, ekspressivlik gətirməklə, həm də bədii-estetik mühitin təminatına şərait yaradan vasitə kimi ciddi funksiya ilə şərtlənir. Məlum olduğu kimi, *"onomastik vahidlər Azərbaycan ədəbi dilinin bədii üslubunun lüğət*

*tərkibini zənginləşdirir, əsərin əmzmununa, ideyasına və s. xidmət edir. Tarixi inkişaf boyu xalqın formalaşmasının bütün mərhələlərində iştirak edən onomastik vahidlərin tarixi-müqayisəli aspektdə tədqiqi əvəzsiz rol oynayır"* [77, s.3]. Xüsusi adlar toplusu olan onomastik vahidlər bədii mətndə sənətkarın bədii-estetik təsəvvürlərini, yazı prosesində dilin üslubi-leksik qatlarına bələdliyini müyyənləşdirən faktorlardan biri olaraq diqqət önünə gəlir. Nitqin yaranması və inkişafı xüsusi adların da yaranmasını bir zərurət olaraq ortaya qoymuşdur. Bütün bunlar timsalında bədii mətndə onomastik vahidlərin (antroponim, toponim, hidronim, zoonim, kosmonim və s.) sərgilədiyi mənzərə xalqın, tarixinə, etnoqrafik və psixoloji yaddaşına, adət-ənənəsinə, həyat tərzinə bağlanır. "Şərq poemaları" da bu kontekstdə kifayət qədər maraq doğuracaq faktura ilə diqqət önünə gəlir və həm də sistemli təhlillər müstəvisində açılmanı zəruriləşdirir.

"Qabil", "Gavur", "Korinfin mühasirəsi", "Abidos gəlini", "Şilyan məhbusu", "Mazera" və s. əsərləri onomastik leksika anlamında əsərin adlarından tutmuş onun içərisindəki müxtəlif çeşidlərdə özünü göstərəcək zənginliyə qədər bir müxtəlifliyə bağlanır. Poelamarın ayrı-ayrı səhifələrində özünə yer alan antonimlər *("məqsədi, arzusu nədir Gavurun?"* [23, s.18], *"günah Həsəndədir, burada yox sirr"* [23, s.20], *"Gavur dağıtmazdı; Bais Həsəndir"* [23, s.20], "*qulaq asmayacaq Həsən bu yerdə"* [23, s.21], *"Leyla bu sarayda yaşayan zaman"* [23, s.26], *"heç belə ovlara getməzdi Həsən. Cəmşid qılıncının şəbçırağıtək"* [23, s.27], *"Həsən "Ya Məhəmməd!" dedi davada"* [23, s.34], *"burada Habilin lənət etdiyi"* [23, s.46], *"o vaxt Tahir adlı bir dərviş varmış"* [23, s.46], etnonimlər *("Yunanın şöhrəti sormayın nədir"* [23, s.17], *"Dəniz quldurları!.. Maynotdur, bəli..."* [23, s.17], *"bilirəm düşmənsən osmanlıya sən"* [23, s.18], *"ya uzaqlaşmalı, ya ölməlisən. Nubiyalılar da dedilər, canım"* [23, s.27], *"qılıncı arnaut qanına batmış"* [23, s.29], *"dəstədən ayrılıb öndədir tatar"* [23, s.30], *"öldü vətənində bir osmanlıtək"* [23, s.37], *"yox, yox, osmanlıya bənzəməyir heç"* [s.39], toponimlər *("belədir bu sahil, bu Yunanıstan!"* [23, s.14], *"deyin, Termoniya deyilmi bura?"* [23, s.15], *"Port-Leon üstündə parlar, bərq verər"* [23, s.17], *"məscidmi görünür? Qalmışdır heyran"* [23, s.18], *"Gecə iblistəki göründü, itdi, bu vaxtı Məkkədə diz çökən Həsən"* [23, s.37] və s. C.Q. Bayronun "Şərq

poemaları"nda onomastik leksikanın zənginliyini və mətn daxilində işləklik mənzərəsini sərgiləyir. Ümumiyyətlə, *"onomastik vahidin xalq etimologiyası prizmasından təhlil-düşüncə obyektinə çevrilməsində bədii boyaların əlvanlığını, şeir üslubunun incə, həssas çalarlarını görə bilirik. Ayrıca qeyd etmək lazımdır ki, şair tərəfindən onomastik vahidin poetik şərhində müəyyən hadisə və rəvayətlər aparıcı-müəyyənedici rol oynayır. Süjetdə qabarıqlaşdırılan bədii mündəricənin ümumi əhval-ruhiyyəsi, lirik-emosional ruhu bizi həyəcanlandırır"* [55, s.381]. Bunların işləkliyi bir istiqamətdə ingilis ədəbiyyatının görkəmli sənətkarının Şərqə marağını, onu çox həssaslıqla öyrənməsini əks etdirirsə, digər tərəfdən onların mahiyyətinə onomastik vahid olaraq diqqət yetirməsi ilə bağlıdır. Bu özünü ədibin müəllif qeydlərində daha təfərrüatlı şəkildə göstərir. Məsələn, "Leyli və Məcnun – Şərqin Romeo və Culyettası", "Sədi – ölməz İran şairi", "Mameluklar (məmlüklər) – yavərlik etmək üçün öyrədilmiş, Qafqazdan və Türküstandan əsir aparılmış əsgərlər. Misirdə əhalinin böyük bir hissəsini təşkil edirlər) və s. mətndən əlavə mətnaltı hissədə müəllif qeydi olaraq özünün ifadəsini tapır. Bütün bunlar isə C.Q.Bayronun Şərq mədəniyyətinə bələdliyini və onu öyrənmək işində nə qədər cəfakeşliklə çalışdığını aydınlaşdırır. Hətta görkəmli ədib bir sıra məqamlarda daha da təfsilata getməklə əfsanə, rəvayət və mif səviyyəsində xalq arasında dolaşanlara istinad edir. Məsələn, yunan əfsanələrində Helle və Sestosla bağlı bir-birindən maraqlı söyləmələr özünə yer alır. Sənətkar da bu söyləmələr timsalında Helle, Sestos antroponimlərini əsərə gətirməklə ona əlavə rövnəqlik gətirir və müllif izahında mahiyyəti açır. *"Helle – Dardanel boğazının qədim yunan dilində adı. Yunan əfsanəsinə görə Aqamon şahın qızı Helle burada batmışdır. Buna görə də yunanlar Dardanel boğazını "Helles dənizi" adlandırırlar"* [23, s.71]. Və yaxud da bir başqa müəllif sözündə onomastik vahidlə bağlı izaha diqqət yetirək: "*Sestos – Şimali Yunanıstanda şəhərdir. Burada yaşayan Heroni abidoslu Leandr sevir. Leandr hər gecə məşuqəsi Hero ilə görüşmək üçün Hellespontu (Dardaneli) üzüb gələrmiş. Bir gecə Heronun uzaqdan Leandra yol göstərdiyi fanar sönür və Leandr suya batır. Bunun dərdindən Heda özünü suya atır"* [23, s.71]. Göründüyü kimi, onomastik vahidlərin bədii mətnə gətirilməsi və onun poetiklik yaratma funksiyası sadəcə olaraq hansısa informasiyanı çatdırma məramına xidmət etmir, daha dərin məna qatlarına və

etimoloji çalarlarını əksetdirmə məramına köklənir. Sənətkar bütün bunların vasitəsilə *“sözdə yeni və yaxın etimoloji məna axtarır və bu obrazlı təsəvvürlərin tətbiqi baş verir. Motivləşdirməyə güclü meyil poetik etimologiyaya güclü şərait yaradır”* [115, s.411]. C.Q. Bayronun “Şərq poemaları”nın tərcüməsində bütün bunlar bir üslub xüsusiyyəti olaraq qorunub saxlanmaqla həm də yaradı marağını, onun Şərqi öyrənmək sahəsində dil müstəvisində həssaslığını da diqqət önünə gətirir.

“Şərq poemaları”nın tərcüməsində onomastik vahidlərin işləkliyi, əlbəttə, bütün parametrlərdə mənayaratmanın komponenti səviyyəsinə yüksəlmir, həm də işarələdiyi məzmunda gizlənən hadisə və əhvalatların açımı kontekstində sərgilədiyi məzmunla diqqət önünə gəlir. Şeir yaradıcılığında yeni sözlərin bədii mətnə gəlişinin qaynağı canlı xalq dilidir. Xalıq danışıq dili şeir dilinin spesifik xüsusiyyətlərini özündə daşıyan əvəzsiz qaynaqdır. Onomastik leksikanın sərgilədiyi bütün zənginlik faktları sənətkar məramına uyğun şəkildə mətnə gətirilir və hansısa hadisə, epizod və əhvalatı çatdırmağa hesablanır. Məsələn, *“yox, yox, bir dəstədir, qart çalağanlar”* – zoonim [23, s.30], *“sanki ona Qorqon qara bir ilan”* – zoonim [23, s.41], *“bir səhra quşuna bənzər ki, insan”* – zoonim [23, s.43], *“bülbüldür o bəlkə də, xeyr, fəryad edərək”* – zoonim [23, s.94], *“göyərçinin sevgisi, çalağanın qəzəbi”* – zoonim [23, s.53], *“onların söz-söhbəti bülbüllərin səsidir”* - zoonim [23, s.54], *“nə qəfil it səsindən səksənən qart canavar”* - zoonim [23, s.66], *“cod, samur dərisinə bürünüb gecə yarı”* - zoonim [23, s.75], *“ey sülhün göyərçini, ey ümidim, nicatım!”* – zoonim [23, s.85] və s. misraların düzümündə yer alan zoonimlər tərcümə və orijinal səviyyəsində sənətkar qayəsində və düşüncəsində özünü göstərən sözdən istifadənin imkanlarını diqqət önünə gətirir. “Şilyan məhbusu”, “Mazera”, “Qabil”, “Gavur”, “Korinfin mühasirəsi”, “Abidos gəlini” və s. əsərlərdə işləklik tapmış antroponim, toponim, hidronim, oykonim, kosmonim, etnonim, fitonim, oronim və s. sözün poetik tutumunu mətn daxilində gücləndirən dil komponenti olaraq da diqqət önünə gəlir. Çünki “bayronizm”in müəyyənləşdirdiyi düşüncə tərzi və qəhrəman tipi özü səviyyəsində dil faktlarını da diqqət önünə gətirir. Orijinalda və tərcümədə bütün bunlar sənətkarın xalq etimalogiyasından yüksək sənətkarlıqla yararlanma bacarığına bağlanır. Onu da əlavə edək ki, *“xalq etimalogiyası”nın poetik mətndə uğurlu tətbiqi” şeirin qabarıq nəzərə*

*çarpan elə məziyyətlərdəndir ki, məhz bu məziyyətlərinə görə o, şairin lirik düşüncələrinin strukturuna daxil olur. Gerçəkliyə və hadisələrə poetik münasibət tərzi də "xalq etimalogiyası" prizmasından sözə yanaşma vasitəsi ilə aşkarlanır, məzmunun poetik-fəlsəfi xarakteri qabarıq şəkildə üzə çıxır"* [55, s.376-377]. Sözün bədilik funksiyası mətn boyu əhatələdiyi məzmunla, janrın məzmunyaratma imkanları ilə müəyyənləşir.

C.Q.Bayronun "Şərq poemaları"nın onomastik zənginliyi onun həm də məna zənginliyinə vəsilə olmuşdur. Toponim, antroponim, zoonim, kosmonim, hidronim, fitonim, etnonim və s. söz qruplarının Avropa ədəbiyyatının görkəmli nümayəndələrindən biri tərəfindən bədii sferaya gətirilməsi Azərbaycan tərcümə mühiti üçün də önəmli hadisədir. Dil baxımından özünü göstərən zənginlik məsələnin bir tərəfidir və Şərqin adlar şəbəkəsi regionun ümumi mahiyyətini aydınlaşdırmaq baxımından lazımı qədər material verir. Ədibin "Şərq poemaları"nın Azərbaycan dilinə tərcüməsinin linqvopoetikası da bunu aydınlıqla göstərir. Məsələn, *"Hellenin üstündə coşur dalğalar"* - hidronim [23, s.72], *"onun dərdli başını qucaqlamaq istəsə Lemno sahillərində"* - hidronim [23, s.91], *"sonra biz tərk eylədik Dunay sahillərini"* – hidronim [23, s.81], *"bura Günəş ölkəsi, bura Şərq ölkəsidir"* – kosmonim [23, s.54], *"bu gün dan yerində gün boylananda"* - kosmonim [23, s.55], *"buludlar arxasından"* – kosmonim [23, s.66], *"çaxan ildırım kimi"* – kosmonim [23, s.66], *"yanırdı gözündə alovlanaraq, onu salamlayan yeganə ulduz"* – kosmonim [23, s.72], *"Mərsin, sərv ağacları bütün cinayətlərin"* – fitonim [23, s.53], *"üzüm tənəklərindən burda min orman olur"* - fitonim [s.53], *"burda limon bağları yaşıl olur müttəsil"* - fitonim [23, s.53], *"həyadan qızardı gül yanaqları, onun yanağında açılan lalə"* - fitonim [23, s.61], *"səpildi tavana, zər divarlara, dərib qızılgülü Züleyxa bu an"* - fitonim [23, s.64] və s. hamısı dil zənginliyini, mətndə müəllif qayəsini, bədii sözün rəngarənglik tərəflərini aydınlaşdırmaq üçün mühüm önəm daşıyır. Ümumiyyətlə, poeziya dil materialı və dil strukturu hüdudlarında məzmun və harmoniyanın ortaqlığını təşkil edən və onun təminatçısına çevrilən düşüncə hadisəsidir. Bədii söz obrazlı təfəkkürün, hiss və duyğuların ecazkar ifadə formasıdır və bütünlükdə bədiiliyin meyar və prinsipləri onunla reallaşır.

Paratekstuallıq (yan mətnlərlə) əlaqə müsytəvisində aparılan təhlillər tərcümə və orijinal səviyyəsində işlərin məzmun və mahiyyətini aydınlaşdırmaq üçün əsaslı material verir. Tərcümədə özünü göstərən başlanğıc və sonluq formulları, eləcə də keçid formullarının poetik sistemində əksini tapan onomastik leksika ünsürləri bir bütöv olaraq məxmunyaratma baxımından kifayət qədər ciddi önəm kəsb edir. Onun funksional səciyyəsi isə söz qruplarından sənətkarın hansı səviyyədə bəhrələnməsi ilə əlaqələnir. M.H.Təhmasib, B.Vahabzadə, A.Aslanov, N.Gəncəli, İ.Rəhimov, Ə.Rza kimi söz sahiblərinin C.Q.Bayronun “Şərq poemaları”nın, eləcə də pyeslərinin tərcüməsində yaradıcı ruhunu dərk etməsi və poetikliyi yüksək sənətkarlıqla qoruma işi bir istiqamətdə onomastik vahidləri yerinə və məqamına görə işlədə bilmə bacarığına bağlanır. Burada ən önəmli olan məsələ ədibin ruhunu, həyata orijinal baxışlarını, dünyagörüşünü, üsyankar təbiətini əsər boyu hadisələrin axarında göstərə bilməkdir. Çünki Bayron qəhrəmanları elə Bayronun özü qədər emosional və orijinaldır. “Korinfin mühasirəsi”, “Şilyan məhbusu”, “Mazera”, “Qabil”, “Gavur”, “Abidos gəlini” və s. bunun nümunəsidir. Bunlar isə bədii düşüncənin materialı olan dil faktları ilə açılır. Dövrün ictimai-siyasi, ədəbi-mədəni, tarixi-fəlsəfi diaxroniyası ayrı-ayrı epizodlarda mahiyyəti diqqət önünə gətirir.

Ay öz şəfəqini saçmayır hələ.
O kəhrəba təsbehin yanında, həm də budur,
Sofya dərəsi oldu məskəni qoşunların [23, s.79].

Göründüyü kimi, “Sofya dərəsi” haqında bilgi onun informasiya qatını diqqət önünə gətirir. Üç hissədən ibarət olan bu dərə Psiş çayının axdığı dağlar arasında vadidir. Beş kilometr uzanan qayalar arasında sıxılmış dar hissə Sofya dərəsinə əlavə ovqat qatır. Dərə və vadi, orada yerləşən göl və şəlalələr Sofya dağlarına bağlanır. C.Q.Bayronun isə Sofya dərəsi oronimini mətnə gətirməsi onun mifoloji və tarixi qatlarına həssaslığının göstəricisidir. “Sənin doğma, “geniş Hellespont” onun” isə hidronim olaraq dilçilik müstəvisində xalq yaddaşında olan əfsanə, rəvayət qatını işarələyir. Qədim yunan miflərindən bu omonimin bir rəngarənglikl‌ə keçdiyi görünür. Və yaxud da “Kor, qoca Skif adalarına” misrasında mətnin ortaya qoyduğu informasiya yükü “kor” (antroponim) və “Skif adaları” (oronim) anlamında mətn

daxilində poetikliyi ifadə etməklə, həm də məzmun qatında olanlarla şairin nələrə həssaslığını aşkarlayır. “Kor aşıq” təsəvvürü dünya ədəbiyyatında özünə geniş yer almış məsələdir. Homerin də “kor aed” (aşıq) kimi ədəbiyyatda obrazlaşması sırf məqsədə, yaddaş intelleksiyasına bağlanır. Antroponim olaraq sonrakı çağların bədii düşüncəsini diqqət önünə gətirir. “Skif adaları” skiflərlə bağlı tarixi mənzərəni, coğrafi düşüncədə oturuşmuş məqamları və Skif padşahlığına qədər nə varsa hamısını özündə ehtiva eidr. Bütün bunlar C.Q.Bayron yaradıcılığının Azərbaycan dilinə tərcüməsində və orijinalda özünü göstərən onomastik vahidlərin zənginlik faktları olub bədii axarda mətnə gətirdiyi rəngarəngliklərı əks etdirmək funksiyasını aşkarlayır.

### 2.2.6. Frazeoloji vahidlər, frazeoloji söz birləşmələri, frazeoloji sabit ifadə və ibarələr

Bədii mühitdə frazeoloji vahidləri hazır şeir qəlibləri, poetik dil komponenti, bədiiliyin mətn daxilində ən uğurlu təminatçısı, hazır şeir və s. anlamlarda şərh edirlər. Çünki şeir sənətinin spesifikası onun hissi və fikri təfəkkür intelleksiyası ilə müəyyənləşir. Frazeoloji vahidlər, frazeoloji söz birləşmələri, frazeoloji sabit ifadə və ibarələr şeir mətnində bədii axarın əvəzsiz təminatçısı olaraq dil zənginliklərini, sənətkarın ondan istifadə bacarığını aydınlaşdırır. Bir növ xalq dilinin zənginlik səviyyəsinə bağlanmaqla həm də ruhun daşıyıcısı kimi ciddi təsəvvürə yüklənir. Məlim olduğöu kimi, ən yaxşı sənət əsərləri xalq dilinin daxili mahiyyətini, imkanlılıq və estetiklik səviyyəsini ortaya qoyur. Şeir dilin təravəti və təravətlilik göstəricisidir. Xalq dilinin bütün imkan və göstəriciləri bir bütöv olaraq bədii mətndə özünü daha aydın və parlaq nümayiş etdirir. Səsin tonu ilə daxili harmoniyası arasında bağlılıq frazialoji vahidlərdə, ümumiyyətlə, sintaktik fiqurlarda dil möcüzəsi yaratmağa xidmət edir. Bitib-tükənməyən və sərhədlərinin hüdudsuzluğu təsəvvürünə bağlanan frazemlər məzmununda (daxili semantikasında) ağlagəlməz zənginlikləri faktlaşdırır. Rəngarəng bədii-estetik qatlar, üslubi tapıntılar onların mətn daxilində hərəkətliliyini diqqət önünə gətirir. Sabit söz birləşmələri bütün səviyyələrdə obrazlı deyim mühiti yaratmaqla həm də üslubi məna çalarları qazanır.

C.Q.Bayron yaradıcılığında və onun əsərlərinin Azərbaycan dilinə tərcüməsinin üslubi xüsusiyyətlərində frazeoloji dil materiallarının rəngarəng keyfiyyətləri təzahür edir. Onu da əlavə edək ki, *"bütün zamanlarda frazeoloji birləşmələr ədəbiyyatşünaslar tərəfindən adi leksik vahiddən daha çox obrazlılıq, yüksək ifadəlilik vasitəsi kimi dəyərləndirilmişdir. O da xüsusi vurğulanmalıdır ki, xalq frazeologiyası bu baxımdan daha aparıcı mövqelidir"* [123, s.158]. Dünya ədəbiyyatında "sevimli şair", "bayronizm", "ziddiyyətli-fərdiyyətçilik", "üsyankar ruh" və s. adlar altında anılan C.Q.Bayron yaradıcılığı dil və düşüncə ortaqlılığında bu əlçatmazlığa yüksəlmişdir. Əsərlərinin zəngin dil örtüyü xalq danışıq dilindən gələnlərə bağlanmaqla və həm də etnosun mədəniyyət təsəvvürlərini bir bütöv olaraq əks etdirməyə köklənməklə əlçatmazlığa yüksəlmişdir. "Gavur", "Korinfin mühasirəsi", "Şilyan məhbusu", "Mazera", "Qabil", "Abidos gəlini" və s. əsərləri bunun bariz göstəricisi olaraq tərcümədə və orijinalda mükəmməl təsəvvürə bağlanır. Maraqlı cəhət ondadır ki, Azərbaycan dilinə tərcüməsində bütün sənətkarlar buna sədaqət göstərməklə "sevimli şair" adının mahiyyətini açmağa köklənmişlər.

Frazeoloji vahidlər bütün kontekstlərdə xalq müdrikliyinin ən tipik örnəyi kimi ciddi təsəvvürlə xarakterizə olunur. Mətn daxilində sənətkarın poetik duyğularına hərarət, əlavə çalar qatır. Əsər boyu şairin yaradıcılıq imkanlarını, şifahi xalq ədəbiyyatının zənginliklərindən yüksək ustalıqla istifadə bacarığını, bədii örnəyə gətirdiyi təkrarsız təravəti ortaya qoyur. Onu da əlavə edək ki, mətn mühitində frazeoloji birləşmələrin obrazyaratma imkanları birbaşa şairin imkanlarına və onun zənginlikdən yararlanma bacarığına bağlanır. Burada sözün bədiilik səviyyəsi, estetik funksiyası, ifadə olunan fikrin genişlik mənzərəsi mətn bütövlüyünün komponenti olaraq əsərin uğurluluğu haqqında təsəvvür yaradır. *"Frazeoloji vahiddən uğurlu istifadə qabarıq şəkildə hiss etdirir ki, bədii söz sərraflarının poetik düşüncəsi təbii qaynaqlardan, xalqın obrazlı təfəkküründən güc-qüvvət alır, bu qüdrətli özüldən frazeoloji birləşmələr bəhrələnərək parlaq obrazlılığın meydana çıxmasında təkanverici rola malik olur"* [55, s.376-377]. Ümumiyyətlə, frazeoloji vahidlər obrazlılığın komponenti və onu mətn boyu təmin edən vasitə kimi diqqət önünə gəlir. Daha doğrusu, obrazlılıq frazeoloji birləşmələrin təbiətindədir. Sərbəst söz birləşmələri

*("açıb boşaltmağa kölgəlik də var"* [23, s.13], *"o yaşıl paltarlı kimdir qabaqda"?* [23, s.23], *"sarı papağından tanınır, odur"* [23, s.30] və s. bütünlükdə fonopoetik, morfopoetik qatı ilə məzmunyaratmaya, onun poetik çalarlığının, estetik gücünün çatdırılmasına köklənir. Sərbəst və sabit birləşmələr "Gavur", "Korinfin mühasirəsi", "Şilyan məhbusu", "Mazera" və s. əsərlərin tərcümə baxımından bədiiliyin çatdırılmasında mühüm funksiya daşıyır. Bədii fiqurların, frazeoloji birləşmələrin, eləcə də sabit söz qəliblərinin yaratdığı ekspressivlik mətn daxilində nitq etiketləri səviyyəsində mükəmməl bir dolğunluğu sərgiləyir. Bu qrup sözlərin (frazeoloji birləşmələrin) işlənmə intensivliyi tərcümədə əlavə ovqat sərgiləyir. Ona görə də bədiiliyin komponentləri kimi söz birləşmələri bütün kontekstlərdə cazibədarlığı, bədii axarda sərgilədiyi poetiklik təsəvvürü və səmimilik səciyyyəsi ilə mənayaratmaya köklənir.

"Şərq poemaları" sözün poetik imkanları və onun mətndə funksional səciyyə daşıması xarakteri ilə səciyyəvilik qazanır. Bədii söz elə cilalı, ecazkar və rəngarəng məzmunları özündə əks etdirmək gücündə görünən nitq hadisəsidir ki, onun mahiyyəti ancaq mətn daxilində əks etdirdiyi məna çalarları ilə açıla bilir. Məlum olduğu kimi, sözün poetik funksiyası onunm adi halda olan funksiyasından fərqlkliklə görünür, çünki poetik sferada bədii nümunə poetikliyin özündən gələn dil komponentlərinə yüklənməklə yeni məzmun qazanır. *"Poetik təfəkkürün məhsulu kimi yaranan söz, ifadə adi (informativ) təfəkkürün materialına çevrilə bilir... Frazeologizmlər də dilin poetik imkanları hesabına yaranmışdır, lakin hazırda dilin normativ vahidləri sırasına daxildir. Sözün poetik funksiyası səsin (musiqi səsinin), rəngin poetik funksiyasını xatırladır. Sözlə bütöv bir sənət sahəsi yaranmışdır ki, biz bunu söz sənəti, yaxud ədəbiyyat adlandırırıq"* [51, s.26-27]. Ümumiyyətlə, bədii sənətdə sözün poetik funksiyası ilə səsin, rəngin poetik funksiyası bir müstəvidə sıralanmaqla eyni məramı sərgiləmək məqsədində görünür. B.Vahabzadənin, A.Aslanovun, İ.Rəhimovun, N.Gəncəlinin, Ə.Rzanın dünya ədəbiyyatının görkəmli nümayəndələrindən olan C.Q.Bayrondan etdiyi tərcümələr poetik sözün sərhədləri daxilində orijinalla baş-başa durmaq səviyyəsində görünür. Məsələn, *"yaşar, sahibinin çəkib nazını"* [23, s.28], *"elə danışır ki... heç baş açmıram"* [23, s.40], *"ömrümdə ah çəkib, ağlamamışam"*

[23, s.47], *"görmüşdür, yoxluğun iti barmağı"* [23, s.14], *"hanı basılmamış qoç igidlərin"* [23, s.16], *"qulaq asmayacaq Həsən bu yerdə"* [23, s.21], *"bəlkə də kövrəldi... gözləri doldu"* [23, s.50] və s. misralarda misra fikir yükü obrazlı deyimə köklənməklə mətnə əlavə ovqat qatır. Tərcümə mətnlərində tərcümənin özündən gələnlərin və xəlqi mahiyyət kəsb etmənin dinamik mənzərəsini aydınlaşdırır.

Frazemlər poetik idrakın xəlqi səviyyəsini ortaya qoyan dil faktlarıdır. Xalq kimi duymaq və xalq kimi demək bacarığını əsas edən dil komponentləri milli koloriti əks etdirmək baxımından əvəzsizdi. C.Q.Bayron yaradıcılığı üçün bunlar yaradıcılıq keyfiyyəti, fərdi üslub anlamında ciddi əhəmiyyət daşıyır. Məsələn, *"dava eləməzdi; könlü, gözü tox"* [23, s.154], *"heç kəs inanmırdı bu ağ yalana"* [23, s.155], *"Açılmır başımız eşq sevdasından"* [23, s.157], *"Qəlbləri zəncirtək birləşdirir o, işləmirdi, donmuşdu damarımda qan əlbət"* [23, s.167], *"doğrayırdı hirsimdən dişim bağırsağımı"* [23, s.167], *"zülmət inad göstərdi, qaranlıq durdu üzə"* [23, s.171], *"məni qara basır düşündüm bəlkə"* [23, s.175], *"polad iradəsi, dözümü vardı"* [23, s.151], *"ağrını qul etdi iradəsinə"* [23, s.151], *"dar günün, çətinin işi belədir"* [23, s.151], *"od tutub alışırıq, baxırıq maddım"* [23, s.168], *"can atırdıq bir qərib, bir kimsəsiz sahilə"* [23, s.169], *"elə tövşüyürdü dəli, yorğun at, bağrı partlayacaq dedim bu saat"* [23, s.171], *"adam var xirtdəyə yığılır canı"* [23, s.172], *"çatır arzusuna, yetir murada"* [23, s.173] və s. poetik fiqurların zənginliyində bədii tərcümənin orijinal və tərcümə timsalında uğurluluğu ortaya çıxır. "Şərq poemaları"nın tərcümə nümunələrinin sərgilədiyi təsəvvür bir tərəfdən C.Q.Bayron istedadı haqqında dolğun təsəvvür formalaşdırırsa, digər tərəfdən tərcümə müstəvisində tərcüməçi istedad və bacarığını, dildən, onun poetik qatından, frazemlər zənginliyindən istifadə imkanlarını aydınlaşdırır.

Ənənəvi üslubiyyatın bədiilik prinsipi çeşidli söz axarlarında; sabit və sərbəst söz birləşmələrində, təkrirlərdə, bədii sualda, xitabda, epitet, mübaliğə, metanimiya, metafora, sinekdoxa, inversiya, səs assosiyalarında, sintaqmatik düzümün tarixi inkişaf diaxroniyasında bir düşüncə kodu olaraq bütövləşir. Frazeoloji birləşmələr şeir dilinin üslubi-estetik funksiyasını səciyyələndirmək, kontekst daxilində yeni məzmuna (və ya məzmun çalarlarına) köklənmək, fikrin təsirlilik və çatdırılması mühitini sərgiləmək

baxımından əvəzsizdi. Mətn daxilində frazemlər canlı danışıq dilinin möhtəşəmliyini diqqət önünə gətirir. Bədii fikrin ifadəsinə geniş imkanlar yaratmaq baxımından xüsusi funksiyası ilə seçilir. Ona görə də frazemləri hazır bədii dil materialı olaraq təhlil edirlər. Məlum olduğu kimi, *"yazıçı (şair) dövrün bədii-estetik inkişaf meyilini görür və həmin səviyyəyə qalxa bilirsə, ədəbi prosesi qavrayır və onun axarına düşürsə, eyni zamanda bu meyil və prosesin istiqamətləndirici işığını öz fərdi yaradıcılıq linzasında sındırmağı və və toplamağı bacarırsa, o, sənətkardır. Bu ümumi ilə fərdini bağlamaq qabiliyyətidir ki, həqiqətən yalnız sənətkarlıqla qazanırlar"* [50, s.242]. A.Aslanovun, B.Vahabzadənin, İ.Rəhimovun, N.Gəncəlinin, Ə.Rzanın dünya ədəbiyyatının böyük simalarından olan C.Q.Bayron yaradıcılığından ayrı-ayrı örnəklərin Azərbaycan dilinə tərcüməsinin dil üslub xüsusiyyətləri ətrafında aparılan təhlillər sənətkarlıq timsalında möhtəşəm təsəvvür formalaşdırır.

Frazeoloji sözlərin, ifadə və ibarələrin bütün tərcümə nümunələrində yaratdığı ovqat bir növ sənətkar istedadının örnəyi olaraq mətnə əlavə ovqat qatmaqla həm də poetikliyin təminində mühüm fakta çevrilir. Çünki hazır poetik fiqurlar sırasında xalqın zəngin dil zəkasına bağlanan frazemlər bir çeşni olaraq mətnə düzülməklə ekspressivliyin, emosionallığın, bədii-estetik bütövlüyün alınmasında xüsusi funksiya ilə çıxış edir. Sabit və sərbəst söz birləşmələri poeziyanın faydalandığı ən mükəmməl qaynaqlardan biri olaraq rəngarəng üslubi çalarlarla bədii nümunənin alınmasına geniş şərait yaradır. Sözün məna yaddaşı bir növ mətn fenomenliyinə, janr məzmununun uğurluluğuna yardımçı olur. Dövrün bədii-estetik inkişaf meyillərindən çıxış edən C.Q.Bayron "Şərq poemaları" ilə əlçatmaz bir yaradıcılıq zirvəsini, bədii düşüncənin mükəmməlliyi təsəvvürünü formalaşdırmışdır. Zəngin dil və düşüncə faktları ilə reallaşan bu ucalıq Şərq və Qərb müstəvisində həm də bağlantıların yaranması üçün əsas olmuşdur. Tərcümə və orijinalın yaratdığı təsəvvür, mifoloji və tarixi yaddaşın hərəkətliliyi və dərki, yaradıcı erudusiyası və etnik mədəniyyəti öyrənmə bacarığı bir bütöv olaraq C.Q.Bayron istedadını ortaya qoymuşdur. Məsələn, *"canım çıxanadək səbri çataydı"* [23, s.173], *"sıxdı ürəyimi şübhə, səksəkə"* [23, s.174], *"gözüm gözlərinə birdən sataşdı"* [23, s.175], *"kazak gözəlinin qaçdı dodağı"* [23, s.175], *"bir kəlmə kəsməyəm, dinməyəm gərək"* [23, s.175], *"yuxum ərşə çıxıb mənim bu axşam"*

[23, s.154] və s. bir bütöv olaraq frazeoloji birləşmələrin uğurluluğunda mətnin alınmasının təminatçısı olur. Bütün bunlar frazeoloji birləşmələrin işlənmə tezliyinin və mətndə sərgilədiyi təsəvvürün mənayaratma funksiyasını, geniş və dərin semantika ilə bağlılığını aydınlaşdırır.

İnsanla heyvanı bərabər tutar.
Qocaman palıdın altında bu dəm [23, s.152].
Bir işıq süzüb keçir gözümüzün önündən
Axşamkı süfrəsi nadir bir paydı.
Züleyxanın xumar gözləri bu dəm
Dəydi dibçəkdəki gül-çiçəklərə [23, s.64].

Və yaxud da:

Səlim qıfıl vurdu dodaqlarına [23, s.57].

Bir başqa nümunəyə də diqqət yetirək:

Ürəyində qaldı ürəyindəki.
Onun gözlərində parlayan üsyan
Cəfəri qorxuya saldı bu zaman,
Səlimin könlünü almaqçın ələ [23, s.57].

Rəngarəng poetik fiqurlarla cilalanmış bu nümunələr frazemlərin işlənmə məqamı və mətndə kəsb etdiyi poetikliklə mükəmməl bir təsəvvürə, sənətkar istedadının dil özünəməxsusluğuna bağlanır. Züleyxanın xumar gözlərinin dibçəkdəki gül-çiçəklərə dəyməsi, Səlimin dodaqlarına qıfıl vurması, gözlərində üsyanın parlaması, könlünü almaq və s. poetik fiqur kimi frazemlərin mətn daxilindəki dil fakturasının möhtəşəmliyini aydınlaşdırır. Dilin emotiv funksiyasında frazeoloji birləşmələrin əhatələdiyi məzmun sənətkar fərdiyyətini, müəllifin subyektiv aləmində olanları, baxışlarını çatdırmaq üçün mühüm keyfiyyət göstəriciləri ilə diqqət önünə gəlir. Yaradıcı dühasından gələnlər, hiss və emosiyaların bədii mətndə yaratdığı əsrarəngizlik epizod və hadisələrin ümumi axarında mükəmməllik elementi olaraq sıralanır. Frazemlər bədii şəraitin doğurduğu mühitə, təsvir olunan əşya və hadisəyə, təqdim olunan mövzunun mahiyyətinə həssaslıq baxımından emotiv səciyyəsi ilə

diqqət önünə gəlir. Bütün olanlar isə sırf şeir müəllifinin istəklərini, düşüncəsində olanları çatdırmaq, müəllifi ifadə etmək istəyindən qaynaqlanır.

### 2.2.7. Peşə-sənət sözləri

Dil zənginliyində hər bir söz, ifadə, poetik fiqur mətn daxilində məna yaratma funksiyası ilə daha çox diqqət önünə gəlir. Bütün poetizmlər, emosional çalarlardakı özünü göstərən dil komponentləri, metaforik yaddaşdan gələn əsrarəngizlik, çeşidli söz qrupları sənətkar istedadı hüdudlarında öz imkanlarını biruzə verir. C.Q.Bayron yaradıcılığı da bu xüsusiyyətləri ilə üfiqi və şaquli yanaşmalarda mahiyyətəyönəlik təhlillərin aparılmasını zəruriləşdirir. "Gavur", "Korinfin mühasirəsi", "Şilyan məhbusu", "Mazera", "Qabil", "Abidos gəlini" və s. əsərlər sərgilədiyi dil faktları (epitet, təşbeh, təkrar, bədii sual, metanimiya, metafora, xitab, sinekdoxa, inversiya, epifora, anafora, təkrir, təzad, simvol və s.) ilə sənətkar qayəsini təqdimə bağlanır. Peşə sənət sözləri də bu sırada olub müəllifin yaradıcı imkanlarını səciyyələndirir. Ümumiyyətlə, bədii mətn sözün üslubi-estetik gücünün aydınlığı və ortaya qoyulması baxımından müstəsna funksiya ilə özünü nümayiş etdirir. *"Terminoloji leksika öz-özlüyündə quru olsa da, yəni hiss-həyəcan yaratmaq xüsusiyyəti daşımasa da, məqsədəmüvafiq şəkildə bədii ədəbiyyatda, hətta şeir dilində işlədilsə belə, əsərin məzmununu canlandırır və dilə rövnəq verir"* [3, s.77]. Ümumiyyətlə, bədii düşüncədə hər bir söz və ifadənin özünün məqamı və yeri olmaqla məna yaratma funksiyasında sənətkarın yaradıcı imkanlarına bağlanır. C.Q.Bayron "Şərq poemaları"nda da bunları canlandırmaq, fikir və duyğularını çatdırmaq, hadisə və obrazın mahiyyətini açmaq məqsədi ilə peşə, sənət sözlərindən də yeri gəldikcə istifadə etmişdir.

Topsaqqal paşanın gözü önündə
Alaqaranlıqda süpahiləri,
Onun oxşayaraq nəzərlərini,
Nizami dəstəylə gedir irəli [23, s.100].

Osmanlı ordusunda sipahi bir termin olaraq ağır suvari ordunu ifadə edir. "Korinfin mühasirəsi"ndən verdiyimiz bu nümunə məşhur Korif qalası ilə bağlı döyüşləri özündə əks etdirir. C.Q.Bayron bu poemanı yaxın dostu eskvayr Hobhauza

ithaf etmişdir. Türk ordusunun əzmkar mübarizəsi, döyüş səhnələri şairin hadisələri diqqətlə və həssaslıqla öyrəndiyini və hadisələrə bələdliyini aydınlıqla özündə ifadə eidr. Burada digər məsələ türk ruhunu əsər boyu qoruyub saxlaya bilməsi və dil faktlarında bunlardan yararlana biməsi məsələsidir. “Süpahi” termini də təsadüfü deyil, düşünülmüş şəkildə, mövzunu və bədii mətnin uğurluluğunu təmin etmək məqsədilə işlədilmişdir. “Gavur”, “Şilyan məhbusu”, “Mazera”, “Qabil”, “Abidos gəlini” əsərlərində olduğu kimi, burada da etnik ruhu, təsəvvürü canlandırmaq üçün türk mənşəli sözlərdən məqsədli şəkildə yasrarlanmışdır. Bu sənətkarın bir tərəfdən Şərq mədəniyyətinə, tarix və etnokulturoloji sisteminə maraqdan qaynaqlanırsa, digər istiqamətdə mövzuya bağlılığından irəli gəlir. Əsərin tərcüməsində də A.Aslanov məhz bu məqamları xüsusi həssaslıq göstərmiş və orijinaldakı deyim və ifadələrin (türk sözlərinin) olduğu kimi saxlanmasına xüsusi diqqət yetirmişdir. Poemada dilimizin lüğət tərkibini təşkil edən sözlərin semasioloji, etimoloji, onomastik, frazeoloji, leksikoloji xüsusiyyətlərinin düzgün ifadəsini vermişdir. Dilçi alim İ.Rəhimovun orijinaldan etdiyi sətri tərcüməsindən istifadə edərək, dil xüsusiyyətlərinə xələl gətirmədən uğurlu bir tərcümə əsəri ərsəyə gətirmişdir. Aşağıdakı nümunələrə diqqət yetirək:

Ucaldıb səsini, ağzında əli,
Elə ki, üz tutub göyə müəzzin [23, s.107].

“Müəzzin” ərəb sözü olub, ərəblələrin gəlişi ilə türk dillərində işləklik qazanmış termindir. Namaz vaxtını elan edən ruhani anlamında işlədilir. Minarə başında və ya bir başqa hündür yerdə azan oxuyan din adamına deyilir. Terminlər lüğətində azançı, azan verən kimi şərh olunur.

Bir-bir qırılırdı yerə düşərək.
Qabaq cərgədəki yeniçərilər [23, s.124].

Məlum olduğu kimi, XIV-XIX əsrlərdə yeniçərilər Osmanlı ordusunda daimi piyada qoşunu anlamında işlədilmişdir. Sipahilər və akınçılarla birlikdə ordunun əsas hissəsini təşkil etmişlər. Sultanın şəxsi qvardiyası da yeniçərlərə aid edilirdi. Dövlətdə həmçinin polis funksiyasını da yerinə yetirmişlər. Yeniçər adı ilə təşkil olunan hərbiçələrə xüsusi təlim keçirilər və bu səbəbdən də yeniçər adı ilə tanınırdılar.

C.Q.Bayron da əsərlərində türk dilinin zənginliklərindən yerinə və məqamına görə yararlandığı kimi, hərbi terminlərdən də xüsusi həssaslıqla istifadə etmişdir. Tərcümə prosesində bunlar mahiyyəti əks etdirmək, müəllifin duyğu və düşüncələrini təfsilatı ilə təqdim etmək üçün bunları orijinalda olan səviyyədə qoruyub saxlamışlar. Bunlar onu da əlavə edək ki, təkcə türk dilinə aid sözlərdə deyil, eyni zamanda Avropa dillərindən, ingilis dilindən gələn ifadələrin işləklik mənzərəsində də özünü göstərir.

Kimdir qılınc çalan sağı-soluna?
O, alpdır budayan hər yana atı.
İti nizəsini alıb qoluna,
Uçur Adriatın gənc reneqatı [23, s.101].

“Şərq poemaları”nda peşə-sənət sözləri bir müxtəlifliklə, müəllif düşüncələrini əks etdirmək, bədii mətnin ümumi məzmununda dil vahidinin sərkilədiyi mənzərəni aydınlaşdırmaq baxımından ciddi səciyyə daşıyır. “Qılınc çalmaq, “alplıq etmək” türk düşüncə tərzində peşə təsəvvürünə bağlanır. C.Q.Bayron yaradıcılığının söz işləkliyində ingilis dilindən gələn sözlər, məsələn, “ reneqat” bir termin olaraq tərcüməçi tərəfindən orijinaldan gələn səviyyəsində qorunub saxlanılır. “Dojlar əlindəki hakimiyyəti” [s.105] də bu sıradadır və italyan dilinə məxsus termindir. Orta əsrlərin dərinliklərində işləklik qazanması ilə diqqət önünə gəlir. Şeir dilində peşə-sənətlə bağlı ifadələr, terminlər normativliyə, təkmənalılıq səviyyəsində hadisə axarını əhatələyəcək məzmuna bağlanır. *“Ümumiyyətlə, peşə-sənət sözlərinin, “terminlərin şeir dilinin materialına çevrilməsini və onun oynadığı normativ-üslubi funksiyanı xalis mövzu amili kimi izah edib mənalandırmaq doğru olmazdı. Poetik ünsiyyət forması kimi terminlər məcazlaşarkən, bədii fikrin əsas poetik mənalandırma vasitəsi kimi çıxış edərkən üslubi fəallığını yüksəltməsi xüsusi qeyd olunmalıdır. Təsvir obyektinin obrazlı qavrayışının orijinal və təravətli deyim formasında iştirakı terminlərə xüsusi siqlət verir, şeirə fikri aydınlıq gətirir”* [55, s.365]. Orijinal və tərcümə arasında tipoloji müqayisələrin aparılması intertekstuallıq (mətnlərarasılıq), paratekstuallıq (yan mətnlə əlaqə), hipertekstuallıq (ana mətnlə əlaqə) səviyyəsində aydınlaşmalara da şərait yaradır. Hətta buraya arxitekstuallıq baxımından tipoloji müqayisələri də əlavə etmək olar. Çünki “Şərq poemaları” tərcümə kontekstində dil fakturası ilə müxtəlif söz

qrupları baxımından sistemli müqayisələrə şərait yaradır. Sənət-peşə sözlərinin işləkliyi sırf mətnin və hadisələrin mahiyyətindən doğan zərurət kimi diqqət önünə gəlir. Məsələn, “sərvaxt keşikçinin ucalır səsi” [23, s.106], “duaya çağırıb döyüşçüləri” [23, s.107], “itaət göstərir əsgərlər ona” [23, s.108], “dolanıb seyr edir sahil boyunca sərilib yuxlayan döyüşçüləri” [23, s.109], “igid sərkərdələr deyildi belə” [23, s.111], “gözətçi nə isə dedi də, kəsdi” [23, s.113], “tərini axıdıb min il daşyonan” [23, s.115], “keçib gözətçinin yanından usta” [23, s.118], “budur bir ağızdan bağırdı ləşkər” [23, s.123], “yenilməz kömürçü, o qorxmaz vəzir” [23, s.123] və s. peşə-sənət sözləri, titul və fəxri adlar süjet və hadisə axarında sənətkarın mövzuya yanaşmasını və mövzu ilə bağlı təsəvvürlərini aydınlaşdırmasını, bundan bir üslub hadisəsi olaraq istifadə etmək düşüncəsini diqqət önünə gətirir. C.Q.Bayronun dünya ədəbiyyatının qüdrətli simaları sırasına adını yazmasının səbəb və mahiyyəti Azərbaycan oxucusuna bu tərcümələr vasitəsi ilə çatdırılır. Yazıçı və tərcüməçi, orijinal və tərcümə arasında simmetriyanın gözlənməsi burada tərcüməçinin ana dilinin ruhuna bələdliyi və orijinalı bütün aspektləri ilə dərki əsas olan kimi ortaya çıxır. Rəngarəng söz qrupları, frazemlər, poetik söz çeşidləri, sintaktik fiqurlar, məhəlli sözlər (şivələr və dialektlər) və s. hamısı orijinal səviyyəsində canlandırmaya bağlanır.

Peşə-sənət sözlərinin mətndə yeri və funksiyası fərqlidi və Şərq mədəniyyəti anlamında ingilis ədəbiyyatının görkəmli nümayəndəsinin ayrı-ayrı əsərlərində bundan bəhrələnməsi bir başqa ovqatı diqqət önünə gətirir. Burada lokal səviyyəni əks etdirmək, hadisə axarında ideyanı canlandırmaq məqsədi ilə sənətkar peşə-sənət sözlərindən xüsusi həssaslıqla bəhrələnir. “Kömürçü”, “vəzir”, “daşyonan”, “gözətçi”, “sərkərdə” və s. rəngarəng peşə, sənət, vəzifə, titul anlamları verən sözlər şairin söz çeşidlərindən məqamına və yerinə görə bəhrələnmə imkanlarını aydınlaşdırır.

Yüzlərlə sinəsi zirehli əsgər,
Qırılıb sürətlə yerdə qalırdı;
Bu hal qürubçağı bir biçinçinin
Çaldığı otları yada salırdı [23, s.124].

Bütün bunlar C.Q.Bayron poeziyasının Azərbaycan dilinə tərcüməsində dil zənginliyi kontekstində peşə-sənət sözlərinin işləkliyini, mətndə yaratdığı ovqatı, sənətkar idealını ortaya qoyma məramını faktlaşdırır.

### 2.2.8. Ekzotik sözlər

C.Q.Bayronun "Şərq poemaları"nda diqqətçəkici məsələlərdən birisi ekzotik sözlərin işləkliyidir. Ekzotiklik bir termin olaraq mahiyyətində qeyri-adiliyi, qəribə və yad olmanı özündə faktlaşdırır. Şərq bütün parametrlərdə orta əsrlər boyu Qərb üçün sirlə, müəmma ilə dolu olmuşdur. Artan maraq da bütün kontekstlərdə mif örnəklərindən tutmuş mərasim folkloruna qədər bir qeyri-adiliyi özündə ehtiva etmişdir. Mifoloji məktəb, iqtibas nəzəriyyəsi, tarixi məktəb, antropoloji nəzəriyyə və s. hamısı Şərqi öyrənmək, məişəti, etnokulturoloji mədəniyyəti, sirli-sehrli hekayətlərlə dolu tarixi haqqında təsəvvür formalaşdırmaq məqsədilə müxtəlif üsul və vasitələrdən istifadə etmişlər. C.Q.Bayron da on səkkizinci əsrin ortalarından yeniləşən Avropanın maraqlarına köklənməklə Şərqi canlı olaraq gəzib dolaşmaq qərarına gəldi və "Şərq poemaları" məhz həmin səfər təəssüratların nəticəsi olaraq ortaya çıxmışdır. Onu da əlavə edək ki, bu poemalar və ümumiyyətlə, Şərq mövzusu görkəmli sənətkarın yaradıcılıq imkanlarını bütün müstəviləri ilə ortaya qoymuşdur və bayronizmin mahiyyətini nələrlə səciyyələndiyini bütün aspektləri ilə səciyyələndirmişdir.

"Şərq poemaları"nın, eləcə də digər əsərlərinin Azərbaycan dilinə tərcüməsi və tərcümə nümunəsi olaraq nələrlə xarakterizə olunması da bir istiqamətdə bayronizmi tərcümə səviyyəsində diqqət önünə gətirir. Zəngin istedad faktları ilə xarakterizə olunan poema və pyeslərdə şairin söz imkanları, sözdən yararlanma və istifadə bacarığı bütün kontekstlərdə sənətkar fərdiyyətini faktlaşdırır. Xalq danışıq tərzindən gələnlər, mif, əfsanə, rəvayət, nağıl və s. səviyyəsində hadisə və epizodların əsərə gətirilməsi, tarixi yaddaşa həssaslıq, ümumiyyətlə, mövzu və dil səviyyəsində tarixiliyin təqdimi yaradıcı orijinallığına bağlanır. İnisial və medial formullarının mətn boyu əsərə gətirdiyi canlılıq, sintaktik fiqurların rəngarəng örnəkləri ilə mətnin bütövlüyünün təmini, metaforik düşüncədən gələn söz və ifadə vasitələrinin yüksək ustalıqla mətnə

gətirilməsi, təhkiyə və təqdim üsullarının spesifikası sənətkarın yüksək təfəkkür intelleksiyasını nümayiş etdirir. Ekzotik sözlərin də C.Q.Bayron yaradıcılığında bir söz qrupu olaraq özünə yer alması məqsədyönlülüyü ilə diqqət önünə gəlir. Məsələn, *"çəkib üstümüzə cod şinelləri" [s.97], "ya kilsə, ya məsciddən" [23, s.97], "odur, iyirmi min parlayan nizə" [23, s.100], Quran ayəsini oxumaq çətin" [23, s.36], "başı dülbəndlilər qatarbaqatar" [23, s.100], "əyri qılıncını yenə qurşamış" [23, s.100], "iti nizəsini alıb qoluna"[23, s.101], "qırxılmış başına qoymuşdu dülbənd" [23, s.101]* və s. misralarda işlənən sözlər ekzotik xarakteri ilə sənətkar tərəfindən düşünülmüş şəkildə mətnə gətirilmişdir. Avropalılar üçün qeyri-adi olan, onlara xas olmayan xüsusiyyətlərlə, fərqliliklərlə diqqəti cəlb edən bu sözlərin "Şərq poemaları"nda bir çoxluqla görünüşü tipik xarakterlidir. Məsələn, "dülbəndi" fars dilindən keçərək türklərdə işləklik qazanmış sözlərdəndir.

Orta əsrlərdə "çalma" anlamı müxtəlif məzmun, məna və işarəni özündə əks etdirməklə geniş imkanlılıq tazanmışdır. İctimai-siyasi proseslərin ağır axarında "dülbəndilərin" (başı çalmalıların) ehtiva etdiyi funksional rol həm də işarələnmiş müəyyən məzmunla (simvolla) diqqət önünə gəlir. Sırf ilkin məzmun anlamında "dülbənd" keçədən hazırlanmış papağa deyilmişdir. Ondan orduda xüsusi ilə yararlanmışlar. Belə ki, bir neçə qat keçədən hazırlanmış bu papaq həm də qoruyucu funksiyasını yerinə yetirmişdir. Döyüşdə qılınc zərbəsindən qorunmaq üçün bu papaqlardan istifadə olunmuşdur. C.Q.Bayron "Korinfin mühasirəsi"ndə türk döyüşçülərinin qəhrəmanlığını, müharibə səhnələrini verərkən müxtəlif termin və ekzotik sözlərdən istifadə etmişdir. "Məsələn, başı dülbəndlilər qatarbaqatar", "qırxılmış başına qoymuşdu dülbənd" və s. misralarda özünə yer alan bu termin bütün mətn boyu hərbi anlam daşımışdır. Təriqətçilik anlamında orta əsrlərin qaynar təriqət mühitndə bu demək olar bütün Şərqi əhatə etmiş simvolik mənaya yüklənmişdir. "Korinfin mühasirəsi"ndə müəllif sözündə "Paşanın dülbəndli dəstəsini də" [s.62] misrasının altında diqqəti cəlb edəcək izahı verilir və vurğulanır ki, "q*ılınc vurmağı öyrənərkən türklər ikiqat bükülmüş keçəni kəsməklə məşq edirlər. Müsəlman qılıncından başqa çox az qılınc tapılar ki, belə bükülmüş keçəni bir zərbə ilə kəsib ayıra bilsin. Bu məqsəd üçün bəzən qalın dülbənddən də istifadə edilir (müəllifin*

*qeydi)"* [23, s.62]. Göründüyü kimi, burada digər maraqlı məqam C.Q.Bayronun yazdığı mövzuya həssaslığıdır və xüsusi dil faktlarından ardıcıl yararlanmaqla mahiyyəti təqdim etməsidir. Tərcümə örnəklərində bunların bir üslub, yaradıcı özünəməxsusluğu olaraq qorunuşu mühüm önəm daşıyır və lazımı qədər nəzərə alınan incəliklər kimi xüsusi diqqət mərkəzində saxlanılır.

C.Q.Bayronun "Şərq poemaları" dilin emotiv (danışan və yazanın nitq predmetinə münasibəti), apelyativ (dinləyicini nitqi anlamağa təhrik), referent (söyləmin mahiyyəti) funksiyaları sənətkar imkanlarını özündə ehtiva edir. Bütün söz qrupları fərdi üslubun özünəməxsusluqları səviyyəsində yeni məzmun qazanır. Məlum olduğu kimi, yeni fikir söyləmək zərurəti özündə həm də təzə söz ehtiyacını faktlaşdırır. Çünki bədii düşüncə ancaq axtarışlarla, orijinal yanaşmaların ortaya çıxması halı ilə faktlaşır. Ədəbiyyatın mayasında, geneoloji fakturasında axtarışlar və tapıntılar dayanır. Bunların ifadəlilik və bədii mühit yaratma vasitəsi isə sözdür. *"Ümumiyyətlə, dilçilərin diqqətini belə mövqeyə cəlb etmək vacibdir ki, poetik nitqin tədqiqi heç də dar, lokal bir əhəmiyyət kəsb etmir. Poetik nitq onunla əlamətdardır ki, ondan xüsusən parlaq şəkildə absurd səviyyəyə qədər çatan (praktik nitq nöqteyi-nəzərindən) və nitqin bütün növlərinə xas olan xüsusiyyətlər özünü göstərir. O, (poetik nitq) dilçi-tədqiqatçı üçün elə bir laboratoriyadır ki, dilçi üçün linqvistik planda böyük imkanlar açır"* [124, s.190]. C.Q.Bayronun "Şərq poemaları" da tərcümə baxımından linqvistik müstəvidə geniş imkanlar açmaqla yanaşı, həm Şərq və Qərb kontekstində bədii düşüncə qaynaqlarından istifadə özünəməxsusluqlarını diqqət önünə gətirir. Ekzotik sözlərin əhatələdiyi mənzərə bunun bariz örnəyi olaraq tipoloji kontekstdə müqayisələrə, orijinal və tərcümə fakturasında müəllifi ifadənin hansı səviyyədə özünü göstərə bildiyini aşkarlayır. Məsələn, "Abidos gəlini"ndə bir örnəyə diqqət yetirək: "Daş-qaşlı çubuğu kənara atdı" [s.61] misrasında "daş-qaşlı çubuq" ehtiva etdiyi məzmunla Avropa mühiti üçün fərqli mənzərəni işarələyir. Müəllif qeydində ədib mahiyyətə aydınlıq gətirərək, anlayışın izahını verir və vurğulayır ki, *"Çubuq-türk qəlyanı, ağıza qoyulan hissəsi kəhrəbadan olur. Əgər çubuq sahibi dövlətlidirsə, onda qəlyan qiymətli daşlarla bəzədilir"* [23, s.61]. Tərcümənin dil zənginliyindən və mətn daxilində məzmun yaratma imkanlarından aydınlaşır ki, C.Q.Bayron "Şərq

poemaları"nı hansısa təəssüratın, təsadüfi bir məqamın halı olaraq yazmamış və burada illərin zəhməti, mövzunun sənətkar ruhuna yaxınlığı müstəsna rol oynamışdır.

Şeir dilində hər bir səsin, sözün və ifadənin mətn daxilində işləklik məqamı ilə məzmun yaratma funksiyası arasında bir uyarlıq, təbii bir bağlantı olur. Zəngin dil vahidləri bədii örnəkdə ancaq yaradıcı istedadına, orijinal düşünmə bacarığına və ondan yararlanma imkanlarına bağlanır. "Şərq poemaları" bu baxımdan, eləcə də ekzotik sözlərin işləkliyi kontekstində misra, fikir axarına əlavə çalar vermişdir. Məhz bu səbəbdən də bu bədii nümunələr Avropa mühiti üçün nə qədər orijinallıq kəsb edib, böyük maraq doğurursa, Şərq xalqları üçün də eyni səviyyədə görünəcək təsəvvürə bağlanır. Fərqlilik isə Avropa və Şərq üçün özlərinnin maraqları daxilində əsaslı möhtəşəmlik qazanır. Məsələn, "nə var ki, nə var ki, sevəcək onu cənnət dünyasının huri-mələyi" [s.108], "müslüm ordusunun baş sərkərdəsi [23, s.102], "aylı gecələrdə oxuyardı o, sevimli yarına serenadalar" [23, s.104], "deyib müsəlmanca bismillahını" [23, s.117] və s. ekzotik sözlər mətn daxilində ehtiva etdiyi funksiya ilə fonopoetik, morfopoetik müstəvidə əlavə çalarlar qazanmaqla bədii bütövlüyü təmin edir. Bütün bunlar isə yaradıcının və tərcüməçinin dil komponentlərindən yüksək intelleksiya ilə istifadə bacarığına hesablanır.

# III FƏSİL
# CORC QORDON BAYRONUN "ŞƏRQ POEMALARI"NIN AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏSİNDƏ FƏRDİ ÜSLUBUN XÜSUSİYYƏTLƏRİ

## 3.1. Bədii tərcümədə məcazlar sistemi (metafora, metonimiya, sinekdoxa, epitet)

Məlum olduğu kimi, fərdi üslubun başlanğıcında orijinallıq, sənətkar özünəməxsusluğu və onu bir bütöv olaraq ortaya qoyan yaradıcı təfəkkür intelleksiyası dayanır. Forma-üslub anlamında poetexnoloji sistemin mükəmməlliyi, dil

komponentlərinin mətn korpusuna yüksək ustalıqla yerləşdirilməsi (orijinalda və tərcümədə) bədii nümunənin fenomenliyini müəyyənləşdirən meyara çevrilir. *"Estetik cəhətdən əhəmiyyətli olan yaradıcılığın hamı üçün ümumi olan bir qanunu vardır ki, bu yaradıcılıq müxtəlif miqyaslı söz sənətkarlarını poetik dilin inkişafının iştirakçısına çevirir"* [111, s.101]. C.Q.Bayronun "Şərq poemaları" da müxtəlif miqyaslı söz sənətkarlarının Azərbaycan dilinə tərcüməsi baxımından fərdi üslub özünəməxsusluqları anlamında ciddi faktura ilə diqqət önünə gəlir. B.Vahabzadə, N.Gəncəli, A.Aslanov, Ə.Rza və s. ədiblər Azərbaycan poeziyasının çağdaş mərhələsində öz istedadları və fərdi üslub xüsusiyyətləri ilə sayılıb-seçilən simalardandır. Müxtəlif istiqamətli təhlillərin probleminə çevrilən bu sənətkarların tərcümə sahəsində də gördüyü gərəkli işlər vardır. İngilis ədəbiyyatının əvəzsiz simalarından olan C.Q.Bayron "Şərq poemaları"nın Azərbaycan dilinə tərcüməsi buna nümunədir.

Azərbaycan ədəbi-mədəni mühiti böyük sənətkarın yaradıcılığını, onun istedadının miqyas və düşüncə özəlliyini məhz tərcümələr vasitəsi ilə öyrənmişlər. Burada, heç şübhəsiz, tərcüməçinin fərdi üslubu, düşüncə və dil zənginliyi, tərcümə bacarığı bir tərəf kimi diqqət önünə gəlir. Orijinalın məzmun və üslub özünəməxsusluqları ilə tərcümədə dil və üslub ortaqlığının tapılması mühüm keyfiyyət və istedad faktı olaraq özünü göstərir. Məsələn, XVI əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi M.Füzulinin tərcümələrini bəzən təhlillərdə müəllifin özünün orijinal əsəri olaraq təhlil edir və mülahizələr yürüdürlər. Və yaxud da S.Vurğunun rus ədəbiyyatının istedadlı nümayəndəsi A.S.Puşkinin "Yevgeni Onegin" əsərini tərcüməsini "Səməd vurğunun əsəri" kimi dilə gətirirlər. Bunlar bütünlükdə tərcümənin uğurluluğuna, yaradıcı istedadının fərdi üslub özünəməxsusluğundan gələnlərin möhtəşəmliyinə bağlanır. Ona görə də tərcümə timsalında fərdi üslub (tərcüməçinin fərdi üslubu) özlüyündə ayrıca təhlillərə yol açan problem kimi mühüm önəm daşıyır. *"Fərdi üslubun poetik bənzərsizliyinin əsasında və məğzində müəyyən bir konsepsiya mövcuddur ki, onun bütövlükdə daxili xassəsidir; bu, şairin təkcə estetik problemi deyil, eyni zamanda dünyagörüşü problemidir, şairin gerçəkliyə poetik baxım yeniliyinin təzahürüdür. Fərdi üslubun kateqoriya kimi ən ümdə, ən başlıca prinsipi*

*onun daim hərəkətdə, yeniləşmə prosesində olmasıdır. O, həyatı obrazlı mənimsəmənin orijinal üsullarla ifadə vasitəsidir”* [55, s.313-314]. “Gavur”, “Şilyan məhbusu”, “Mazera”, “Abidos gəlini”, “Korinfin mühasirəsi” poemalarının Azərbaycan dilinə tərcüməsi tərcümə səviyyəsində fərdi üslubun özünəməxsus çaları ilə səciyyəvilik qazanır. İfadə və deyim tərzindən obrazlı düşüncə özünəməxsusluğuna qədər rəngarəngliklərі əks etdirən bu tərcümələr həm də poetik qavram və təqdim formasıdır. Bədii nümunədə hər bir səs, söz, ifadə, bütün poetik fiqurlar mətn bütövlüyünə xidmət edir.

Ümumiyyətlə, üslub bədii ədəbiyyatın əsas poetik kateqoriyalarından biridir. Müxtəlif mənalarda (əsərin üslubu, yazıçının üslubu, ədəbi məktəbin üslubu, cərəyanın üslubu və s.) işlənsə də, üslub bütün hallarda bədii vasitələr sistemi baxımından fərqlərin, özünəməxsusluqların aşkarlanmasında əsas rollardan birini oynayır. Üslubu müxtəlif ədəbiyyatşünaslar məhz bu baxımdan mənalandırmışlar. *“Üslub metodun xüsusi, konkret təzahür formasıdır” “üslub yazıçının əsərlərini başqa yazıçıların əsərlərindən aydıncasına fərqləndirən ideya və forma özünəməxsusluğudur”. Deməli, üslub həm fərqləndirici, həm də birləşdirici xarakterə malikdir. Fərqləndirici dedikdə bir sənətkarı, bir metodu, bir cərəyanı və s. digərlərindən fərqləndirən özünəməxsus bədii-estetik prinsiplər nəzərdə tutulursa, birləşdirici dedikdə bir sənətkarı, bir metodu, bir cərəyanı və s. digərlərinə yaxınlaşdıran özünəməxsus bədii-estetik prinsiplər nəzərdə tutulur”* [59, s.71-72]. Üslubun mahiyyəti özünəməxsusluq timsalında bədii-estetik prinsiplər səviyyəsində sənətkarı ifadə kodu olaraq diqqət önünə gəlir. Tərcümədə isə bu proses orijinal və tərcümə səviyyəsində işlərin aparılması ortaqlığı ilə reallaşır. Tərcümə təcrübəsindən aydınlaşır ki, *“Azərbaycan dilinə əsər tərcümə edərkən orijinalın bədii-ideya məzmununu tərcüməçi ancaq Azərbaycan dilinin qüdrəti sayəsində ifadə edə bilər. Tərcüməçi mütləq hər iki dili bilməlidir. Ən yaxşı tərcüməçi ana dilini və ondan bir yaradıcı kimi istifadə etməyi bacaran tərcüməçidir”* [91, s.30-31]. Bütün bunlar isə dil və üslub xüsusiyyətlərinin zənginliklərində poetik fiqurların işləkliyinə bağlanır. Çünki bədii mətndə obrazlılığı müəyyən etmək üçün ilk növbədə işarə, simvol, kod, söz arasında olan əlaqəni müəyyənləşdirmək lazım gəlir. Sintaktik fiqurların (bədii təsvir və ifadə vasitələrinin)

bu baxımdan müstəsna rolu vardır. Ədəbi əsərlərə dilçilik baxımından yanaşsaq bədii ifadə vasitələri yəni dildə məcazlar sistemi nəzəriyyələrdə trop *(trop yun. "dönmək", məcazi mənada isə "obraz" deməkdir)* adlandırılır.

Məcaz obrazlı təfəkkürün əsas vasitələrindən biridir. Xalq düşüncəsində məcazi danışmaq, məcazi gülmək bir özünəməxsusluq kodu olaraq vurğulanır. Aşıq ədəbiyyatının görkəmli nümayəndəsi Dədə Ələsgər "tamam sözü müəmmalı gərəkdi" söyləyirdi. Bədii dil bədii düşüncənin obrazlılığa bürünmüş qatıdır və burada sözün məzmunu onun əsas nominativ - əşyavi mənası ilə məhdudlaşmır. Ümumiyyətlə, sözün bədiilik qatı ona əlavə çalarlar, məna yaddaşında genişlənmələr, məzmun özünəməxsusluqları gətirməklə faktlaşır. Nominativ mənadan başqa bir sıra əlavə məna və çalarlar qazanır ki, bu da elmi-nəzəri düşüncədə məcaz adı ilə vurğulanır. Xalq danışıq dilində, eləcə də bədii mühitdə məcazlaşma digər sözlərlə əlaqəli şəkildə baş verir. Söz o zaman məcazlaşır ki, real varlıqdakı anlayışları obrazlı şəkildə vermək iqtidarına malik olsun. Obrazlılıq, ümumiyyətlə dilə xas olan bir keyfiyyətdir. Obrazlılıq bədiiliyin ümumi axarında ona əlavə çalarlar qazandıran, poetik sistemin digər dil komponentləri ilə bütövlüyünə əsas olan vasitədir. *"Bədii yaradıcılıqda semiotik dil və ötürülən informasiyanı iki mühüm cəhətə görə digər işarəvi sistemlərdən fərqləndirmək olar: 1) burada yalnız semantik məlumat deyil, məlumatın ötürülməsi kanalı, yəni işarəvi dilin səciyyəsi də nəzərə alınmalıdır; 2) bədii sistemlərdə mətndən kənar mühit, yəni a) kontekst və b) ifa aktı ilə bağlı assosiasiyalar da ortaya çıxır"* [49, s.129]. Müəllif paradiqmasında dil etiketlərinin işləkliyi yaradıcının dil bacarığını faktlaşdıran məsələlərdəndir.

Poetik fiqurların (metafora, metanimiya, epitet, sinekdoxa və s.) kəsb etdiyi məna mətn daxilində dalğalandırdığı səs və məna çalarları ilə işarəvilik qazanır. Bütün bunlar isə özlüyündə işarəvi dil, yaradıcılıq aktı, təfəkkür arxetipləri və müəllif obrazı (yaradıcı imkanları) müstəvisində mükəmməl bir mənzərəni ortaya qoyur. C.Q.Bayronun "Şərq poemaları" orijinal və tərcümə kontekstində bunları aydınlaşdırmaq üçün geniş imkanlar yaradır. Bədii təsvir vasitələri (epitet, təşbeh, metafora, metonimiya, simvol) və bədii ifadə vasitələri (bədii sual, təzad, təkrir, anafora, epifora, mübaliğə, inversiya, kinayə) dilin bədii-estetik qatını təmin edən

komponentlər kimi obrazlılığı, ekspressivliyi təmin edən vasitələrə çevrilir. Məsələn, *"ləpələr sakitcə oxuyur laylay" [23, s.106], "elə bil sahildən sahilə gəlir, yaşıl yarpaqların pıçıltıları" [23, s.106], "rübab tellərinə toxunub külək" [23, s.107], "qəzəb döndərərmiş ət qəlbi daşa" [23, s.108], "sərin məlhəm kimi sopsoyuq hava, öpdü ehmallıca onun alnını" [23, s.109], "dilsiz sakitliyin qoynunda hərdən" [23, s.106], "ölüm ayağında gülümsəyərkən" [23, s.110], "ömürlər ərimiş yanaraq oda" [23, s.110], "o dağın zirvəsi – buludda xəncər" [23, s.110]* və s. poetik fiqur funksiyasında bədii bütövlüyün təsirliliyi və emosionallığı baxımından mətnə əlavə çalar qatır. Ləpələrin layla deməsi, yaşıl yarpaqların pıçıltıları anlamında çatdırmaq istədikləri, qəlbin daşa dönməsi, havanın alın öpməsi və s. bədiilik müstəvisində obrazlı mühitin yaranmasına xidmət edir. Metaforik deyim tərcüməçi imkanlarında həm orijinalı çatdırmağa, həm də tərcümə dilinin imkanlarını təqdimə bağlanır. Ona görə də bədiilik və onun formalaşdırdığı ifadəlilik baxımından təhlilçilər qeyd edirlər ki, *"sözün ifadəliliyi yalnız onun ifadə etdiyi mənadan yox, yəni yalnız onun leksik mənasından yox, həm də onun stilistik siqlətindən, eləcə də sözün akustik çalarından tutmuş assosiativ-emosional çalarına qədər başqa sözlərlə müxtəlif əlaqələrindən də asılıdır"* [137, s.61]. C.Q.Bayronun "Şərq poemaları"nın Azərbaycan dilinə tərcüməsinin poetik sistemi bütün bunların tamlığında yaradıcı istedadını, onun fərdi üslub sahibi kimi nələrə qadir olduğunu aydınlaşdırmağa köklənmişdir.

Məcazlar sistemi və onun ehtiva etdiyi məzmun sənətkar fərdiyyətinin hüdudları çərçivəsində bədii mətnə gətirilir və bu fərdiyyətin müəyyənləşdirici meyarı olaraq diqqət önünə gəlir. Bədii qavrayışın özünəməxsusluğu kimi onun mətnə gətirdiyi təkrarolunmaz təravət xalqın zəngin zəkasından bəhrələnməyin və bəhrələnə bilmək bacarığının göstəricisidir. Sənətkarlıq duyğusu və yaradıcı istedadının nəhayətsizliyi sayəsində bədii nümunə yaşarlıq qazanır.

Küləklər baş qoymuş dalğalar üstə
Yatır, mürgüləyir, səssizcə və lal,
Qanadı sallanmış bayraqlar üstə [23, 106].

Göründüyü kimi, tərcüməçi əsərin dil özəlliklərini, fikrin canlılığını qoruyub saxlamaq üçün poetik fiqurlar vasitəsi ilə maraqlı bir mühit yaradır. Və yaxud da bir başqa nümunəyə diqqət yetirək:

Gözlədi ömrünün son saatını.

Çöllərdə düşmənə tutardın divan,

Skiflər əlindən qan ağlardı, qan [23, 153].

Metanimiya köçürmə anlamı verir və dil zənginliyində xüsusi önəm kəsb edir. Tərcüməçinin mahiyyəti, yaradıcı düşüncəsini çatdırmaq üçün poetik fiqurların imkanlarından istifadə etməsi bir zərurət olaraq görünür. Yuxarıdakı nümunələrdə "baş qoymaq", "qan ağlamaq" dil zənginliyində işləklik qazanmış məcazlardı. Obyektin mahiyyətinə dərindən nüfuz edə bilmək istəyindən irəli gələn bu cür sintaktik fiqurlar lirik qəhrəmanın fikir və düşüncələrini, situasiyaları ifadə edib çatdırmaq istəyindən qaynaqlanır. Bədii sözün obrazlılığı və onun ölçü meyarı hissi-emosional mühitin yaradılması imkanları ilə səciyyələnir. Çünki söz kifayət qədər emosional və estetik, həm də məntiqi qatla süsləndiyi üçün onlarsız gerçəkliklə bədii təfəkkür arasında lazımı bağlantıları qura bilmək mümkünsüzdü. Məsələn, "ox kimi düz şamlar, zorba palıdlar" misrasındakı sintaktik fiqurlar (bədii təyin və təşbeh) müəllif düşüncəsinin zənginlik qatı olaraq təzahür edir. Misranın fikir yükündə "düz şam", "zorba palıd" epitet kimi poetik fikrə köklənirsə, "ox kimi" bənzətmə funksiyasında əlavə çalarlıq qazanır. V.M.Jirmunski epitet haqqında söhbət açanda vurğulayırdı ki, *"ənənəvi üslubiyyatın müəyyənləşdirdiyi bədii üsullar içərisində epitet əzəldən fəxri yer tutur"* [117, s.23]. İ.Rəhimov, A.Aslanov, B.Vahabzadə, N.Gəncəli, Ə.Rza və başqaları C.Q.Bayron yaradıcılığının Azərbaycan dilinə tərcüməsində bədii dilin bütün imkan və rəngarəng ifadə maneralarından yararlanmaqla mətnin məzmun və estetik mahiyyətində olanları çatdırmağa üstünlük vermişdir.

Biçili köynəyi bənzər kəfənə.

Onların şöhrəti güntək yananda

Mənimki şam kimi titrəyəcəkdir [23, s.111].

Fonopoetik, morfopoetik sıralanma sintaktik fiqurların işləkliyində yeni məna çalarlarına yüklənməklə sənətkar qayəsini dil faktları olaraq bütövləşdirir. Biçili

köynəyin kəfənə bənzədilməsi kontekstində verilən informasiya "gün tək yanmaq" timsalında bir başqa sintaktik fiqurla (təşbehlə) poeestetik əsrarəngizliyi diqqət önünə gətirir və rəngarəng bənzətmələr sıralanmasına "şam kimi" ifadəsini işlətməklə obrazlılığı daha da gücləndirir. "Əngin səmalarda laqeyd üzən" [23, s.112] misrasında "əngin səma" ifadəsindəki epitetin işləkliyi "laqeyd üzmək" deyimi ilə metaforikləşir. *"Ünsiyyət vasitəsi kimi yaranan hər bir söz həm də gerçəkliyin poetik şərhinə, izahına xidmət edir. Bu, onun nitq şəraitində məcazi səciyyəsi ilə bilavasitə bağlı keyfiyyətdir.*

*İstənilən söz düşdüyü mühitdən asılı müəyyən estetik enerji ilə yüklənərək obraza çevrilmə xislətinə malikdir. Söz şair tərəfindən tənzimlənən axına daxil olaraq obrazlaşır"* [55, s.42]. "Gavur", "Şilyan məhbusu", "Mazera", "Abidos gəlini", "Korinfin mühasirəsi" poemalarının dil fakturası Azərbaycan dilinə tərcümə ilə sintaktik fiqurların işləkliyi ilə cilalanmışdır. Bədii təyin, anafora, epifora, təkrir, təzad, mütafora, sinekdoxa, metanimiya, təşbeh, bədii sual və s. formulların zənginliyində tərcümə faktı olaraq orijinalı ehtiva etməyə köklənmişdir. Məsələn, "eyni bir ahənglə ruhu edib dəng, bu səs ürəkləri döndərmiş suya" [23, s.107], "yatağı dərələr, yastığı daşlar, döşəyi quru yer, yorğanı göylər" [23, s.109], "dolur oyuqlara köpüklü sular, hər qaya döşündə əsrin naxışı" [23, s.112], "soyulmuş əncirtək bəyaz kəllələr" [23, s.113], "qəlbini gizlincə üzən dərd, əzab bükmüşdü yay kimi gücsüz belini" [23, s.115], "şirmayi dillərdə gəzdirən tək əl" [23, s.116] və s. bədii tərcümədə poetik qayəni qoruyub saxlamaq və orijinal ruhuna yaxınlığı təmin etmək məqsədindən irəli gəlmişdir. *"Bədii ifadə vasitələrinin (məcazların) bədii üslubdakı rolu çox mühümdür, onlarsız həmin üslubu təsəvvür etmək mümkün deyil. Məhz məcazlar vasitəsilə ədəbi-bədii dildə yeni ifadələr yaradılır, adi sözlərə qeyri-adi mənalar verilir və nəticədə, ümumiyyətlə, ədəbi dil zənginləşir, ifadə imkanları genişlənir, səlisləşir"* [51, s.31]. Ümumiyyətlə, dilin zənginləşməsi, sözlərin yeni məzmun və çalarlar qazanması bir istiqamətdə məcazlarla reallaşır. Dil daim dinamik mənzərə ilə xarakterizə olunursa, məcazlar da dil faktı olaraq həmin prosesin bir hissəsinə çevrilir və yeni-yeni məna çalarları kəsb etməklə müxtəlif kontekstlərdə təhlillərin aparılmasını zəruriləşdirir. Bədii düşüncə nümunəsi kimi məcazların işləkliyi mətn daxilində həm də poetikliyi təmin edən vasitə funksiyasını faktlaşdırır. Yuxarıda deyildiyi kimi, "onlarsız bədii

üslubu təsəvvür etmək mümkün deyildir" qənaəti də buna bağlanır. Məcazlar həm də yaradıcı funksiyadan çıxış edirlər, daha doğrusu, xalq danışıq dilinin zənginliyində, eləcə də ədəbi-mədəni prosesdə yeni çalarlaq qazanmaqla zənginləşmə keçirir və yeni-yeni nümunələri ortaya çıxır. Xalq danışıq dilində, eləcə də ədəbi dildə ifadə imkanlarının genişlənməsi prosesi gedir. C.Q.Bayron yaradıcılığının Azərbaycan dilinə tərcüməsində də bu zənginlik bir tərəf olaraq özünə yer alır.

"Şərq poemaları" bədii tərcümədə poetik fiqurların yeri və məqamı baxımından mükəmməl bir təsəvvürlə diqqət önünə gəlir. Orijinalın mətn boyu sərgilədiyi mənzərəni, bədii axarın ümumi kontekstlərini əks etdirmək və oxucuya çatdırmaq istəyi ilə süjet, hadisə, əhvalat, epizod səviyyəsində olanları yüksək intelleksiya ilə ortaya qoymaq amalına xidmət edir. Daha doğrusu, orijinalda olan C.Q.Bayron dühasını tərcümədə bir amal olaraq çatdırmaq düşüncəsinə bağlanır. Mətn fenomenliyi, sözün məna yaddaşı, janr məzmunu müstəvisində o böyüklüyün çatdırılması, təsəvvürün formalaşdırılması bir amal olaraq tərcüməçi timsalında qorunmağa çalışılır. "Körfəz şüşə kimi dübbədüz, hamar" [23, s.116], "heyhat, o baxışlar buz kimi sərin" [23, s.117], "adamı seyr edir nə qədər üzdən, hələ də yanaqlar qızılgül kimi" [23, s.117] və s. bənzətmələr şeirin poetik siqlətinə əlavə ovqat qatmışdır. Bənzəyən, bənzədilən, bənzətmə qoşması və bənzətmə əlaməti kimi rəngarəngliklərі (özünəməxsusluqları) sərgiləyən təşbehlər tərcümə prosesində "Mazera", "Abidos gəlini", "Gavur", "Şilyan məhbusu", "Korinfin mühasirəsi"nə bir əlvanlıq gətirmiş və tərcüməçi bacarığı sayəsində əsərin bədii təsirlilik səviyyəsini xeyli artırmışdır. Məsələn, "körfəz şüşə kimi düppədüz" misrasında körfəz bənzəyən, şüşə bənzədilən, kimi bənzətmə qoşması, düpbədüz isə bənzətmə əlamətidir. Bütün nümunələrdə obrazlılığın təmini baxımından dilin funksiyalarından, çeşidli poetik fiqurlarından istifadə əsasında bu möhtəşəm abidələrdə müəllif qayəsi və əsərin mükəmməlliyi qorunub saxlanılmağa çalışılmışdır. Müfəssəl və mükəmməl adı ilə təhlilə gətirilən təşbehlər obrazlılığın elementi olaraq mətnin bədii axarında misranın, bəndin, eləcə də epizodun fikir yükünə bədii-estetik çalar qatmaqla həm də bütövlükdə əsərin alınması üçün də yardımçı funksiyası yerinə yetirir.

Canlı bədii dil və obrazlılıq biri digərini tamamlayan vasitə funksiyasını yerinə yetirir. Sözləin səs kompleksi həm də fonopoetik müstəvidə mənayaradıcı rolunu da oynayır, eyni zamanda mətn daxilində obrazlılığın yerinin doldurulması və dolğunluğu bir istiqamətdə onunla reallaşır. Bədii örnəyin strukturu, təsvir və təhkiyə üsulu və sənətkarın poetik mətləbi hüdudlarında əsərin uğurluluğu təmin olunur. Tərcümə prosesində B.Vahabzadənin, N.Gəncəlinin, A.Aslanovun, Ə.Rzanın, M.H.Təhmasibin fərdi yaradıcı istedadı, zəngin yaradıcılıq təcrübəsi bütün aspektləri ilə mətn boyu özünü göstərir. Fövqəlzamanlıq və fövqəlməkanlıq səviyyəsində möhtəşəm təsəvvürə bağlanan və şedevr kimi ədəbi-nəzəri fikrin təhlilindən keçən "Şərq poemaları" tərcümə timsalında C.Q.Bayronun dünyagörüşünü, yaradıcı istedadının nələrlə səciyyələnməsini, üslub və düşüncə orijinallığını sərgiləyə bilmək gücündədir. *"Nitqin estetik funksiyası kimi dilin də estetik funksiyası nəinki dilin əsas kommunikativ funksiyasını qırmır, həm də onun imkanlarını artırır, dilə güc və ifadəlilik verir"* [107, s.271]. Tərcümədə bunlar bir bütöv olaraq poetik funksiyaya köklənir, daha doğrusu, nitqin və dilin estetik funksiyaları sərhədlərində müəyyənlik qazanır. Çünki dilin estetik funksiyası poetik fiqurların işləkliyində onun imkanlarını artırmaqla sənətkar fərdiyyətinin bədii mətndə rolunu da bir zərurət olaraq diqqət önünə gətirir. A.Aslanovun, B.Vahabzadənin, N.Gəncəlinin, Ə.Rzanın tərcümə sahəsindəki fəaliyyəti, eləcə də Azərbaycan ədəbiyyatında tutduğu mövqe, onların C.Q.Bayron yaradıcılığından tərcümə işində də özünü göstərir. Daha doğrusu, ümumi işin bir hissəsi olaraq diqqət önünə gəlir.

Məlum olduğu kimi, dil bütün səviyyələrdə obrazlılığa meyilli olub və bundan yararlanmaqla imkanlarını genişləndirməyə üstünlük verir. Obrazlılıq bir keyfiyyət olaraq bədii mühitdə sənətkarın yaradıcı şəxsiyyətinin müəyyənliyi baxımından aparıcı rol oynayır. Bütün bunlar isə bir istiqamətdə sözün məcazlaşması üçün əsas olur. Dil faktının məcazlaşması yeni söz demək bacarığına bağlanır.

Paşanın sözləri dağ çəkib ona
Kəsdi xristian qılıncı təki [23, s.57].

Və yaxud da:

Coşub can atırdı sanki vüsala,

Öpərək qalanın ayaqlarından

Sonra çəkilirdi sakitcə dala [23, s.99].

Digər bir nümunəyə də diqqət yetirək və bunların rəngarəngliyi tərcümə timsalında özünəməxsusluqları ortaya qoyur.

Baxıb gülmədəydi Yunanıstana...

Gecə tən yarıdır. Dağlar başından

Baxıb gülümsəyir bədirlənmiş Ay [23, s.106].

Göründüyü kimi, yuxarıdakı ayrı-ayrı əsərlərdən gətirilən nümunələr poetik fiqurların rəngarəngliyində mətn fenomenliyini və misranın fikir yükünü bir bütöv olaraq ortaya qoymaq məramına köklənir. Çünki bədii mühit dilin bütün komponentlərindən, məcazlaşmanın misra və bənd səviyyəsində istifadənin uğurluluğu nəticəsində əsərə canlılıq gətirir. "Dağ çəkmək" frazeminin yaratdığı ovqat paşanın sözlərinin ciddiliyi anlamında mahiyyəti ortaya qoyur və misra səviyyəsində "kəsdi xristian qılıncı təki" misrası ilə əlavə bir obrazlı deyimə yüklənir və sözün qılınc kimi kəskinliyini diqqətə gətirir. Sonrakı nümunədə isə dil faktlarından uğurlu yararlanma timsalında "can atmaq" (frazem) timsalında maraqlı məcazlaşma ilə diqqət önünə gəlir və suların qalanın divarlarına toxunmasını obrazlılıq kontekstində "öpərək qalanın ayaqlarından" deməklə bədii təsiri gücləndirir. Dalğaların sahilləri (qalanı) döyəcləməsini metaforik tərzdə təqdim edir və bununla tərcümə səviyyəsində orijinaldan gələn yüksək təfəkkür intelleksiyasını qorumağa çalışır.

C.Q.Bayronun "Şərq poemaları" onun bir növ səfər təəssüratını, Şərq marağını və Şərq sevgisini əks etdirmək kimi bir mərama köklənir. Poemaların ayrı-ayrı epizodlarında əksini tapan təsvir və təcəssümlər bunun tipik örnəyi olaraq diqqət önünə gəlir. Burada informasiya faktına çevrilən coğrafi adlar, mif, əfsanə rəvayət örnəkləri, tarixi hadisələr və şəxsiyyətlər, Şərq adamının təbiəti, hissi-emosional xarakteri, mübarizlik və qəhrəmanlıq örnəkləri və s. özünün ifadəsini tapır. Tərcümədə də İ.Rəhimov, A.Aslanov, B.Vahabzadə, N.Gəncəli bu məqamlara xüsusi həssaslıq göstərmiş və onu orijinala yaxın olan tərzdə çatdırmağa çalışmışlar. Məsələn, yuxarıdakı nümunədə Ayın bərq vurmasını, Yunanıstanın gözəlliyinə gecənin aydınlığında bir əlvanlıq qatmasını xüsusi həssaslıqla diqqət önünə gətirir. "Baxıb

gülümsəyir bədirlənmiş Ay" ("Korinfin mühasirəsi") deməklə dağlar başından gecənin qaranlığında Ayın çıxıb bərq vurmasını metaforik tərzdə təqdim etməklə poemanın bədii-estetik mühitinə əlavə çalarlıq gətirir.

Ümumiyyətlə, bədii söz anlayışı özündə lazımı qədər mürəkkəbliyi və həm də genişliyi əhatələyir. Adi halda olandan xeyli fərqli yükə, bədii-estetik məzmuna köklənən bədii söz həmişə hərəkətdə, dinamik məzmunda olmaqla bədii mətnin estetik dəyərinə əlavə rənglər qatır. Sözün mətndəki estetik dəyəri məzmunyaratma funksiyası və poetik mühit yaratma formatında kəsb elədiyi mahiyyəti diqqət önünə gətirir. Bütün parametrlərdə poetik düşüncənin əsasında durmaqla müəllif qayəsinin təcəssümünə bağlanır. Onu da əlavə edək ki, poetik təfəkkürün inkişafı bütün parametrlərdə məcazlaşmalara, sintaktik fiqurların mətn daxilində kəsb etdiyi mənaya bağlanır. Mətn daxilində özünü göstərən ifadə çoxplanlılığı eyni zamanda obrazlı-poetik çalarların bədii-estetik funksiyasını aşkarlayır. "Şərq poemaları"nın tərcüməsindəki özünü göstərən poetik zənginlik məcazların işləkliyi ilə dolğunlaşır və estetik bütövlüyün müəyyənliyində ciddi rolu ilə diqqət önünə gəlir. Burada həm də təsvir və təcəssüm axarında üslubi nüfuzun özünü görünüşü keyfiyyət faktı kimi səciyyəvilik qazanır. Məcaziliyin yerində və məqamında işləkliyi və mətn daxilində kəsb etdiyi məzmun bədii kamilliyin səviyyəsini faktlaşdırır. Məhz bu səbəbdən də çox doğru olaraq vurğulayırlar ki, *"sözün yalnız bircə müəyyən mənası yoxdur. Poetik mətndə söz büqələmundur, mövqeyindən və kontekstindəki yerindən asılı olmayaraq onda hər dəfə müxtəlif rəng və çalarlar əmələ gəlir"* [121, s.17]. "Mazera", "Abidos gəlini", "Gavur", "Şilyan məhbusu", "Korinfin mühasirəsi" və s. əsərlərin tərcümələri üzərində apardığımız təhlillər Azərbaycan dilində mətn kontekstində sözün və ifadənin kəsb etdiyi məzmun hərəkətliliyi, yeni çalar qazanmanın özünəməxsusluqlarını işarələyir. Çünki poetik kontekstə işlənən sözlər mətn daxilində onunla əlaqələnən digər sözlərlə qarşılıqlı üslub-semantik məna daşıma ilə mükəmməlləşir. Çöxcəhətli poetik spesifiklik anlamında məcazlaşma ilə yeni məzmun kəsb etməyə bağlanır. Poetik fiqurların yeri və məqamı bu anlamda müstəsnalıqdır.

Suların nəğməsi kəsməyir bir an
Dəyib gözlərinə qarətçilərin

Şoq salıb gün kimi parlayır o qab [23, s.134].

"Suların nəğməsi"nin kəsb etdiyi məzmun mətn daxilində poetik-estetik funksiyası ilə "nəğmə" kontekstində yeni məzmuna bağlanır. Sonrakı misra "qarətçilərin gözlərinə dəyməsi" anlamında digər poetik məzmun üçün əsas olur. "Şoq salmaq", "gün kimi parlamaq" bədii axarda misra fikir yükünün dinamikasını aşkarlayır. Və yaxud da bir başqa nümunəyə diqqət yetirək:

Vurub barmağını o da, durmadan,
Yatan xəyallara deyirdi: oyan!
Onu dərd içində oxşadı bir an
Dəniz havasının yumşaq nəfəsi [23, s.116].

C.Q.Bayronun "Şərq poemaları" Şərq həyat tərzini, düşüncəsini, Şərq təbiətini, xarakterini, etnik təsəvvürlərini əks etdirmək baxımından əvəzsizdir. B.Vahabzadənin, A.Aslanovun, N.Gəncəlinin, Ə.Rzanın və s. tərcümələrində bir məqsəd, məram olaraq qorunur. Orijinalın yüksək bədiilik və təfəkkür intelleksiyasını bütün təfərrüatları ilə əks etdirməyə köklənir. Burada digər müsbət, həm də diqqətçəkici cəhət tərcüməçilər timsalında olanlardır, daha doğrusu, ruhu, düşüncəsi ilə bu dəyərlərin daşıyıcısı olmalarıdır. Bütün bunlar orijinalda olan dil faktlarının məcazlar (metafora, metonimiya, sinekdoxa, epitet), poetik fiqurlar səviyyəsində tərcümədə özünə yer aldığını aydınlaşdırır.

## 3.2. Corc Qordon Bayronun "Şərq poemaları"nın rus dilindən Azərbaycan dilinə tərcüməsinin dil xüsusiyyətləri

İngilis ədəbiyyatının əvəzsiz simalarından olan C.Q.Bayron yaradıcılığının Azərbaycan dilinə tərcüməsi daha çox iki istiqamətdə aparılmışdır. Birincisi, orijinaldan tərcümədir ki, bu barədə ədəbi-nəzəri fikir müxtəlif səpkili təhlillərlə diqqətçəkici mövqe bildirmişdir. İkincisi, rus dilindən şairin yaradıcılığının tərcüməsidir və sovetlər dönəmində, demək olar, dünya ədəbiyyatı korifeylərinin böyük bir hissəsi bu dil vasitəsilə Azərbaycan ədəbi-mədəni mühitinə çatdırılmışdır. Məlum olduğu kimi, *"yaradıcılıq prosesində ciddi məsuliyyət tələb edən bədii tərcümə, dövrdən asılı olmayaraq, hərəkətedici faktor kimi həmişə ön sıralarda*

*dayanmışdır"* [45, s.9]. Heç şübhəsiz, bunlar hamısı xalqların təması və onlara (milli mədəni mədəniyyətlərə) maraqdan yaranmışdır. Burada təcrübənin mənimsənilməsi, milli ənənə ilə bağlanması və ondan yaradıcı istifadə halları da olmuşdur. Bütün bunlar bəşər sivilizasiyasının öyrənilməsi və qarşılıqlı yararlanmanın əvəzsiz örnəyi olaraq sistemli təhlillərə şərait yaradır.

Azərbaycanda tərcümə ənənəsinin zənginləşmə proessində rus dilindən tərcümələrin aparılması ayrıca bir mərhələdir. Bu istiqamətdə indiyə qədər gərəkli işlər görülmüşdür. Lakin Azərbaycan tərcüməçilik sənətinin tarixi daha qədimlərə, həm də kifayət qədər ciddi zənginliklərə dayanır. Ərəb, fars, yunan və s. dillərdən olan tərcümələr orta əsrlərin dərinliklərinə dayanır. Dünya ədəbiyyatının əvəzsiz siması N.Gəncəvi "İsgəndərnamə"də bu barədə lazımı qədər gərəkli bilgilər verir və yararlandığı qaynaqlar sırasında onlara işarələr edir. Ərəb və fars dillərindən tərcümələr isə Azərbaycan tərcüməçiliyi tarixində ayrıca bir mərhələdir. Klassik ədəbiyyatımızın mühüm bir hissəsi ərəbdilli Azərbaycan ədəbiyyatı və farsdilli Azərbaycan ədəbiyyatı adı ilə ədəbi-nəzəri fikirdə qeyd olunur. Onların isə Azərbaycan oxucusuna ana dilində çatdırılması məhz tərcümə ənənəsinin zəngin elmi-nəzəri bazaya əsaslanması haqqında dolğun təsəvvür formalaşdırır.

XIX əsrin ilk onilliklərindən Azərbaycanını ictimai-siyasi həyatında olduğu kimi, ədəbi-mədəni mühitində də yeni bir mərhələnin başlanğıcı qoyulur. Bu daha çox Avropa ədəbi-mədəni mühitində gedən yeniləşmələrə bağlanır. Azərbaycanın çar Rusiyası tərəfindən işğalı da yeni mərhələnin dinamik mənzərəsi üçün əsas olur. Rus və Avropa təhsili görmüş azərbaycanlı ziyalılar böyük enerji ilə vətənə qayıdıb onun çiçəklənməsi və dünya düzənində gedən proseslərə qoşulması istiqamətində gərəkli işlərə qərar verirlər. Elm, mədəniyyət, təhsil sahəsində atılan addımlar bunun bariz örnəyidir. Dünya ədəbiyyatının görkəmli simalarının əsərlərinin tərcüməsi sahəsində də görülən işlər bura daxildir. Həmin tərcümələr artıq rus dilinin hegemonluğu şəraitində onun vasitəsilə edilirdi. Azərbaycanın görkəmli simalarının əsərləri ilə tanışlıq da bu dil vasitəsilə olunurdu. A.Bakıxanov, İ.Qutqaşınlı, M.Mahmudbəyov, S.S.Axundov, E.Sultanov, T.Bayraməlibəyov, S.M.Qənizadə, A.Səhhət, F.Köçərli,

Ü.Hacıbəyov, R.Əfəndiyev və başqalarının bu istiqamətdə gördüyü işlər rus dilindən Azərbaycan dilinə tərcümənin bir proses olaraq dönməzliyini aydınlaşdırır.

X.Şirvaninin, N.Gəncəvinin, M.Füzulinin, M.P.Vaqifin, M.F.Axundovun, M.Ə.Sabirin, Ə.Haqverdiyevin, C.Məmmədquluzadənin və başqalarının əsərləri rus dilinə tərcümə vasitəsilə rus və Avropa mühitinə çatdırılmışdır. Bu işdə təkcə azərbaycanlı tərcüməçilər deyil, həm də rus tərcüməçilərinin də xüsusi rolu olmuşdur. Qarşılıqlı yararlanmada tərcümə sahəsində gərəkli uğurlar əldə edilmişdir. XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin, məsələn, C.Cabbarlının, S.Vurğunun, S.Rüstəmin, M.İbrahimovun, M.Rahimin, M.Hüseynin, R.Rzanın, S.Rəhimovun, M.Cəlalın, Əbülhəsənin, S.Rəhmanın, Ə.Vəliyevin və başqalarının əsərlərinin rus dilinə tərcüməsi də bu proseslərin dönməzliyinin nümunəsi olmuşdur. Eləcə də Avropa ədəbiyyatının görkəmli nümayəndələrinin yaradıcılığının əsas hissəsi məhz rus dili vasitəsi ilə Azərbaycan ədəbi-mədəni mühitinə çatdırılmışdır. İngilis ədəbiyyatının gərkəmli simalarından olan C.Q.Bayronun yaradıcılığının Azərbaycan dilinə tərcüməsi də bir istiqamətdə rus dili vasitəsilə reallaşmışdır.

Ümumiyyətlə, tərcümə xalqlar və mədəniyyətlər arasında bağlantı, körpü funksiyası yerinə yetirir. Bəşər sivilizasiyası bu bağlantıların sayəsində dinamik inkişafı özü üçün təmin etmişdir. Ədəbi-mədəni düşüncənin mühüm sahələrindən olan tərcümə öz prinsip və sərgilədiyi kateqorial xarakteri ilə həmişə ciddi bir möhtəşəmliyə bağlanmışdır. Ona görə də tərcümə tarixini bir kontekstdə yaradıcılıq axtarışlarının tarixi kimi diqqət önünə gətirirlər. Bu isə özlüyündə tərcümə təcrübəsi və bu təcrübənin konseptual prinsiplərinin formalaşmasına gətirib çıxarır. Son olaraq tərcüməşünaslıq bir elm sahəsi kimi özünün nəzəri prinsip və kateqoriyalarını müəyyənləşdirməklə yoluna davam edir.

C.Q.Bayron yaradıcılığının Azərbaycan dilinə tərcüməsi orijinaldan və rus dilindən olmaqla geniş ədəbi ictimaiyyətə çatdırılmışdır. Tərcüməşünaslıq özünü müəyyənləşdirdiyi metodoloji prinsiplə müqayisə müstəvisində sistemli təhlillərə şərait yaradır. Burada proses bir xətt olaraq üç istiqamətin izlənməsini zəruri edir:

a) orijinaldan rus dilinə tərcümənin sənətkarlıq göstəriciləri və onun tərcümədə hansı səviyyədə özünü ifadə etməsi;

b) rus dilindən C.Q.Bayron yaradıcılığının Azərbaycan dilinə tərcüməsi və onun tərcümə səviyyəsi;

c) Azərbaycan dilinə tərcümənin (rus dilindən) orijinalı dil və üslub xüsusiyyətləri baxımından hansı səviyyədə əks etdirməsi və s.

Bütün bunlar tipoloji yanaşmanın problemi olaraq C.Q.Bayronun "Şərq poemaları"nın tərcüməsinin intertekstuallıq və paratekstiallıq kontekstdə təhlilini gərəkli edir. Ümumiyyətlə, tərcümə bir yaradıcılıq sahəsi olaraq mürəkkəb və həm də çeşidli təsəvvürləri çatdırmaq anlamında məsuliyyətli bir işdir. Burada tərcüməçi səriştəsi, yaradıcı istedadın spesifiklik mənzərəsi, tərcümənin keyfiyyət göstəriciləri, orijinalı ehtiva edə bilmək imkanları və s. diqqət önünə gəlir. Müqayisəli təhlil sayəsində bunların mahiyyətinə varmaqla dolğun təsəvvür formalaşdırmaq mümkündü.

Fərdi üslub bütün məsələlərdə, yaradıcılıq proesində müstəsna olan kimi diqqət önünə gəlir. Yazıçı və tərcüməçi fərdiyyəti və bunun ortaqlığında reallaşan tərcümə mahiyyətin çatdırılması müqabilində əsərin uğurluluğunu faktlaşdırır. "Abidos gəlini", "Mazera", "Gavur", "Şilyan məhbusu", "Korinfin mühasirəsi" və s. əsərlərin tərcüməsi və rus dilində tərcümənin formalaşdırdığı təsəvvür həm də bədii düşüncənin spesifiklik meyarına bağlanır. *"Şeir sənətinin spesifikası, onun hissi və fikri – intellektual cəhətləri ilə bağlı axtarışalr bütün dövrlərdə canlı və mürəkkəb yaradıcılıq məsələləri sayılmışdır. Şeirin mənşəyi, bu janra məxsus bədiiliyin obyektiv meyarları estetikanın, poeziya sənəti nəzəriyyəsinin görkəmli nümayəndələrinin həmişə diqqət mərkəzində olmuşdur"* [55, s.10]. Tərcümə prosesində bunların bir meyar olaraq əsas götürülməsi tərcümənin uğurluluğuna müsbət zəmin yaratmışdır. Çünki burada dil və üslub məsələləri, mətnin fenomenliyi, sözün məna yaddaşı, janrın məzmun yaratma imkanları bir bütövlük kontekstində ortaya qoyulacaq mükəmməlliyi faktlaşdırır.

Tərcümə dilinin zənginliyi timsalında fonopoetik, morfopoetik sistemin imkanlarından yararlanmaq, səs assosiasiyalarının səs simvolizmi və səs təqlidi ilə birgə mətn boyu yaratdığı mühit, sintaktik fiqurların bədii örnəyin axarı boyu sərgilədiyi məzmun və s. hamısı tərcüməçi səriştəsinə və ruhun daşınışına bağlanır. Məlum olduğu kimi, yüz illər boyunca sətri tərcümə xalqlarımızın mədəni əlaqələrinin

inkişafında, ədəbiyyatlarımızın ən yaxşı əsərlərinin qarşılıqlı tərcüməsində, bağlantıların möhkəmlənməsində xüsusi rol oynamışdır. Vladimir Oqnev bədii tərcüməni obrazlı şəkildə insanın mədəni həyatının qan dövranına bənzədir və yazır ki, *"onun (tərcümənin – V.Q.) kapillyarları ilə bəşəriyyətin təmiz qan mübadiləsi həyata keçirilir". Yalnız səlis, rəvan tərcümələr bu "mübadilənin", "qan dövranının" ahəngdarlığını, harmonikliyini təmin edə bilər"* [91, s.318]. C.Q.Bayron əsərlərinin tərcüməsi də özünün səlisliyi və mükəmməlliyi ilə bu cür təsəvvür formalaşdırır. Onun "Qaranlıq", "Prometey", "Mənim 36 yaşım var" şeirləri (1944) M.Rzaquluzadə tərəfindən Azərbaycan dilinə tərcümə edilmişdir. Tərcümə rus dili vasitəsilə edilmişdir. Tərcümədən tərcümə kimi diqqət önünə gələn bu nümunələr rus dilindən gələn dil və üslub xüsusiyyətlərini qoruyub saxlamaq məramına köklənmişdir.

C.Q.Bayronun yaradıcılığı, dediyimiz kimi, orijinaldan və rus dilindən edilmişdir. Tipoloji yanaşmalarda bunların müqayisəli təhlili dil və üslub xüsusiyyətlərinin ümumi mənzərəsini, orijinalda və rus dilində tərcümə problemlərini, məsələn, rus dili variantının orijinalı hansı səviyyədə əks etdirməsini aydınlaşdırmaq üçün geniş imkanlar yaradır. "Şərq poemaları" silsiləsinə daxil olan "Şilyon məhbusu" Azərbaycan dilinə orijinaldan və rus dilindən tərcümə edilmişdir. Orijinaldan şair, tərcüməçi Ənvər Rzaya tərcümə etmişdir. Rus dilindən tərcümə isə xalq şairi Rəsul Rzaya aiddir. Azərbaycan ədəbi-mədəni mühitində kifayət qədər tanınmış və dilin bütün üslubi imkanlarını lazımı qədər mənimsəmiş bu iki ədibin tərcümələri arasında orijinaldan və rus dilindən gələn məqamların spesifikası özünü göstərir. Məsələn, rus dilinə tərcümənin orijinalı hansı səviyyədə əks etdirməsi məsələnin bir tərəfidir, onun ikinci tərəfində R.Rzanın bu ruhu tutması reallığı vardır.

Ümumiyyətlə, tərcümə əsərinin qiyməti, dəyəri hər şeydən öncə onu orijinaldan tərcümə olunmasına əsaslanır. Çünki sənətkar qayəsi, onun yaradıcı istedadı, hadisə və faktları təqdim etmə üsulları, janr səviyyəsindən fonopoetik axarın ümumi mənzərəsinə qədər nə varsa hamısı orijinalda təfərrüatına qədər ifadəsini tapır. Tərcümədə isə buraya tərcüməçinin əlavələri, faktları dərki və təqdim üsulları da diqqət önünə gəlir. Beləliklə, tərcümədən tərcümə bir başqa istiqamətlə, əlavələrlə diqqət önünə gəlir ki, bu orijinal və tərcümə səviyyəsində prosesin spesifikasına əlavə çalar

qatır. “Şilyon məhbusu” poemasını xalq şairi R.Rza rus dilindən tərcümə etməsi poemanın adekvatlığı və dilin təmizliyi baxımından uğurlu təsir bağışlayır. Düzdür, burada tərcüməçi əlavələri və üslubundan gələn genişlənmələr (artırmalar), bəzən qısaltmalar özünü göstərir. Məsələn, R.Rza üslubu və sözə həssaslığı tərcümə prosesində bir tərəf kimi görünür. Məsələn, “məzarda da əzab verməkçin ona, zindan qismət oldu övladlarına” deyən müəllif orijinalda altı qardaşın acı taleyini diqqət önünə gətirir:

Təkcə mən qalmışam altı qardaşdan –
Odda yandırdılar bir qardaşımı,
İkisi səhrada əhdi, inamı
Qanla möhürləyib sonra verdi can.
Üçümüz salındıq zülmət məhbəsə.
Yatdı qəlbimizdə dərd düyün-düyün,
Öldü qardaşlarım, qaldım mən isə,
Qaldım şəhidləri ağlamaq üçün [23, s.137].

Göründüyü kimi, poemada altı qardaşın faciəli taleyi haqqında söhbət açılır. Rus dilindən tərcümədə isə faciəvi qəhrəmanların sayı yeddidir. Bizə belə gəlir, bu atanın da faciəli taleyi timsalında belə verilmişdir. Tərcümə şeirdə fərqli yanaşmaları, mətndən gələn fikir və ifadələrin axıra qədər təqdim çətinliyini diqqət önünə gətirir. R.a da məhz bütün bunları ruhun saxlanması üçün müəyyən ifadə və misra fərqliliklərini əlavə etmək məcburiyyətində qalmışdır.

“Şərq poemaları”nın tərcüməsi Azərbaycan ədəbi-mədəni mühitində C.Q.Bayron yaradıcılığına olan marağın aktuallığını diqqət önünə gətirir. Görkəmli şairin əsərlərinə bir neçə istiqamətdə artan maraq özünü göstərir. Çünki Şərq həyat tərzini, məişətini, tarixini bu qədər həssaslıqla öyrənib onu poema səviyyəsində təqdim etmək özü Şərqə sevginin nəticəsi kimi ciddi təsəvvür formalaşdırır. Burada eyni zamanda Şərq təbiəti ilə C.Q.Bayronun ruhani təbiəti arasında bir oxşarlıq da özünü göstərir. Azərbaycan ədəbi-mədəni mühitinin ayrı-ayrı nümayəndələri “Şərq poemaları” ilə tanışlıqdan sonra şairin müxtəlif əsərlərinin tərcüməsi məsələsinə xüsusi həssaslıq göstərdilər. C.Q.Bayron əsərlərinin Azərbaycan dilinə tərcüməsi

həmişə artan istiqamətdə getmişdir. Bu tərcümələrdə şair fərdiyyətindən əlavə tərcüməçi fərdiyyəti də diqqət önünə gəlir. Rus dilindən olan tərcümələr tərcüməçi timsalında fərdi özünəməxsusluqları aydınlaşdırmaq üçün maraqlı faktlarla səciyyələnir.

C.Q.Bayronun “Kəllədən düzəldilmiş qədəh üzərində yazı” (“Lines inscribed upon a cup formed from a skull”) adlı ictimai-fəlsəfi şeirini görkəmli şairimiz Bəxtiyar Vahabzadə Azərbaycan dilinə tərcümə (1956) etmişdir. Dünya ədəbiyyatında kəllə ilə bağlı saysız-hesabsız mif, əfsanə, rəvayət, əhvalat və s. örnəkləri vardır. Şifahi və yazılı ədəbiyyatda bu nümunələr citimai-fəlsəfi məzmunu, əxlaqi-didaktik fakturası ilə həmişə diqqətçəkici mahiyyət daşımışdır. C.Q.Bayronda kəllədən düzəldilmiş qədəh timsalında öz təsəvvürlərini poetik mətnə gətirir. Dünyanın vəfasızlığını, faniliyini ehtiva edən fikirləri C.Q.Bayron bu şeirdə digərlərindən fərqli olaraq, daha qabarıq əks etdirmişdir. Bu şeirin ruhu ilə B.Vahabzadənin düşüncələri arasında yaxınlıq tərcüməyə də öz təsirini göstərmişdir. Şeirin orijinalı ilə tərcümə arasında bütövlük, misranın fikir yükü, poetik sözün ehtiva etdiyi məzmun uğurlu şəkildə qorunmuşdur. B.Vahabzadənin duyumunda və bədii mətnin bütövlüyünün obrazlı şəkildə təqdimində interpretasiya (yozumu) aydın şəkildə özünü göstərir.

***Orijinalda:***

Quaff while thou canst: another race,
    When thou and thine like me are sped,
May rescue thee from earth’s embrace,
    And rhyme and revel with the dead [101, s.98].

***Şeirin rus dilində tərcüməsi:***

И дельно! – В краткие мгновенья
Для нас отсчитанных годов
Как скудно – жалки похожденья
Сих человеческих голов! [101, s.99]

Şeirin tərcümə zamanı həcmi genişləndirilsə də dəqiqlik olduğu kimi saxlanılmışdır. B.Vahabzadə tərcümədə əsasən mənaya fikir vermiş, şeirin ruhunu tutmağa çalışmışdır.

***Tərcümədə:***

İç, nə qədər bacarırsan! Yoxsa başqa bir nəsil
Məzarından çıxararaq sənin də boş kəlləni,
Üzərinə şeir yazar, mənim kimi, budur, bax,
Məclislərdə əldən-ələ yəqin gəzdirər səni [92, s.189].

Orijinaldan, rus dilinə tərcümədən və Azərbaycan dilinə B.Vahabzadənin tərcüməsindən verdiyimiz bu nümunə C.Q.Bayron istedadının polifonik mənzərəsini, orijinal və tərcümə səviyyəsində bu üç örnəyin poetik mənzərəsini aydınlaşdırmaq üçün lazımı qədər material verir. M.H.Təhmasib, Ə.Muradxanlı, Ə.Fərzəli, R.Yusifli və başqalarının tərcümələri vasitəsi ilə Azərbaycan ədəbi-mədəni mühiti ingilis ədəbiyyatının qüdrətli nümayəndəsi C.Q.Bayron haqqında dolğun bilgi almışdır. Tərcümə və onun problemləri kontekstində bunlar dolğun təsəvvür yaratmaqla orijinalı hansı səviyyədə əks etdirməsi məsələsi müstəvisində ciddi təhlillərə əsas olur. Burada əlbəttə müəllif üslubu və tərcüməçi üslubu və bunların ortaqlığı, orijinalı hansı səviyyədə əks etdirməsi bir problem olaraq diqqət önünə gəlir. Dünya ədəbiyyatının yaddaşına "sevimli şair" kimi adını yazmış ədibin yaradıcı istedadı, onun orijinallıq mənzərəsi, həyati hadisələrə münasibəti, ictimai-siyasi proseslərə mövqe nümayiş etdirməsi, Şərq sevgisi və türk dilində sözlərdən genişliklə əsərlərində istifadəsi, Şərqi öyrənməsinin səbəb və mahiyyəti və s. kimi məsələlər əsərlərin tərcüməsində qorunması vacib məsələ kimi diqqət önünə gəlir. Ona görə də "bayronuzmi," "Bayron fəlsəfəsi"ni dərindən mənimsəmədən tərcümənin uğurluluğu heç şübhəsiz axıra qədər mümkünsüzdü. Çünki bədii sənətin spesifikası onun hissi və fikri intelleksiyasına bağlanır və bu isə canlı, həm də mürəkkəb yaradıcılıq prosesinin reallaşma mənzərəsini şərtləndirir. Bütün bunlar isə dil faktları, sözdən yüksək sənətkarlıqla istifadə sayəsində mümkün olur. *"Şeirdən həm qüvvətli, dərin fikir, həm də musiqililik, ahəng tələb edilməlidir. Bunların birinin hesabına digərinə güzəştə getmək düzgün deyildir. Bu tələbə görə şeiri "poetik konsert" hesab edirlər. Elə konsert ki, burada həm ahəng, həm ritm, həm dilin leksikası, sintaksisi, informasiyası sintez təşkil edir. Yalnız bu halda "şeir" adlanan abidə meydana çıxır. Belə şeir baş hərflə yazılmağa layiq olur"*

[3, s.223-224]. C.Q. Bayron yaradıcılığının Azərbaycan dilinə tərcüməsi bu baxımdan ciddi mənzərə ilə müəyyənləşir.

***Orijinalda:***

Why not? since through life's little day
   Our heads such sad effects produce;
Redeem'd from worms and wasting clay,
  This chance is theirs, to be of use [101, s.98].

***Şeirin rus dilində tərcüməsi:***

Пускай червей от хищной злости
Спастись дадут им этот путь,
И их, хоть в виде мертвой кости,
У потребят на что-нибудь! [101, s.99]

Məlum olduğu kimi, fərdi üslub və onun ortaya qoyduğu mənzərə bütün aspektləri ilə bədii düşüncədə müstəsnalığı faktlaşdırır və yaradıcı istedadının sərhədləri daxilində baş verir. C.Q.Bayron şeirləri və onun tərcüməsi də bu kontekstdə eyni mənzərəni sərgiləyir. İstər rus dilində olan tərcümə variantları, istərsə də Azərbaycan dilində olan tərcümə variantları tipoloji konsepti ilə bunları bir bütöv olaraq diqqət önünə gətirir.

***Tərcümədə:***

Nə qədər ki yaşayırıq bu vəfasız dünyada
Pis işlərə təhrik edir bizi daim beynimiz.
O zaman ki, qurdlar yeyir beynimizi məzarda
İnsanlara xidmət edir, bir qədəh oluruq biz [92, s.189].

Rus dilindən tərcümə əsasında tərcümə olunmuş bu nümunə fərdi üslub özünəməxsusluqlarını ehtiva etmək, məzmun qatlarında nələrin olmasını aydınlaşdırmaq baxımından mühümdür. Xalqın zəngin söz xəzinəsindən istifadə etmək, yeni poetik nəfəsin incəliklərini mətndə canlandırmaq tərcümədə mühüm olandı. Əlbəttə yaradıcılıqda da belədir və sənətkar istedadı dil faktlarının ecazkarlığında bədii nümunəyə əlvanlıq qatır. A.Aslanovun, B.Vahabzadənin,

N.Gəncəlinin, Ə.Rzanın, Ə.Fərzəlinin, R.Yusifoğlunun tərcümələri bu müstəvidə ciddi faktura ilə diqqət önünə gəlir.

Nəsr örnəklərindən fərqli olaraq şeirdə tərcümənin müəyyən çətinlikləri ortaya çıxır. Çünki şeirini poetik sistemi, janr və struktur elementləri, janrın özünün məzmun yaratma xarakteri, qafiyə sistemi, kanonik bütövlük və s. hamısı tərcümədə bir bütöv olaraq nəzərə alınmada axıra qədər mümkünsüz görünür. Bütün bunların nəzərə alınması tərcüməçinin səriştəsi və yaradıcı ruhu ilə faktlaşır. Ona görə də burada tərcüməçi əlavələri və tərcümənin özündən gələnlər də mətn boyu özünü göstərən məsələdir. Fikrin emosionallığı, elastik və anlaşıqlı olması, nə varsa hamısı dil faktlarının çatdırdığı məna yükünə bağlanır. Məhz bu səbəbdən də rus dilindən C.Q.Bayron yaradıcılığının tərcüməsi rus dilindəki tərcümə sənətkarlığının səviyyəsində reallaşır. Burada, heç şübhəsiz, rus dilinə tərcümə edənin öz fərdi üslubundan gələnlərin və sənətkar ruhunun faktları da vardır. Ona görə də rus dilindən C.Q.Bayron yaradıcılığının Azərbaycan dilinə tərcüməsi bir ayrı problemdir. Müqayisələr göstərir ki, M.H.Təhmasib, B.Vahabzadə, R.Yusifoğlu, G.Fəzli və başqalarının rus dilindən etdiyi tərcümələr rus dilindən gələnləri ehtiva etmək gücü ilə xarakterizə olunur.

C.Q.Bayronun Şərqə həssaslığı, Şərq ədəbiyyatına və mədəniyyətinə marağı “Şərq poemaları”nın dil və üslubunda, janr səciyyəsində, türk sözlərindən məqsədli şəkildə əsər boyu yararlanmasında özünü göstərir. “Şərq poemaları”, eləcə də “Korsar”, “Lara” və “Parizina” yüksək təfəkkür və sənət intelleksiyası, poetexnoloji sistemin mükəmməlliyi ilə diqqət önünə gəlir. A.S.Puşkin (1827) göstərirdi ki, lord Bayronun əsərlərindən heç birisi İngiltərədə “Korsar” qədər güclü və dərin təəssürat oyatmamışdır. Böyük emosional gücə və mükəmməl mətn korpusuna malik olan bu əsərin qəhrəmanı Konrad üsyankarlıq və barışmazlıq nümunəsidir. “Korsar”, “Lara”, “Parizina” əsərlərində sənətkar Şərq adət-ənənələrinə nə qədər yaxından bələd olduğunu yüksək ustalıqla nümayiş etdirmişdir. Bayronşünaslar çox doğru olaraq vurğulayırlar ki, Şərq şeirinin ən gözəl xüsusiyyətlərini, ifadə tərzini ingilis poeziyasında ilk dəfə özünəməxsus bir şəkildə işlətməklə yanaşı, müəyyən şərq sözlərini də ingilis dilinə ilk dəfə gətirən C.Q.Bayron olmuşdur. Onu da əlavə edək ki,

ədibin yüksək təfəkkür intelleksiyası türk sözlərindən yerli-yerində istifadə bacarığını aydınlıqla göstərmiş və ona mətndə yeni çalarlar qazandıra bilmək bacarığı ilə səciyyələnmişdir. Məsələn, saray-hərəmxana mənasında işlədilən "sultanə-xanım" bunun nümunəsidir.

"Şərq ruhlu Qərb şairi" kimi böyük şöhrət sahibi olan C.Q.Bayronun "Şərq poemaları"na daxil olan üç əsəri ("Abidos gəlini" (B.Vahabzadə), "Gavur" (N.Gəncəli, "Korinfin mühasirəsi" (A.Aslanov) 1959-cu ildə tərcümə edilərək, kitab şəklində dərc edilmişdir. Kitaba yazdığı ön sözdə İ.Rəhimov xüsusi həssaslıqla vurğulayır ki, "hər üç mütərcim Bayronu dönə-dönə oxumuş, onu yaxından tanımağa səy göstərmişdir. Mütərcimlər tərcümənin əsas qaydasına – mətnin ruhuna sadiq qalmaq qaydasına riayət etməyə cəhd etmişlər və demək olar ki, buna müvəffəq olmuşlar. Şübhəsiz, tərcümələrdən Bayron poemalarının ruhu, mənası və üslubu aydın hiss olunmaqdadır" [22, s.196]. Bütün bunlar tərcümədə əsas olan kimi həmişə diqqət önündə saxlanmış və tərcümənin uğurluluğu təsəvvürünü formalaşdırmışdır.

"Şilyon məhbusu" poemasını 1934-cü ilə xalq şairi R.Rza tərcümə etmişdir. Tərcümə rus dili variantından istifadə edilməklə aparılmışdır. Poemanın rus dilinə tərcüməsini isə V.A.Jukovski etmişdir. R.Rza poemanın altı nəğməsini tərcümə etmişdir. Tipoloji müqayisə tərcümənin yaradıcı özünəməxsusluğunda spesifikasını aydınlaşdırmaq baxımından mühüm ənəm daşıyır.

Şilyon adlı, qədim bir qalaca var.
Orda üzərini yosunlar almış,
Sanki əfsanəvi röyaya dalmış.
Yeddi sütun durur, onları hərdən
Kədərli görkəmlə bir az göstərən.
Şəfəqlər düşərək cadarlarına,
Məhbəsin oyuqlu divarlarına [67, s.6].

***Rus dilində tərcümə tərcümə variantı*:**

На лоне вод стоит Шильон;
Там в подземелье семь колонн
Покрыты влажным мхом лет.

На них печальный брезжит свет,

Луч, ненароком с вышины

Упавший в трещину стены [101, s.315].

C.Q.Bayronun "Şərq poemaları"nın Azərbaycan dilinə tərcüməsinin dil və üslub xüsusiyyətləri bütün parametrləri ilə mahiyyəti əks etdirməyə, sintaktik fiqurların işləklik mənzərəsinə və mətn daxilində sərgilədiyi məzmuna, fonopoetik, morfopoetik mənzərənin ifadəliliyinə bağlanır. Digər qeyd olunmalı məqam tərcümə dilinin müəyyən zaman kəsiyində işləklik mənzərəsini öyrənmək baxımından bu tərcümələr diqqətçəkici önəm daşıyır. Məsələn, R.Rzanın tərcüməsində işlənən bir sıra sözlər ("gögə", "kibi", "aqır", "baqlı", "zənçir", "vurduqu", "damqalar", "doquran", "sıqır", "aqrıdır", "sevinç", "açı", "aqladım", "varlıqımı", "sarsdı", "gönlüm" və s.) orfoqrafik fərqliliklərlə görünür. Bütün bunlar tərcümənin özünün tərcümə olunduğu dövrün dil mənzərəsini ehtiva etməklə, həm də onun dinamikasının bir proses olaraq dil səviyyəsində mənzərəsini aydınlaşdırır.

### 3.3. Corc Qordon Bayronun pyeslərinin Azərbaycan dilinə tərcüməsində dil xüsusiyyətləri

C.Q.Bayron yaradıcılığının mövzu və janr mündəricəsi rəngarəngliklərlə diqqət önünə gəlir. Ədibin əsərlərinin Azərbaycan dilinə tərcüməsi prosesində də bu özünü göstərir. "Qabil" görkəmli sənətkarın yaradıcılıq imkanlarını, istedadının nələrlə səciyyələndiyini aydınlaşdırmaq baxımından mühüm əhəmiyyət daşıyır. Xalq şairi S.Vurğun dünya şöhrətli ədibin yaradıcılığı timsalında "hanı əsrimizin böyük Bayronu" deyirdi. "Şərq poemaları" başlığı altında toplanan əsərləri eləcə də lirikası və "Qabil" kimi möhtəşəm abidəsi bu böyüklüyün nələrlə səciyyələndiyini aydınlaşdırır. C.Q.Bayron "Qabil"i poema kimi verir. M.H.Təhmasib rus variantından etdiyi tərcümədə pyes formasında işləmiş və qruluşca dramatik poema janrında təqdim etmişdir. İngilis ədəbiyyatının qüdrətli siması C.Q.Bayronun istedadını təqdim etmək baxımından bu əsər əvəzsizdi. V.Q.Belinski xüsusi həssaslıqla "Bayron yaradıcılığı bəşər tarixinin bir səhifəsidir, əgər həmin səhifəni cırsanız, tarixin bütövlüyü itəcək,

heç nə ilə əvəz olunmayan bir boşluq qalacaqdır" söyləyir. "Şərq poemaları", "Qabil" və s. əsərləri bunun göstəricisi kimi diqqət önünə gəlir.

"Qabil" pyesi 1934-cü ildə M.Təhmasibin tərcüməsində çap edilmişdir. "Qabil" misteriyası demək olar ki, C.Q.Bayron əhval-ruhiyyəsi və nəzəriyyəsinin hər bir cəhətini əks etdirir. Bu əsərin ideyasını məşhur ədəbiyyatşünas V.M.Frice qısa olaraq belə izah edir: "Bibliyadan (müqəddəs kitablardan – N.) alınmış Qabil obrazı, varlığın ilk anlarında dünyanın əqlə müvafiq yarandığına iman edən və ilahiyyəti təqdis edən bir ailədə, dünya və bəşəriyyətin taleyi haqqında tək başına ağır düşüncələrə dalan bir obrazdır: iblis (öz əqli) tərəfindən mərifətlənmiş Qabil belə düşünür ki, varlığın mahiyyəti əzabdan ibarətdir, təxribatsız isə həyat mümkün deyildir" (V.M.Frice, "İngilis romantizmi") [104, s.18].

C.Q.Bayronun bu əsəri "bayronizm"in ifadə kodu, həyatı dərk formulasıdır. Burada yeniləşən Avropa səviyyəsində XVIII əsrin sonu və XIX əsrin əvvəllərinin dərinliklərindən gələn və gələcəyə daşınan ictimai-siyasi, tarixi-ideoloji sistemin mürəkkəblikləri boy göstərir. Bütün bunların nəticəsi olaraq əsər birmənalı qarşılanmamışdır. Hakim təbəqə əsərə və müəllifə qarşı nifrət və lənət duyğuları üzərində köklənmişlər. Bütünlükdə Avropanın və mühitin görkəmli ziyalılarının mövqeyi isə əsərə qarşı fərqli olmuşdur. V.Skott bu əsəri uğurlu və təqdirəlayiq əsər kimi qiymətləndirmişdi. Alman şairi və mütəfəkkiri Y.V.Höte "Bu əsərin gözəlliyi o dərəcədədir ki, dünya belə bir əsəri ikinci dəfə görməyəcək" [104, s.21] söyləyirdi.

M.Təhmasibin tərcüməsində "Qabil" bir sıra fərqliliklərlə, tərcüməçi əlavələri ilə səciyyələnir. Belə ki, Bibliyadakı (İncildə) obrazların adlarını Müqəddəs kitabımız Qurani Kərimdə olan adlarla əvəz etmişdir. Bildiyimiz kimi, Bibliyada (İncildə) Adəm və Həvvanın cənnətdən qovulma əhvalatı cüzi fərqlə Qurani Kərimdə da verilmişdir və müsəlman aləmi Yeva obrazını Həvva kimi, Kaini Habil kimi, Abeli Qabil kimi tanıyır. C.Q.Bayron "Qabil" pyesini nəzmlə qələmə alsa da, əsər nəsr formasında tərcümə edilmişdir. Qeyd edək ki, tərcümə praktikasında buna rast gəlmək olar. Həmçinin, əsərin başlığı altındakı qeydlərdən aydın olur ki, C.Q.Bayron "Qabil" pyesini tanınmış ingilis şairi və yazıçısı Valter Skotta həsr etmişdir. Lakin, həmin qeydlər və C.Q.Bayronun əsərə yazdığı müqəddiməyə tərcümədə rast gəlmirik.

Bədii tərcümə zamanı söz sırasının gözlənilməsi və lüğət dəqiqliyi arxa plana keçir. Əsas məsələ doğma dili bilmək və bədii fikri dərk etmək bacarığıdır. Poetik bədii tərcümə isə daha çətin və daha yüksək tərcümədir. Ona görə də bədii tərcümə ilə məşğul olan mütərcimdən yazıçılıq və ya şairlik qabiliyyəti tələb olunur. B.Vahabzadə tərcümə işində əsərin məhz bədii ruhunu tərcümə etməyə üstünlük vermişdir.

Nəzmlə yazılmış "Qabil" M.H.Təhmasibin tərcüməsində nəsr şəklində (üç pərdəli pyes kimi) auditoriyaya çatdırılır. Dini kitablarda ("İncil" və "Quran"da), xalq yaradıcılığında, mif, əfsanə və rəvayət örnəklərində bu mövzu özünü geniş şəkildə göstərmiş və bu gün də göstərməkdədir. C.Q.Bayron da öz yaradıcılığında bu mövzudan bəhrələnməklə dünya ədəbiyyatına ölməz bir sənət abidəsi bəxş etmişdir. Ümumiyyətlə, görkəmli sənətkarlar dünya şöhrətli əsərlərini xalq düşüncəsindən gələnlər əsasında işləməklə ona əbədiyaşarlıq qazandırmışlar. "Qabil" də bu ruha köklənməklə yazılmış ədəbiyyat abidəsidir. Tərcümədə onun dil xüsusiyyətlərinin ümumi spesifikası məhz. M.H.Təhmasibin folklorşünas kimi xalq dilinin ecazkarlıqlarından ustalıqla istifadəsini diqqət önünə gətirir.

Pyesin obrazlar silsiləsi kişilər (Adəm, Habil, Qabil), ruhlar (Mələk, İblis), qadınlar (Həvva, Ada, Sella) şəklində maraq doğuracaq simmetriyaya əsaslanır. Başlanğıcda cənnətin yanında bir yerdi. Günəş təzəcə doğur, Adəm, Həvva, Habil, Qabil, Ada, Sella ibadətlə məşğuldurlar. Allaha verdikləri üçün dualar edib şükranlıq bildirirlər. *"Adəm. Ey ulu Tnrı, ey xaliqi-hikmət! Ey bir əmr ilə qaranlıqları yarıb dünyalar yaradan sonsuz ulu Tanrı! Səcdələr, şərəflər olsun sənə! Sübhün bu saf salamını qəbul et!*

*Həvva: Ey işıqlı gün yaradan! Ey sübhü gecənin zülmətindən ayıran! Ey siları parçalayan! Ey Yəhya! Salamlar, səcdələr olsun sənə!*

*Habil: Ey təbiəti su, od, torpaq və havaya ayıran, ey Günəş və Ayın tanrısı, ey səni və sənin bütün yaratdıqlarını sevən və şükürlər içində yaşayanları yaradan böyük xaliq! Təhsinlər, salamlar olsun sənə"!* [23, s.179]. Göründüyü kimi, mətn informasiyası səhnə əsərlərinə məxsus özəllikləri özündə əks etdirməklə, həm də obrazların daxili mahiyyətini zəngin dil faktları ilə çatdırmaq məramına köklənmişdir. Buradakı müraciət-xitablar əsərin qayəsini təşkil edəcək mükəmməl düşüncəyə

köklənir və hissi-emosional duyğuların əksi ilə bədii mətnə bir rövnəqlik gətirir. Onomastik vahidlərin zənginliyi və bədii axarda sərgilədiyi rəngarənglik, sintaktik fiqurların bədii axarda kəsb etdiyi məna çalarları, arxetiplərin müəllif məramında oynadığı funksional rol bütünlükdə poetexnoloji işlənmənin uğurluluğunu diqqət önünə gətirir. Məsələn, Adəmin "ey ulu Tnrı, ey xaliqi-hikmət" deyə müraciəti ilə Həvvanın "ey işıqlı gün yaradan! Ey sübhü gecənin zülmətindən ayıran" deməsi müraciət tonunda mükəmməl bir simmetriya ilə əsərə əlvanlıq və təsirlilik gətirir və bu ardıcıllıqla Habildə, Ada və Sellada təkrarlanır. Tərcümə variantında orijinaldakı bu emosionallıq tipaj kolleksiyasında bir bütövü işarələyir və janrın məzmun yaratma funksiyasına bağlanır. Onu da əlavə edək ki, bütün poetik fiqurlar, söz qrupları təsvir, təcəssüm obyektinin təkcə təqdimini təbii axarda verməklə kifayətlənmir, onun mahiyyətinə nüfuz etməyi bir məqsəd olaraq işarələyir. Ona görə də çox doğru olaraq vurğulayırlar ki*, "emosiya təkrarın canıdır, təkrar isə nitqin ritmik təşkilinin canıdır"* [133, s.148]. M.H.Təhmasibin tərcüməsində dil komponentlərindən uğurlu istifadə bacarığı onun bir istiqamətdə xalq yaradıcılığının zənginliklərindən yüksək səviyyədə bəhrələnməsinə bağlanır. Sintaqmatik və paradiqmatik düzüm tərcümə prosesində ədibin folklorşünas təsəvvüründə olanlarla həmahənglik təşkil etməklə, bədii-estetik çalarların tonallığı üçün əsas olur. Repriz (təkrarlanma) bədii mətndə nitq vahidlərinin nizamlı təkrarı ilə baş verir və bütün parametrlərdə mükəmməl bədii vasitə funksiyasını yerinə yetirir. Səslərin, sözlərin, söz birləşmələrinin, cümlələrin nizamlı təkrarı bədii mətnə həm də əlavə məna çalarları gətirir.

Bədii əsərin təhkiyə texnalogiyası dil və üslubi incəlikləri ortaya qoymaq üçün anafora, epifora, frazemlər, xitablar, poetik fiqurların çeşidli örnəklərindən istifadəni mühüm olan kimi diqqət önünə gətirir. Çünki linqvistik-üslubi imkanlar həm də mətnin poetexnoloji korpusunun bütövlüyü, uğurluluğu üçün əsas olur. Yaradıcının dil imkanlarını, üslubi özəlliklərini ortaya qoyur və bədii axarda janrın məzmunyaratma funksiyasını şərtləndirir. Beləliklə də, bədii mətndə işləklik qazanmış bütün dil vahidləri semantik-emosional potensialın hərəkətliliyi üçün əsas olur. Dramatik kolliziya əsərin başlanğıcında situasiyanın ortaya qoyduğu vəziyyət səviyyəsində büütn incəlikləri ilə Adəmlə Qabil arasında söhbətdə özünü göstərir.

*Adəm: Ey mənim ilkim, sən niyə susub baxırsan?*

*Qabil: Mən nə etməliyəm?*

*Adəm: Dua et!*

*Qabil: Siz ki edirsiniz.*

*Adəm: Bəli, həm də tam bir imanla!*

*Qabil: Həm də yüksək bir səsələ, mən sizi eşidirdim.*

*Adəm: İnanıram, həm də ümid edirəm ki, bizim dualarımızı böyük yaradan da sizin kimi eşidəcək!*

*Qabil: Amin!*

*Adəm: Oğlum, Qabil, sən sükut edirsən?!*

*Qabil: Bu daha yaxşıdır.*

*Adəm: Nə demək istəyirsən, aydın danış.*

*Qabil: Mən nə üçün dua etməliyəm ki?"* [23, s.180].

Göründüyü kimi, bu söhbətləşmə ritm və intonasiya rəngarəngliyində müəllif qayəsini çatdırma məramına köklənməklə həm də psixoloji situasiyaya, hadisələrin daha da gərginləşmə tonuna yüklənir. Ümumiyyətlə, elmi-nəzəri fikrin görkəmli nümayəndələri çox doğru olaraq vurğulayırlar ki, "ritm, vəzn və melodiya təbiətdə və insan əməyində mövcuddur və müvafiq olaraq öz ifadəsini dildə tapmışdır". Bədii düşüncənin bütün forma və şəkilləri ritm, vəzn və melodiya səviyyəsində dil sərhədləri daxilində reallaşmaqla imkanlılığını ortaya qoyur. C.Q.Bayronun "Qabil" pyesinin tərcüməsində də emosional-ekspressiv çalarların təsirlilik funksiyasını saxlamaq və təqdim etmək məqsədilə rəngarəng ifadə vasitələrindən yararlanılmışdır. Xarakter və situasiyaların mürəkkəbliyi zəminində yuxarıdakı dialoq kollizial səciyyəsi ilə hadisələrin dinamik mənzərəsində nələrin olmasını işarələyir. Sual və nida cümlələrinin xüsusi meyarlarla mətn mühitində sərgilədiyi mənzərə sənətkarın bir istiqamətdə bədii düşüncə genişliyini diqqət önünə gətirir. Hadisələrin, müəllif qayəsinə qiymət verməyin estetik meyarları sırasında sual və nida cümlələri tipik şəraitdə tipik xarakter sərgiləmək üçün əsaslı vasitəyə çevrilir. Ata (Adəm) və oğul (Qabil) arasında olan dialoq sual və həyəcan (nida) dolu mühakimələrlə tündləşən vəziyyətin dinamik mənzərəsini diqqət önünə gətirir. M.H.Təhmasib də tərcümədə

qayəni çatdırmaq üçün Azərbaycan dilinin zənginliklərindən, dil və üslub xüsusiyyətlərindən yüksək səviyyədə bəhrələnir. *"Gerçəkliyə həssaslıq, həyatın istək və ehtiyaclarına uyğun inikas üsulu bədii mühitdə sual və nidaların işlənmə tezliyini zəruriləşdirir. Buna görə də bədii örnəkdə sual və nida çalarlarının üstünlüyü təbiidir, üslub üçün əlamətdar sayılan keyfiyyətlərdəndir"* [55, s.278-279]. Bədii yaradıcılıq vasitələrini mənimsəmək mədəniyyəti canlı ünsiyyət ünsürlərini, xalq danışıq dilinə dayanan intonasiya dolğunluğunu özündə ehtiva etmək bacarığına bağlanır. Sual və nida cümlələrinin əsərin axarı boyu yaratdığı harmoniya tərcüməçi imkanlarını diqqət önünə gətirməklə, həm də orijinalda olanlarla tipoloji müqayisəyə şərait yaradır.

"Qabil" pyesi bütün məzmunu, nitq üsullarının fakturası və obrazların timsalında yaratdığı təsəvvürlə bədii düşüncənin kamilliyinin mümkünlüyü qənaətini diqqət önünə gətirir. M.H.Təhmasibin bu əsəri nəzm formasından fərqli, dramatik kontekstdə tərcümə etməsi onun dil zənginliyi və düşüncə müxtəlifliyinə dayanan obrazlar kolliziyasında başqa bir ovqatı ortaya qoyur. Xalq danışıq dilinin sadə və aydınlığından yararlanmaqla bütün hadisə və faktları eyni axarda sıralamaq yolunu tutan tərcüməçi şivə və ləhcə elementlərindən ədəbi dil fakturasına qədər nə varsa hamısından yerinə və məqamına görə yararlanır. Başlanğıc və keçid formulları fövqəlzamanlıq və fövqəlməkanlıq səviyyəsində nitq etiketlərinin uğurlu işləkliyində bütövlük qazanır. Beləliklə, bədiiliyin cazibəli forması (pyes) timsalında janrın özünün sabitləşmiş və möhkəm ənənələri və ölçüləri ortaya çıxır. Adəmin "sənin bir minnətdar olacağın, təşəkkür edəcəyin bir şey yoxmu" sualına, Qabilin "yox" cavabı dünya nizamının mürəkkəbliyində görünə biləcək bir qatı diqqət önünə gətirir. Bu dialoq bütünlükdə bəşər düşüncəsinin mahiyyətində dayanan ikiliklərin, xeyir və şər timsalında gedən qarşıdurmaların başlanğıc nöqtəsidir. Bütün dini kitablar (məsələn, "Avesta"da sual olaraq qoyulur ki, "necə qurulacaq ən yaxşı həyat"), mif, əfsanə, rəvayət, nağıl, dastan və s. örnəkləri, inam və etiqadlar öz mahiyyətində bunun həllini bir problem olaraq qoymuşdur.

Adəm, Həvva, Habil, Ada, Sella ilə Qabilin arasında düşüncə fərqliliyi həyat dualizminin ilkinlik göstəricisini başlanğıca, dünya nizamının ilkinliyinə aparıb çıxarır. "Sənin bir minnətdar olacağın şey yoxmu" sualın Qabilin "ölmək üçünmü"

cavabı və Həvvanın "fəlakət" deməsi həyəcanı bədii dilin əsrarəngiz boyaları ilə sual və nidalarla mahiyyəti ortaya qoymağa köklənmişdir. Adəmin bu gərginlik dolu epizodik (epizodik olduğundan qat-qat çox dərin mətləblərə işıq salacaq və bütün dünya nizamını ortaya qoyacaq təfsilat) situasiyadan sonra "dua bitdi" və hər kəs öz işi ilə məşğul olsun" deməsi bəşəri məzmunu ilə həm də fəlsəfi mahiyyəti ortaya qoyur. İblislə Qabilin dialoqu tərcümə nümunəsi olaraq yüksək tonallığı, bədii-emosional xarakteri canlandırma xüsusiyyəti ilə dilin ecazkarlıqları ilə intonasiya, üslub, emosionallıq baxımından bütöv bir mənzərəni sərgiləyir.

*Qabil: Olduğum kimimi? Yalnız bu qədərmi?*

*İblis: Bəlkə sən də bizim kimi olacaqsan.*

*Qabil: Bəs siz?*

*İblis: Biz əbədiyik*

*Qabil: Bəxtiyarmısınız?*

*İblis: Biz qüdrətliyik.*

*Qabil: Mən soruşuram, siz bəxtiyarsınız?*

*İblis: Biz yox, bəs sən?*

*Qabil: Görürsən!"* [23, s.182-183].

Dünya xalqları arasında elə mif, əfsanə, rəvayət örnəkləri var ki, bu, bütünlükdə dünya xalqlarının yaddaş hadisəsidir. Qabil və Habil əhvalatı da bu sıradadır. Xalqın zəngin bədii düşüncəsindən dini kitablara qədər böyük bir sferanı əhatələyən bu tip əhvalatlar səyyar mövzu olaraq bəşər övladı ilə birgə yaşarlıq qazanmışdır. C.Q.Bayronun bu hekayəti mövzu olaraq seçməsi və onu yazılı ədəbiyyat örnəyi olaraq bir daha ədəbi-mədəni mühitə təqdimi dövrün ictimai-siyasi mühitində baş verənlər baxımından məqsədli şəkildə edilmişdir. İblislik və Qabillik bir müstəvidə olmaqla dünya nizamının pozulması məramına, şərin göyərməsi təsəvvürünə köklənir. Belə bir mövzunun C.Q.Bayron tərəfindən işlənməsi bütünlükdə bəşər övladının olanlardan nəticə çıxarmaq duyğusuna hesablanmışdır. Əsərin Azərbaycan dilinə tərcüməsi də bu kontekstdə ciddi bir mərama bağlanır və dahi sənətkarın yaradıcı özünəməxsusluğunda olanları Azərbaycan ədəbi-mədəni mühitə çatdırmaq istəyindən qaynaqlanır. Verilən nümunədəki Qabil və İblis arasında olan söhbət xalq danışıq dilinin ifadəlilik, üslub

aydınlığına köklənməklə, sual və cavab timsalında psixoloji situasiyanı bir bütöv olaraq sərgiləyə bilmək gücü ilə görünür. Bütün bunlar isə xəlqiliyə bağlanır və bütün dil komponentləri xəlqiliyin müəyyənləşdirdiyi prinsip və qanunauyğunluq əsasında sıralanır. Ümumiyyətlə, *"xəlqilik böyük sənətin ən böyük meyarıdır. Biz nəzəriyyədən, hər nə qədər intellektuallıqdan, realizmdən, psixologizmdən , bədii forma əlvanlığı və sairədən danışsaq da, yenə bu nəticəyə gəlib çıxırıq ki, şeirin ürəyi xalqın ürəyi şeirin fəlsəfəsi xalqın həyat fəlsəfəsi, şeirin əxlaqı xalqın gözəl əxlaqi keyfiyyətləri, şeirindili xalqın dili olmalıdır"* [36, s.414]. Dünya ədəbiyyatının bütün klassikləri məhz bu pruinsiplər əsasında öz fikir və düşüncələrini yüksək ustalıqla nizamlamaqla əbədiyaşarlıq qazanmışlar. C.Q.Bayron da bu sırada olub əvəzsiz istedadı, zəngin təfəkkür intelleksiyası, ana dilinin imkanlarından yüksək sənətkarlıqla istifadə edə bilməsi sayəsində bu yüksəkliyə ucalmışdır.

"Qabil" pyesinin tərcüməsində özünü göstərən poetik fiqurlar, frazemlər, onomastik vahidlərin mətn boyu sərgilədiyi mənzərə və s. əsərin mövzusundan tutmuş struktur səviyyəsinə, dil komponentılərinə qədər nə varsa hamısı bədii mətnin bütövlüyünə hesablanmışdır. Səhnə əsərlərinin hadisə axarında sərgilədiyi məzmun janr səviyyəsində janrın təbiətindən gələn reallıq mündəricəsini də diqqət önünə gətirir. Hadisələr arası bağlantılar, situasiyaların mürəkkəbliyi və fərqli-fərqli axarlara istiqamətlənməsi obrazlılıq cizgilərinin tündləşməsi və yaxud da sakit axarı tonunda səs, söz, cümlənin intonasiya axarında özünü göstərir. Suallar və hadisələrin gərginləşmə məcrasında özünü göstərən həyəcanlar dil komponentləri ilə dramatik üslubun zərurətə çevirdiyi dil və ifadə tərzlərini ortaya çıxarır. C.Q.Bayron bunları orijinal səviyyəsində yüksək ustalıqla reallaşdırırsa, M.H.Təhmasib tərcümə səviyyəsində bunun uğurluluq meyarını ortaya qoyur. Sual və nida cümlələrinin fəallığı obrazların hissi-psixoloji məqamlarını ön plana çıxarır və bu da hadisələrin ümumi axarında dram dilinin üslubi məziyyətləri sayəsində reallaşır.

M.H.Təhmasibin zəngin fəaliyyəti, xalq yaradıcılığının dil fakturasında özünü göstərən deyim elementlərinə kifayət qədər bələdliyi, mif, əfsanə, rəvayət, dastan örnəkləri üzərində apardığı sistemli təhlillər "Qabil" pyesinin ayrı-ayrı pərdələrində bir yaradıcılıq prinsipi kimi özünü göstərir. Ümumiyyətlə, mövzu baxımından ilkin

düşüncələrə bağlanan Qabil və Habil məsələsi və bu iki qardaşın şəxsində olan əhvalat insan oğlunun nələri yaşamasını və hansı çətinliklərdən keçdiyini diqqət önünə gətirir. C.Q.Bayronun "Qabil" adda möhtəşəm bir əsəri yazması və M.H.Təhmasibin onu Azərbaycan dilinə tərcüməsi məqsədyönlü məsələ kimi müxtəlif istiqamətli təhlilləri zəruri edir. Tərcümə baxımından Azərbaycan dilinin üslubi çalarlarını əks etdirmə vəziyyəti bir istiqamətdə C.Q.Bayron yaradıcılığını Azərbaycan ədəbi-mədəni mühitinə təqdim məqsədi daşıyırsa, digər müstəvidə tərcümə ənənəsinin dinamik mənzərəsini aşkarlayır.

Azərbaycan dilinin fonopoetik, morfopoetik mənzərəsi, sintaktik səviyyənin ortaya qoyduğu təsəvvür, səs assosiasiyaları, söz və cümlə səviyyəsində fikrin çatdırılmasının üsulları, personajların mühakimələri, müraciətlər və s. hamısı tərcümə prosesinin uğurluluğu timsalında ciddi təsəvvür formalaşdırır. İblisin və Qabilin monoloqu və bu monoloqun əhatələdiyi məzmun təqdim üsulları ilə orijinalın və tərcümənin dil imkanlarını diqqət önünə gətirir. Məsələn, İblislə Qabilin söhbətindən Qabilin dediklərinə diqqət yetirək: *"Sən, bir qədər aydın olmasa da, hər halda mənim başımda çoxdan dolaşan fikirləri deyirsən. Mən heç vaxt gördüklərimlə mənə deyiləınləri barışdıra bilməyirdim. Atamla anam mənə hər zaman ilan, ağac, meyvə haqqında danışırlar. O qapılar və odlu qılıncları ilə bizi cənnətdən qovan mələklər hər zaman mənim gözlərim önündə durur. Mən ağır zəhmət və fikirlər içində boğuluram; mən öz düşüncələrimlə bir Allah qüdrətinə malik olduğum halda həyatda yalnız bir heç olduğumu hiss edirəm. Lakin mən susurdum, mən elə bilirdim ki, yalnız mən əzilir, mən sürüklənirəm. Atam artıq bütün-bütünə tabe olmuşdur; biliyə cəzb edən əvvəlki qığılcımlar anamda da söndü, qardaşım qoyun otarır və yerlərə öz nemətini yalnız ağır zəhmətlər sayəsində bizə verməsini əmr edənə gündə bir quzu qurban kəsir, bacım ona dua oxuyur, hətta Ada, könlümə ən yaxın olan bu adam belə, məni əzən qayğıları düşünmək istəməyir, mən kimsədən rəğbət görmədim, kimsə məni anlamadı"* [23, s.184]. Səhnə əsərlərinin özünəməxsus dil və üslub xüsusiyyətləri, rəngarəng hadisə kolliziyaları, obrazların mahiyyətini təqdim üsulları tərcümədə xüsusi həssaslıqla nəzərə alınmışdır. Burada dialoqlardakı konkretlik, söz və cümlələrdəki sərrastlıq və mahiyyətə yönəliklik dil fakturasında bir başqa mənzərəni diqqət önünə gətirir. Sual

və nida, eləcə də nəqli cümlələrin səhnə dili sintaksisindəki üstünlük onların janr səviyyəsində özünü göstərəcək potensiyaya hesablanır. Funksionallıq baxımından özünü göstərən əhatəlilik, intonasiya və əhvali-ruhiyyə anlamında çöxcəhətlilik və s. cümlənin sual və nida tipləri üçün tamamilə təbii olan məsələdir. Bunlar isə dramatik mühitdə sintaktik səviyyənin mühüm faktoru olaraq obrazı canlandırma üsulu kimi mahiyyət daşımaqla həm də poetik mükəmməlliyi şərtləndirir. Qabilin monoloqu onun daxili mahiyyətini, Adəm, Həvva, Habil, Ada timsalında düşüncə fərqliliklərini, baxış mürəkkəbliyini təqdim etmək baxımından mühümdür. Situasiyaların ciddiliyi, ciddi mövqenin sərgilənməsi, üsyankarlıq obrazın (Qabilin) mahiyyətini açmaq üçün lazımı qədər material verir və əsərin adlanması ilə hadisələrin ümumi axarında olanlar biri digərini tamamlayır. M.H.Təhmasib də tərcümənin ümumi prinsip və qanunauyğunluqlarına əməl etməklə "Qabil"i Azərbaycan ədəbi-mədəni mühitinə təqdim etmişdir. Qrammatik əvəzlənmələr və qrammatik çevrilmələr kontekstində tərcüməçi mahiyyəti saxlamaqla müəyyən gəzişmələr timsalında əlavələr və qısaltmalar da aparmışdır. Xitablar, həmcins üzvlər, vokativ sözlər və s. işləklik mühiti baxımından funksional səciyyəsi ilə mahiyyəti ifadəyə köklənmişdir. Məsələn, İblislə Qabilin dialoqu həyat və ölüm timsalında psixoloji gərginliyi ifadəyə köklənməklə situasiyaların mürəkkəbliyində ümumi axarı sintaqmatik və paradiqmatik düzüm səviyyəsində faktlaşdırır.

*"İblis: Bəlkə də...Hər halda sizin hamınızdan artıq yaşayacaqlar.*

*Qabil: Buna mən çox şadam. Lakin ölüm! O məni titrədir, mən anlayıram ki, qorxuncdur, lakin nədir, nə? O biz günahsızlara və günahkarlara bir bəla olaraq elan edilmişdir; lakin o nə cür bəladır.*

*İblis: Yenidən torpaq olmaq bəlasıdır.*

*Qabil: Hərəkətsiz torpaq olmaq?! Məncə bu o qədər də qorxunc bəla deyildir. Mən daha pisindən qorxuram.*

*İblis: Nə qədər mənfur bir arzu... Hətta Adəmin arzularından da mənfur. O, heç olmasa, biliyə doğru can atırdı.*

*Qabil: Lakin o, həyata doğru can atmayırdı, əgər elə olsaydı həyat ağacının meyvələrindən yeyərdi.*

*İblis: Lakin cənnətdən qovuldu”* [23, s.186]. Arxitekstuallıq, intertekstuallıq və paratekstuallıq səviyyəsində orijinalla tərcümə variantı arasındakı müqayisəli yanaşma tərcümə variantında mahiyyəti qorumaqla, əlavələrin aparılmasını da diqqət önünə gətirir. Janrın bir forma olaraq sərgilədiyi məzmun və tərcüməçinin mətnlə rəftarı, oxucuya tərcümə ilə çatdırmaq istədikləri bir istiqamətdə M.H.Təhmasibin yaradıcı təfəkkür intelleksiyasına bağlanmışdır. Bütün bunlar C.Q.Bayronun “Qabil” əsərinin Azərbaycan dilinə tərcüməsində sintakmatik və paradiqmatik səviyyənin gerçəklik mənzərəsini aydınlaşdırır.

### 3.4. Corc Qordon Bayronun poeziyasının Azərbaycan dilinə tərcüməsində dil xüsusiyyətləri

İngilis ədəbi-mədəni mühitinin yetişdirdiyi qüdrətli sənətkarlar sırasında əvəzsiz simalardan sayılan C.Q.Bayronun yaradıcılığının Azərbaycan dilinə tərcüməsində mühüm istiqamətlərdən birisi onun lirikası ilə bağlı tərcümə problemlərinin öyrənilməsidir. Azərbaycan ədəbi-mədəni mühitində kifayət qədər tanınmış simaların (R.Rza, B.Vahabzadə, A.Aslanov, N.Gəncəli, İ.Rəhimov, Ə.Frəzəli, Ə.Rza, R.Yusifoğlu və s.) tərcüməsində təqdim olunmuş rəngarəng poetik örnəklər bir istiqamətdə C.Q.Bayronu geniş oxucu kütləsinə çatdırmaq məqsədi daşıyırsa, digər baxımdan zəngin tərcümə ənənələrini aydınlaşdırmaq kontekstində gərəkli material verir. Leksik, leksik-qrammatik və qrammatik transrofmasiya çeşidləri tərcüməçi səriştəsi ilə tərcümə ənənəsinin müvaziliyini və uğurluluğun təmin olunmasını şərtləndirir. Orijinal və tərcümə dilindəki qrammatik modellərin sintaktik uyğunluğunun qorunuşu həm də tərcümə məsuliyyətinin və ona yaradıcı yanaşma bacarığının, nə varsa olanları çeşni olaraq düzməyin məsuliyyətini diqqət önünə gətirir. Eksplikasiya və əvəzlənmələrin yüksək səviyyədə həyata keçirilməsi orijinal və tərcümə variantı arasında mütənasibliyi müəyyənləşdirir. Transkripsiya, transliterasiya, leksik-semantik əvəzləmələr, əlavələr və atımlar səviyyəsində gedən proses özlüyündə tərcümənin fundamentallığını və həm də mürrəkkəbliyini diqqət önünə gətirir.

Tərcümə nəzəriyyəsinin mövcud elmi-nəzəri prinsipləri və əldə etdiyi zəngin təcrübənin ümumiləşdirilməsi bu müstəvidə lazımı qədər mükəmməl bazanın olması haqqında düşünməyə əsas verir. Ekvivalentlik, janr-üslub, praqmatika və s. normaları, eləcə də adekvatlıq, variantlıq və s kateqoriyaların ortaya qoyduğu təsəvvür bir mədəniyyət kodu olaraq tərcümənin fundamentallığını faktlaşdırır. C.Q.Bayron yaradıcılığının tərcüməsinin linqvistik xüsusiyyətləri timsalında aparılan təhlillər çoxşaxəliliyi və çoxqatlılığı ilə səciyyəvilik qazanır. Orijinal və tərcümə variantları səviyyəsində tipoloji yanaşmalar səs assosiasiyasından sintaktik səviyyəyə qədər bir rəngatəngliyi özündə faktlaşdırır. İngilis və rus dilindən tərcümələrin üzərində aparılan müşahidələr özlüyündə mahiyyətin aydınlaşması kontekstində bir neçə müstəvidə ümumiləşdirmələrin aparılmasını gərəkli edir:

a) orijinaldan (ingilis dilindən) tərcümələrin aparılması timsalında tərcümə dilinin linqvistik xüsusiyyətlərinin təhlili;

b) rus dilindən tərcümə əsasında aparılmış tərcümələrdə dil və üslub xüsusiyyətləri;

c) ingilis, rus və Azərbaycan dilində olan örnəklərin təhlili və tərcümə səviyyəsi və s.

Məlum olduğu kimi, "*poeziya hər bir dil materialının, dil strukturunun onun məzmunu ilə harmoniyasını təmin edən çox böyük estetik hadisədir. Sözü ülvi bəşəri sərvətə çevirmək həqiqi şeirə verilən ən başlıca səlahiyyətdir. Obrazlı təfəkkürün, hiss-həyəcanların daşıyıcısı olan, əks-sədasına çevrilən bədii söz şeir dilində daha böyük, daha ciddi vəzifələr yerinə yetirir, şeir dili adi nitq axını, bədii dil hadisələrinin məcmusu kimi düşünülməməlidir. O, elə estetik kodlar sistemidir ki, təbii danışıq dilinin imkanlarından qidalanır, onun tükənməz enerjisi üzərində köklənir*" [136, s.298]. Tərcümə prosesində isə bunun məsuliyyəti və kodların bir sistem olaraq bədii mühit səviyyəsində yerləşdirilməsi məsuliyyət və həm də olduqca böyük bacarıq təşkil edir. C.Q. Bayronun "Şərq poemaları", "Qabil" əsərləri ətrafında apardığımız təhlillər dilin bədii-estetik funksionallığı əsasında yüksək sənətkarlıq intelleksiyasını diqqət önünə gətirdiyini özündə ehtiva etməsi ilə səciyyəvilik qazanır. Mətn fenomenliyi, sözn məna yaddaşı, janrın məzmun yaratma imkanları müstəvisində gedən proses

sintaqmatik düzümün mahiyyətini açmaq məramını aydınlaşdırır. “Bayronizmin”, “sevimli şair”, “Bayron istedadı” məsələsinin nələrlə səciyyələndiyini tərcümə timsalında bir bütöv olaraq çatdırmaq ruhuna köklənir. “Abidos gəlini”, “Mazera”, “Gavur”, “Şilyan məhbusu”, “Korinfin mühasirəsi” və s. iri həcmli əsərlərində özünü göstərən poetexnoloji sistemin mükəmməlliyi ilə lirik şeirlərinin arasındakı düşüncə və ruh bağlantıları və janr formulası tərcümə və orijinal baxımından müqayisələrin aparılmasını zəruriləşdirir.

C.Q.Bayron yaradıcılığının tərcüməsi işi keçən əsrin ilk onilliklərindən başlanğıcını qoymuşdur. R.Rza, A.Aslanov, İ.Rəhimov, N.Gəncəli, Ə.Rza, R.Yusifoğlu, Ə.Fərzəli, K.Nəzirov, Ş.Xəlilli və başqaları tərəfindən müxtəlif zaman kəsiklərində tərcümə olunmuşdur. Bunların bir qismi orijinaldan, digər bir qismi isə rus ədəbiyyatının görkəmli nümayəndələri (M.Lermontov, P.Vyazemski, İ.Kozlov, F.Tutçev, V.Roqova və başqaları) tərəfindən tərcümə edilmişdir. Bunların tərcümə ənənəsi baxımından hansı səviyyədə ifadəsini tapması diqqətçəkici bir tərəf kimi maraq doğurur. Məsələn, C.Q.Bayronun “Mən səni gülən gördüm”, “Ürəyim darıxır”, “Ömrü başa vurdun”, “E – yə”, “Ağlayan qız”, “Alboma” və s. şeirləri müxtəlif ədiblər tərəfindən tərcümə olunmuşdur. C.Q.Bayron yaradıcılığının tədqiqatçılarından olan Ə.Rza tərəfindən edilən “Mən səni gülən gördüm” şeiri dil və üslub xüsusiyyətləri ilə tipikdir. Həmin şeirin rus dilinə tərcüməsini S.Marşak etmişdir. O, şeiri “Ты плачешь” (“Sən ağlayırsan”) kimi tərcümə etmişdir. İngilis dilində isə misra “I saw thee weep” (“Mən səni ağlar gördüm”) kimi səslənir. Göründüyü kimi, Ə.Rza eyni misranı “mən səni gülən gördüm” formasında təqdim etməsilə tərcümədə qeyri-dəqiqlik yaradır.

***Orijinalda:***

I saw thee weep – the big bright tear
  Came o’er that eye of blue;
And then methought it did appear
  A violet dropping dew: [101, s.184].

***Tərcümədə:***

Mən səni ağlar gördüm,
Göz yaşın gilə-gilə

Göy üzündən ələndi,

Elə bil bənövşənin

Şəbnəmi səpələndi [39].

R.Yusifoğlu rus dilindən həmin poetik örnəyi dilimizə tərcümə etmişdir. Tərcümə baxımından bu nümunə dəqiqliyi və poetikliyi ehtiva etməsi ilə diqqətçəkicidir. Dolğun təsəvvür yaratmaq üçün rus dilində tərcümə varinatına baxaq.

Ты плачешь – светятся слезой

Ресницы синих глаз.

Фиалка, полная росой,

Роняет свой алмаз.

Ты улыбнулась – перед тобой

Сапфира блеск погас:

Уго затмил огонь живой –

Сиянье синих глаз [101, s.185].

***Tərcümədə:***

Ağladın, parladı kirpiklərində

Mavi gözlərindən süzülən yaşlar.

Bənövşə üstündə olan şəbnəmi

Sənin almazların səpməyə başlar.

Gözlərin gülürdü bir azca əvvəl,

O sönən şəfəqlər de, nəyə bənzər?

Elə bil kölgədə qoydu əlbəhəl

Onları, nur saçan işıqlı gözlər [95, s.290].

R.Yusifoğlu variantı şeirin ruhunu, məzmun xətlərini əhatələmək, mahiyyəti təqdim etmək baxımından daha uğurludur. Məlum olduğu kimi, şeirdə hər bir dil vahidinin özünəməxsus yeri və məqamı vardır. Onun tərcümədə nəzərə alınması, tərcümə dilinin imkanları səviyyəsində poetizmin qorunması sırf bacarığa və səriştəyə bağlanır. Çünki poetik dilin bütün qanun və kateqoriyaları sözlə reallaşır və spesifiklik meyillərinin, səciyyəvilik əlamətlərinin aşkarlanmasında müstəsna rola malikdir.

"Bir uşaq olaydım, qayğısız, qəmsiz" ("I would I were a careless child") şeirinin tərcüməsi də Ə.Rza tərəfindən olunmuşdur. İctimai məzmunu ilə səciyyəvilik qazanan bu şeir zəmanədən, dövründən şikayət baxımından tərcümə variantında dolğunluğunu itirməmiş, sənətkar ruhunu ifadəyə köklənmişdir.

***Orijinalda:***

I would I were a careless child,
   Still dwelling in my Highland cave,
Or roaming through the dusky wild,
   Or bounding o'er the dark blue wave;
The cumbrous pomp of Saxon pride –
   Accords not with the freeborn soul,
Which loves the mountan's craggy side,
   And seeks the rocks where billows roll [101, s.86I].

***Tərcümədə:***

Bir uşaq olaydım qayğısız, qəmsiz;
Hayləndə kahada yaşayaydım kaş.
Yenə də sirdaşım olaydı dəniz,
Gəzəydim çöllərdə mən yavaş-yavaş.
Lovğa sakson hara, dağ oğlu hara!
Biri təkəbbürlü, biri azad, şən.
Dalğayla döyüşən sərt qayalara
Vurular dağ oğlu doğulan gündən [40].

Söz bədii yaradıcılığın əsas vasitəsi olaraq öz semantik mahiyyətində rəngarəng çalarları, cazibəli əsrarəngizlikləri daşımaqla mətn daxilində əlavə imkanlılıqla bütövləşir. Ümumiyyətlə, sözün bədiiliyi olduqca geniş anlayış olub poetikliyi, mahiyyəti ortaya qoyan vasitə olmaqla həm də estetik fəallığı gücləndirir. Şeirin məğzi və təbiətində olanlar bununla açılır, estetik proseslərin axarı bədii axarda yerinə və məqamına görə müəyyənləşir. Bütün həyat hadisələri sözün yüksək intelleksiyası sayəsində bədii sənət hadisəsi səviyyəsinə yüksəlir. C.Q. Bayron poeziyası da məhz sözün müəyyənləşdirdiyi bədiilik və estetik meyar funksiyasında bu ucalığa

qalxmışdır. Səs, söz, cümlə, forma sıralanmasında reallaşan bədii mətn istedad və dil zənginliklərindən yüksək ustalıqla istifadə əsasında yaşarlıq qazanır. Bədii söz bədii düşüncənin qan daşıyan damarlarıdır. Orijinal, Azərbaycan dilinə tərcümə və rus dilinə tərcümə variantlarında verdiyimiz poetik örnək dəqiqliyin qorunuşu, sənətkar düşüncələrini, duyğu və hisslərini əhatələmək anlamında uğurluluğu işarələyir.

Bədii tərcümə məsuliyyəti mətnin ruhunun dərkini və onun ifadə formasının tapılmasını bir əsas olaraq diqqət önünə gətirir. Yaradıcı ruhu və tərcüməçi səriştəsi bunların ortaqlığında nizamlanırsa onda tərcümənin özünün təbii olacaq axarı da ortaya çıxır. Bütün bunların sayəsində yuxarıdakı nümunənin bədii-estetik formulası, real həyatın bədii həyatda uğurlu obrazlaşdırılması alınmışdır. Şeiri rus dilinə orijinaldan S.Bryusov çevirmişdir.

***Şeirin rus dilinə tərcüməsi:***

Хочу я быть ребенком вольным
  И снова жить в родных горах,
Скитаться по лесам раздольным,
  Качаться на морских волнах.
Не сжиться мне душой свободной
  С саксонской пышной суетой!
Милее мне над зыбью водной
  Утес, в который бьет прибой! [101, s.87].

C.Q.Bayron poeziyasının semantik mütəhərrikliyi onun adi halda maraqlı üslubi çalarlar qazanması üçün əsas olmuşdur. Səs, söz və misra axarının mətnə gətirdiyi kontekst əsərin uğurluluğunun təminatçısı rolunu oynayır. Çünki bütün parlaq emosional vəsflər öz başlanğıcını sözdən götürür. Yaradıcı istedadını bütün parametrlərdə qorumaq tərcüməçi istedadına və bacarığına, ruh yaxınlığına bağlanır. C.Q.Bayron poeziyasının Azərbaycan dilinə tərcüməsinin dil və üslub xüsusiyyətləri məhz bu meyar sərhədləri daxilində müəyyənləşir.

Görkəmli ədibin şeirlərinin tərcüməsində Əhəd Muradxanlının da gərəkli işləri olmuşdur. O, ədibin “Ömrü başa vurdun”, “Ürəyim darıxır”, “E – yə”, “Alboma”, “Ağlayan qız” və s. şeirlərini Azərbaycan dilinə orijinaldan tərcümə etmişdir. Məlum

olduğu kimi, poetik forma kamilliyi sözün mətn daxilində sərgilədiyi kamilliyə, emosional-hissi çalarların əhatələdiyi məzmuna bağlanır. Burada obrazlı və təfərrüatlı deyim orijinallığının tapılması mühüm şərtdir. Məsələn, "Ömrü başa vurdun" şeirinin tərcüməsində sözün emosional-hissi potensiyası və estetik qavramı şüur hadisəsi olaraq mahiyyəti təqdimə köklənir. Bütün bunların uğurluluğunda mətn bədii tərcümənin tələblərinə cavab verməklə qayəni dəqiqiliklə ortaya qoya bilmək gücündə görünür.

***Orijinalda:***

Thy days are done, thy fame begun;
Thy country's strains record
The triumphs of her chosen Son,
The slaughters of his sword!
The deeds he did, the filds he won,
The freedom he restored! [101, s.184].

***Tərcümədə:***

Ömrü başa vurdun, sən ey qəhrəman!
Şöhrətin çələngi hörülən zaman.
Vətənin müqəddəs nəğmələrində
Yaşar o yenilməz, məğrur surətin.
Ellər məhəbbətlə xatırlar səni,
Ümman eşqin vardı, dərya
nifrətin [39].

Şeirdə sözə həsas münasibət, onunla yüksək ustalıqla (bəlkə də ehtiyatla) davranmaq məsuliyyəti bir tərəf kimi tərcümədə də eyni səviyyədə yanaşmanı bir meyar olaraq ortaya qoyur. Çünki poeziya bədii düşüncənin elə qanadlı və ecazkar sahəsidir ki, onunla yalnız öz dilində danışmaq gərəyi yaranır. Yuxarıdakı mətndə (Ə.Muradxanlının tərcüməsi) fikrin misra yükü bir bütöv olaraq tərcümə timsalında əsərin qayəsini ortaya qoymağa hesablanır. Məsələn, "thy fame begun" – "sənin şöhrətin başladı" cümləsi işarənin şərti məzmun forması olaraq məhdudlaşmır, həm də rəngarəng üslubi çalarlar sərgiləmək kimi funksiyaya yüklənir. "Şöhrətin çələngi

hörülən zaman” şəklində tərcümə bunun tipik nümunəsi olmaqla bədii mühitə əlavə çalar qatır.

***Şeirin rus dilinə tərcüməsi:***

Ты кончил жизни путь, герой!

Теперь твоя начнется слава,

И в песнях родины святой

Жить будет образ величавый,

Жить будет мужество твое,

Освободившее её [101, s.185].

Ə.Fərzəli “Ömrü başa vurdun” şeirini “Qəhrəmanın ölümünə” adı ilə tərcümə etmişdir. Poetik örnək rus dilindəki variantdan istifadə olunmaqla edilmiş və “Yüksəliş” qəzetində çap olunmuşdur. Şeiri rus dilinə isə A.Pleşeyev tərcümə etmişdir. Ə.Fərzəli tərcümədə tərcümə variantına sadiq qalmış və ona yaxın, həm də mahiyyəti özündə yüksək səviyyədə əks etdirə biləcək şəkildə ortaya qoya bilmişdir.

***Tərcümədə:***

Bitdi həyat yolun, ey mərd qəhrəman!

Fəqət dildə gəzir şənin, şöhrətin!

Yaşayacaq sənin ölməz surətin!

Yaşayacaq sənin o mərdliyin də -

Xilas olanların pak ürəyində!

Canlanacaq sənin o şücaətin! [46].

Göründüyü kimi, Ə.Fərzəlinin tərcüməsində dəqiqlik prinsipini qorumuş, tərcüməçi həm forma, həm də məzmun bitkinliyini saxlaya bilmişdir. Azərbaycan dilinin zənginliklərindən istifadə etməklə həyata keçirilən bu tərcümə nümunəsində sintaktik fiqurların (epitet, metafora, metanimiya, sinekdoxa, simvol, təşbeh, bədii sual, xitab, təkrir, anafora, epifora, kinayə, inversiya və s.), frazemlərin (sərbəst və sabit birləşmələrin), söz qruplarının (ümumişlək sözlər, onomastik vahidlər, şivə və dialektlər və s.) yerinə və məqamına görə işləkliyi tərcümənin uğurlu alınmasına şərait yaratmışdır. Bədii sözün estetik kateqoriya olaraq mətndə sərgilədiyi məzmun onun əlavə çalarlar qazanması üçün əsas olur.

C.Q.Bayronun poetik örnəkləri sırasında “Ürəyim darıxır” şeiri şairin dünyagörüşünü, düşüncələrini əks etdirmək baxımından tipikdir. Tərcüməçilər də onun lirikasından ayrı-ayrı örnəkləri Azərbaycan oxucusuna təqdim edəndə bu nümunəyə həmişə həssaslıq göstərmişlər. Ə.Muradxanlının tərcüməsində orijinaldan gələn elementlər, müəllif qayəsi əsas tutulmaqla Azərbaycan dilinin yüksək imkanlarından yararlanmaqla təqdimə üstünlük verilir. Şeirə, demək olar, heç bir əlavə olunmamış və poetikliyin saxlanması bir məqsəd olaraq qarşıya qoyulmuşdur. Sözə həssas münasibət tərcümənin bütün parametrlərdə uğurluluğu məsələsinə əsas olur. Bu isə bədii mətnin olumluluğu, yaşarlığı deməkdir. Poeziya dilində söz bütün vəziyyətlərdə özündən yeni çalarlar ötürə bilmək imkanları ilə səciyyələnir. Bu isə tərcüməçinin yaradıcı ruhundan, tərcümənin mahiyyətini dərk etmə bacarığından asılıdır. Ə.Məmmədxanlı “Ürəyim darıxır” poetik örnəyini Azərbaycan dilinə çevirərkən bu məqamlara xüsusi həssaslıq göstərir. Rus ədəbiyyatının görkəmli nümayəndəsi M.Y.Lermontov, eyni zamanda N.Qnediç, İ.Bunina və başqaları da tərcümə etmişlər. Poetik örnək Azərbaycan dilinə tərcümənin uğurluluğu baxımından tipikdir.

***Orijinalda:***

My soul is dark – Oh! quickly string
To harp I yet can brook to hear;
And yet thy gentle fingers fling
Its melting murmurs o’er mine ear.
If in this heart a hope be dear,
That sound shall charm it forth again: [101, s.182]

***Tərcümədə:***

Ürəyim darıxır. Tez ol, nəğməkar!
Bu da qızıl arfa, al bir hava çal.
O susqun telləri sızıldat, ağlat,
Həzin nəğmələrlə ürəyimi al.
Arzular, ümidlər puç olmayıbsa,
Oyansın qəlbimdə sən çalan zaman [39].

Məlum olduğu kimi, forma əlamətlərinin müəyyənləşdirdiyi bütövlükdə sözün funksional çəkisi müstəsnalığa bağlanır. Çünki sözün obrazlılıq mahiyyəti bədii mətndə ehtiva etdiyi məzmun çalarlarına bağlanır. Tərcüməçi bədii örnəyin məzmun və poetiklik qatlarını ancaq sözün hüdudları daxilində mətnə gətirir. Məsələn, yuxarıdakı nümunədə Ə.Muradxanlı lirik mənin sıxıntılarını, ağrı və iztirablarını orijinalın ruhuna müvafiq şəkildə təqdim etməklə mahiyyəti çatdıra bilmişdir. "Ürəyim darıxır" şeiri R.Yusifoğlu tərəfindən də tərcümə edilmişdir. Poetik örnək rus dilindən "Mənim qəlbim qaranlıqdır" adı ilə ədəbi-mədəni mühitə təqdim olunur. Burada da şeirin ruhu, yaradıcı hiss və düşüncələri tərcümə variantına uyğun olaraq aparılmışdır.

***Rafiq Yusifoğlunun tərcüməsi:***

Tutqundur mənim qəlbim,
Tez ol, tez ol, müğənni,
Götür qızıl arfanı.
Gəzsin onun üstündə
Titrək barmağın sənin,
Oyatsın simlərdəki
Mürgüləyən sədanı [95, s.290].

***Şeirin rus dilinə tərcümə variantı:***

Душа моя мрачна. Скорей, певец, скорей!
Вот арфа золотая:
Пускай персты твои, промчавшися по ней,
Пробудят в струнах звуки рая.
И если не навек надежды рок унес, -
Они в груди моей проснутся [101, s.183].

C.Q.Bayron lirikası şairin yaradıcı istedadını, bədii-estetik təfəkkür intelleksiyasının möhtəşəmliyini aydınlaşdırmaq üçün bir qaynaqdır. Ayrı-ayrı şeirlərinin tərcüməsinin formalaşdırdığı təsəvvür bunun göstəricisidir. Həmin tərcümələr həm də Azərbaycan dilinin söz çalarlarının poetexnoloji mühitdə kəsb etdiyi mənanın geneoloji sistemini müəyyənləşdirməyə şərait yaradır. Məsələn, "Ağlayan qız" ("Lines to a lady weeping") şeirini Ə.Muradxanlı, R.Yusifoğlu

“Ağlayan ledi haqqında sətirlər”, Ə.Fərzəli isə “Ağlayan lediyə həsr olunmuş misralar” adı altında tərcümə etmişdir. Ə.Muradxanlı şeiri orijinaldan, R.Yusifoğlu və Ə.Fərzəli isə rus dilindən dilimizə tərcümə etmişlər. Rus dilinə isə şeiri A.Arqo tərcümə etmişdir.

***Orijinalda:***

Weep – for thy tears are Virtue’s tears –
    Auspicious to these suffering isles;
And be each drop in future years
    Repaid thee by thy people’s smiles! [101, s.150]

***Ə.Muradxanlının tərcüməsində:***

Ağla, ağla, o kədərli
                məsumanə gözlərindən
Parıldayan şəfəqlərə
                bürünsün qoy ana vətən.
Göz yaşının qətrəsinə,
                nurlu günlər gələn zaman
Təbəssümlə cavab verər
                azad insan, xoşbəxt insan.

Göründüyü kimi, burada orijinalın ehtiva etdiyi məzmun, dil strukturunun ortaya qoyduğu poetik harmoniya tərcüməçi tərəfindən qorunmağa çalışılmaqla bədii mətnin bütövlüyü qorunmuşdur. Rus və Azərbaycan dilinə müxtəlif tərcüməçilər tərəfindən çevrilən bu poetik örnək bütün variantlarda bədii-estetik mahiyyəti özündə ehtiva etmək məramına köklənir.

***Şeirin rus dilinə tərcüməsi:***

Плачь! Добродетельной мольбе
Внимает страждущий народ –
За каждую слезу тебе
Он утешенье воздает! [101, s.151]

***Ə.Fərzəlinin tərcüməsində:***

Ağla ki, xeyirxah duanı bu gün,

Ayıq dayanmış xalq gəlib dinləyə.

O göz yaşlarının hər damlasıyçün

Sənə əvəz verə, təsəlli deyə.

***R.Yusifoğlunun tərcüməsində:***

Ağla, bu vicdanlı yalvarışlara

Axı möhtac olan yazıq bir el var.

Baxıb gözlərindən axan yaşlara

Sənin doğma xalqın təsəlli tapar [95, s.293].

C.Q.Bayron zəngin poetik irsinə məxsus nümunələrin ("Albom üçün", "Ayrılıq", "Afinalı qıza" "Tomas Mur", "Ad günündə", "Boşanma kağızının arxasında" və s.) Azərbaycan dilinə tərcüməsi orijinal və tərcümə səviyyəsində dil və üslub özünəməxsusluqlarını aydınlaşdırmaq üçün kifayət qədər material verir. Məsələn, "Albom üçün" ("Lines written in an album") şeiri Ə.Muradxanlı tərəfindən orijinaldan, R.Yusifoğlu tərəfindən isə rus dilindən Azərbaycan dilinə tərcümə olunmuşdur. Rus dilinə isə M.Lermontov, P.Vyazemski, İ.Kozlov, F.Tutçev, V.Roqova tərcümə edilmişdir. R.Yusifoğlu tərcümədə M.Lermontovun tərcüməsindən istifadə etmişdir.

***Orijinalda:***

As o'er the cold sepulchral stone

Some name arrests the passer – by;

Thus, when thou view'st this page alone,

May mine attract thy pensive eye! [101, s.114]

***Şeirin rus dilinə tərcüməsi:***

Как одинокая гробница

Вниманье путника зовет,

Так эта бледная страница

Пусть милый взор твой привлечет [101, s.115].

***R.Yusifoğlunun tərcüməsi:***

Oxşar qəbir səyyahın

Fikrini cəlb edən tək,

Bu saralmış səhifə

Cəlb eləsin sənin də,

Fikrini, gözəl mələk [95, s.292].

C.Q.Bayronun lirik şeirləri sırasında hissi-emosional xarakteri ilə seçilən "Ayrılıq" ("When we two parted") poetik örnəyini Kamran Nəzirov "Ayrılanda biz" adı altında orijinaldan, R.Yusifoğlu isə rus dilindən tərcümə etmişlər. Şeiri rus dilinə S.Marşak tərcümə etmişdir. K.Nəzirov şeirin tərcüməsində mətni olduğu kimi interpretasiya *(interpretasiya -hər hansı faktın, hadisə və ya ədəbi əsərin fərqli yozumu)* etməyə çalışmışdır. O, tərcümə prosesində mətnin ruhunu duymağa və oxucuya çatdırmağa üstünlük vermişdir. Bu isə tərcümədə dəqiqliyin və fikir yükünün qornmasında müəyyən çətinliklər yaradır.

***Orijinalda:***

When we two parted

In silence and tears,

Half broken-hearted

To sever for years,

Pale grew thy cheek and cold,

Colder thy kiss;

Truly that hour foretold

Sorrow to this [101, s.94-96].

***Tərcümədə:***

Lal sükut içində, göz yaşlarında –

Ayrılanda biz,

Ömrün həsrətini daşımaq üçün

İkiyə bölündü ürəklərimiz.

O solmuş, saralmış yanaqlarıntək

Sənin öpüşün də soyuq kimiydi,

Axı necə deyim mən əvvəlcədən

Bu acı həqiqət, qəm, kədəriydi [17].

***Şeirin rus dilinə tərcüməsi:***

Помнишь, печалясь,

Склонясь пред судьбой,
Мы расставались
Надолго с тобой.
В холоде уст твоих,
В сухости глаз
Я уж предчувствовал
Нынешний час [101, s.95].

Ümumiyyətlə, şeirdə hər bir dil vahidi müəllif qayəsini əks etdirmə imkanları ilə diqqət önünə gəlir. Burada tərcüməçinin mətnə sədaqəti və dil imkanlarında istifadə bacarığı əsasdı. "Ayrılıq" poetik örnəyinin R.Yusifoğlunun tərcüməsi üslubi çalarları, sərgilədiyi lirik mühit baxımından diqqətəlayiq təsir bağışlayır. Bütün bunlar tərcüməçinin mətnə yaradıcı yanaşması timsalında faktlaşmışdır.

***Tərcümədə:***

Yadındamı o günlər,
Qəlbimizə taleyin
Acı qəmləri doldu?
Səninlə görüşümüz
Sanki bir anlıq oldu [95, s.291-292].

C.Q.Bayronun lirik şeirlərinin ingilis dilinə tərcüməsində Ş.Xəlillinin də xüsusi xidmətləri vardır. "Afinalı qıza" ("Maid of Athens, ere we part"), "Tomas Mur" ("To Tomas Moore"), "Ad günündə" (21 yanvar 1821), "Boşanma kağızının arxasında. Aprel 1816"), "Endorsement to the Deed of Separation, in the April of 1816") və s. bunun nümunəsidir. Ədib tərcümə prosesində həm dilin sadəliyini, həm də poetizmi qorumağa daha çox üstünlük vermişdir. Məsələn, bir bənddən ibarət "Boşanma kağızının arxasında. Aprel 1816" ("Endorsement to the Deed of Separation, in the April of 1816") şeiri dil potensiyasını, yaradıcı üslubunu əhatələmək baxımından uğurlu tərcümədir.

***Orijinalda:***

A year ago you swore, fond she!
"To love, to honour," and so forth;

Such was the vow you pledged to me,
And here's exactly what 'tis worth [140, s.291].

***Tərcümədə:***

Bir il öncə and içirdin,
"Eşq, səadət" deyə-deyə.
Nə tez məni sən itirdin,
Sevgin döndü bir qəpiyə [60, s.15].

Şerdə hər bir dil vahidi funksional səciyyəsinə, ifadə imkanlarının yerinə və məqamına görə sıralanır. Tərcümədə isə tərcüməçi bacarığı və istedadı bu səviyyənin qorunuşunu bir meyar olaraq saxlamağı planlaşdırır və tərcüməçi bacarığına hesablanır. Burada məzmun və mənanın ifadəliliyi misra yükündə qayənin çatdırılması üçün bəzən imkansız görünür. Məsələn, "sevgin döndü bir qəpiyə" misrası bənzətmə formulunda həmin poetikliyi əks etdirmək gücündə görünmür. Xalq dilində "bir qəpiyə dəyməz" ifadəsi var və tərcüməçi də bu kontekstdə fikri ifadə etməyə çalışır, ancaq bu mətn axarında ümumi avazlanmaya kəklənmir, əksinə sünilik tonu yükləyit. "Afinalı qıza" ("Maid of Athens, ere we part") şeirinin tərcüməsində isə dəqiqlik, poetizm, bədii-estetik harmoniya qorunur.

***Orijinalda:***

By that lip I long a taste
By that zone – encircled waist;
By all the token – flowers that tell
What words can never speak so well;
By love's albernate joy and woe
Maid of Athens! I am gone:
Think of me, sweet! when alone.
Though I fly to Istambol,
Athens holds my heart and soul:
Can I cease to love thee? No!  [101, s.124]

***Tərcümədə:***

Bal kimidir dodağın,

Sinən – könül otağın.

Güllər kimi gizlicə,

Danışaq sözsüz gecə.

Eşqə dönsün səhərim:

Gülüm, səni sevirəm.

Afinalı gözəl qız,

Yada sal məni yalqız.

Gedirəm İstanbula,

Ürəyim dözmür buna.

Düşmüşəm mən sehirə:

Gülüm, səni sevirəm [60, s.13].

Məlum olduğu kimi, şeir dilində leksik mənalar müxtəlifliyində poetizmin sərgilədiyi mənzərə məzmun yaratma imkanları ilə diqqət önünə gəlir. Tərcüməçi istedadı bunları təqdim edə bilmə üsulları və onun orijinal mühitini yaratmaq bacarığı ilə faktlaşır. Məsələn, "Ad günündə" şeirinin tərcüməsində Ş.Xəlilli forma və məzmun baxımından bütün prinsipləri gözləməklə reallaşdırır.

***Orijinalda:***

Through life's dull road, so dim and dirty,

I have dragg'd to three-and-thirty.

What have these years left to me?

Nothing – except thirty-three [140, s.106].

***Tərcümədə:***

Əzablı yol keçə-keçə,

Axır çatdım otuz üçə.

Ömrüm keçdi gör bir necə,

Otuz üç il düşdü heçə [60, s.15].

C.Q.Bayronun lirikasının Azərbaycan dilinə tərcüməsinin dil və üslub xüsusiyyətləri baxımından aparılan təhlillər ayrı-ayrı tərcüməçilər timsalında geniş bir fakturanı müəyyənəlşdirir. Orijinaldan və rus dilindən olunan tərcümələr tərcüməçi imkanları və yaradıcı düşüncələrini əks etdirmək məramına köklənməklə mahiyyəti

ortaya qoyur. Azərbaycan dilinin zənginliklərində tərcümə ənənəsinin dinamik mənzərəsini sərgiləməklə nikbin əhvali-ruhiyyə formalaşdırır.

# N Ə T İ C Ə

Dünya ədəbiyyatının görkəmli simalaırndan olan C.Q.Bayronun yaradıcılığının Azərbaycan dilinə tərcüməsinin dil və üsub xüsusiyyətlərinin araşdırılması geniş kontekstdə, daha doğrusu, sintaqmatik, paradiqmatik və janr səviyyəsində elmi-nəzəri nəticələrin əldə olunması üçün əsas olmuşdur. Mədəniyyətlərarası bağlantılar kontekstində tərcümənin tarixi-mədəni diaxroniyası əvəzsiz möhtəşəmliklə səciyyələnir ki, bu da ədəbi-mədəni mənzərəni özündə əks etdirməsi istiqamətində xüsusi önəm daşıyır. Çünki tərcümə mədəniyyətlərarası körpüdür və bəşər sivilizasiyasının inkişaf dinamikasını özündə sərgiləyir.

C.Q.Bayron yaradıcılığının Azərbaycan dilinə tərcüməsi problemi tərcümə və tərcüməşünaslıq baxımından prosesin ümumi axarı haqqında təsəvvürlərin konseptual mənzərəsi ilə bağlı dolğun təsəvvür formalaşdırır. Tarixi çox-çox qədimlərə, cəmiyyət inkişafının ilkin çağlarına qədər gedib çıxan bağlantılar tərcüməni bir həyati zərurət olaraq ortaya çıxarmışdır. Sonrakı dönəmlərdə bu proses həməşə zənginləşmə istiqamətində getmiş və onun nəzəri-konseptual prinsib və qanunauyğunluqlarının yaranması üçün əsas olmuşdur. Beləliklə, tərcüməşünaslıq bir elm sahəsi olaraq bütün elmi-nəzəri prinsipləri ilə möhtəşəm baza formalaşdırmışdır.

Dil və üslub xüsusiyyətləri kontekstində aparılan təhlillər Azərbaycanda fundamental təsəvvürə bağlanan tərcümə ənənəsini diqqət önünə gətirir. Xalqın zəngin tarixi keçmişi, ictimai-siyasi proseslərin mürəkkəbliklərində etnosun qarşılaşdığı situasiyalar mədəni bağlantıların tipik örnəklərini təbii bir proses olaraq zərurətə çevirmişdir. Ərəbdilli Azərbaycan ədəbiyyatı, farsdilli Azərbaycan ədəbiyyatı

özlüyündə böyük, həm də zəngin fakturaya söykənən bir tarixi özündə sərgiləyir. Azərbaycanın Rusiya tərəfindən işğalı son olaraq bunun göstəricisi kimi ayrıca bir mərhələ təsəvvürü formalaşdırır. Bütün bunlar ədəbi-mədəni bağlantılar timsalında tərcümənin funksional səciyyəsini şərtləndirir.

XIX əsr Azərbaycanda tərcümə ənənəsi və onun zənginləşmə mənzərəsi timsalında mükəmməl bir təsəvvürlə diqqət önünə gəlir. Rusiyanın Azərbaycanı ilhaqı və azərbaycanlı gənclərin rus və Avropa mühitinə istiqamətlənməsi oradakı yeniləşmələrin Azərbaycana gətirilməsi üçün əsas oldu. Rus və Avropa ədəbiyyatının görkəmli şəxsiyyətlərinin əsərlərinin tərcüməsi bu baxımdan son dərəcədə əvəzsizliklə səciyyələnir. Homerin, Esxilin, Evripidin, Aristotelin, Sokratın, Sofoklun, Dantenin, V.Şeksprin, D.Defonun, C.Sviftin, D.Didronun, J.J.Russonun, İ.V.Hötenin, H.Heynenin, J.Sandın, A.Dumanın, O.Balzakın, A.S.Puşkinin, M.Y.Lermontovun, N.V.Qoqolun, A.P.Çexovun, L.Tolstoyun və başqalarının əsərlərinin tərcüməsi buna nümunədir. İngilis ədəbiyyatının əvəzsiz simalarından olan C.Q.Bayronun yaradıcılığının Azərbaycan dilinə tərcüməsi də bu sıradadır. Bunlar bütünlükdə tərcümə ənənəsində gedən proseslərin dinamik mənzərəsini sərgiləmək gücü ilə diqqət önünə gəlir.

Məlum olduğu kimi, tərcümə ədəbiyyatı hər bir xalqın həyatına, onun mədəni inkişafına qüvvətli təsir göstərən  möhtəşəm yaradıcılıq sahəsidir. Ədəbi-mədəni prosesin və ədəbi həyatın ümumi axarına istiqamət verən və onu həmişə axtarışa sövq edən düşüncə tipidir. Onun geneoloji sistemi, nəzəri-konseptual mənzərəsi xalqları və mədəniyyətləri öyrənməyə və dinamikaya köklənir. Mifoloji məkrtəb, iqtibas nəzəriyyəsi, tarixi məktəb, antropoloji məktəb və s. məktəb və nəzəriyyələr bir istiqamətdə işlərini məhz mədəniyyətləri, etnokulturoloji sistemi öyrənməyə köklənmişdir. Bütün bunlar isə tərcümə və dil imkanlarına bağlanmışdır. C.Q.Bayron yaradıcılığının Azərbaycan dilinə tərcüməsinin linqvistik xüsusiyyətləri səviyyəsində araşdırma da həmin tarixi-mədəni axarın bir hissəsi olaraq funksional səciyyəsi ilə diqqət önünə gəlir.

“Sevimli şair” kimi dünya ədəbiyyatında təsəvvür formalaşdıran ədibin yaradıcılığı orijinaldan və rus dilindən tərcümələr əsasında Azərbaycan ədəbi-mədəni

mühitinə çatdırılmışdır. Aparılan tərcümə işlərinin dil müstəvisində sistemli və tipoloji təhlili tərcümənin orijinalı hansı səviyyədə əks etdirmə imkanlarını bir bütöv olaraq əhatə edə bilməsi haqqında dolğun təsəvvür formalaşdırır. Klassik ingilis romantizminin görkəmli nümayəndəsi C.Q. Bayron yaradıcılığının mətn//mətn, mətn//mühit, mətn//subyekt səviyyəsində nələri özündə əhatə etməsi, poetik modelləşmənin səs simvolizmindən janr məzmununa qədər nələrlə faktlaşması mahiyyət məsələsi olaraq görünür.

C.Q.Bayronun əsərləri on doqquzuncu yüzilliyin ilk onilliklərindən başlayaraq dünya xalqlarının dilinə tərcmə edilir. Tərcümələr və haqqında yazılanlar "bayronizmi", "bayronvari qəhrəman" və s. təsəvvürləri etnik yaddaş kodu olaraq təqdimə köklənmişdir. Çünki C.Q.Bayron ruhunun, düşüncəsinin ifadə formulası dildir və onun istedadının sərgilədiyi mənzərə ecazkarlıq nümunəsi olaraq dillə reallaşmışdır.

Görkəmli sənətkarın yaradıcılığında özünü göstərən sözün məna yaddaşı, mətn fenomenliyi, janr məzmunu, bütün nitq etiketləri və s. orijinal və tərcümə müstəvisində tipoloji təhlilə gətirilmişdir. Ayrı-ayrı ədiblər timsalında və müxtəlif zaman kəsiklərində olan tərcümələrin linqvistik xüsusiyyətlərinin tədqiqi şeir dilinin məziyyətləri baxımından sistemli yanaşma faktına çevrilmişdir. Şairin poeziyasının formalaşdırdığı təsəvvür, ruhi-mənəvi aləmin bədii-estetik təqdimi və dərki, "dünya kədəri", "şəxsiyyətin azadlığı", "qüvvət və iradəyə qarşı hörmət" /M.H.Təhmasib/ kimi fikir və mülahizələr konkret tərcümə nümunələri əsasında açıqlanmışdır.

Orijinalın üslubu və tərcümə üslubu, onların sərgilədiyi mənzərə, oxşarlıq və fərqlilik səciyyəsi, fonopoetik, morfopoetik sistemin yaratdığı poetiklik, simmetriya, sintaktik fiqurların bədii mətnə gətirdiyi ovqat və s. sistemli yanaşmalarda mükəmməl bir təsəvvürlə təhlillərə zərurət yaradır. "Albom üçün", "Ayrılıq", "Afinalı qıza" "Tomas Mur", "Ad günündə", "Boşanma kağızının arxasında" və s. poetik örnəklərin sərgilədiyi nitq etiketləri, frazemlərin mətn mühitində ortaya qoyduğu məzmun, məcazlar sisteminin rəngarənglik çalarları tərcüməçi səriştəsində reallaşır. C.Q.Bayronun lirik şeirlərinin tonallığı həzinlik və emosionallıq səviyyəsində bədii-estetik funksiyanın tərcümə faktı olaraq hansı parametrlərdə çatdırılması bacarığına köklənir.

“Şərq poemaları” (“Gavur”, “Abidos gəlini”, “Korinfin mühasirəsi”, “Şilyon məhbusu”, “Mazera” poemaları), “Qabil” və s. C.Q.Bayron yaradıcılığının mahiyyətini, istedadının mündəricəsini müəyyənləşdirən və şərtləndirən əsərlərdir. Bu möhtəşəm abidələrin Azərbaycan dilinə tərcüməsi və onun poetexnoloji və məfkurə mükəmməlliyinin nələrlə səciyyələnməsi mühüm məsələ kimi diqqəti cəlb edir. Oradakı onomostik vahidlərin (antroponim, toponim, oykonim, hidronim, kosmonim, etnonim və s) ehtiva etdiyi məzmun, poetik fiqurların (epitet, metafora, sinekdoxa, simvol, bədii sual, təkrir, anafora, epifora, təşbeh və s.) mətn daxilində sərgilədiyi simmetriya, frazemlər (sabit və sərbəst birləşmələr), rəngarəng söz çalarları (sinonim, antonim, omonim və s), ümumişlək sözlər, şivə və ləhcələr və s. hamısı bədii mətnin bütövlüyünü və uğurluluğunu əks etdirən vasitə olaraq yaradıcı istedadının nələrlə səciyyələndiyini faktlaşdırır. Tərcümədə bunların bir bütöv olaraq nəzərə alınması, üslub və dil özəlliklərinin yüksək səviyyədə qorunması və poetik vahid kimi mətnə gətirilməsi yazıçı idealının ifadəsinə və tərcüməçi səriştəsinə bağlanır.

C.Q.Bayron yaradıcılığının ana axarlarından birini Şərq mədəniyyətinə, tarixinə, adət-ənənəsinə, mif və folklor örnəklərinə, məişətinə həssaslıq və sonsuz maraq təşkil edir. Əsərlərində bunun ifadəlilik məqamları, bədii nümunələrin poekulturoloji fakturasında nümayiş olunan təfəkkür intelleksiyası, söz ecazkarlığı və türk sözlərindən hadisə və əhvalatların ümumi axarına uyğun istifadə imkanları xüsusi əhəmiyyət daşıyır. Orijinal və tərcümə kontekstdə onların tipoloji təhlili, ümumiləşdirmələrin ortaya qoyduğu qənaət bir istiqamətdə ədibin istedadının geneoloji sistemini müəyyənəlşdirisə, digər tərəfdən Şərq mədəniyyəti ecazkarlığını diqqət önünə gətirir. Bütün bunlar tərcümələrdə bir mahiyyət məsələsi olaraq əsas götürülmüşdür.

İngilis ədəbiyyatının qüdrətli simalarından olan C.Q.Bayron yaradıcılığının Azərbaycan dilinə tərcüməsində gərəkli işlərə imza atmış R.Rza, A.Aslanov, M.H.Təhmasib, İ.Rəhimov, Ə.Rza, B.Vahabzadə, N.Gəncəli, Ə.Muradxanlı, Ə.Fərzəli, K.Nəzirov, Ş.Xəlilli, R.Yusifoğlu və başqaları bədii mətnin ruhunu və qayəsini, sənətkar dilini və üslubunu qoruyub çatdırmaq baxımından (kiçik dil qüsuarlarına baxmayaraq) nümunə olmuşlar. “Şilyon məhbusu” və “Mazepa”

poemalarının tərcüməçisi kimi tanınan şair-mütərcim Ənvər Rzanın orijinalın formasını saxlamaqla gözəl sənət nümunəsi yaratmışdır.

Ədibin əsərlərinin tərcüməsi orijinaldan və rus dilindən olmaqla həyata keçirilmişdir. Hər iki xətt (həm orijinaldan, həm də rus dilindən) tipoloji yanaşmalarda ciddi qənaətlərin əldə olunması üçün əsas olmuşdur. İntertekstuallıq və arxitekstuallıq baxımından aparılan təhlillər tərcümə prosesinin ümumi nəzəri aspektlərinə dayanmaqla fikrin çatdırılması üsullarını aydınlaşdırmağa şərait yaratmışdır. Tərcümənin norma və normativləri, kateqoriyaları (ekvivalentlik, adekvatlıq, variantlıq və s.) baxımından aparılan təhlillərdə fərdi üslubun funksional rolu aşkarlanmışdır.

Ayrı-ayrı tərcümə nümunələrində əsərin ruhunun, ideyasının saxlanma səviyyəsi, xalq dilinin zənginliklərindən gələn ifadə özünəməxsusluqlarının bir prinsip olaraq qorunuşu tipoloji kontekstdə izlənmiş və maraqlı qənaətəlrin ortaya çıxması üçün əsas olmuşdur. C.Q.Bayronun ayrı-ayrı əsərlərində işlətdiyi Şərq sözlərinin (“Almeh”-rəqqasə qız, “gül”, “tüfəng”, “ətri-gül”, “bismillah”, “yatağan”, “qalpaq”, “qızlar”, “dəli”-igid, “aman”, “vəlvələ”, “çuxadar”, “rəiyyət”, “qalionçu”-hərbi dənizçi, “çubuq”) mətndə yeri və məqamı, poetiklik yaratma imkanları, əsərə gətirdiyi orijinallıq üslub özünəməxsusluğu kimi mühüm önəm daşıyır.

“Şərq poemaları”nın, eləcə də digər əsərlərinin tərcüməsində dil baxımından fərdi üslub səviyyəsində ümumişlək sözlər, onomastik leksika (antroponimlər, toponimlər, hidronimlər, kosmonimlər, zoonimlər), peşə-sənət sözləri, ekzotik sözlər, varvarizmlər, poetik sözlər, sözlərin məna qrupları (omonim, sinonim, antonim), frazeoloji vahidlər və onların işləklik mənzərəsi aydınlaşdırılmışdır. Bütün söz qrupları, sintaktik fiqurlar məzmun yaratma funksiyası ilə mətndə əsərin fenomenliyini təmin etmək funksiyasını yerinə yetirmişdir.

C.Q.Bayronun əsərlərinin Azərbaycan dilinə tərcüməsində bədii üslubun tərcümə nümunələri timsalında sərgilədiyi mənzərə, fərdi üslubun yaradıcı istedadını əks etdirmə özünəməxsusluqları, dilin formalaşma və zənginləşmə prosesində özünü göstərən istiqamətlər, sözyaradıcılığı, alınma sözlər, onların tərcümədə (istər rus, istərsə də Azərbaycan dili) sərgilədiyi məzmun mükəmməl təsəvvür formalaşdırır.

Fərdi üslub və tərcümə səviyyəsində sistemli təhlillər üçün faktlaşa bilmə imkanları ilə səciyyəvilik qazanır.

Ədibin poetik irsinin Azərbaycan dilinə tərcümə prosesində özünü göstərən problemlər (tərcümə əsərlərində rast gəlinən nöqsanlar) obyektiv və subyektiv səbəblərə bağlanır. Subyektiv səbəblər tərcüməçi səriştəsinə və bədii mətni dərkinə, sənətkar ruhunu duyma imkanlarına bağlanır. Lüğətlərin, məlumat kitablarının, əsərə aid müxtəlif xarakterli informasiyaların rolu da bu prosesdə bir tərəf kimi özünü göstərmişdir. Mənbə dilinin spesifik xüsusiyyətləri tərcümədə müəyyən fərqli mənzərənin yaranması üçün əsas olur ki, bu da prosesdə obyektiv səbəblərə bağlanır.

C.Q.Bayronun poeziyasının Azərbaycan dilinə tərcüməsinin linqvistik xüsusiyyətlərinin sistemli təhlili bədii tərcümənin linqvistik problemlərinin öyrənilməsi, bu sahədə əldə edilmiş nəticələr, Azərbaycan dilçiliyində tərcümə ilə bağlı aparılmalı olan tədqiqat işlərində gələcək perspektiv istiqamətlərin müəyyənləşdirilməsi haqqında dolğun təsəvvür formalaşdırır və daha geniş tədqiqatların aparılmasını zəruriləşdirir. Bütün bunlar ingilis ədəbiyyatının görkəmli simalarından olan C.Q.Bayron yaradıcılığının timsalında Azərbaycan dilinə tərcüməsinin dil və üslub səviyyəsində möhtəşəmliyi və uğurluluq səciyyəsini diqqət önünə gətirməklə prosesin dönməzliyini aydınlaşdırır.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

***(Azərbaycan dilində)***

1. Adilov, M.İ, Verdiyeva Z.N, Ağayeva F.M. İzahlı dilçilik terminləri / M.İ.Adilov. - Bakı: Maarif, -1989. - 364 s.

2. Adilov, M.İ. Sənətkar və söz / M.İ.Adilov. - Bakı: Yazıçı, - 1984. -183 s.

3. Adilov, M.İ. Klassik ədəbiyyatımızda dil və üslub / M.İ.Adilov. -Bakı: Maarif, - 1991. - 234 s.

4. Ağayev, Z.A. Tənha qəhrəmanların harayı // "Kommunist" qəz. 1988, 23 yanvar.

5. Ağayev, Z.A. Ön söz. C.Q.Bayron. Seçilmiş əsərləri / Z.Ağayev. - Bakı: Şərq-Qərb, -2006. - s. 4-8 .

6. Ağayeva, İ.S. Bədii və elmi üslub / - Bakı: Maarif, - 1988. - 168 s.

7. Ağayeva, R. Frazeologizmlərin formalaşmasında ekstra-linqvistik amillərin rolu: / filologiya üzrə fəlsəfə doktorualmaq üçün təqdim edilmiş dissertasiya / -Bakı: ADU, - 2016. -158 s.

8. Alməmmədova, S. Bəxtiyar Vahabzadə poeziyasının dili / S. Alməmmədova. - Bakı: Elm, -2010. - 163 s.

9. Anar. Dünya ədəbiyyatından sərbəst tərcümələr// "Ədəbiyyat" qəz. 2006, 10 fevral

10. Arif, M. (Dadaşzadə). Seçilmiş əsərləri. I cild / M.Arif. - Bakı: Azərnəşr, - 1967.-607 s.

11. Azərbaycan bədii dilçilik üslubiyyatı. Oçerklər / -Bakı: Elm, -1970. -365 s.

12. Azərbaycan dilinin izahlı lüğəti. I c. / -Bakı: Elm, -1966. - 596 s.

13. Azərbaycan dilinin izahlı lüğəti. II c. / -Bakı: Elm, -1980. - 677 s.

14. Azərbaycan dilinin izahlı lüğəti. III c. /-Bakı: Elm, -1983. - 554 s.

15. Azərbaycan dilinin izahlı lüğəti. IV c. /- Bakı: Elm, -1987.- 587 s.

16. Azərbaycan dilinin orfoqrafiya lüğəti. II c. / -Bakı: Elm, -1987.- 587 s.

17. "Azərbaycan müəllimi" qəzeti, 1978, 18 avqust.

18. Azərbaycan klassik ədəbiyyatında işlədilən adların və terminlərin şərhi / - Bakı: Maarif, -1993.- 291 s.

19. Azərbaycan mifoloji mətnləri // - Bakı: Elm, -1988.- 194 s.

20. Bağırov, A. Böyük humanist. C.Q. Bayronun 175 illiyi // "Ədəbiyyat və incəsənət" qəzeti. 1963, 26 yanvar

21. Bayram, A. Qərb ədəbiyyatı Azərbaycan filoloji fikrində / A.Bayram. -Bakı: Nurlan, - 2006. - 172 s.

22. Bayron, C.Q. Şərq poemaları / C.Q.Bayron. - Bakı: Uşaqgəncnəşr, - 1959. - 196 s.

23. Bayron, C.Q. Seçilmiş əsərləri / C.Q.Bayron. - Bakı: Şərq-Qərb, -2006. - 224 s.

24. Bayron, C.Q. Kəllədən düzəldilmiş qədəh üzərində yazı // "Ədəbiyyat və incəsənət" qəzeti, 1956, 28 oktyabr.

25. Bayron, C.Q. Ayrılanda biz // "Azərbaycan müəllimi", 1978, 18 avqust.

26. Bayron, C.Q. "Ədəbiyyat və incəsənət" qəzeti, 1963, 26 yanvar.

27. Bayron, C.Q. Şilyon məhbusu // "Azərbaycan" jur., 1970, № 7, 3-18

28. Bayron, C.Q. Şilyon məhbusu // "İnqilab və mədəniyyət" jur. 1934, № 5, 6, 7.

29. Bayron, C.Q. Mənim qəlbim kədərlidir // "Ədəbiyyat və incəsənət" qəzeti, 1957, 21 dekabr.

30. Bayron, C.Q. Ağlayan lediyə həsr olunmuş misralar // "Ədəbiyyat və incəsənət" qəzeti, 1957, 21 dekabr

31. Belinski, V.Q. Seçilmiş məqalələr / V.Q.Belinski. - Bakı: Gənclik, -1979. - 228 s.

32. Bəylərova, A. Bədii dildə üslubi fiqurlar / A.Bəylərova. - Bakı: Nurlan, -2008. -185 s.

33. Cabbarov, X. Bədii ədəbiyyatda obrazlılıq / X. Cabbarov. - Bakı: Yazıçı, - 1986. - 212 s.

34. Cəfərov, E. İngiltərədə romantik teatr və Corc Bayron // "Kaspi" qəz. 2016, 8 dekabr.

35. Cəfər, Ə.Ş. Əruzun nəzəri əsasları və Azərbaycan əruzu / Ə.Cəfər. - Bakı: Elm, -1977.- 216 s.

36. Cəfər, M. Sənət yollarında / M.Cəfər. - Bakı: Gənclik, -1975. - 368 s..

37. Dünya tərcümə toplusu // - Bakı: Yazıçı, -1983.- 498 s.

38. Ədəbiyyatşünaslıq terminləri lüğəti // -Bakı: Maarif, -1978. - 200 s.

39. Ədəbiyyat və incəsənət 1963, 26 yanvar

40. "Ədəbiyyat və incəsənət" qəzeti. 1982, 30 iyul.

41. Ələkbərova, A.A. Poetik tərcümənin dil və üslub problemi (A.S.Puşkinin "Yevgeni Onegin" mənzum romanın Azərbaycan dilinə tərcüməsi əsasında): / filologiya üzrə fəlsəfə doktorualmaq üçün təqdim edilmiş dissertasiya / -Bakı: 1996. - 158 s.

42. Ələkbərova, A.A. Poetik tərcümənin dil və üslub problemləri (A.S.Puşkinin "Yevgeni Onegin" mənzum romanının Azərbaycan dilinə tərcüməsi əsasında) / A.A.Ələkbərova. - Bakı: Nurlan, - 2006. - 132 s.

43. Əliyev, K.Y. Üslubiyyat və üslublar sistemi / K.Y. Əliyev. - Bakı: ADU, - 1985. - 186 s.

44. Əsədova, A. Avropa ədəbiyyatşunaslığı və Azərbaycan ədəbi-nəzəri fikri / A.Əsədov. – Bakı, Mütərcim, - 2006. - 272 s.

45. Əsgərli, F.F. Bədii tərcümə prinsipləri / F.Əsgərli. - Bakı: ADPU, -2009. - 226 s.

46. Fərzəli, Ə. Qəhrəmanın ölümünə // "Ədəbiyyat və incəsənət" qəzeti, 1982, 30 iyul.

47. Fərzəli, Ə. Hamı yenidən doğulmalıdır / Ə.Fərzəli. - Bakı: Ozan, - 1997.- 208 s.

48. Füzuli, M. Heyrət, ey büt / M.Füzuli. - Bakı: Gənclik, -1989. - 224 s.

49. Hacılı, A.A. Bayatı poetikası / A.A.Hacılı. - Bakı: Elm, -2000. - 162 s.

50. Hacıyev, T.İ. Şeirimiz, nəsrimiz, ədəbi dilimiz / İ.T.Hacıyev. - Bakı: Yazıçı, -1990. - 360 s.

51. Hacıyev, T.İ, Cəfərov N.Q. Azərbaycan dili / İ.T.Hacıyev. - Bakı: Təhsil, - 1998. - 152 s.

52. Hacıyev, V. C.Bayron Azərbaycanda: C.Bayron – 200 // "Ədəbiyyat və incəsənət" qəz. 1988, 22 yanvar

53. Həşimli, H.M. Əziz Şərifin tərcüməçilik fəaliyyəti // "Şərq qapısı" qəzeti, 2015, 14 aprel

54. Hüseynov, M.A. Şeirşünaslığın dil sənətkarlığı / M.A.Hüseynov. - Bakı: Elm, -2007. - 240 s.

55. Hüseynov, M.A. Dil və poeziya / M.A.Hüseynov. - Bakı: Elm, -2008. - 434 s.

56. Hüseynov, M.A. Poeziya dilinin milli qaynaqları / M.A.Hüseynov. - Bakı: Elm və təhsil, - 2009. - 292 s.

57. Hüseynov, M.A. Səsin poeziyası // M.A.Hüseynov. - Bakı: Elm və təhsil, - 2010, - 318 s.

58. Hüseynov, M.A. Sözün poetikası / M.A.Hüseynov. - Bakı: Elm və təhsil, - 2010. - 368 s.

59. Hüseynova, M. XX əsr Azərbaycan nəsrində leksik-psixoloji üslub və sənətkar fəaliyyəti. / M.Hüseynova. - Bakı: Elm, - 2009. - 196 s.

60. Xəlilli, Ş.H. Ədəbi əlaqələrin işığında / Ş.Xəlilli. - Bakı: Qartal, -2002. - 166 s.

61. Xəlilov, B.Ə. Müasir Azərbaycan dilinin leksikologiyası / B.Ə.Xəlilov. - Bakı: Nurlan, -2008. - 441 s.

62. Xəlilov, B.Ə. Türkologiyaya giriş / B.Ə.Xəlilov. - Bakı: Nurlan, -2006. - 384 s.

63. Xəlilov, Ş.H. Keçmişin, gələcəyin duyğusu: C.Bayron – 200 // "Azərbaycan gəncləri" qəz. 1988, yanvar 21

64. Xəndan, C. Seçilmiş əsərləri / C.Xəndan. - Bakı: Azərnəşr, -1972.-260 s.

65. Xudiyev, N.M. Tərcümə ədəbiyyatı və ədəbi dilimiz / N.M.Xudiyev. - Bakı: Bilik cəmiyyəti, -1991. - 112 s.

66. İngilis ədəbiyyatı antologiyası . (Tərtib edib f.e.d.prof.Z.Ağayev) / - Bakı: Nurlan, -2007. - 456 s.

67. "İnqilab və mədəniyyət" jur. 1934, № 5, səh.5-18

68. İsmayılov, Ə. Dünya romantizm ənənələri və H. Cavid / Ə.İsmayılov. - Bakı: Yazıçı, -1983. - 224 s.

69. Quliyeva, M.H. Klassik Şərq poetikası / M.Quliyeva. Bakı: Yazıçı, -1991. - 128 s.

70. Qurbanov, A.M. Ümumi dilçilik. I cild, / A.Qurbanov. - Bakı: Maarif, -1989. - 156 s.

71. Qurbanov, A.M. Bədii mətnin linqvistik təhlili / A.Qurbanov. - Bakı: Maarif, 1986. - 148 s.

72. Məlikov, S. Tərcümə əsasları haqqında // "Ədəbiyyat" qəzeti, 2006, №7, 29 iyun.

73. Məlikov, S. Tərcümə əsasları haqqında. Tərcümə sənəti. Məqalələr məcmuəsi // -Bakı: Elm, -1990. - 344 s.

74. Məmməd A. Seçilmiş əsərləri. I cild / A.Məmməd. - Bakı: Azərnəşr, -1967. - 607 s.

75. Məmmədli, F. Bədii dilçilik estetik mənbələri / F.Məmmədli. - Bakı: ADPU, 1997. - 146 s.

76. Məmmədova, A. Romantizmin fəlsəfəsi / A.Məmmədova. -Bakı: Elm, -2011. - 168 s.

77. Mikayılova, Ə.N. Onomastik vahidlərin üslubi imkanları / Ə.N.Mikayılova. - Bakı: Memar MMC, - 2008. - 302 s.

78. Muradxanlı, Ə. Ağlayan qıza // "Ədəbiyyat və incəsənət" qəzeti". 1982, 30 iyul.

79. Musayev, O.İ. Azərbaycanca-İngiliscə lüğət / O.Musayev. - Bakı: Qismət. – 2003. - 169 s.

80. Musayev, O.İ. Azərbaycanca-İngiliscə lüğət / O.Musayev. - Bakı: Azərnəşr, - 1994. - 628 s.

81. Nağısoylu, M.Z. Orta əsrlərdə Azərbaycanda tərcümə sənəti / M.Nağısoylu. - Bakı: Elm, -2000. - 262 s.

82. Nəbiyev, B.Ə. Roman və müasir qəhrəman / B.Nəbiyev. - Bakı: Elm, -1987. - 423 s.

83. Rzayev, Ə.Z. Tərcümə və orjinal // M.F. Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutunun elmi məqalələri, 1972, XII, № 1, s.16-21

84. Rəhimov, İ, Nağıyev V. İkitərəfli tərcümə / İ.Rəhimov. - Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, -1972. - 186 s.

85. Rzaquluzadə, M.M. Bayron və müasirlik . C.Q. Bayronun 180 illiyi // "Ədəbiyyat və incəsənət" qəzeti, 1968, 27 yanvar.

86. Rəhimova, Ü.H. Romantik üslub və tərcümə problemi (H.Cavidin rus dilinə tərcümə olunmuş əsərləri əsasında) / filologiya üzrə fəlsəfə doktoru almaq üçün təqdim edilmiş dissertasiya / -Bakı: 2005. -156 s.

87. Salmanov, Ş. Azərbaycan sovet şeirində ənənə və novatorluq / Ş.Salmanov. - Bakı: Elm, -1980. - 186 s.

88. Sveyq, S. Bayronun sirri: ingilis romantik şairi // Ədəbiyyat qəzeti, 2014, 19 dekabr

89. Tanrıverdi, Ə.V. Poeziyanın dili, dilin poeziyası / Ə.Tanrıverdi. - Bakı: Nurlan, -2008. -203 s.

90. Tanrıverdi, Ə.V. Dilimiz, düşüncəmiz / Ə.Tanrıverdi. - Bakı: Elm və təhsil, - 2017. - 360 s.

91. Tərcümə sənəti. Məqalələr məcmuəsi / -Bakı: Elm, - 1990. - 344 s.

92. Vahabzadə, B.M. Hər çiçəkdən bir ləçək / B.Vahabzadə. - Bakı: Yazıçı, - 1982. - 248 s.

93.Vəkilov, R. Realist ənənələr // "Ədəbiyyat" qəzeti, 1964, 18 aprel.

94. Vurğun, S.Y. Seçilmiş əsərləri. İki cilddə, I c. S.Vurğun. - Bakı: Azərnəşr, - 1976. - 288 s.

95. Yusifoğlu R. (Əliyev). Təzə sevdalara doğru / R.Yusifoğlu. - Bakı: Şuşa, - 2000. - 316 s.

***(Türk dilində)***

96. Adıvar Halide Edip. İngiliz edebiyyatı tarihi / H.E.Adıvar. - İstanbul: Ahmet Saif Matbuası, -1946. - 456 s.

***(Rus dilində)***

97. Алексеев, М.П. Из истории Английской литературы / М.П. Алексеев. - Москва, Наука, - 1960. - 497 с.

98. Байрон, Д.Г. Сочинения. В трех томах. том I, / Д.Г. Байрон. – Москва: Художественная литература, -1974. - 464 с.

99. Байрон, Д.Г. Избранное / Д.Г. Байрон. - Москва: Правда, -1985. - 430 с.

100. Байрон, Д.Г. Всемирная библиотека поэзии / Д. Г. Байрон. - Растов –на-Дону: Феникс, - 1998. - 541 с.

101. Байрон, Д.Г. Избранная лирика / Д. Г. Байрон. - Москва: Радуга 1988. - 508 с.

102. Байрон, Д.Г. Избранные произведения, том I, II. / Д. Г. Байрон. – Москва: Художественная литература, - 1987. - 765 с.

103. Байрон, Д.Г. Избранные произведения / Д. Г. Байрон. - Москва, Художественная литература, -1953. - 486 с.

104. Байрон, Д.Г. Драмы / Д. Г. Байрон. - Москва-П. изд. Всемирная литература, -1922. - 238 с.

105. Брондес, Г. Собрание Сочинений, том V / Киев, -1902. - 507 s.

106. Брондес, Г. Английская литература XIX в. СПб. / - 1898. - 324 s.

107. Будагов, Р.А. Писатели о языке и язык писателей / Р.А. Будагов. - Москва: МГУ, - 1984. - 280 s.

108. Веселовский, А. Байрон Биографический очерк. издание 2-е / А. Веселовский. - Москва: Высшая школа, -1914. - 178 s.

109. Виноградов, В.В. О теории поэтической речи / В.В.Виноградов. - Москва: Высшая школа, -1971. - 240 s.

110. Виноградов, В.С. Лексические вопросы перевода художественной прозы / В.С. Виноградов. - Москва, МГУ, 1987. - 174 с.

111. Вишневский, К.Д. Мир глазами поэта / К.Д. Вишневский. - Москва: Просвещкние, - 1979. - 176 s.

112. Гачечиладзе, Г. Художественный перевод и литературные взаимосвязи / Г. Гачечиладзе. - Москва, Советский писатель, - 1972. - 248 s.

113. Гинзбург, Л. Перевод -средство взаимного сближение народов / Л. Гинзбург. - Москва: Прогресс, -1987. - 638 с.

114. Дектяров, Т.А. Культура письменной речи. Стилистила // Т.А. Дектяров. - Москва: Мысль, - 1968, с. 31-32.

115. Джанджакова, Е.В. О сочетаемой речи. В кн. «Вопросы яазыка в современной русской литературы» // Москва: Наука, -1971. - с. 401-415.

116. Елистратова, А.А. Наследие Английского романтизма и современность / А.А. Елистратова. – Москва: Наука, -1960. - 504 с.

117. Жирмунский, В.М. Теория стиха / В.М. Жирмунский. - Ленинград: Советский писатель, - 1975. - 664 с.

118. Комисаров, В.Н. Лингвистика переводаь / В.Н. Комисаров. – Москва, Международные отношения, - 1980. - 216 с.

119. Комисаров, В.Н. Теория перевода / В.Н. Комисаров. – Москва, Высшая школа, - 1990. - 253 с.

120. Кожинов, В.В. Основы теории литературы / В.В. Кожинов. - Москва: Просвешение, -1962. - 248 с.

121. Котлева, Н.З. Значение слова и его сочетаемости / Н.З. Котлева. - Ленинград: Наука, -1975. - 264 с.

122. Ларин, Б.А. Теория и критика перевода. «Наши задачи». В сб. / Б.А. Ларин. - Ленинград, -1962, с.3-18.

123. Ларин, Б.А. История русского языка и общее языкознание / Б.А. Ларин. - Москва: Просвещение, -1977. - 286 с.

124. Леонтьев, А.А. Слово в речевой деятельности / А.А. Леонтьев. - Москва: Наука, - 1965. - 412 с.

125. Мамедов, Н. Поэтический перевод в контексте русско-азербайджанских литературных связий / Н. Мамедов. - Баку: Елм, - 2001. - 246 с.

126. Мамедов, Н. Поетический перевод в контексте русско-азербайджанских литературных связий // Н. Мамедов. - Баку: Елм, - 2001. - 264 с.

127. “Мастерство перевода” 1962, 532 с.

128. Микушевич В. К вопросу о романтическом переводе. В книге: Актуальные проблемы теории художественного перевода, том I, Москва: МГУ, -1967. с. 34-41

129. Микушевич, В. Поэтический мотив и контекст. В сб. Вопросы теории художественного перевода. Москва: МГУ, - 1971. с. 18-27

130. Новиков, Л.А. Антонимия в русском языке / Л.А. Новиков. - Москва: Изд-во МГУ, -1973. - 292 с.

131. Пас, О. Перевод / О. Пас. – Москва: Наука, - 1987. - 165 с.

132. Соболев, Л. Перевод залог дружбы литератур / Л. Соболев. - Москва, - 1965. - 468 с.

133. Тимофеев, Л.М. Слово в стихе / Л.М. Тимофеев. - Москва: Советский писатель, -1987. - 424 с.

134. Томашевский, Б.В. Стих и яазык / Б.В. Томашевский. - Москва – Ленинград: Художественная литература, - 1959. - 472 с.

135. Хамрайев, М.К. Очерки теории тюркского стиха / М.К. Хамрайев. - Алма-Ата, 1969, 355 с.

136. Храпченко, М.Б. Художественное творчество, действительность, человек / М.Б. Храпченко. - Москва: Советслий писатель, - 1978.- 368 с.

137. Шмелев, Д.Н. Слово и образ / Д.Н. Шмелев. - Москва: Наука, -1964. - 120 с.

138. Щвейцер, А.Д. Перевод и лингвистика / А.Д. Щвейцер. - Москва Воениздат, -1973. - 280 с.

139. Щвейцер, А.Д. Введение в социолингвистику / А.Д. Щвейцер. -Москва: Высщая школа, -1978. -114 с.

***(İngilis dilində)***

140. Byron. The Poetical works of lord Byron / London, Oxford University Press, -1912. - 924 p.

141. Briscoe, W.A. Byron, The Poet. (A collection of addresses and essays) Haschel haome publishes LTD., New York, - 1967. - 287 p.

142. Chew, S.C. Byron in England. His fame and After-Fame / S.C. Chew. - New York, -1924. - 736 p.

143. Edwin Morgan. Byron, Poet or Hero? // “The Glasgow Herald”, 1958, may 10.

144. Frederic Raphael. “Byron” / Thames and Hudson. London G.B. -1982. - 462 p.

145. G. Clinton Memoirs of the life and writings of Lord Byron. London, - 1924. - 568 p.

146. Jakobson, R. Language and Culture // Jakobson R., Selected Writtings, vol.,VII, Studies in Linguistics and Philology, - 1972, 746 p.

147. John Waine. Byron: The Search for İdentity // “The London Magazine”, July 1958, p. 45.

148. Leslie, A. Marchand. Byron. A biography, vol 1-3. New York, Knoff, -1957. - 348 p.

149. Leslie, A. Marchand. Byron’s Poetry. (a critical instroduction). Rutgers-The State University Boston, -1965. - 478 p.

150. Leech, N.G. A linguistic Guide to English Poetry, Longmans, -1968. - 237 p.

151. Leonard, W.E. Byron and Byronism in America. Boston, -1905. - 248 p.

152. Nida, E. Taber Ch., The Theory and Practice of Translation. Leyden -1969. - 430 p.

153. Oxford Advanced Learness Dictionary, Oxford University Press, -2003. - 1539 p.

154. Prothero, R.E.Childhood and schooldays of Byron. “Nineteenth Century”, 1898, № 1.

155. Patton, J. The English village. A literary study 1750-1850. New York, - 1919. - 766 p.

156. Snyder, F.B. The Celtic Revial in English literature 1760-1800. Cambridge, Mass.Harvard University Press, - 1923. - 634 p.

157. The Oxford English Dictionary,Oxford, Clarendon Press, - 1961. - v.1-12.

158. The Oxford Russian Dictionary, Москва, Прогресс-Академия, -1995. - 1340 с.

159. Wise, Th.J.A bibliography of the writings in verse and Prose of G.G.N.Byron, vol I-II, London, - 1993. - 246 p.

***(İnternet)***

160. Byron, G.G., Giaour. http: // www. underthesun.cc/ Classics/ (bitişik yazılm)

161. Byron, G.G., The Bride of Abydos. http: // www. under the sun.cc/ Classics/

162. Byron, G.G., The Siege of Corinth. http: // www. under the sun.cc/ Classics/

163. http: // www. poetry lovers page.com/poets/byron/if/html.